**Minaxanım Nuriyeva Təkəli**

# SƏNƏT KƏŞFLƏRİ. YARADICILIQ SƏADƏTİ

**"Elm və təhsil"**
**Bakı - 2019**

**Redaktoru:** prof.dr. Nadir Məmmədli
Fariz Çobanoğlu

**Minaxanım Nuriyeva Təkəli.**
**Sənət kəşfləri. Yaradıcılıq səadəti. Bakı: "Elm və təhsil", 2019, 192 səh.**

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan söz ustadı Hüseynbala Mirələmovun həyat və yaradıcılığına həsr olunmuş kitaba yazıçının həm müasir, həm də tarixi mövzularda qələmə alınmış roman, povest, dram və hekayələri haqqında müəllifin müxtəlif illərdə yazılmış məqalələri salınmışdır. Əsərdə yazıçının çeşidli yaradıcılıq nümunələrinə polemik yöndən nəzər salınır; sənətkarlıq uğurları incələnir. Kitaba araşdırma məqsədimizcə və nəticələrinə görə "Sənət kəşfləri. Yaradıcılıq səadəti" adı verdik.

**ISBN 978-9952-8175-0-7**

© Minaxanım Nuriyeva Təkəli, 2019

# Giriş

*... XX əsr artıq başa çatmış, 21 əsrin ilk rübünü yaşamaqdayıq; əldə olunan təcrübələr kiyayət qədərdir. Gördüyümüz kimi bu dövr tarixi, siyasi-ictimai, ədəbi-kulturoloji keyfiyyətləri ilə çox zəngin və mürəkkəb bir dövrdür. Layiqli hal odur ki,o, öz qiymətini getdikcə daha obyektiv,daha ədalətli şəkildə almağa başlamışdır. Bu dəyərləndirməni şərtləndirən həm də bu zaman kəsiyinin ətrini, zövqünü, amalını, zəhmətini, nəhayət bununla canlı mənzərəsini əks edən kitablardır.*

Əgər son dövrün ədəbi-bədii uğurlarını nəzərdə tutsaq, indi asanlıqla deyə bilərik ki, bu zaman ərzində Azərbaycan ədəbiyyatı ictimai hadisələr kontekstində coşqun inkişaf yolu keçmiş, cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri işıqlandırmağa çalışılmışdır. Belə ki, ədəbiyyat sosial məzmununa, bədii funksionallığına görə koordinal dəyişmələrə məruz qalmaqla, onun həyatla, cəmiyyətlə əlaqəsi daha intensiv xarakter almış, yeni yaradıcılıq konsepsiyaları, metodoloji yanaşmalar, yeni forma və janrlar üzə çıxarılmışdır. Bunlar göz önündədir. Lakin bunlarla yanaşı, yəni ədəbi mühitin inkişafını şərtləndirən amillərlə bərabər, ədəbi proses üçün qeyri-məqbul hesab olunan basqılar, siyasi irticalar, senzura və müxtəlif "izm"lərin təşəkkülü də məhz həmin dövrün – şahidi olduğumuz və ya bizdən əvvəlki nəslin payına düşmüş həqiqətdir.

"Azərbaycan sovet ədəbiyyatı" adı ilə uzun illər tədris olunmuş ədəbiyyatımızın 20-ci ildən sonrakı mərhələsi ölkəmiz milli müstəqilliyini bərpa etdikdən sonra "Müasir Azərbaycan

ədəbiyyatı" adı altında öyrədilməyə başladı. Şübhəsiz bu, təkcə fənnin mexaniki əvəzlənməsi deyildi. Bu hər şeydən əvvəl, dövrün əsas mərhələlərinin, ədəbi mühitin və ayrı-ayrı sənətkarların yaradıcılığına vulqar-sosioloji təhlil nöqteyi-nəzərindən yox, milli düşüncə tərzimizə və bəşəri ideallara söykənən tənqidi yanaşma və seçmə tələbi baxımından əhəmiyyətlidir.(Salamoğlu T.)

Yaşanıb keçilən böyük bir zaman kəsiyi olan möhtəşəm, dayanıqlı bir epoxanın dəyərləndirilməsində əlbəttə, ayrı-ayrı şəxsiyyətlərin, ədəbiyyat fədailərinin fəaliyyətlərini araşdırmaq; ədəbi taleyinin və ədəbi dünyagörüşünün də açığa çıxarılması da bu zaman mühüm əhəmiyyətə malikdir. Bu məqsədlə də ədəbi-ictimai mühitə çoxdan tanış olan, çağdaş Azərbaycan yazıçıları sırasında aktual mövzuları, maraqlı, yaddaqalan əsərləri ilə seçilən, dövrün ictimai qayğılarını, həlli vacib məsələlərini bədii ədəbiyyata özünün vicdan borcu kimi gətirən, xüsusilə Qarabağ mövzusunda qələmə aldığı sənət nümunələri ilə nəzər-diqqəti cəlb edən Hüseynbala Mirələmovun yaradıcılığına bir daha müraciət etməli olduq.

İlk olaraq o, böyük yaradıclıq yolu keçmiş və zəngin həyat təcrübəsinə malik bir sənət adamı, yazıçı, tanınmış ictimai xadimdir deyib, lakin bunu deməklə də kifayətlənməyəcəyik. Təkcə Azərbaycanın hüdudları daxilində yox, dünyanın bir çox ölkələrində də Hüseynbala Mirələmov həm sözünü deyən bir yazıçı, sənətkar, alim, həm də iş-güc adamı, millət vəkili, dövlətimizi layiqincə təmsil edən rəsmi şəxsiyyətlərdən biri kimi tanınır. Bu qədər məsul və göz qabağında olan mövqelərdə çalışan bu müdrik, təvazökar insan doğma Azərbaycan mədəniyyətinin hər birimiz kimi yalnız aludəçisi deyil, həm də böyük təbliğatçısı və təəssübkeşidir.

Hüseynbala Mirələmovdan ötrü ədəbiyyat ictimai amal uğrunda mübarizə vasitəsi idi. O, ədəbiyyatımızın yeni inkişaf mərhələsində öz sözü olan, yaradıcılıq fəallığı və məhsuldarlığı ilə seçilən, maraqlı əsərləri ilə Qarabağın azadlığı uğrunda mü-

barizə mövzusunda nəsrimizi sözün həqiqi mənasında yoxsulluqdan çıxaran istedadlı yazıçılarımızdan biridir (akad. Bəkir Nəbiyev).

Hörmətli akademikimizin bu dəyərli sözünü biz də bu qaydada yekunlaşdıra bilərik: həqiqətən bir çox qələm sahibləri, hətta bizlər üçün "kumir" sayıla biləcək bir çox sənətkarlarımız gözləmə yolunu tutmudusa da və yaxud, ifadə etdikləri kimi "yaradıcılıq böhranı" keçirməkdə idilərsə, Mirələmov bu mövzuya – dərdli Qarabağ mövzusuna ilk dəyər verənlərdən – qələm çalanlardan oldu.

Bu gün tam əminliklə demək mümkündür ki, Hüseynbala Mirələmov Azərbaycan yazıçıları sırasında müxtəlif janrlarda yazan, həm də yaxşı yazan, özünün çoxlu sayda oxucusu olan sənətkarlardan biridir. Qeyd etdiyimiz kimi, ədibin artıq hazırda böyük yaradıcılıq irsi vardır və bu yaradıcılıq onda nə qədər erkən yaşlarından başlasa da, hazırda da həmin coşğuyla bədii təfəkkürümüzü sözün əbədi enerjisi, geniş ədəbi-bədii dünyagörüşünün bəxş etdiyi uğurlu nəticələri ilə işıqlandırır. Onun əsərlərinin sayı və sambalı bunu deməyə imkan verir.

Yazıçı həmin gənclik coşqusunu illərin qazandırdığı müdrikliklə birləşdirərək bu gün də günün nəbzi ilə bir vuran, bir döyünən sənət əsərləri yaratmaqla öz sevimili işini uğurla davam etdirir. Oxucu indiyədək onun çoxlu kitablarını: çeşidli bədii əsərlərini oxumuş, ölkə teatr səhnələrindən düşməyən dram əsərlərilə tanış olmuşdu.

Əgər müəllifin bütövlükdə ədəbi-bədii yaradıcılığını ümumiləşdirsək, görəcəyik ki, zaman keçdikcə, vaxt irəlilədikcə onun yaradıcılıq üfüqləri də genişlənmiş, hüdudları böyümüşdür. Bununla demək mümkündür ki, Mirələmov əsərdən əsərə, kitabdan kitaba inkişaf edən, bədii yaradıcılıq axtarışlarının novatorluğu ilə sayılan və seçilən yazıçıdır (N.Şəmsizadə). Hüseynbala müəllim bədii ədəbiyyatın bir neçə janrı ilə məhdudlaşan sənətkarlardan deyildi; əksinə o,

qələmini bir çox janrlarda sınayan və uğurlu əsərlər yarada bilən xoşbəxt sənətkarlardandır.

Bu üzdən də "Tənha durna uçuşu" (povest), "Qayada çiçək" (povest), "Xəcalət" (pyes), "Simuzər" (povest), "Daha bir ümid sabahı", "Hər söz bir inci", "Gəlinlik paltarı" (roman), "Qırxıncı otaq" (roman), "Vicdanın hökmü" (pyes), "Yaddan çıxmaz Qarabağ...", "Bir günəş var", "Gəncə qapıları" (pyes), "Amalın işığında", "Güllələnmiş heykəllərin fəryadı" (ədəbi-bədii esse), "Qumru yumurtaları" (povest), "Cəza" (povest), "Həyat eşqi", "Bir gecənin sehri", "Gecə bənövşələri" (roman), "Yanan qar" (digər adı: "Dağlardan atılan güllə" (roman), "Sonuncu fateh", qədim, qəbilə quruluşu çağlarını əks edən "Od və büt", eləcə də Xürrəmilər dövrünü əhatələyən, tariximizin böyük bir mərhələsindən bəhs edən "Babagil əfsanəsi" kimi milli-mənəvi münasibətlərimizi canlandırmağa kömək edəcək, tarixi yaddaşımızı silkələyəcək gücə malik, uğurlu bədii salnamələr" tək qiymətləndirə biləcəyimiz tarixi romanları, povest, hekayə və esseləri, xatiratları ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır. Bu, həqiqətən əhatəli, bəhrəsi daim bol olan bir yaradıcılıqdır.

Oxucu Hüseynbala Mirələmovu həm də məhsuldar bir dramaturq kimi də tanıyır. Artıq ədəbiyyatımızda möhkəm və əhəmiyyətli yeri olan yazıçı-dramaturqun milli yaddaşımızı əks etdirən "Vicdanın hökmü", "Xəcalət", "Yaddaş ağrısı", "Ləyaqət", Axirətdən gələn səs", "Cavad xanın son döyüşü", "Pənahəli xan Cavanşir", "Gəncə qapıları", "Vəsiyyət" pyesləri müxtəlif teatrlarda səhnəyə qoyulmuş, onların əsasında xalqımızın keçdiyi tarixi yolu göstərən televiziya filmləri çəkilmişdir. "Tənha durna uçuşu", "Durnalar qayıtdı", böyük korifeylərimizin ölməz ruhuna ithaf etdiyi "Güllələnmiş heykəllərin fəryadı", "Cəza quyusu", "Son arzu", "Simuzər", "Toy", "Yeni həyat" milli televiziya fondumuzu zənginləşdirən filmlərdəndir.

Dedik ki, H.Mirələmovun fəaiiyyət sahəsi və yaradıcılıq laboratoriyası çox zəngindir; yazıçının bədii-intellektual

təfəkkürünün miqyası hədsiz genişdir: ədibin Rus ədəbiyyatından seçmə tərcümələri, məsələn, Varlam Şalamovdan “Su baldırğanı”, “Giləmeyvə”, “Apostol Pavel”, “İudeya prokuroru”, “Sehrkar”, “Sentensiya”, Yuri Pallekovdan, eləcə də özbək yazarı Teymur Zülfüqarovdan dilimizə çevirdiyi “Kəklikli qəfəs” əsərləri göstərir ki, yazıçı bu sahədə də – uğurla etdiyi tərcümə əsərlərində də öz dəsti xəttinə, üslub və təhkiyəsinə sadiq qalıb. Həqiqətən bu tərcümə əsərləri onun yazıçılıq qabiliyyətinin böyük və hərtərəfli miqyasını bir daha təsdiqləyir.

Heyrət olunası məsələ bu oldu ki, yazıçı XXI əsrin ilk on ilində – əslində qısa bir zaman kəsiyində olduqca möhtəşəm bir yaradıcılıq yolu keçdi. Əlbəttə, bu nəhəng yaradıcılıq yolunu biz yalnız dövrlər və eləcə də mövzular üzrə qiymətləndirə bilsək o zaman məqsədəuyğun nəticələr ala biləcəyimiz mümkündür.

Ədib Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi də bir çox ödül və mükafatlar sahibidir: “Vətən” fəxri diplomu, “Qızıl qələm”, “Abdulla Şaiq”, Teatr Xadimləri İttifaqının təsis etdiyi “Qızıl dərviş” mükafatı, Milli Birlik Təşkilatının “Qara qalxan” mükafatı, “İlin dramaturqu” diplomu, “Akademik Yusif Məmmədəliyev” adına medal, habelə“Heydər Əliyev” kitabına görə Moskvada keçirilən ənənəvi Beynəlxalq Kitab Sərgisində “Sodrujestvo” və “Kosıgin” mükafatları, “Qızıl buta”, Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi “Qızıl kəlmə”, beynəlxalq “Rəsul Rza mükafatı”, “Zərifə Əliyeva” kitabına görə Moskva Meriyasının yüksək “Yuri Dolqoruki” mükafatı və “Sonuncu Fateh” romanına görə isə AMEA tərəfindən “2012-ci ilin yazıçısı” adına layiq görülməsi Hüseynbala Mirələmovun ictimai-ədəbi fəaliyyətinə dövlətimizin, yaradıcı təşkilatlarımızın, o cümlədən beynəlxalq təşkilatların göstərdiyi diqqətin, verdiyi qiymətin nəticəsidir.

Hüseynbala Mirələmov hər zaman tanınan, sevilən, yəni özünün oxucusu olan sənətkardır. Yuxarıda da qeyd etdiyimiz

kimi ədəbiyyatımızın inkişafına, eləcə də tanıdılmasına sərf etdiyi istedad və zəhmətinin qiymətini də yetərincə almaq səadətinə nail olmuşdur. Təltif və mükafatlarının bir neçəsini yada salaq: 1979-cu ildə səmərəli əmək fəaliyyətinə görə "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif olunmuşdur. 1999-2005-ci illərdə MDB ölkələrinin keçirdiyi "Birliyin 100 Sənaye və Elm Lideri" müsabiqəsində 7 dəfə ilin direktoru adına layiq görülmüşdür.

2001-ci ildə Fransanın paytaxtı Parisdə "Fransa sənayesinə Yardım Assosiasiyası"nın keçirdiyi müsabiqədə "Qızıl medalla" təltif edilmişdi.

2013-cü ildə Fransa Sənayeçilər Assosiasiyasının təsis etdiyi "Napoleon" qızıl medalına layiq görülmüşdür.

# İlk təcrübələr.
# Həyatın hekayə miqyası

Hüseynbala Mirələmov öz üslubu, təhkiyəsi, zamanın nəbzini tutan mövzuları, sənətkar maraqları ilə hər zaman diqqət çəkən yazıçıdır. İlk qələm təcrübələrinin ardınca yazıçının maraq dairəsinə bir-bir daxil olan mövzular, bəsləyib yaşatdığı amallar, ideyalar, cəmiyyətin sosial- mənəvi qayğıları onu böyük sənət arenalarına – güclü epik obrazların təbliğinə, böyük miqyaslı təsvirlərə, təhlillərə çəkməkdə idi. Qeyd etmək lazım gəlir ki, bəlkə məhz bunlarin nəticəsidir ki, yaşından, işimdən-peşəsindən asılı olmayaraq onun əsərlərini demək olar ki, uşaqdan böyüyə hamı oxuyur. Oxumaqla bərabər hər kəsdə – xüsusən gənclərdə mütaliəyə həvəs yaranır. Bunun sirri çox sadədir: yazıçının bütün əsərlərində, istər hekayə, esse, roman, povest olsun, istərsə də pyeslərində, oçerklərində, tərcümə əsərlərində onun nəsr təfəkkürünün hüdudsuz miqyası... bunlar heyrət doğurur, dilindəki canlı, diri ovqat saxlayan detallar, təfərrüatlar heyranlıq yaradır.

Yazıçı güclü, yaddaqalan surətlər yarada bilir; onun qələmində insan ömrünün ən müxtəlif mərhələləri, məqamları ustalıqla nəqş olunmuş əsərlərə asanlıqla çevrilir. İnsanı heyrətləndirən bir də odur ki, yazıçı ictimai həyatın bütün sahələrinə məxsus adamları məharətlə seçə bilir, dəyərləndirib qiymətləndirməyi bacarır. Bunlar da oxucuya onun əsərlərini oxuyub, qavraya bilmələrinə, başlıcası, ona, onun yaradıcılıq örnəklərinə çox yaxın olmalarına şərait yaradır.

Yaradıcılığa çox erkən – 14 yaşından başlayan yazıçının öncə rayon qəzetlərində kiçik hekayələri, mənsur şeirləri, esseləri, publisistik düşüncələri dərc olunurdu. Getdikcə bu imza,

bu qabiliyyət sözün əhatəsində, ədəbiyyatın içərisində bişib və öz mühitini, çevrəsini, ədəbi arealını genişləndirə - genişləndirə inkişaf edib, tanınınmaqda idi. Və beləliklə, ta ilk gənclik illərindən Respublika mətbuatında o vaxtdan bəri çap olunaraq imzasını təsdiqləyə, sevdirə bilmək uğurlarına nail ola bilmişdir.

Bilmirəm, başqaları necə düşünür, məncə onun axtrış ehtirasına, eləcə də yaradıcılıq laboratoriyasına bələd olanlar – lirik hekayələrini, eləcə də qlobal mövzulara həsr etdiyi irihəcmli povestlərini, romanlarını oxuyanlar yaxşı bilir ki, yazıçı sənət aləminə qəlbində daşıdığı ağrıları ilə birgə gəlmişdir. Həqiqətən, özü ilə birgə: Sözə sədaqətini, səmimiyyətini hələ ilk qələm təcrübələrində ortaya qoymağı bacarmışdır. Bu hisslər gənclik qayğılarına baxmayaraq doğrudan da davamlı, sabit xarakterdə olub: Belə ki, "Bir tikə çörək" hekayəsi 14 yaşlı yeniyetmənin ilk yaradıcılıq məhsulu olub desək, kimsədə təəccüblənməyə yer qalmayacaqdır.

Hekayədəki hadisələr son dərəcə kədərli düşüncələrin işığında cərəyan edir. İdeyası isə, yazıçının qarşıya qoyduğu məqsədlə ortaya çıxır; birmənalı olaraq insan taleyinin məsuliyyətidir. Və bu tendensiya yazıçının ilk hekayəsindən tutmuş, "Sonuncu Fateh"ə, "Gecə bənövşələri"nə qədər davam edir. Yəqin ki, insana bu humanist münasibət həmişə davam edəcək; hələ bundan sonra da, gələcəkdə də yazıçı öz əqidəsinə, insanın yaşamaq haqqını onun özünə təlqin etmək hissinə sadiq qalacaqdır.

Hekayə janrı ədəbiyyat yarandığı gündən başladılan bir tarixə malikdir və hər zaman maraqla oxunmaqdadır. Elə bu gün də keçən böyük zaman aşıntılarına, qopan dəyişmələrə baxmayaraq bu janra münasibət dəyişməmiş qalmışdır. Bunda əsərin həm həcmcə, həm də məzmunca yığcamlığının da təsiri ola bilər. Çünki zamanın sürətli axışı əsrində vaxta qənaət hər an insanın qarşısını kəsir, özünü ona hiss etdirir. O səbəbdən də yazıçının zaman içərisində təsvir etdiyi hadisələrin fonunda

təzadlı, ziddiyyətli məqamları eyni bir məkana sığışdırması oxucunun vaxta qənaət arzusunu gerçəkləşdirmiş olur. Təbii ki, beləliklə, qısa bir müddətə, hətta bir anın içində belə hər şey oxucuya məlum olur. Oxucu uzun intizar yaşamadan hadisəni əvvəldən axıradək izləməyə macal tapır.

Dünya ədəbiyyatının, eləcə də Azərbaycan ədəbiyyatının böyük hekayə ustaları var: Mopassan, Çexov, Taqor, Əziz Nesin və həmçinin söz ustalarımızı, milli hekayə janrının böyük ustadları – Mirzə Cəlil, Cəfər Cabbarlı, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyov, Tağı Şahbazi Simürğ, Seyid Hüseyn, Mir Cəlal və s. adını "kiçik hekayələr ustası" cərgəsində xatırlatmaq olar.

Əlbəttə ki, bu yazıçıların sənət örnəklərindən bəhs edərkən bizim Hüseynbala Mirələmovun yaradıcılıq nümunələrini yada salmağımız təsadüfi deyil. Çünki Hüseynbala müəllim özü də ədəbiyyatımızda onları özünə ustad saya biləcək bir qənaətdədir və buna əlavə olaraq deyə bilərik ki, Mirələmovun da hekayələri gözəldir, həyatidir, eləcə də surətlər hər biri canlı xarakterlərdir; çevik bədii dildə qələmə alınmış bu əsərlər həmin ədəbi ənənələr əsasında ərsəyə gətirilmşdir. Həqiqətən sələflərlə xələfləri bağlayan bağlar çox möhkəm görünür.

Ümumiyyətlə, nəticə olaraq baxılarsa, Azərbaycan ədəbiyyatında fərqli şəkildə "Altmışıncılar" deyilən nəsil ortaya istedadla və cəsarətlə yazılmış əsərlər qoyub, yeni ruhu, yeni məzmunu etibarı ilə ədəbiyyatımızı kifayət qədər zənginləşdirmək naminə çalışıblar. Elə yazılma tarixi həmin zamanla tənləşən və bayaq adını çəkdiyimiz "Bir tikə çörək" hekayəsinin müəllifi də bununla dediyimiz 60-cılar nəslinə mənsub olduğunu təsdiqləyir.

Və görkəmli yazıçı-dramaturq, ədəbiyyatşünas Elçin Əfəndiyevin Hüseynbala Mirələmovun yeniyetmə çağlarında yazdığı bu hekayələri oxuyarkən ondakı təbiiliyi duyması, təqdir etməsi, yaradıcılıq xüsusiyyətlərini bəyənib qiymətləndirməsi təsadüfi qarşılanmamalıdır. Çünki Elçin

bizcə, ilham işığını uzaqdan görən sənətkardır. Şübhəsiz, sözün, sənətin işığını onun üzərinə gətirməkdən bir münəqqid məmnunluğu duyub. Hüseynbala Mirələmovun bədii düşüncəsi, onun fikir çırpıntıları, sənət həyəcanları ədəbiyyatın sirlərinə yaxşı bələd olan ustad yazıçını görünür, silkələyib məşğul edib və o səbəbdən də o, xoş münasibət bildirməklə əslində, ədəbiyyatımıza gələcəkdə böyük tövhələr verən bu istedada qapı açmışdır.

Heç şübhəsiz ki, H.Mirələmovun hekayələrindəki azad fikirliliyi, sərbəst bədii manevrləri, cəmiyyətin müxtəlif təbəqə və zümrələrindən bədii ədəbiyyatda istifadə ediləcək "xammal" kimi bəhrələnməsi Elçinin gözündən yayına bilməzdi. Odur ki, onun sənətə gəlişinin ilk müjdələrindən olan "Tənha durna uçuşu"nu (1984) – bu kitabda gedən hekayələr sonralar "Qayada çiçək" adı ilə yenidən ədəbi ictimaiyyətə təqdim olundu. Sənətdə də uğurlu uçuş olaraq müşahidə edən Elçin Əfəndiyev təəssüratlarını kitaba yazdığı "Ön söz"də belə ifadə edir:

*"...Mən bu kiçik kitaba toplanmış hekayələri oxuduqdan sonra birdən-birə böyük Yardımlı dağlarını, o dağların təmiz, şəffaf ab-havasını xatırladım. Lənkəranın, Masallının, Astaranın – doğma Azərbaycanımızın bu gözəl, ürəkaçan guşəsinin limonlu, naringili, portağallı bağ-bağatını, qatarla sıralanan bərəkətli düzləri, təpələrin döşlərini bəzəyən çay plantasiyalarını xatırladım. Xəzərin heç yerdə yox, məhz Lənkəran, Astara sahillərində əsən mehini duydum..."*

Yox... ona görə yox ki, Hüseynbala başı qarlı o dağları, bu gözəl Lənkəran bağ-bağatını təsvir etmişdir; ona görə ki, bu hekayələrdəki səmimiyyət ilə, doğma yurda məhrəmliklə, hiss etdiklərini öz imkanları daxilində söyləməklə, yaxşıya sevinmək ilə, özünün xeyirxahlığı ilə o dağların, o bağ-bağatın, o dəniz mehinin arasında nəsə üzvi bir bağlılıq vardır.

Hüseynbala Lənkəranda yaşayır və biz Lerik dağlarını birlikdə (Hüseynbala, Anar və mən) dolaşmışıq, uzun-uzun

əsrlərdən bizə yadigar qalmış abidələrə birgə baxmışıq. Qədim qəbirstanlıqları qarış-qarış gəzmişik və ulu babalarımızın qüdrətindən, qəhrəmanlığından və eyni zamanda böyük sənətkarlığından xəbər verib, kiçikliyindən, böyüklüyündən asılı olmayaraq əzəmətli, monumental qoç heykəllərinin qarşısında birlikdə dayanıb, birlikdə düşünmüşük. Ciddi elmi səviyyəyə malik ədib üçün bu müşahidələr sonrakı dövr tarixi mövzulu əsərləri üçün qaynaqların, mənbələrin kasad olduğu Azərbaycanın erkən tarixi, hətta qəbilə quruluşunun mövcud olduğu dövrlər üçün də xeyli material verəcəkdi.

Hüseynbala qaz mühəndisidir, uzaq-uzaq kəndlərə, uzaq-uzaq ellərə, obalara keçilməmiş daşlı, qayalı yollarla qaz kəməri çəkir və bunun özü də mənim üçün xüsusilə rəmzi görünür. Qaz istilik, hərarət, işıqdır; ocaqdır.

Hüseynbalanın və onun əməl dostlarının zəhməti, əziyyəti sadə kənd camaatı üçün istilik, hərarət, işıq gətirir. Və elə bil bunda da o uca dağların təmizliyindən, o saf ab-havanın şəffaflığından nəsə var. Qoca Ələsgərin dediyi kimi: “Xəstə üçün təpəsində qar olan, hər cür çiçək açır, laləzar olan, çeşməsindən abi-həyat car olan dağlar möhnəti, məlalı da dağıdan dağlardır...” Bu dağların döşündə böyüyən, kamala çatan adam yüz il də ayrı düşsə bu dağlardan götürdüyünü götürmüş, onu canına, daha əvvəl isə ruhuna çəkmişdi.

Hüseynbalanın gerçəkliyə ciddi baxışlar sərgilədiyi bu hekayələr kitabı “Tənha durna uçuşu” ilə başlayıb “Qayıtdı durnalar...” hekayəsi ilə sona yetir.

Nə yaxşı ki, o durnalar, o azad quşlar yenə də doğma torpağa qayıdırlar və mən çox istəyirəm ki, hansı janrda, hansı həcmdə yazmasından asılı olmayaraq Hüseynbalanın qələmi də zəhməti kimi doğma torpağa, doğma yurda beləcə bağlı olsun”.

Bu qeydlər təxminən bayaq haqqında söhbət açdığımız “Bir tikə çörək” hekayəsinin yazıldığı dövrə təsadüf edir. Hamımızın dostu mərhum Cavad Heyət, dünya şöhrətli həkim-cərrah və ana dilli “Varlıq” dərgisinin naşiri deyirdi ki,

”cərrahlıq mənim peşəmdır, ədəbiyyat isə eşqimdir”. Yaxud, Rus yazıçısı A.P.Çexovun məşhur “həkimlik qanuni arvadım, ədəbiyyat sevgilimdir” deyimi... Bax, bu nöqtədə yazıçı Mirələmovun Elçinin dediyi kimi, mühəndisliklə ədəbiyyatı bir sevgidə birləşdirməsi çox təbii görünür. Daha doğrusu, söhbətlərimizdə ondan eşitdiyim kimi, öncə özünü mühəndis olaraq tanıyan, bir qələm həvəslisi bilməklə çox keçmədən bunun belə olmadığını düşünür. Tezliklə yazıçılığın heç də ondan ötrü yalnız “həvəs” olmadığını yəqin edir:

Mən jurnalist, həm də filoloq olmaq istəyirdim. Orta məktəbi qızıl medalla qurtarmışdım. Riyaziyyatı da, ədəbiyyatı da çox gözəl bilirdim. Riyaziyyat, fizika müəllimlərim deyirdilər ki, sənin istedadın var, sən yazıçı ola bilərsən, sənin qabağını kim alır ki? Lakin əvvəlcə ya həkim, ya da mühəndis ol, sonra yazıçı ol. Mənim üçün A. Çexov, F. Dostoyevski, Ç.Aytmatov kimi bir neçə klassik yazıçını misal gətirirdilər ki, onlar başqa ixtisas sahibləri olsalar da, həm də böyük yazıçılar olublar. Beləliklə, necə deyərlər, onlar mənim “saqqızımı oğurladılar”, Azərbaycan Politexnik İnstitutuna sənədlərimi verdim və inşaat fakültəsinə qəbul olundum…

Hekayə 1961-ci ildə Lənkəranın “Leninçi” qəzetində dərc edilib. Burada müharibə mövzusu üzərində işləyən yazıçı bu ağır illərdə insanların hər cür korluq çəkməsindən, onların hər baxımdan ehtiyaca məruz qalmasından, bir tikə çörəyi tapmaq çətinliyindən bəhs etmişdir.

Öncədən deyək ki, **“Bir tikə çörək”** hekayəsi yazıçı haqqında sabit, formalaşmış fikir və rəy yürütməyə, söz-söhbət açmağa, polemikaya belə ciddi əsaslar verir.

Ümumiyyətlə, təcrübə göstərir ki, həyatın hər üzünü görməyən, ona sözün böyük mənasında (və bütün mürəkkəb tərəfləri ilə birlikdə) yaşamayan, dünyaya yalnız yazı masasının arxasından baxan yazıçı sənətkarlıq texnologiyalarına nə qədər dərindən yiyələnsə də oxucu ilə sona qədər səmimi ola bilməz. Həyatdan gələn yazıçı isə hətta sənətkarlıq baxımın-

dan müəyyən mənada mübahisəli görünsə də, əsərlərində həyat həqiqətlərini bütün təbiiliyi ilə təqdim etdiyinə görə oxucunu cəlb edir, hisslərinə hakim kəsilir, onu həyəcanlandırır, düşündürür... (Nizami Cəfərov)

Hekayə ən əvvəl seçilmiş mövzu, yaşanılmış məşəqqətləri əks etmək baxımından olduqca təsirlidir. Əsərin qəhrəmanı balaca Məmməd yatağa düşmüş xəstə anasını dirildə biləcəyi arzusu ilə çırpınır. Təki bir tikə çörəyi əldə edə bilsə. Elə ona görə də çovğunlu bir qış günündə evdən çıxır, qonşuları, obadakı həyətləri bir-bir gəzib dolaşmağa başlayır. Nəhayət ki, həyətlərin birində o bir tikə çörəyi görür, amma zəncirə vurulmuş köpəyin qabağında.

Yazıçının təsvirlərindən aydın olur ki, köpək aclığın, ehtiyacın nə olduğunu bilməyən bir ev sahibinindir və sahibi qədər elə köpəyin də qarnı toxdur. Ancaq aclıq çəkən binəsiblərin lap yaxınında zəhmətin nə olduğunu bilməyən belə qarnıtox ailələrin olması da təəccüblüdür. Ona görə ki, faciə içində yaşayan kimsəsiz tənha ana və körpəsi də bu “toxlar”la bir kənddədir. İnsanın öz həmcinsinə, öz soydaşına belə biganə qalması, həm də soyuqqanlılıqla baxması yazıçını əlinə qələm götürməyə vadar edir. Öncə yazıçı özü bu hadisədən təsirlənib dəhşətə gəlir. Sonra da bu hissləri eyni həssaslıq, eyni həyəcanla oxucusuna ötürür.

Oxucunun taleyinə göz yaşları axıttığı balaca Məmməd köpəyin yemədiyi bir tikə çörəyi itin hücumuna məruz qalsa da, əli qana boyansa da insaflı, ürəyində mərhəmət, şəfqət eşqi olan qonşuların köməyi ilə anasına gətirir. Acınacaqlı bir duruma düşən Məmməd özü də bu hadisədən sonra ağır xəstələnir. Çünki saatlarla dözülməz çovğunun, şiddətli qış sazağının önündə dayanmışdı. Nədən ötəri? Bir tikə qana bulaşmış çörək səbəbindən. Axı o bir qiymətli tikə onu dünyaya gətirmiş anasını ayağa qaldıracaqdı... Bunlar, təbii ştrixlər oxucuda yandırıcı, yaralayıcı hisslər, eyni zamanda bunlarla birgə sağlam duyğular oyadır.

Məncə, misal gətirdiyimiz azacıq detallardan aydındır ki, insanın çörəklə imtahana çəkilməsini yazıçı həyatın barışmadığı sınaqlarından biri kimi qələmə verir. Özü də o ailənin, o insanın ki, onlar halal bir ocağın ətrafında, başındadırlar.

Hüseynbala özü də zəhmətkeş ailəsində doğulub. Halal bərəkətlə, halal ruzi ilə böyüyüb, ərsəyə gəlib, yaşa dolub. Onun yaradıcılığının da bu qədər duru, saf, insana, həyata və təbiətə xidmət etməsi görünür, cövhərindəki halallıqla, bir də hökmən uşaqlıqdan ehtiyacla. Yoxluqla üzbəüz durması ilə bağlıdır. Zəhmətin, əməyin axan təri – alın təri yazıçı üçün bir növ, zəhmətin qoxusudur. Halal əməyin doğurduğu göz yaşlarıdır. Bəlkə də yazıçının əsərlərindəki qüssə, kədər insanı qəlbinin dərinliklərinə qədər oxşayan, təsirləndirən, bir çox hallarda gözündən yaş çıxaran yenə də həmin zəhmət işığıdır ki, yazıçının mənəvi aləmindən süzülüb qələmi, sözü ilə bizə çatdırılır. Hüseynbala müəllimi nə qədər maraqlı görünsə də yazıçılığa gətirən sevgi də halalığa, haqq işinə xidmət sevgisi olub: "Sözə pənah gətirmək – haqqa sığınmaqdır", deyir yazıçı.

"Bir tikə çörək" müəllifin möhtəşəm yaradıcılığının başlanğıcıdır. Dedik ki, həmin hekayə öz növbəsində yazıçıdan ötrü böyük sənətə, nəhəng yaradıcılıq aləminə açılan bir qapı olmuşdur. Və biz bu sayalı qapıdan keçdikcə yazıçının daha ciddi, daha əhəmiyyətli əsərləri və uğurları ilə üz-üzə gəlirik. Təbii ki, əvvəlcə yazıçının yığcam hekayələri üzərində dayanmaq fikrimiz vardır. Elə bu səbəbdən də "Bir tikə çörək" dən başladıq. Adından tutmuş məzmununadək hər bir detallarında, təfərrüatlarında oxucuda nisgilli xatirələr oyadan "Bir tikə çörək"i unutmaq olmur. Hüseynbala müəllimi ədəbi aləmə gətirən bu hekayə ilə yanaşı müəllifin sənətə gəlişini ifadə edən öz fikirlərini də yeri gəlmişkən oxucuya çatdırmaq istərdik:

*"İlk hekayəm 1961-ci ilin sonlarında rayon qəzetində çap olunub... Hələ 4-cü sinifdə oxuyarkən "Azərbaycan pioneri" qəzetini sevə-sevə oxuyurdum. O qəzet məndə yazmağa maraq*

*oyatdı və mən o qəzetə xırda məqalələr yazmağa başladım. Məqalələrim, demək olar ki, hər nömrədə çıxırdı. Kiçik həcmli məqalələrim əsasən məktəb və pioner həyatından, səyahətlərdən bəhs edirdi. Mən artıq o qəzetin tam ştatdankənar müxbiri olmuşdum. Artıq yeddinci sinifdə oxuyanda ilk hekayəmi – "Bir tikə çörək" adlı hekayəmi yazdım və həmin qəzetə göndərdim. Hekayəni həm də Lənkəranda çıxan "Leninçi" qəzetinin redaksiyasına apardım. Yeddinci sinif uşağı olduğumu biləndə baş redaktor məni yanına dəvət edib sorğu-sual etdi. Sonra nəyəsə imza qoydu. Beləliklə, 1961-ci il noyabrın 7-də "Bir tikə çörək" adlı hekayəm "Leninçi" qəzetində çap olundu. O gündən də mənim ədəbi taleyim həll olundu. Bədii ədəbiyyata "Bir tikə çörək" adlı hekayəmlə cığır açdım.*

*İndi 40 ildən çox zaman məsafəsi məni o günlərdən ayırır. İndi nə yaş o yaşdır, nə də zaman, dövran. Ancaq ilk gəncliyimdən içimə düşən közün göynərtisi ötüb keçmədi. Zaman-zaman məni yandırdı. Ara-sıra qələmə aldığım hekayələrlə daxilimdə baş qaldıran tufanları sakitləşdirməyə cəhd göstərsəm də, zaman keçdikcə bu hisslər qarşısıalınmaz bir həvəs və istəklə üzə çıxır, hətta vaxtilə mənəviyyatımda yığılıb qalmış həyat həqiqətlərini bədii sözün qılafında üzə çıxarmağa məni məcbur edir. Əlbəttə, bu kitabda toplanmış hekayələrin qüsursuz sənət nümnunələri olması iddiasında da deyiləm. Ancaq diqqətli oxucu üçün bu yazıların zorən yazılmadığını təyin etmək o qədər də çətin olmaz..."*

Bunlar ürəyinin odunu, közünü sözə vermiş və yaradıcılıq məşğuliyyətini ömrünün ən şirin anları bilən yazıçının səmimi etiraflarıdır. Təsadüfi deyil ki, yazıçının əksər oxucuları Hüseynbala Mirələmov yaradıcılığını izləyərkən sənət və şəxsiyyət arasındakı əlaqəni, uyğunluğu, müəllif taleyi ilə yaratdığı ədəbi-bədii örnəklərin vəhdətini yada salırlar. Və bu vəhdətin kamil nümunəsi, uğurlu nəticəsi kimi oxuduqlarından zövq aldıqlarını dilə gətirirlər. Hətta mənim yadımdadır ki, bir oxucu "Tənha durna uçuşu" kitabını oxuyub məhz onun reallıqla bu

qədər dürüst, təbii tərzdə çulğalaşmasından çox təsirlənmişdi. Onun duyğularının ifadəsi hansısa mətbu orqanda qarşıma çıxmışdı. Görünür, özü də həssas, istedadlı oxucu olan bu şəxsin ürəyində həqiqətən hekayədəki əhvalatlar öz əks-sədasını tapmış imiş. Bu barədə bildiyim, mənə məlum olan daha başqa faktlar da var:

Kimya elmləri namizədi universitetimizdə mənim gənc həmkarım Əli Zalov yazır: "Tənha durna uçuşu" kitabında ağır, qəlb sızladan səhnələr də var. Kitab bütövlükdə bir oxucu kimi məndə parlaq duyğular oyatdı, fikrimə güc verdi. Duyğularımı, düşüncələrimi yalnız müəlliflə deyil, bütün vətənpərvər insanlarla da bölüşmək istədim." Müəllif ardınca obrazlı şəkildə Sədi Şirazinin "Gülüstan"ından tapdığı örtaq xətləri diqqətə çatdırır: *Çu dər başəd çe danəd kəsi, Ke gohər firuşəst, ya piləvər...* -beytində "qapı bağlı olanda kim nə bilsin ki, sahibi gövhər satandır, yaxud çərçi" – deyir. Həqiqətən, yaradıcı insanın əsərləri onun qəlb dünyasının, könül aləminin qapısıdır.

Yazıçı H.Mirələmovun "Qapısı"ndan keçənlər – oxucular, əsərlərini oxuyanlar onun ürəyinin, qəlbinin necə bir "gövhər kanı" olduğunu bilirlər".

Doğrudan da, müəllifin Sədidən iqtibas etdiyi fikir yazıçının xarakteri ilə də, mövqeyi ilə də tam səsləşir. Çünki o, bütün əsərlərində mənəvi bütövlüyü təlqin edir, insanın mənəvi aləmini daim araşdıraraq onun mənəviyyatında dərin izlər buraxan bədii sözün sehrində kamil obrazlar yaradır.

Doğrudur, yazıçının erkən yaşlarında yazdığı xırda hekayələr müxtəlif mövzulara həsr olunmuşdur. Lakin bu hekayələri birləşdirən bir məqam var. Bütün hallarda yazıçı nail olmağa çalışıb ki, insanı haqqa qovuşdursun. Əlbəttə, bu ilk baxışdan asan görünən məsələ deyil. Hər halda sənətə gəlişi ilə bu cəsarətli addımı atmaq yazıçının gələcək ədəbi kariyerasının ilkin işartıları imiş bəlkə də. Hər sətirdə, hər fikir ifadə edən düşüncə vəhdətində ədalət bayrağını ucada saxlamaq prinsipi var onun sənətə gəlişində, ilk ədəbi addımlarında. Doğrudur, yazıçı

mətləbini birbaşa açmır, yeri gələndə publisistik tərzlərdən də istifadə edir. Amma əsasən sözünü asta-asta, təsvir etdiyi hadisələrin fonunda deyir. Bir çox hallarda nəticəni özün hasil edirsən. Duyursan ki, bu hekayə doğulanda, yazılanda hansı ağrıdan, həyacanın bətnindən qopub.

Hüseynbala müəllimin özünün ömür yolu, yaşam tərzi bir məktəbdir. Yazıçımızın həyatı enişli-yoxuşlu olub; həyat onu çox çətin, bəlkə də qarşısıalınmaz sınaqları, maneələri ilə qarşılaşdırmışdır: Uşaqlıqdan kasıbçılıqla üz-üzə dayanıb, ehtiyac içərisində böyüyüb. Və bunlar onun öz əliylə yazdığı, hər biri öz tərcümeyi-halı olan əsərlərindən aydın görünür. Çünki əsərlərinə köçürdüyü ruh hiylə, yalan bilməz, doğruculluğun timsalı, ülviyyətin heykəlidir. Bu təmiz ruh həmişə onda yaşamaqdadır; o, yazıçının qəlb tərcümanı olub həmişə onun həyat yolunu bir nağıl, dastan kimi öz oxucusuna danışır. Bu ömür yolu da öz növbəsində ləyaqətli bir insanın həyat hekayətini də söyləməkdədir əlimizdə olanlarla da, irəlidə yazılacaq əsərlərlə də.

İzlərdən – insanın həyat mücadiləsində özündən geridə qoyduğu izlərindən danışırıq. İzlər müqəddəs də ola bilər, izlər bədxahlığın daşıyıcısı kimi də görünə bilər. İstər-istəməz burda yaşarı olanla, yaşarı olmayanı fərqləndirirsən. O izləri ki, onları insan məmnunluqla, həvəslə, ehtiramlı duyğularla xatırlayır. 0 izlər nə yaddaşdan, nə həyatdan, nə də torpaqdan silinmir.

Hüseynbala Mirələmovun əsərləri böyük sənətin pozulmayan səhifələri kimi zaman ötdükcə daha böyük mənəvi dəyər kəsb edəcək. Ədəbi nəsillərin yaddaşında tarix daşıyan izlər kimi qalacaqdır. Necə ki, **"İzlər"(**1967) hekayəsi ilə bir vaxtlar oxucu qəlbini titrədə bilib.

Yazıçının "İzlər" hekayəsi xırda həcmli olsa da, tutumlu, insana ibrət dərsi verə bilən fikirlərlə süslənib, böyük insanlıq dərsi verən bu kiçik əsərlərin bu səbəbdən də unudulması qeyri-mümkündür. "İzlər" hekayədən çox mənsur şeiri xatırladır...( Nizami C.)

Əsərin qəhrəmanı əlil Azər avtobusdan düşəndə büdrəyir, yıxılanda qoltuq ağacı kənara – uzağa düşür. Avtobusdakı sərnişinlər tez Azərə yaxınlaşaraq onu ayağa qaldırır. Yaşlı bir qadın da onun bu uzağa düşmüş qoltuq ağacını gətirərək Azərə verir və müvazinətini düzəldib yeriməkdə gəncə kömək etməyə çalışır. Azər ayağının birini İkinci Cahan savaşında itirib. Məsələ burasındadır ki, müəllif Azərin timsalında həm də müharibənin hər evə, hər kəsə sağalmayan yaralar vurduğunu yaddaşlara gətirir. Bununla Azərin faciəsində özünün də taleyini oxucusuna çatdırır. Artıq hadisənin bundan sonrakı davamını indi xatirələri oyanmış yazıçı özü danışır:

“*... Atamı qarşılamağa getmişdik. Anam, bacım və mən. O gün səma çox tutqun idi. Havada bərk soyuqluq vardı. Külək əsirdi. Gözlər qeyri-ixtiyari bir nöqtədə ilişib qalmışdı – bir azdan cəbhənin qəmli nişanələrini gətirəcək qatarın görünəcəyi nöqtədə. Budur çox keçmir ki, uzaqda tüstü göründü. Dəmirdən qayrılmış yanar bir “ürəyin” havaya püykürülən tüstüsü. Tüstü get-gedə yaxınlaşır, o yaxınlaşdıqca donuq baxışlar cana gəlir... Cəbhəçilər qatardan düşürlər. Kiminin gözü sarıqlı, kiminin qolu, kiminin ayağı şikəst. Anama baxıram. Gözlərindən kədər yüklü yaş süzülür. Ona sığınıram. Əsgərlərdən gələn yanıq barıt qoxusu havaya yayılır, körpə ciyərimə çökür. Qatardan axırıncı iş-güc adamları düşür. Atam isə hələ də yoxdur. Elə bu an anamın çığırtısı eşidilir. İrəliyə – qatara tərəf yüyürür. Ətəyi əlimdədir. Mən də onunla qaçıram. Atamı görürəm– atamı... Enlikürək, ucaboylu atamı yox, müharibənin bizə qaytardığı atamı... İki qıçı dizdən kəsilmiş, balacalaşmış atamı –kiçik arabacıq üzərinə bağlanmış atamı...”*

“Rəvan üslub, aydın cizgilərlə, konkret bədii ştrixlərlə yaradılmış obrazlar, canlı təbiət təsvirləri(və onların mənalandırılması), etnoqrafik həssaslıq, “qaranlıq-işıq” kolliziyalarının qabarıq verilməsi, müəllif məramının açıq ifadəsi Hüseynbala Mirələmovun ilk hekayələri üçün səciyyəvi idi”( Nizami C.)

...Ata ayağlarını Berlin altında, bu faşist canavarları iqamətgahına çathaçatda, müharibənin qurtarmasına sayılı günlər qalanda itirib. Atanın iki məzarı var – biri Berlində, ayaqları orda – minanın partladığı çalada basdırılıb, bir məzarı da öz doğma yurdunda... Yazıçının oxucuya təqdim etdiyi ata sovet amalı uğrunda döyüşübdür. Nə fərqi var, əsas odur şərə, istilaya – faşizmə qarşı vuruşubdur. Beləliklə, bu savaşda müharibənin udduğu milyonlardan birinə çevrilib. Biz isə bu obrazın taleyində öz ağrılarımızı, itirdiklərimizi, itgin düşənlərimizi, əsir və girov götürülənlərimizi, bu gün erməni tapdağında qalmış qərib və həsrətli diyarlarımızı düşünməyə bilmirik. Eyni göynərtili hisslərdir belədə.

Əslində biz də yazıçının tərənnüm etdiyi izlərin sahibi kimi yaşamaq təmənnasındayıq; o ləpirlərin etkisinə, eşqinə düşürük. Biz də istəyirik ki, gələcəkdə izlərimiz yazıçıların, sənət adamlarının qələminə güc versin, o qələmin gücü ilə ürəklərə sevgi toxumu səpsin.

İlk qələm təcrübələrindən olmasına baxmayaraq sözün məna gücünə bələdlik və ondan məqsədə müvafiq şəkildə istifadəyə meyl duyulur bunlarda; sözün, ifadənin bədii yüksəlişini müəyyənləşdirdikcə bu özəllik oxucuda heyrət doğurur.

"İzlər" hekayəsinin bir üstünlüyü də əsərin lirik-psixoloji ruhda yazılmasıdır. Yazıçı oxucunu burulğana, bədii təfəkkürünün qasırğasına salsa da, onun bu girdabda qalmasına da izin vermir. Yazıçının hələ belə gənc ikən qabil olduğu dil-nitq üsulları səmərəsiz qalmır; həzin ifadələr, insan çöhrəsinə nur gətirən fikirlər bir nəğmə kimi ürəyə axır, qəlbə köz salır. Sahillərdə düşüb qalan izlərin ağrısı ilə birgə şən nəğməsini də sanki hekayəni oxuyan hər kəs qəlbinə köçürür. Ağlayır, sızlayır və yaşayır...

Sanki yazıçı demək istəyir ki, həyat təkcə sevinməkdən, gülməkdən, şənlənməkdən ibarət deyil. Həyat həm də ağrı, həyəcan mərkəzidir. Bu mərkəzdən nə qədər uzaqlaşsan bir o qədər də həmin tezliklə ağrı mərkəzinə dönməlisən. Təbiətin,

maddi aləmin nizam qaydaları, qanunları var. Nizamı zorla, təzyiqlə pozanda həyat insanın qəsdinə gedir, düşməninə çevrilir. Söz həm də cazibə qanunlarına tabe olmağı, ağrı mərkəzinə dönməyi tələb edir. Mərkəzdən qaçmaq və mərkəzə dönmək. Belə çıxmasın ki, mən mövzudan uzaqlaşıb sizə fəlsəfi yönlü elmi şərhlərimi nümayiş etdirirəm. Unutmaq olmaz ki, söz də müəyyən mənada canlıdır, çünki o, insan enerjisi ilə yüklənib. Və ümumi qanunauyğunluqlardan kənara çıxanda təbii olaraq yaşamaq haqqını, söz diriliyini itirir. Qələm var kütdür, söz əkə bilmir, əksinə sözləri öldürür. Qələm var sözü əkəndə bitirir. Yazıçı-dramaturq Hüseynbala Mirələmov sözün məğzini də bilir; hədəfi də müəyyəndir ondan ötrü. Fikrin, məqsədin, məramın da damarını tutmağı bacarır. Sözü daxili dünyasından keçirib arzu və istəkləri ilə cəmiyyətə, ətraf aləmə mənəvi yaddaşımıza təlqin etmək istəkləri ilə birgə gətirir...

Hekayənin sonu təsirli ilmələrlə hörülüb başa çatır. Bir daha izlər haqqında düşünməyə vadar olursan. Yollar üstündəki sahibsiz izlər səni xəyallar aləminə aparır, amma son nəticədə yenə özünə dönürsən. Hekayənin sonunda deyildiyi kimi:

“*...Yollarla addımlayıram. Atamın izlərini gizləmiş yollarla. Yollar məni sahilə aparır – qumlu sahilə. Qayalı sahilə... Sahildəyəm. Yaş qum üzərində ayaq izləri uzanıb gedirdi. Fikirlərim sanki ayaq tutub bu izlərlə addımlayır. İzlər... İzlər... Ürəkdə izlər... saçlarda izlər... Torpaqda izlər.*

*Sahil gedir, izlər gedir... Sahil gedir, izlər itir. Ürəklərə neçə-neçə izlər düşüb, ürəklərdən neçə-neçə izlər silinib yox olub. Ancaq elə izlər də olur ki, heç vaxt itmir, atamın saldığı yollar kimi, izlər kimi...*”

Yenə də gənclik illərində yazmış olduğu psixoloji bir hekayədən “Son arzu”dan bəhs etmək istəyirəm. Adından da göründüyü kimi **“Son arzu”** (1968) ölümlə – həyat, ətalətlə – dirilik arasındakı son çarpışmanı, bədiiləşmiş epizodu kino lenti kimi diqqətimizə yönəldir. Bəlkə də əlavə fikirlərə ehtiyac yoxdu. Çünki bu hekayə haqqında bir oxucunun qələmə aldığı

təəssuratlarının təsirindən qurtulmaq olmur. Bu yerdə həmin fikirlərə, düşüncələrə, duyğulara müraciət etmək istəyirəm. Oxucu hekayədən təsirlənərək publisistik düşüncələrinə "Daşlar qəzəbdən göyərir" deyə başlıq verir:

"Görkəmli Amerika yazıçısı O`Henrinin "Son yarpaq" hekayəsini hələ özüm uşaq olanda böyük qardaşım kitabdan oxuyanda eşitmişdim. Qüdrətli sənət incisi elə o vaxtdan məni sarsıtmışdı. Yadımdadır, kövrələ-kövrələ dinləmişdim. Hekayədə təsvir olunan o dövrün amansız xəstəliyi sətəlcəmin qapıları döyüb adamları bir-bir həyatdan qoparmasımı, uğursuz rəssam qoca Bermanın 40 illik mənasız həyatından sonra nəhayət müvəffəq olduğu – yaratdığı sənət incisinin kərpic divara çəkdiyi sarmaşıq yarpağının xəstə Consini ölüm çarpayısından xilas etməsimi, ölümcül xəstənin öləziməkdə olan sonuncu arzusumu, ən etibarlı yerində – ürəyində saxladığı Neapol körfəzinin şəklini çəkmək istəyimi, yoxsa divara dırmanmış qoca sarmaşığın sonuncu yarpağının budaqdan üzülmək qorxusumu? Və nəhayət bu qorxunun gətirdiyi göz yaşlarının sevinc yaşına qarışması səhnəsi – qoca rəssamın yaratdığı son ümidi, son arzunu qırılmağa qoymayan aramsız yağışlara, şiddətli amerika küləklərinə davam gətirə bilən son əsəri, sonuncu sarmaşıq yarpağının əbədiliyimi?

Əlbəttə, bu məqamların hər birinin təsiri mənəviyyatın dərinliklərinə qədər işləməsəydi, bəlkə də mən anlamazdım. Çox sonralar anladım ki, dinlədiyim hekayə bir sənət incisi imiş. Və insana sənət qədər təsir edən ikinci bir nəsnə yoxdur. Sənətin ecazkar təsirini elə ilk dəfə O`Henrinin "Son yarpağ"ında görmüşdüm. İndi o vaxtdan illər keçib. İnsanı dahilik mərtəbəsinə qaldıran hisslərin, emosiyaların, duyğuların bəhrəsi olan "Son yarpağ"ı böyüdükcə dəfələrlə oxudum. Hər dəfə də eyni hisslər, həyəcan, göz yaşı, qüssə, kədər... Tənqidçi Əsəd Çahangir deyəndə ki, "kitab dünya vətəndaşına hesablanmalıdır" – onunla razılaşmaya bilmirsən.

Bu günlərdə müasir Azərbaycan yazıçısı H.Mirələmovun "Son arzu" hekayəsini oxuyanda tələbəliyimin kövrək anlarını bir də yaşadım. İstər-istəməz qəlbimdə baş qaldıran duyğular mənə ötənləri xatırlatdı. "Ədəbiyyatşünaslığın əsasları" fənnindən mühazirə söyləyən və bizim hamımızın "qəddar insan" kimi rəyimiz olan (ah tələbə... tələbə) Kamal Qəhrəmanov kimi soyuqqanlı, ciddi bir adamın səsi titrəyə-titrəyə keçdiyi "Son yarpağ"ı yenidən oxumalı oldum. Təbii ki, bu fikirlərimlə "Son arzu" və "Son yarpaq" hekayələrini, eləcə də onların müəlliflərini müzakirə etmək fikrindən uzağam. Onsuz da bu hekayələr mövzu, sujet və ideya baxımından bir-birindən çox fərqlidir. Elə isə nədən "Son arzu" "Son yarpağ"ı təkrar oxutdururdu mənə?! Bu fikir ətrafında bir qədər düşünməli olacaqdım. Gördüm ki, hər iki hekayə bir-birindən nə dərəcədə fərqlidirsə, insanın mənəvi aləmində bir o qədər də oxşar duyğular, müsbət emosiyalar yaratmağa qabildir. Hər iki hekayədə müəllifin insanı son mənzilə qədər aparıb ölümü göstərmək və sonra da diriltmək, həyata qaytarmaq cəhdi var. Konkret olaraq "Son arzu"da yazıçı məhz bu yolu seçir. Hekayə olduqca təsirlidir, ən sərt, soyuqqanlı oxucunun belə qəlbindəki buzu əritməyə qadir sətirlərlə başlayır:

*"Xəstə özü saplağından üzülməkdə olan bir meyvəyə bənzəyirdi. Sanki həyatı bir xəfif yeldən, bir zəif hənirtidən asılı imiş. Gözləri narahat, üzüntülü bir intizarla yol çəkirdi. Sönməkdə olan qəlbində fəryad, peşmançılıq dolu uğursuz bir əks-səda inləyirdi. Yaralı quş tək çırpınırdı. Bu yaralı quş son gücünü, axır qüvvəsini toplayıb sanki qanad çalmaq istəyirdi. Uçmağa can atırdı..."*

Qəribədir, sənətkarı insanın yaşamaq istəyini boğmağa, onu xəstəliyin ağır məngənəsində sıxmağa, uçmağa can atmaq istədiyi qanadlarını qırmağa əsər həsr etməsinə nə vadar etmişdi? Bəlkə bu bir sınaq, imtahan idi? Bəlkə insana son məqamda günahlarını, ağır peşimanlığını göstərmək istəyi imiş... Bəlkə insanın son anda – vaxtı çatanda ətrafla,

ünsiyyətdə olduğu adamlardan halallıq ala bilməməsinin cəzası idi? Bəlkə ömründə kimsəyə əl tutmamağının, bir acın, bir yalavacın ona sarı uzanan əlini boş qaytarmağının, yaxud bütövlükdə xeyirxah hisslərdən uzaq olmağının divanı idi?

Hər halda bu, divan idi. Bax, bütün bu suallara cavab verən "Son arzu" hekayəsinin məğzində məhz yazıçının ömürü xeyirxahlığa, alicənablığa, müdrikliyə söykənərək yaşamağın hər şeydən ucada dayandığını, insana öləndən sonra da daimi bir şərəf gətirdiyini anlatmaq istəyi dayanır. Ümumiyyətlə, ölümünün yetişdiyini dərk edən insan həyatda hər şeyə biganə qaldığı halda, əsərdə əksinə, müəllif yaratdığı xəstə obrazını bu hisslərdən uzaqlaşdırır. Xəstəni düşünməyə, onu mənəviyyatı ilə üz-üzə qoymağa, daha çox əməllərinə görə cavab verməyə məcbur edir. Özü də bu məcburiyyət ani deyil, özünü tədricən göstərdiyi üçün xəstə olumla-ölüm arasındakı məsafədə dayanıb geriyə baxanda etdiyi yamanlıqlara görə peşmançılıq hissi keçirir. Etiraflar başlayır. Etiraf isə həqiqətin təsdiqi deməkdir. Nadanlar, nanəciblər etiraf anını yalnız zor qarşısında, təhlükə duyanda yaxına buraxırlar.

Hekayədə təsvir olunan ağır xəstəliyin yaxaladığı Elmar ölüm çarpayısından məzarlığa qədər yol gedir. Məqsəd aydındır, Elmar qəbristanlıqda vaxtilə üzünə qapı bağladığı adamların yanına gedir. Müəllif bilərəkdən onu diriykən baş daşlarına həkk olunmuş tanış üzlər, tanış baxışlarla qarşılaşdırır. Hərgah, bundan öncə xəstənin nə keçirdiyini təsvir etməyi də vacib sayır: *"Xəstə bilirdi ki, son mənzilin astanasındadır. Ancaq buna inanmaq istəmir, özünü zorlayırdı ki, inansın. Xəstəyə elə gəlirdi ki, əgər dostları ona baş çəkməyə gəlsələr, mütləq sağalacaq, ağrıları azalacaqdır. Birdən gəlməsələr? Bu soyuq, bu acı sual beyninin tutqunlaşmış və qaranlıq bir küncündə zəif bir əks-sədaya, sanki yeni bir suala dönərək onun xəstə, ölgün vücudunu titrədir, həyəcanlandırırdı..."*

Bu titrəyiş və həyəcanlar Elmarın həyatla vidalaşmaq anının qaşla-göz arasındakı məsafə qədər dar olduğunu, dünya-

dan əl üzmək ərəfəsinin sona vardığını diktə edirdi. Elmar bu həyəcan və təlaş içərisində çabalayarkən- görəsən dostlarının biri sənin vəziyyətində olsaydı necə hərəkət edərdin, Elmar?... Çəkərdin onun əzab-əziyyətini? Ağır günündə, çətin anında yastığının yanında oturardınmı, Elmar?... deyə öz-özünə verdiyi müşgül sualların cavabını sorurkən özünü səssiz məzarlıqda hiss etməsi, axırıncı dəfə dostlardan kiminsə dəfnini xatırlaması hekayənin məqsədinə güzgü tutur. Müəllifin təbliğ etmək istədiyi ideyanı oxucu ağlında işıqlandırır. Elmar məzarlıqda ağır ittiham qarşısında qalır: "Ona elə gəlir ki, minlərin səssiz-smirsiz yatdığı şəhər qəbristanlığında insanların son mənzil adlandırdıqları qara-boz, sarı daşların nizamlı-nizamsız duruşu, xırda torpaq təpəciklərinin soyuq lallığı olan bu yerdə torpaq da ölüb. Və bu sarı torpağın, bu saralmış otların altından minlərlə saralmış üz, saralmış bəniz, saralmış kədər, saralmış təbəssüm boylanıb üstündə qaynaşan bu canlı insan selinə baxır. Sanki baş daşları ağır-ağır nəfəs alırdı, ağır-ağır düşünürdü. Müdrik qocalar tək susurdu bu cürbəcür qara, boz və sarı daşlar."

Kədərli, ağlağan mənzərədir, lakin ürək oxlayan bu sözləri oxuyub tanış olduqca düşünürsən ki, bu daşların qaralığına, ağappaq bəyazlığına, lap sarılığına, bozluğuna bu qəbirdə yatanların təbəssümü, gülüşü, qəhqəhəsi, sevinci qədər də qəzəbi, kini, xeyirxahlıq və mürvətsizliyi hopub. Məhz "Son arzu"nun yazarı Elmarı qəzəbdən göyərmiş baş daşının üstündəki şəklin önündə dünyadan, cəmiyyətdən, lap elə Elmarın özündən incik getmiş bir məzar əhlinin qarşısında saxlayır. Gələcək gor qonşusuna vaxtilə göstərdiyi qəddarlığı üçün.

*"Elmarın diqqətini başdaşına həkk olunmuş bir şəkil cəlb etdi. Ona elə gəlirdi ki, haradasa bu baş daşının ətrafında tanış bir səs də dolaşmaqdadır... Şəkildəki tanış sima və tanış səs..."*

Yazıçının qüdrəti ondadır ki, oxucusunu bax, beləcə ustalıqla dilləndirir. Nəticədə əgər birinə təsir edə bilibsə, onun

duyğularını oyadıbsa, insanı özünə qaytarıbsa, demək, bu bir nəfərə deyil, yüzünə təsir etmişdir.

Yazıçının bədii dilə münasibəti onun ədəbi-estetik görüşlərinin mahiyyətindən irəli gəlir. Əsil yazıçı, ədib istər mövzu, istərsə də üslub nöqteyi nəzərindən olsun öncə gərək oxucusunu – geniş xalq kütlələrini düşünsün. O məqsədlə müəllifin irəli sürdüyü ideya da anlaşıqlı, hər kəsin ürəyindən xəbər verən məqsəd, amal olmalıdır.

Bədii əsərdə xəlqilik, onun dili, üslubu, obrazlar sistemi milli ruha yaxın prinsipi ən doğru prinsipdir. Bunun təcrübədə bariz göstəricisi müəllifin irəli sürdüyü ideyanın çox asanlıqla geniş oxucu kütləsi tərəfindən qəbul edilməsidir.

"Son arzu" cəmiyyətin pozulmuş harmoniyasını nizama salmağa yönəldilib. Buna şübhə yox. Hər birimiz öz həyatımızda, taleyimizdə bunu dəfələrlə müşahidə etmişik. Bəlkə neçə kərə ayağımız insanın əbədi məkanı məzarlığa düşüb. Kimisi əzizini, doğmasını yad etmək üçün ora baş çəkir, kimisi qonşusunun, tanışının dəfnində iştirak edərkən məzarlıq düşüncələrinə dalır. Kimisi adi bir təsadüfdən yolunu ordan salarkən dünyanın faniliyinə bir daha inanır. Bizi düşündürən və düşündürdükcə ağrıdan odur ki, məzarlıqda baş daşlarına söykənərkən səssiz sükuta qərq olmuş ölü "kəndi, şəhəri" seyr edərkən hamı insan olur.

Hər kəs pisliklərini, yamanlığını orada dəfn edib geri dönərkən ən yaxşılardan olacağına söz verir. Ora axır yeri, axır məkanıdır. Hər kəs orda son aqibətini gördüyündən belə etməli olur. Kim nə deyir, desin, insan xisləti belə vəzifələin icrasına öz könül xoşluği ilə uya bilmir. Min təəssüf ki, insan həmişə məzarlığa baş çəkdiyi andakı qədər təmiz və saf, etirafa, tövbəyə yaxın ola bilmir. Yenə izdihama qarışanda, cəmiyyətin bir növ içində əriyəndə o saat hər şeyi unudur. Axirət günündə əhdə vəfanı da, sözə hörməti, varlığa sədaqəti də, hər nə var unudur.

"Son arzu" əsəri yazıçı müdrikliyi bəhrəsidir; sanki onun tərəfindən insana verilmiş mənəvi cəzadır. Qələm adamı "cəza" deyə bundan artıq nə edə bilərdi ki?! Yazıçının silahı sözüdür. Və o bütün həyəcanlarını, daxili narahatlıqlarını sözlə, sözün minbir çaları vasitəsilə cəmiyyətə, insana və insanlığa çatdırır. Təsadüfi deyil ki, hekayənin qəhrəmanı Elmar pıçıltı ilə deyir; "Kaş ömür bir az möhnət verəydi! Onda özüm bilərdim ki, necə yaşayıram!..." Bu çox təsirlidir. Elmar kimi yüz minlərlə adamın peşiman pıçıltılarıdır.

Bu yerdə yenə də üz tutduğumuz oxucunun qeydlərinə qayıtmaq istəyirik. Onun kövrək qəlbinin hərarəti H.Mirələmov yaradıcılığını izləməkdə, bu zəngin yaradıcılığa münasibət bildirməkdə fikirlərimizə rəng qatacaqdır.

Adını xatırlamadığım oxucu maraqlı şərh verir. "Son arzu" ilə "Son yarpağ"ı qarşılaşdırır. Elmarın bir az da ömür möhləti istəməsini oxucu belə qiymətləndirir.

*"...Bu, xəstənin – Elmarın son arzusu, son diləyi idi. İndi Elmar da əvvəlki Elmar deyildi. O, minlərlə insanın əbədi köç etdiyi məkanı – axirət mənzilini torpağın altında uyuyanların daş geyimlərini görüb gəlmişdi. Bu daş geyimləri, bu mərmər abidələri də insan yonub düzəltmişdi. Çəpər-çəpərə söykənmiş qəbir yerlərini – gor evlərini də insan öz əlilə qazmışdı. Bəlkə də bu qoca qəbristanlıqda neçə belə gorqazan, neçə belə daşyonan yatırdı. Hərəsinin də qəlbində bir istək, bir arzu. Fəqət, biz onlardan xəbərsizik.*

*Ancaq Elmarın arzusunun, insan olmaq istəyinin dəfn edilməsini istəməzdik. Və bir də sözümün sonunda onu demək istərdim ki, "Son arzu" mənə "Son yarpaq" qədər təsir etdi. Yaddaşımda əbədi iz salmış qoşa adlar sırasına bir qoşa ad da yazıldı – "Son arzu" və "Son yarpaq". Hər ikisində istək var, arzu var. Birində qoca rəssam Bermanın sənət incisi yaratmaq arzusu, digərində insan olmaq diləyi. Bu diləklər bir-birinə nə qədər uzaqdırsa, bir o qədər də yaxındır".*

Mənim daha yazıçının hələ o qədər də bişməmiş, o qədər də peşəkarlıq səviyyəsi ilə qovuşmamış bədii örnəklərindən bu qədər geniş danışmağım təsadüfi deyil. Nədənsə onun bu qəbildən olan hekayələrində, miniatür yazılarında insanın ilk həyəcanlarını, sənətə yenicə qədəm basmış yazmaq istəyən gəncin, yeniyetmənin ilkin yaşantıları çox cəlbedicidir.

Oxucunun diqqətini "yazıçının ən gözəl, ən fəlsəfi hekayələrindən birinə" (Nizami Cəfərov) –"**Qayada çiçək"** hekayəsinə (1972) çəkmək istəyirəm. Hekayədə əsas obraz Məftun adlı bir ziyalıdır. İşıqlı bir gənc olan Məftundan danışmazdan öncə deməliyəm ki, yazıçının obrazlara ad seçimi təsadüfi hadisə olmayıb, həm də bu işin mənalı nəticələri xüsusi maraq doğurur. İstər mənfi, istərsə də müsbət obrazlara uyğun bildiyi adlarda oxucu müəyyən təzadlar, ziddiyyətlər, həm də məzmun, məna, mahiyyət və formanı tamamlayan elementlər görməli olurlar. Yəni bu ayrıca bir məharətdir. Bəlkə də yazıçıların çoxunda olmayan ədəbi-bədii keyfiyyətdir. Məftun Xıdır Zində dağına qalxmaq istəyir. Zində dağı Bakı - Quba yolunun üstündədir. O yolu keçənlər bu dağı uzaqdan olsa da, gözlə ziyarət edirlər. Dağ havaya dik qalxmış insan əlini – bir əlin barmaqlarını xatırladır. Söz yox ki, ətrafdakı camaatın dilində dağın "Beşbarmaq" adıyla adlanması bu oxşarlıqla bağlıdır. Bəzən Xızır-Zində dağı da deyirlər. Açığı, təsəvvürümüzdə "Diri Baba" anlayışımız varkən fars mənşəli zində "diri, yaşar" sözünün işlənmə səbəbini anlamamışdım, bu məndə peşə, amal xəstəliyidir, – amma ətraf sakinlər belə işlətmiş, qoy işlətsinlər.

Müəllifin bu hekayədə irəli sürdüyü ideya Məftunu təkcə ziyarətgaha qədər aparıb çıxarmaqdan ibarət deyil, əsas fikir Məftunu həm də zirvəyə – mənəvi ucalığa qaldırmaqdan ibarətdir. Və Məftunun düşüncələri məhz o ucalıqda mənəvi dəyər kəsb edir. O, Beşbarmaq dağına baxdıqca düşünür, düşünür. Xəyalındakı ilk təəssuratı çözür, qədim bir Şərq rəvayətini nəql etməyə girişir:

“... Ölkəsinin, ümmətinin taleyini düşünən xəlifə dərya seyrində dərin fikrə dalmışdı. Birdən dənizin içindən bir əl peyda olur. Xəlifənin əsabələri bu əli oxa tutsalar da, əl çəkilmir, durduğu şəkildə durmağına davam edir. Xəlifənin yanında dayanan Bəhlul Danəndə iki barmağını göstərir, o saat əl çəkilir, suda görünməz olur.

Xəlifə Bəhlula deyir ki, sən bu sirdən məni agah et, niyə belə oldu? Bəhlul cavab verir: - bu gözəgörünməz haqqın əli idi. Deyirdi ki, nə dərin fikrə qərq olmusan? Sizin beşinizin ürəyi birdirsə, mən də köməyə gəlim. Mən də cavabında işarə etdim ki, nahaq təşrif buyurma, hələ heç ikisininki də bir deyil...”

Bu qədim Şərq rəvayətini, bütün zamanlar üçün öz hikmətini, mənəvi dəyərini qoruyub saxlamış bu ibrətamiz hekayəti müəllif obrazın – Məftunun dilindən səsləndirir. Hətta bəzən oxucunun içindən bir səs keçir; bəlkə də Məftun müəllifin – yazıçının özüdür, prototipidir. Əsərin qəhrəmanı Məftun əyalət adamıdır və şəhərdə işləyir. Düşdüyü bu şərait ona nə qədər çətin gəlsə də, şəhər ab-havasına dözməli olur. Amma hələ ki, şəhər mühiti Məftunu “özününkü” edə bilməyib. Buna Məftunun daxilindəki hisslər – kənd təbiəti qədər ülvi, saf olan duyğular mane olur. Bu əsərin ən gözəl, ən yaddaqalan məziyyəti onun bütöv insani məzmununda; vacib insani qayğıların əks olunmasındadır. Surətin təsvirində, onunla bağlı bütün köməkçi vasitələrdə belə, məlum, tanış hadisələrə real, cəsarətli münasibət duyulmaqdadır.

...Yaradıcılığın gözəl təsadüfləri var. Bəzən nə qədər çalışsan da qəlbindən keçən fikri öz mahiyyətində, çalarında kağız üzərinə gətirməkdə zora düşürsən. Ortaya çoxlu suallar çıxır: Məftunu Zində dağının zirvəsinə qaldıran hisslərin kökündə nə dayanırdı? Məftun düşünən insandır. Düşüncələri onu hər zaman həm mənəvi, həm də fiziki yüksəkliyə çəkir. Sanki onun içərisindən bir hiss həmişə sahibini üzüyuxarıya dartır. Məftun həyata, dünyaya bir qədər ucalıqdan, ən azından öz

boyundan daha hündür bir yerdən baxmaq istəyir. Bir sözlə, həyatı ovuc içi kimi görməyə can atır. Bu nüansla bağlı ədəbiyyatşünas, professor Nizaməddin Şəmsizadənin fikirləri mənə maraqlı gəlir.

*"Məftunu dağa gətirən onun həm də dağlar oğlu olmasıdır. Dağlardan şəhərlərə gələn ziyalılar elə əslində qayaların göz yaşında bitən çiçəklərə bənzəyir. Şəhər onları soldurduqca onlar da öz saf təbiətləri və sərt xislətləri, nəhayət, ətirləri ilə şəhərlərin və cəmiyyətin ab-havasını təmizləyirlər. Təsadüfi deyil ki, Məftun məhz dağın zirvəsinə qalxanda keçmişi, tarixi və gələcəyi xatırlayır, axı zirvədən hər şey gözəl görünür:*

*Ətraf aləm aşağıda qalmışdı. Oradan hər şey – üstdən baxanda lap mazutlu gölməçələr də, çirkab bataqlıqları da, urbanizasiyanın ucqar dağ kəndlərindən qovub gətirdiyi adamların tikdiyi "gecəqondu", eybəcər evlər də- hər şey gözəl görünürdü."*

Yazıçı diqqəti hekayədə ikinci bir obraza yönəldir. Qayalar arasından böyük bir sevgi ilə həyata boylanan çiçəyə. Məftun qayadakı çiçəyə məftun olur, bir canlı varlığa, lap bir gənc qıza bənd olan təki. Sal qayaların yarıqlarında bitmiş əlvan çiçəklərin həyat mücadiləsi, quraqlığa, susuzluğa davam gətirməsi uğrunda, zərif bir çiçəyin mübarizəsi heyrət doğurur. Hekayədə müəllif həm də bu çiçəyin döyüşgən ruhunda milli həmrəyliyə çağırışa, mənəvi dəyərlərin qorunmasına, insan həyatındakı ətaləti öldürməyə, söndürməyə bədii sözün siqləti ilə nail olmağa cəhd göstərir. Qayada bitmiş çiçəklərə baxan Məftun, "bu çiçəklər qayaların göz yaşından su içib", deyə düşünür.

Belə mənzərələrlə biz də qarşılaşmışıq. Həyatda və təbiətdə oxşar mənzərələr insan oğlunun həyatı boyu rastına çıxır. Ancaq hekayənin baş qəhrəmanı Məftun səmimi duyğularla danışır: *"Bu çiçəklər bu qayaların arasında necə bitə bilərdi? Bu çiçəklərin toxumu buraya necə gəlib çıxmışdır? Orta məktəbdə, botanika dərslərində müəllimləri deyirdi ki,*

*bitgilərin toxumları külək vasitəsilə də yayılır. Toz-torpaq qayaların yarıqlarına dolub qalır. Yağan yağışlar daşlardan süzülüb bu toz-torpağı bərkidir. Bitki rütubət və günəşdən faydalanıb bir ovuc torpağın arasından göyərib qalxır..."*

İnsan-təbiət münasibətlərinə yazıçı baxışı, bu özlüyündə möhkəm əlaqələri cəmiyyət hadisələri ilə müqayisəyə çəkmək, nəticədə oxucuya sağlam qənaətlər hasil etməyə vadar etmək Hüseynbala Mirələmovun bütün bədii əsərlərinin tərkib hissəsidir, demək doğru olardı.

Təbiətin harmoniyasının pozulması, ətraf mühitin çirklənməsi, zay olması, eləcə də mənəvi ekoloji mühitin aşınması yazıçını daim narahat edən məsələlərdir. Bu narahatlıqlar təbii ki, yazıçını yazmağa, qələm çalmağa sövq edən ən güclü stimula çevrilmiş və müxtəlif əsərlərinin yazılmasına səbəb olub. Elə haqqında danışdığımız ilk hekayələri – "Qayada çiçək" kitabında toplanmış bədii nümunələr (hekayələr, rəvayətlər, miniatürlər) yazıçıda bu duyğuların erkən yaşdan başlandığına işarədir. "Qayada çiçək", "Qartal", "Meşədə tənha ev", "Tənha durna uçuşu", "Qayıtdı durnalar" və s bu qəbildən olan yığcam hekayələri əsas ideyanı qorumaqla yanaşı, yazıçının təbiəti mühafizə etmək missiyasını da ortaya qoyur. Necə ki, bu hekayələrin yazıldığı 60-70- ci illərdə "ekologiya" mövzusu heç də dəbdə olmayıb.

Görünür birmənalı qəbul etməli olsaq, həmin illərdə bizim ekoloji mühitimiz indiki qədər çirklənib pozulmamışdı da. O səbəbdən də həmin dövrdə belə mövzular aktuallıq kəsb etməyə bilərdi. Ancaq görünür, yazıçı mövzu aktuallığına qaçmadan içindən keçən həqiqətləri əsərlərinin canına hopdurmağa səy göstərib. Özünü zora salmadan səmimiyyətinə görə səmimi də qarşılanacağına ümidlənərək düşüncələrini açıqcasına qələmə alıb. O da böyük həqiqətdir ki, yazıçının getdikcə populyarlaşmasında, Azərbaycan ədəbi mühitində bunca tanınmasında, hətta müasir dünya çapında imzasının sevilməsində

malik olduğu səmimilik keyfiyyətinə güc verməsinin böyük rolu olmuşdur.

Mirələmovun bütün yaradıcılığında olduğu kimi ilk hekayələrində də tərənnüm etdiyi insan əzəmətli və gözəldir, müdrik və kamildir, həssas və qayğıkeşdir. Bu azman insanlar məhz öz tükənməz arzu və dilәkləri ilə, xasiyyət və davranışları ilə, amalları, canlı və koloritli boyaları ilə istər kiçik həcmli, istərsə də böyük əsərlərin baş qəhrəmanları və ya mərkəzi surətləri mövqeyində dura bilirlər.

Obrazın intellektual səviyyəsi, günün problemlərinin dərki, zamanın nəbzini tutma bacarığı böyük yaradıcılıq uğurudur. Bu və bunun kimi bədii örnəklərimizlə tanış olduqca sevinirsən ki, zəngin ədəbiyyatımıza, onun dolğun ənənələrinə sadiq olan qələm adamlarımız var, nə yaxşı ki, yazıçı postunda bu məsuluyyəti ürəkdən duyurlar.

Əsərlərə, kiminsə bədii yaradıcılığına münasibət bildirən yazılarımda heç vaxt sistematikliyi, ardıcıllığı gözləmək fikrində olmamışam. Nə də ki, əvvəlcədən düşüncəmdə müəyyən bir layihə hazırlayıb sonra yazmağa başlayım, belə də olmayıb. Necə düşünmüşəmsə, eləcə də yazmağa çalışmışam. Həm də nəzərə alsaq ki, H. Mirələmovun coşqun başlanğıc illərindən sonra 70-ci illər uzun və davamlı bir pauza sezilən mərhələsi gəlir ki, şübhəsiz bu yenidən gələn yaradıcılıq töhfələrinə qədərki hazırlıq döbrü deyə qiymətləndirmək olar. Bu minvalla **"Simuzər**"(1985) hekayəsinə keçməkdəyik. Güllə, barıt qoxusu gəlməyən "Simuzər" hekayəsi.

Doğrudur, bu hekayənin də canında qatillik var. Güllə hədəfinə tuş gəlmək, insanların bəd əməllərinin qurbanına çevrilmək var. Buradakı ölüm, buradakı faciə bilavasitə təbiətə yönəlmiş qəsddir. Təbiətin insan əli ilə başına gətirilmiş hadisələrin mənəvi miqyası "Simuzər"i ədəbi həyata gətirib.

Ekologiya normalarının pozulmasından, insanın təbii nemətlərdən həddən ziyadə israfçılıqla istifadə etməsindən daxili narahatlıq keçirən yazıçı "Simuzər"i həyəcanla qələmə alıb.

Əslində, bu həyəcan sətirlərin ruhunda oxucunun başına, gözünə "döyməklə" təsir altına salmaq vasitəsindən çox uzaqdır. Yazıçı həyəcanını psixoloji-lirik üslubda, həqiqətən də insanı xoş sözlə yola gətirmək məqsədi ilə qələmə alıb. Hekayə sanki kədərli, qüssə dolu bir hekayəti, insanı ağladacaq bir talenin əhvalatını danışacaqmış kimi başlayır:

*"Sular balıqların gecə harayını soyuq mart gecəsinin qoynunda üşümüş ucsuz-bucaqsız çölə danışırdı. Bu çöl uzaqlarda, ta gözişləməz uzaqlarda, hardasa suları duzlu olan bir dənizlə birləşirdi...*

*Kim bilir; bəlkə də balıqların göz yaşıdır dənizlərin suyunu şor edən..."*

Təbiəti, canlı aləmi, balıqları, quşları, kəpənəkləri və s. insana sevdirmək üçün "Simuzər" hekayəsi təbiəti qorumaq naminə yazılmış ən gözəl əsərlərdən biridir. Hekayənin adının "Simuzər" qoyulması da ideyaya təsir edən vasitələrdən biridir. Yazıçı balığa Simuzər deyir. Anasının uşaqkən ona danışdığı nağılları yada salır. Anası deyərmiş ki, balıq Simuzərdir, Simuzər isə günəşə, ay işığına, ulduzların ziyasına bürünmüş bir xoşbəxtlik, səadətdir. Simuzər gələcəyə işıqlı bir ümiddir. Simuzər nakamlara bir kamdır, açıq bəxtdir. Xoşbəxt bir yuxudur. Elə bir yuxu ki, kim o yuxuda balıq görsə bütün arzusuna, kamına çatacaq. Övladsızlara övlad qismət olacaq. Qızların bəxti açılacaq, oğlanlar qismətlərinə qovuşacaqlar. Balıq – uğur simvoludur.

Hekayədə göstərilir ki, balıq vətəgəsinə keşikçi təyin olunmuş qoca bir kişi balıqların kütləvi şəkildə ovlanmasında, kuzovlu maşınlara yüklənib bazara daşınmasında özü də iştirakçı qismindədir və bu talan olan sərvətdən qocaya da pay düşür. Ona görə də qoca hər gecə-gündüz, vaxt-bivaxt gözünün önündə baş verən balıq qətliamına göz yumur. Balıqlar isə haray çəkir, fəryad qoparır. Lakin insan oğlu bu fəryadı eşitmir. Eşidirsə, görürsə də qulaqardına vurur. Axı qarın qardaşdan irəlidir... Yazıçı düşünür ki, bu qoca yaşına yaraşmayan qara

niyyətlər ustası olan qocanı cəzalandırsın. Balıqların dad-fəryadına, harayına yetmək, insanlığın bəsirət gözünü açmaq, yatmış vicdanları oyatmaq üçün qoca cəzalandırılmalıdır. Amma elə bir cəza ki, bu doğrudan da, təbiət qatillərinə bu, ibrət dərsi, görk olsun. Yazıçı qocanı torda çabalayan, nəfəsi daralan, qəlsəmələri getdikcə daralmağa başlayan özü kimi qoca bir balığa çevirir.

Qoca yatmışkən, yuxulu vəziyyətdə bu girdaba düşür...

Yazıçı klassik ədəbi priyomdan sitifadə edərək qocanın gördüyü yuxunu nəql edir. Yuxuda gözəl, abırlı, ismətli bir gəlin yaxınlaşır qocaya. Gəlin balıq qiyafəsində idi. Qəşəng üzgəcləri olan, gümüşü quyruqlu bir gəlin. Balıq-gəlin qocanı ittiham edirdi. O, bir aqil müəllimə çevrilib deyirdi: "dağların, qayaların, sərt küləklərin, ildırımların, mülayimliyin, qayğının, qəddarlığın, amansızlığın əkiz qardaşıdır insan. Həm ürəyi yanan, həm də amansızdır o. Neçə illərdir ki, tanıyırıq səni. Ürəyin nə yaman daşdan imiş sənin. Bu illər ərzində bizim fəryadlarımız zərrə qədər yumşalda bilməyib səni. Gözlərini həmişə bir mart səmasıtək boz və bulanıq görmüşük sənin..."

Bu gedişlə insan təbiətinin ziddiyyətli xarakterini misal gətiridiyimiz bu yığcam parçada görə bilirik. Doğrudan da, insan həm amansız, rəhmsiz qatil, həm də bunların əksi ola bilir. Balıqların dili ilə insanı qınamaq, daha doğrusu ittiham etmək ədəbi tərbiyənin yaxşı nümunələrindəndir. Qəribədir ki, yazıçı balıqları zərif qızlara bənzədir. Qocanın yuxusuna gəlmiş balıq-gəlin qəlbinin ağrılarını daha sonra belə ifadə edir:

*"Bizə qarşı insanların münasibəti pis, amansız olur. Həyatımıza hər gün, hər an qəsd edilir. Ömür-günümüz vaxtsız sönür. Bizi həyatdakı, yan-yörənizdəki qızlar-gəlinlər qədər niyə sevmirsiniz, qoca?! Axı qızlar-gəlinlər el-obaya kəsik sayılır... bunu bilməyən yoxdur. Çətinə düşəndə qızlar qayğıya bürünür, qızlar köməyə bələnir. Çünki kəsikdi qızlar, zərifdi qızlar..."*

Söz – gücdür... sirrdir. İnsanın qəlbinin həssas nöqtəsinə toxunan yazıçı obrazın dili ilə soruşur: hanı qızıl balıqlar, şamayı, hanı xan Ziyadlar, hanı Xəzər sıfı, kütümü? Yadıma Məmməd Araz düşür:

*Nə deyək sabahın nəvələrinə,*
*Deyəkmi qum yeyin kürü yerinə?*

Gözlərimiz önünə Xəzərin neftdən, paytaxtın tullantı, çirkli axıntı sularından çirklənmiş, qaralmış üzü gəlir. Xəzər bizə sərvət ötürdükcə, damarlarından dünya ölkələrinə dəmir borularla qara qızıl, neft verdikcə öz üzü qaralır. Bizim yerimizəmi xəcalət çəkir? Hələ indi yaxşıdır. Adamın üstündə Allah var, gərək insafını unutmayasan. Bir neçə il bundan əvvəl Xəzərin sularında, milli parkda sahil boyu sularda üzən ən müxtəlif əşyalar diqqət çəkirdi. Yağ çəlləkləri, dəmir konserv qutuları, sollefan torbalar, iri mazutlu taxta parçaları... nə desən rast gəlmək olardı. Suyu da öz maviliyini tamam itirmişdi. "Mavi Xəzər" ifadəsi əsəbi, acı, yaxşı halda isə istehza hədəfinə dönmüşdü. Nəhəng mazut gölünə çevrilmiş Xəzər indi isə xeyli təmizlənib. Xəzərin suyunda, rəngində də təmizlənmə, durulma müşahidə olunur. Görünür, Xəzərə axıdılan çirkab suları da müəyyən qədər təmizləndikdən sonra dəryaya buraxılır. Hər halda bütün bunların başında diqqət, qayğı durur və təbii ki, hökümətin, prezidentin ekologiya ilə bağlı verdiyi sərəncam və tapşırıqların təsiri özünü ciddi şəkildə göstərir.

Beləcə "Simuzər" hekayəsi düşündürə bilir. Təkcə balıqları, onların yaşadığı mühiti qorumağı yox, onu əhatə edən bütöv həyatı insanın yadına salır. Son nəticədə torun içərisində çırpınan qoca yuxudan ayılır. Bütün mənzərəni beynində işıqlandırmış balıq qətlimanın həyata və insana ağır zərbələrini dərk etmiş qoca keşikçi hövlnak yerindən qalxır. Görür ki, qantərin içərisindədir. Kürəyindən su axır. Az qala ağlını itirəcəkdi; dərhal tüfəngini götürüb dənizə balıq üçün gələnlərə atəş

açır. Balıq taylarını maşınlara boşaldanlar da belə düşünür və həyəcan içərisində "yəqin qocanın başına hava gəlib", – deyirlər. Qoca isə keçmişdəki günahlarını yumağa, səhvlərini düzəltməyə çalışırdı. Odur ki, üzünü balıq qatillərinə çevirir, "Dayanın!" – deyə qoca var gücü ilə bağırır. Özündən asılı olmayaraq gecənin qaranlığında göyə üç güllə boşaldır. Adamlar donub qalırlar. Qocanın bu hərəkətləri onlara yersiz, gülünc və qəribə gəlir. Axı həmişə qocanın özü də bu onlarla əlbir olub bu qanlı "tamaşa"da baş rolda oynamış, əsas işləri icra etmişdi. Görəsən, indi ona nə olmuşdu? Qoca onlara yanaşıb hönkürürmüş kimi: - "boşaldın balıqları... boşaldın!"...

Qoca bu qoca yaşında bir uşaq kimi sanki təzədən doğulmuşdu. Yəqin ki, əsərin bu məqamı yazıçını, ardınca oxucusunu da mənəvi səadətə qovuşduran anlardan sayılmalıdır. Yazıçı bir "ürək loğmanı" olub canini, bir qatili, insanlığını itirmiş bir acgözü islah edib əslində. Amma məsələnin daha böyük tərəfləri var. Xırda bir hekayə yüzlərlə, minlərlə adamı islah edə bilər. Sözün mənəvi qüdrətinə arxalanan yazıçılar cəmiyyətin mənəvi keşikçiləridir.

"Simuzər" hekayəsi ekologiya qayğılarımıza həsr edilmişdir. Hər kəsin tez həmfikir olub ayağa qalxdığı və təəssüf ki tez də həvəsdən düşüb soyuyub biganələşdiyi ekologiya probleminə.

...Ədəbiyyat, söz, sənət, sənətin ecazkar təsiri olmasa insanlıq qədərindən artıq axsayar. Onsuz da dünya miqyasında ədəbiyyat bütün qüvvəsini ortaya qoysa da, insana yetərincə təsir edə bilmir. Ölkədə bu qədər maariflənmə işləri aparılır. Müxtəlif elm, təhsil ocaqları fəaliyyət göstərir. Ölkənin mədəni inkişafına, onun intellektual mədəni səviyyəsinin yüksəlməsinə təsir edə biləcək yüzlərlə, minlərlə pedaqoq, psixoloq, sosioloq, politoloq, bioloq ordusu çalışır. Çalışır ki, insan yolunu haqqa tərəf salsın. Amma nədənsə, sanki planetin adamlarının gözlərinə dumandan pərdə çəkiblər. Çoxları yolunu tapmaqda çətinlik çəkir, özü üçün bu yolu tapmaqdansa azmağa üstünlük verir.

Bilmirəm, insanları bu qədər qəddarlaşdıran, eyni zamanda bu qədər cılızlaşdıran nədir?!

Həyat sərt ola bilər, həyat insana öz qəddar sifətini göstərə bilər. İnsan çətinliklə yaşayıb hətta ömrünü başa vurana kimi onun əzablı yolları tükənməyə bilər. Amma bu çətinliklər, həyatın sərt üzü onu mənfiliyə, eybəcərliyə doğru bu qədər dəyişdirə bilməz, o heç bir səbəb ucundan "dünyanın əşrəfi" ola bilmə imkanını itirməyə haqqı yoxdur. Bir halda ki, böyük yaradan "insandan gözəlini yaratmadım", – deyir və qələmini sındırır ki, ondan güclüsünü, gözəlini, artığını yaratmasın daha. İnsan isə tamam başqa yol seçir. Bu bədbəxtçilikdir, mənəviyyatın iflasıdır; buna yalnız təəssüflənmək olar. Bu məqamda səmimi bir insan olan uşaq qədər saf, kövrək bir qəlbin sahibi qələm dostum Fariz Çobanoğlunun hər bir kəsi mütəəssir edən "xatirat"ından xatırlamaya bilmirəm.

Sosial şəbəkələrdə paylaşılan videolara baxıram. Heyvanları işgəncə, min bir əzabla öldürən "manyak"lar bu işdən necə zövq alırlar, yaxud, bununla cəmiyyətə hansı mesajı ötürmək istəyirlər?! Bu yaxınlarda sosial şəbəkədə bir dəhşətsaçan görüntüyə rast gəldim. İki nəfər iti tovlaya-tovlaya ona yaxınlaşır. İt insanın səmimiyyətinə arxalanır. Bəlkə də düşünür ki, ona sahib duracaq, yem verəcəklər.

Amma bu qansız adamlar əvvəlcə itin başını sığallayır, sonra isə onun kəlləsinə ardıcıl bıçaq zərbələri endirirlər. İt onların əlindən çıxıb yalnız beş addım qaçabilir, dayana bilmir, yerə sərilir. Sonra da bu amansız qatillər itin başını kəsirlər. Bəlkə də onlar üçün bu bir təcrübədir. Bu əməliyyatı kiməsə tətbiq etmək dərsini öyrənməkdir.

Elat adamlarında, xüsusilə tərəkəmə həyatı yaşayanlarda müşahidə etdiyim qəddar bir hərəkət yadıma düşür. Bu da insanın, onun təsərrüfatını, varını qoruyan itlərə qarşı əməlidir.. Uşaq vaxtlı belə hadisələri çox görmüşəm. Yenicə küçükləmiş itin balalarını kisəyə yığıb qazdığı çalada dirir-diri basdırıblar. Bəlkə üç gün torpaq qalxıb-enib. Ordan hələ dünyaya gözü

açılmamış küçüklərin tükürpədən zingiltisi eşidilib. Bu nə adətdir, sədaqət rəmzi kimi qələmə verdiyimiz itlərə insanın sədaqətidirmi bu?

İstedadlı yazıçı, elat həyatının yaxşı bilicilərindən olan Şərif Ağayar da bu barədə olan müşahidəsini yazmışdı. Kəndə qardaşıgilə gedibmiş. Bir az əsəblərini sakitləşdirməyə, bir az da təmiz hava almağa... Amma gördüyü hadisə onu mütəəssir edib:

"Əsəb həkimi mənə təmiz hava buyurdu. Qarabağa getdim. Orda qardaşımın daxalı var. Ağ Göl qoruğuna yaxın... Səhərlər tez qalxıb idman edirdim. Bir gün gördüm qardaşım köşküldə balaca, yumruq boyda it balalarını aparır. Dalınca düşdüm. Gördüm yavrucuqların üçünü torpağa basdırdı. Dəliyə döndüm! Mane olmaq istədim. Alınmadı. Sonra it gəldi. Hinə girib burnu ilə balalarını saydı və həyəcanla bayıra çıxdı. Onun içində elə bir sakit zingilti vardı ki, ifadəyə gəlməz. Əvvəl özünü tövləyə atdı, sonra daxmaya tərəf qaçdı. Quyruğu ilə evin qadınından mərhəmət dilədi. Laqeydlik! Özünü ot tayasına çırpdı, kərmələri yaladı, hinə girib bir də çıxdı, sonra bütün tikililərin dibi ilə sülənməyə başladı. Axırı qardaşımı tapıb üstünə sırmandı. Həmin zingilti də içində... Qardaşım itə təpindi. İt məni adam yerinə qoymadan zingiltisini də götürüb qeyb oldu. Qışqırdım, "Vəhşisən" dedim. Qardaşım təmkinlə buyurdu: "Ə, səyləmə, get dərmanını at! Biz həmişə belə eliyirik. İt özü bilir. "Getdim... İndi o çarəsiz zingilti səsini insanların içindən eşidirəm..."

Belə ağrılı, təbiətin qəsdinə yönəlmiş həyat hadisələri göz yaşlarına səbəb olur. Görünür elə o səbəbdən də yazıçı dəryaların suyunun şor olmasının səbəbini sulara axıdılan göz yaşlarında görür. "Simuzər" hekayəsinin son sətirləri yadıma düşür. "Kim bilir, bəlkə də balıqların göz yaşıdır dənizləri duzlu edən..." Həqiqətən Nazim Hikmət demişkən imzasını görmədən də üslubunu tanıdığın qələm adamı var...

Məcazi mənada səslənsə də, hər bir məcazı yaradan bir həqiqət də var: "Çaylar göz yaşı kimi bulaqların suyudur, cəmlənib bir yerə – dənizə axır. Göz yaşı dedim, bir anlıq xatırladım ki, axı göz yaşı duzlu olur. Qəribədir, ağlamağın, qəhərin, qüssənin dadı, tamı da deməк duzlu olur."

Yazıçıdamı belə düşünüb?! Çaylar dənizə axanda suları niyə dönüb duzlu olur? Oxucunun düşündürmək də elə budur. Yazıçı dənizlərin duzlu olmasının elmi izahını bilir. Və bilməmiş də ola bilməz. Çünki o, həm də elm adamıdır. Elmin içərisindən gəlib ədəbiyyata. Onun "İnşaat fizikası", "Qaz kondensatları" elmi-metodik kitabları, "Karbohidrogen qazlarının emalının texnoloji sxemlərinin atlası" kimi dərs vəsaitləri çap olunub.

Demək istəyirəm ki, Hüseynbala Mirələmov suyun əmələ gəlməsini, suyun təkibini, dəniz suyunun nə üçün şor tamı verməsini əlbəttə ki, elmi səviyyədə bilir və ədibin sabit, möhkəm elmi baxışlara sahib olması onun sənət xarüqələri yaratmasına ciddi təsir etmişdi. Hekayənin bu notla başlaması və bitirməsi də qarşıya qoyduğu məqsədə xidmət edir. Ekologiya mövzusu yazıçının bir çox əsərlərində qoyulub və aparıcı xətt kimi zaman-zaman daha qlobal səviyyədə oxucuya çatdırılır. Nizami Cəfərovun "Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı" əsərinə yazdığı "Ön sözü"ndə ədəbiyyatşünas İsa Həbibbəyli yazıçının kiçik həcmli əsərlərini nəzərdə tutaraq yazırdı: Həqiqətən yazıçının yaradıcılığında həyatın povest miqyasında qavranılması və təqdim edilməsi cəmiyyət həyatının seçilmiş həqiqətləri əsasında nisbətən yığcam halda, lakin dərin və əsaslı fikirlər irəli sürməyə şərait yaradır. ... Bu əsərlər bütövlükdə yaşadığımız epoxanın daxili gərginliklərini və mənəvi dərinliklərini tam halda özündə əhatə edir; oxucuya söz deyir.

# İnsan olmanın şərəfi və möhnəti

Azərbaycan yazıçılarının XII qurultayında müasir gəncliyin ən çox sevdiyi şairlərdən biri – Ramiz Rövşənin söylədiyi maraqlı bir fikir: "kimi deyir ki, yazmaq üçün istedad gərəkdir, kimi zəhməti misal gətirir, kimi də istedadla zəhmətin vəhdətindən danışır. Mənim üçün yazmağın bir açarı var – o da səmimiyyətdir. Düşündüyünü olduğu kimi yaza bilsən, daha sadəsi düşündüyün kimi yazsan, orjinal forma, üslub və yeni fikir ortaya qoymuş olursan" iştirakçıları düşünməyə-daşınmağa çəkdi.

Bu fikrə qüvvət olaraq deməliyəm ki, Hüseynbala Mirələmov əlinə qələm götürəndən səmimiyyət və xeyirxahlıq yolunu tutub getməkdədir. Onu tanıyan belə tanıyır. Bilən bilir ki, ədibin həyat yolu ilə bədii yaradıcılığı arasında sıx vəhdət özünü göstərir. Odur ki, onun yaradıcılığında oxucuları ən çox cəlb edən yazıçının müdrikliyi və səmimiyyətidir. Bu həqiqətən belədir və bu, təsadüfi hal deyildir. Yazıçını tədqiq edən professor N.Şəmsizadə dəqiq müşahidələrilə bunu nəzərdə tutaraq fikrimizi təsdiqləyən sərrast ifadələr ortaya qoyur: Mirələmov öz şəxsiyyətinə layiq yazıçı, ictimai xadim, təşkilatçıdır. O Milli Məclisin üzvü kimi geniş ictimai iş aparır; əsil ziyalı və vətəndaş kimi xalqına xidmət edir. Hüseynbala Mirələmov yüksək dövlətçilik duyğusuna malik kamil şəxsiyyətdir. O səxavəti və xeyirxahlığı ilə nisgilli ürəkləri mərhəmət nuruna qərq etməyi bacaran humanist və nəcib bir insandır. Bütün bunlar dünyanın ən nəcib sənəti olan yazıçılıq sənəti üçün başlıca şərtlərdir.

Hörmətli ədəbiyyatşünasımızın fikirlərinin davamı olaraq deyə bilərik ki, yazıçının malik şəxsi kefiyyətləri onun yaradıcılığına heyrətamiz dərəcədə sirayət etmişdir və nəticə olaraq

tam dəqiqliyi ilə: Mirələmov humanist sənətkardır, deyə bilərik. Yazıçının humanizmi haqqında söylənilənlər heç də gəlişi gözəl sözlər deyil, yazıçının humanizmi öz qaynaq və bünövrəsi ilə xalqı ilə saxladığı möhkəm tellərlə hörülmüş əlaqələrdədir. Doğma xalqının sevinci onun sevinci, dərdi,qəmi onun dərd-qəmidir.

Nə qəribə bir hal ki, faktlar insanın qollarını bağlaya, bağlaya bildiyi kimi də aça bilər. Doğrudan da, faktların gücü qarşısında insan acizdir. Dünya şöhrətli amerikan yazıçısı Cek London *"faktlar mənim allahımdır,"* deyəndə çox haqlı imiş. Hüseynbala Mirələmovun xeyirxah əməllərinin cəmiyyət, insanlıq, milli mənafe, mənsub olduğu xalqın, millətin taleyi yolunda gördüyü işləri hesaba çəkməklə, yazmaqla qurtaran deyil. Ortada bir fakt var ki, onun yaradıcılığı, böyük sənəti haqqında yazılmış monoqrafiyalarda, elmi və ya publisistik məqalələrdə, ən müxtəlif mətbuat orqanlarında dərc olunmuş yazılarda təkcə yazıçının əsərlərinin bədii gücündən söhbət getmir, həm də müəllifin daxili dünyası, şəxsiyyəti araşdırılır, yazıçının mənəvi aləminə Azərbaycanın tanınmış elm və sənət adamları tərəfindən böyük dəyər verilir.

Sözümüzün bu yerində şair Əli Mahmudun yazıçıya həsr etdiyi "Dərdimin şəriki" poemasından misralar xatırlanır. Yeri gəlmişkən, bu əsərdə də H.Mirələmov geniş ürəkli, müdrik düşüncəli, təmkinli və ədalətli bir insan kimi qələmə verilir. "Dərdimin şəriki"ni ərsəyə gətirən Əli Mahmud dostunun köksü altındakı ürəyinə "Azərbaycan" deyir və bütün poema boyu Azərbaycan adlı bu ürəyin odundan, hərarətindən bəhs edir.

*Köksün altda bir ürək var-*
*Azərbaycan adlı ürək.*
*Göyçə getdi, Şuşa getdi,*
*Haray çəkdin hönkürərək.*

*Xocalını yağı düşmən,*
*Alovlara qalayanda,*
*Laçın adlı, Ağdam adlı*
*Gülüstanı talayanda.*

*Qeyrətinlə, heyrətinlə,*
*Gəldin elin köməyinə.*
*Dözəmməzdin Qarabağda*
*Çıraqların sönməyinə...*

Üstündən illər ötsə də, heç nə bu misraların daşıdığı həqiqətin üstünə qara pərdə çəkə bilməz və heç bir qüvvə bu həqiqəti nə poza, nə gizləyə bilməz. Qarabağ döyüşləri başlayanda Ermənistan ordusu (yaxşı olar ki, bu murdar qan içənlərə ordu yox, terrorçu, quldur yığnağı, başkəsən şaykası deyəsən), daha doğrusu, xalqımızın qanına susamış erməni terrorçuları Azərbaycan torpaqlarına öz qara əllərini uzadıb, tarixi ocaqlarımızı qana boyayanda Qaz Emalı zavodunda rəhbər vəzifədə çalışan Hüseynbala müəllim Qarabağ torpaqlarını oba-oba, mahal-mahal, kəndbəkənd gəzib-dolaşaraq soydaşlarımıza mənəvi dəstək olmaqla yanaşı gücü, imkanı daxilində maddi yardımlarını da əsirgəmirdi.

Elə o səbəbdəndir ki, müharibənin ağrı-acısını yaşamış, ürəyinə dağ basılmış Qarabağ camaatı bu xeyirxah insan, gözəl yazıçı, fədakar iş adamı haqqında hər zaman harda olmasından asılı olmayaraq həmişə ürəklə danışır, təsirli, qəlboxşayan xatirələr söyləyirlər. Çünki yaxşılıq, o cümlədən yaxşılar heç vaxt özünün mənəvi dəyərini itirmir. Ulu babalarımız "balığı at dərayaya..." nəsihətini əbəs yerə yaddaşımıza həkk etməmişlər ki... Çünki həmin anda yaxşılığın artıq iki şəkildə, amma bir-birinə zidd şəkildə dəyərləndirilməsi yada düşür: təmənnalı və təmənnasız. Deməyə nə hacət ki, təmannalı yaxşılığa yaxşılıq deməyə dilin gəlmir. Çünki bu işdə təmənna, xeyir güdülən, mənfəət gözlənilən "yaxşılıq" yaxşılıq deyil, heç vaxt da ola da

bilməz. Yaxşılıq etmək istəyi bir sevgidir, bir eşqdir ki, insan öz qəlbindən gələn bu arzu-istəyi elə sevgiylə də, öz odlu bir ürəyinin söylədiyi bir nəğmə kimi paylamalı, xoşbəxtlik müjdəsi kimi ətrafa saçmalıdır.

H.Mirələmov... suyu dumduru, şəffaf, qidasını qaynar bulaqların gözündən alan dağ çayı kimi eyni məkan, məskən tanımır, daim çağlayır. Axı o böyük əməllər, ülvi ideallar carçısıdır və haqlı olaraq dərin nəhrlərə can atır (Ağacəfər Həsənli.)

Neçə-neçə illər bundan əvvəlin xoş niyyətli, səxavətli yaxşı kişiləri, onların bizə miras qoyub getdiyi xeyirxahlıqlar, yaxşılıqlar bu gün də yaddaşlardan silinmək bilmir, bu baxımdan onların adlarını, əziz xatirələrini tarix kitablarımız, müxtəlif tədris vəsaitləri, habelə yazıçıların, şairlərin bədii irsi gələcək nəsillərə də ötürür.

Sözü yaxına çəkirəm; Hüseynbala Mirələmovun Azərbaycan ziyalılarına, maddi vəziyyəti çətin olan, imkanları məhdud yazıçı-şairlərə, ən müxtəlif sənət sahəsində çalışan insanlara göstərdiyi qayğı, verdiyi dəstək həm də cəmiyyətimizin inkişafına təkan vermək, onun yüksəlişinə ciddi kömək deməkdir. Bunun kiçicik bir örnəyini göstərməli olursaq, deyə bilərik ki, respublikada ictimai mühitin dirçəldilməsində müstəsna rolu olan mətbuat orqanlarının – bir çox qəzetlərin uzun illər işıq üzü görməsində, ədəbi-bədii və elmi jurnalların dərc olunmasında birbaşa yardımı olmuşdu.

Bu barədə onun özünü dinləyək: "Mənim fikrimcə, xeyirxahlığı, xüsusi məqsəd üçün, kiməsə xoş gəlmək naminə etmək mümkün deyil. Bu gərək insanın qanında, canında olsun; ürəkdən gəlsin. Mənə elə gəlir ki, yaxşılıq etmək missiyası Tanrı tərəfindən insana ömür payı ilə birlikdə verilir. Bu ömrü ləyaqətlə yaşamağı bacaranlar hər yerdə yaxşı olmalı, etdiyi yaxşılığı gündəlik həyatının tərkib hissəsinə, onun bir elementinə, bəlkə də daha mükəmməl şəkildə ifadə edilsə, yaşam tərzinə, mənasına çevirməlidir".

Əgər belə, öz dediyi şəkildə olmasaydı Hüseynbala Mirələmov təkcə əsərlərinə görə yüzlərlə istedadlı yazıçının, ədəbiyyat adamının içərisində seçilməz, bu qədər sevgiyə də layiq olmazdı. O, yalnız özündə sənət və şəxsiyyət meyarlarını uğurla birləşdirə bildyi üçün yaddaşlarda, insanların mənəvi dünyasında bu qədər dərin iz sala bilmişdir.

İz salmaq demişkən, bu anda yenə onun "İzlər" hekayəsi yada düşür. Hekayə müharibə ağrılarını bir daha göz önünə gətirir. Mənim üçün maraqlı olan odur ki, 14-15 yaşlı bir yeniyetmənin müharibəni bütün təfərrüatı ilə duyması, atəş səslərinin, güllə, mərmi yağışlarının çalpaşıqlığı içindən keçirməsi təəccüb yaradır. Heç yetkin yaşlarına çatmış insanlar belə bəzən müharibə dəhşətlərini, gətirdiyi fəlakətləri duymaqda, dərk etməkdə, dəyərləndirməkdə aciz olurlar. Ancaq şəhərdən, paytaxtdan çox-çox uzaq ucqar bir dağ kəndində boya-başa çatmış bir gəncin belə mövzulara müraciət etməsi, insanı titrədəcək, duyğularını sarsıdacaq bədii örnəklər ortaya qoyması sözün həqiqi mənasında böyük istedadın, həm də böyük insanlığın göstəricisidir. Təbii ki, təkcə istedadla da sözün ruhunda əbədi yaşamaq hüququna yetmək mümkünsüzdür. Gərək bu istedadın üzərinə zəhmət işığı da düşsün.

Ədəbiyyatın, sənətin, ulu sözün böyük məqsədi ilk növbədə insanı tərbiyə etmək, yetişdirməkdir. İnsanı öz ilk baharının yaşıl bir ağacı kimi becərməkdi. Bədii təcrübələrində sənətkar mənəviyyatlarda silinməz izlər qoymaq, bəşəriyyətə sevgi aşılamaq, insana üstündə gəzdiyi torpağı canı kimi qorumağı öyrətməkdir. Bir sözlə, hər cürə qəddarlığı ürəyimizdən qoparıb atmaq istəyi ədəbiyyatın əzəli və əbədi amalıdır. Yazıçılar, söz sahibləri zaman-zaman bu arzunun gerçəkləşməsi uğrunda fədakarlıqla çarpışıblar.

... Hüseynbala Mirələmov haqqında mən biləni, 20-yə yaxın kitab, yüzlərlə məqalə yazılıb. Böyük heyranlıqla yazıçının istedadından, şəxsiyyətindən bəhs edən Türk dünyasının nəhəng siması Çingiz Aytmatov yazır: "Hüseynbala ilə hər gö-

rüşəndə ondan yüksək enerji qəbul edirəm. Mənən bəhrələnirəm. Çingiz Aytmatov və Azərbaycanın çağdaş nasiri Hüseynbala Mirələmov yaxınlığı, dostluğu (təsirli bir fakt: mərhum yazıçı öz əlyazmasını avtoqrafı ilə birlikdə Hüseynbala müəllimə yadigar vermişdi) bilavasitə, Azərbaycan yazıçısının özünəməxsus yerini, cəmiyyətdəki mövqeyini, şəxsiyyətin mənəvi mərtəbəsini göstərən faktlardandır. Təkcə bununla bitmir. Hələ demək istədiklərimiz var: Bir az öncə də dediyimiz kimi, insan taleyinin tərcümanı olan Hüseynbala Mirələmov haqqında, onun çox tez gözə çarpan ümdə xüsusiyyətləri, ən çox da fədakar xüsusiyyətləri haqqında görkəmli adamlar – sənətşünaslar, ictimai xadimlər, elm adamları, musiqişünaslar dəyərli fikirlər söyləyiblər.

Bu mövcud fikirləri balaca özətləmiş şəkildə verdikdə nədənsə Qabildən, onun sözündən başlamaq istədim. Etiraf edək ki, xalq şairi Qabil tərifi, vəsfi çox xəsisliklə verər, hər kəs haqqında xoş sözlər deməzdi. Özünün bu sahədə sanki ölçüsü, meyarı var idi. Lakin sözü birbaşa üzə demək də Qabil təbiətinə xas keyfiyyətlərdən idi. Unudulmaz şair yenə də cəsarətli fikirlərindən, rəylərini üzə deməkdən qalmir və yenə özünəməxsus tərzdə deyirdi: "Yer üzündə yazıçı-şair çoxdur və Hüseynbala da bunlardan biridir. Yazıçını bəyənmək də olar, bəyənməmək də. Əsas şərt insanlıqdır ki, bu da mənə görə Hüseynbalanın ən gözəl məziyyətidir". Dost, yoldam Hüseynbala müəllim üçün böyük bir dəyərdir; odur ki, onun əsərlərinin bir çoxunu ünvanlı ithaf ədəbiyatı sanmaq olar: Yazıçı Çingiz Aytmatova, Anara, Bəxtiyar Vahabzadəyə, Bülbülün həyat yoldaşı Adilə xanıma və s.

AMEA-nın üzvü, görkəmli tənqidçi Nizami Cəfərovun fikri də H.Mirələmov şəxsiyyəti və yaradıcılığının cəmiyyət üçün nə qədər faydalı olduğunu göstərən ziyalı düşüncəsidir: "Hüseynbala Mirələmov əsərlərində yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas – mütəfəkkir kimi də irəli gedir. İnsanlığın, xüsusən yeni həyat tərzinə başlamış Azərbaycan insa-

nının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsarətlə açıb göstərir. Bu, XXI əsrin yazıçısı üçün əsas şərt və vacib əməllərdən biri sayılmalıdır.” Cəsarət kimi vicdani keyfiyət haqqında nə demək olar daha?! Hüseynbala Mirələmov yazıçı qeyrətinə, qələm sədaqətinə malik sənətkardır.

Yazıçının gənclik illərində yazdığı hekayələrini oxuyarkən anlayırsan ki, sujeti, lakonikliyi, sadə, oxunaqlı üslubu və təhkiyəsilə seçilən bu əsərlər gələcəkdə iri həcmli povestlərin, romanların, dram əsərlərinin, tarixi-bədii nəsrinin yaranmasına, formalaşmasına qapı açacaqdır. Nizami Cəfərovun dediyi kimi, Hüseynbala müəllim ilkin hekayələrindən də cəmiyyətlə bir mövqedə dayanması gündəmə gətirdiyi mövzulardan bəllidir.

1987-ci ildə yazdığı “Qartal” hekayəsi bu baxımdan fikrimizi təsdiqləyir. “Qartal” hekayəsinin də bir sadə sujeti var. Hekayənin qəhrəmanı yazıçı Toğrul Aydəmirdir. Toğrul Aydəmir kasıb bir ziyalıdır. Çörəyini qələminin gücü ilə, yazdığı əsərlərin qonararı ilə qazanır. Başqa heç bir gəliri olmasa da, könlünü sözə vermiş bu gözütox yazıçı ildə bir neçə kitab çıxarmaqla ailəsini dolandırır. Elmin, ədəbiyyatın, sənətin bütün sahələrinə bələddir. Fəlsəfəni gözəl bilir. Bu həm də o deməkdir ki, Toğrul Aydəmir həyatı da, cəmiyyəti də qədərincə anlayır.

“Qartal” hekayəsi Sovet dövründə rejimin çöküb dağıması ərəfəsində yazılıb. Buna baxmayaraq yenə də o dövr üçün bu həqiqətləri demək çətin idi. Fəqət, yazıçı “Qartal”da Sovet cəmiyyətinin yararsızlığını, çürüklüyünü, bu saxta quruluşun heç də uzun sürməyəcəyini göstərmişdir. Bir şey aydındır ki, sözə-sənətə, ziyalı düşüncəsinə, insan idrakına, alim əməyinə, elm araşdırıcılarına qiymət verməyən cəmiyyət iflasa uğramalıdır. Necə ki, bir tarixi zaman kəsiyini təşkil edən 70 illik “Sovet” adlı Rus imperiyası çökdü.

Toğrul Aydəmir də imperiyanın verdiyi mənəvi əzabları yaşayan ziyalılardan biridir. Ona hər şey məlumdur. Hökumətin yeritdiyi mürtəce siyasətdən, gizli irtica tədbirlərindən də

yaxşı xəbərdardır. Azərbaycanın milli dəyərlərinə vurulan ağır mənəvi zərbələrdən də agahdır. Ancaq buna baxmayaraq bir çox hallarda susmağa üstünlük verir. Çünki dilinin başına bəla olacağını da qabaqcadan görür. Lakin yazmaya bilmir; yalnız öz əsərlərində sətiraltı düşüncələrlə qəlbinin ağrısını azaltmaqla məşğuldur.

Hekayə birbaşa müəllifin dilindən nəql olunur. Bu qəhrəman da öz həyatı və mübarizə təcrübəsinə görə elə yazıçının özüdür; hiss etmək çətin deyil. Bildiyimiz kimi, Hüseynbala Mirələmov özü də ziyalı; qaz mühəndisi, texnika elmləri doktoru, professordur. Lerik dağlarının səfalı bir guşəsində – qədim Nuravud kəndində doğulub. Onun dağların saf təbiətinə uyğun xasiyyəti var. Elə hekayədə də qeyd edir ki, doğma Lerikin kiçik səfalı kəndlərinə daha çox yolu düşür. Hər dəfə də bu sərt yerlərin təbiəti, meşələri, cığırları, qədim qəbristanlıqları və nəhayət, bulaqları onu heyran qoyduğunu deməkdədir . Lerik dağlarına qaz çəkilşini planlaşdıran yazıçı-mühəndis Toğrul Aydəmiri də özüylə götürür ki, əhvalı dəyişsin. Gündəlik ehtiyaclarını zorla ödəyən yazıçının da dilinə təbii qidalardan ildə heç olmasa bir dəfə də olsa dəysin.

Yol boyu çox maraqlı söhbətlər gedir. Ən müxtəlif məsələlərə toxunurlar. Ətraf aləmin ekoloji keyfiyyətlərindən tutmuş deformasiyaya uğramış insan mənəviyyatına qədər. Müəllif elə bunlarla da kifayətlənib qalmır: bir epizodla da diqqətimizi parçalanmış Azərbaycan torpaqlarına yönəldir: Amudərə kəndində sərhəd var. Dağların zirvəsində qərar tutmuş postda rus əsgərləri dayanıb. Dağın zirvəsinə kədərlə baxan Toğrul üzünü rus əsgərlərinə tutaraq "elə bil dədələrinin yurdudur, heç kimi saymadan nə istəyirlər edirlər burada", deməklə təəssüfünü, ürəkdən qopan af-ufunu ifadə edir. Hekayənin adının niyə "Qartal" olması oxucuya lap sonda məlum olur. Yazıçı qəhrəmanını – xalqının müqəddəratını öz həyat idealına çevirən qəhrəmanını haqlı olaraq Qartala bənzədir...

"Mən dostumu ağır düşüncələr içində dinləyir, onun mühitə, hətta öz qabığına necə sığmadığını bütün varlığımla hiss edirdim. Bəli, o da Qartal idi. Ancaq cismən yerdə sürünməyə məcbur olan, ruhən isə daim zirvələrdə süzən və heç bir varlığa əyilməyən, ətrafda eşələnən miskinlər və cılızlar ordusu üçün əlçatmaz olan bir qartal..."

Toğrulun millilik, müstəqillik arzuları sezilən düşüncələri ilə yazıçının mövqeyi üst-üstə düşür. Ümumiyyətlə, H.Mirələmov öz torpağını, xalqını sevən, daim onu düşünən vətənpərvər yazıçıdır. Hər kəs fikirləşə bilər ki, yazıçı elə belə də olmalıdır. Amma nəzərə alsaq ki, hər yazıçı da belə deyil axı... Misal üçün, indi gənc yazarlar var. Biz istəsək də, istəməsək də onları sosial şəbəkələrin pəncərəsindən görürük. Onların çoxunun ölçüləri tamam başqadır. Onlara elə gəlir ki, hər şeyi inkar etməklə, yəni həqiqətlərə, reallıqlara da inad etməklə, qarşı getməklə istədikləri hər şeyə nail olmaq mümkündür.

Nə gizlədək, Vətən anlamı onlardan ötrü arxa plandadır. Vətən naminə barmaq belə tərpətmədən öncə Vətəndən umduqlarını, tələblərini irəli sürürlər: "...Vətən ona deyərəm ki, orda mənim evim olsun, evimdə də mebelim olsun..."

Belə çıxır ki, evi, mebeli, maşını, pulu olmayanlar hamısı bu Vətənə arxa çevirməlidir. Gənc yazar unudur ki, Vətənə sevgidə minnət, mənfəət olmur, əslində doğma ocağın, yurd-yuvanın möhnəti onun qoynunda sadə güzəran quranların üzərinə düşür; bu borc elə pulu olmayanların çiyinlərinə düşür. Vətənin keşiyini çəkənlər tarixən ehtiyac içərisində yaşayanlar olub. Bizlər qorumuşuq torpağı. Demə, az-çox təpər, qeyrət yenə də kasıb ürəyindən, kasıb biləyindən gəlirmiş.

Yaxşı bir söz də görkəmli oftolmoloq-alim, şair-təbib Paşa Qəlbinurun dilindən çıxdı. Haqlı olaraq qeyd etdi ki, qeyrət deyəndə, söhbət ar-namusun üstünə gələndə bir çoxları bir-birindən fərqli şeylər – əslində o ağır sözün cılız, qırıq-kəsik mənasını düşünür. Yəni, kimisi qadınını, kimisi papağını, kimisi yalnız ana-bacısını və s...

Bu çox dar – XXI əsrin adamına yaraşmayan bəsit, məhdud bir düşüncədir. Mən qeyrətə zəhmət, ağır vəzifə, borc kimi baxıram. Qeyrət insanın çalışqanlığı, hərəkəti, zəhmətidir. Onun cəmiyyətə nə dərəcədə, nə qədər fayda, mənfəət verə bilmək qabiliyyətidir. Necə ki, adi yol ilə, cığırla komana, evinə, yaxud bağına-bağçana gedirsən. Ayağını atanda görürsən ki, bir həşəratı tapdalaya bilərsən. Bu anda ayağının səmtini dəyişə bilmək də insan üçün qeyrətdir. Bir canlını tapdamadın, öldürmədin, bundan gözəl nə ola bilər. İnsanın gözəl düşüncəsi, dürüst əxlaqı, pisi yaxşıdan seçmək, ağı qaradan fərqləndirmək meyarı, onun vicdan tərəzisinin işlək olması, bütün bunlar hamısı bir yerə cəm olanda qeyrət yaradır.

İnsan bütün zamanlarda insan olaraq qalır. Bir qədər düşüncə dəyişə bilər: irəliyə və ya geriyə – fərqi yoxdur. Cəmiyyət hadisələrinə fərqli yanaşma tərzi meydana çıxa bilər. Lap insan zahiri, cismani görünüşünə görə də təkamül dəyişikliyinə məruz qala bilər. Amma son nəticədə insan əsəbləri, sinirləri eyni hisslərin daşıyıcısı olaraq qalır. İnsan gülür, sevinir, kədərlənir, nifrət edir, sevir, vurulur... Gah təlatümə gəlir, gah da bugünkü zamanın əsas naxoşluğu olan sarsıntıya, düşkünlüyə məruz qalır, yəni depressiyaya düşür. İnsan ən adi xəstəlikdən də depressiya halı keçirə bilər. İnamını, ümidini itirər də... itirəndə, əldən verəndə də də həyatın qəzəbinə təslim ola bilər. Ümid yoxdursa həyat da yoxdur.

# Mənəviyyatın ekologiyası

Oxucum, başlıqdan elə mənəviyyata işarədən bildiniz ki, yazıçı Mirələmov burada ekologiya deyəndə təkcə təbiətin ekologiyasını nəzərdə tutmamışdır. O, məsələyə kompleks şəkildə, hərtərəfli, daha geniş müstəvidən yanaşmış, ekologiya anlayışına yüksək, hüdudsuz üfüqlərdən baxa bilmişdir. Mənəviyyatın ekologiyası ifadəsini mən ilk dəfə onun dilindən eşitmişəm, çox da yerində işlədib. Və bu lüğəvi tapıntı, həm də sözün mənasınca yeni tapıntıdır. Əgər belədirsə, demək yazıçı məsələyə düzgün mövqedən yanaşa bilmişdir. "Əgər sual olunsa ki, Hüseynbala Mirələmov yaradıcılığının baş qəhrəmanı kimdir və ya nədir, cəsarətlə cavab vermək olar ki, "Mənəviyyat..."(Ç. Nizami)

Cəmiyyətdə və ya tərəfsiz deyə bilərik ki, bu cəmiyyətin fərdlərində mənəviyyatın aşınması faciədir. Bilməyən qalmasın! Qarabağ faciəsinə həsr olunmuş "Yanan qan"(2007) romanında adı ilə taleyi uyğun gələn Möhnət var. Nə əməli, nə də taleyi heç kəsdə həlalik hüsni təvəccöh oyatmayan adı Möhnət olan kişi əlimdəki haram pula bir maşın da almış, bununla ailəsinin güzəranını təmin edəcəyini zənn edir.

Möhnətin əsas işi "Laçın koridoru"ndakı eyş-işrət məclislərinə "qız" daşımaqdır. Onun hərəkət "coğrafiya"sına nəzər salaq: *"... Alatavadan Sumqayıt yoluna çıxdı. Yolun hər iki tərəfindəki ağaclıq addımbaşı eybəcər reklamlarla bəzədilmişdi. Hər gün gedib-gəldiyi yoldakı kababxanaları elə bil indi görürdü:* ***"Arpaçay", "İşıqlı dağ", "Zabux", "Ağrıdağ", "Cıdır düzü", "Sədərək", "Həkəri", "Bayatı", "Göyçə", "Turşsu", "Vedibasar"****... Adların hamısını çatdırıb oxuya bilmirdi. Kababxanalar Qərbi Azərbaycandan, Qarabağdan qaçqın, köçkün*

*düşmüş insanlara aid idi. Ona görə də Sumqayıt yoluna* ***"Laçın dəhlizi"*** *deyirdilər."* Vətənin əziz guşələriin adı, torpağına vətən balalarının qanı çilənmiş o gözəl diyarların adları bu şəkildə xatırlanırsa, "yaşadılırsa", bundansa unudulsa, o çürük mənəviyyatlardan, yaddaşlardan uzaq dursa, silinsə yaxşıdır, demək istəyirsən az qala.

"Allahın bəlası" Möhnət belə bunlardan əxlaqlı və safdır bu zaman: Bəs nəyə görə bu ağzıgöyçəklər deyirlər külli-Qarabağı erməniyə vermişik, yaxud qoyub-qaçmışıq. Budur ey, Qarabağ, Zəngəzur... oba-oba, kəndbəkənd qucağımıza alıb gətirib düzmüşük gözümüzun qabağına – Sumqayıt yoluna...

Metafora və müqayisələr bədii əsərlərin dilində, ...şüurlu olaraq yaradılır və bədii-estetik funksiya daşıyır. Komik metaforalar müqayisələrlə sıx bağlı olur. Müqayisələr yalnız metaforalar hazırlamır, həm də komik mətn daxilində metaforaların anlaşılmasına imkan yaradır. (Qəzənfər K.) Burada üzə çıxan "gözlənilməz gizli komik şərait" əslinə baxsan, ağrılı bir hadisəyə işarədir. Ana torpağı qısnadıldığında qoyub qaç, yalnız özünlə onun adını cibinə qoy gətir və rahatca yaşadığın, məmnunluq duyduğun yerdə tikib qurduğun obyektlərə ver.

Ekologiya ifadəsini, daha dəqiq desək terminini, o cümlədən ekoloji mühit amilini, ekologiya elmini, ekologiya mütəxəssislərini bir termin, bir ifadə, bir elmi üslub faktı kimi ortaya qoyduqda, bütün bunlara xüsusi önəm verildikdə, demək mənəviyyatın ekologiyası anlayışı da prinsipcə mümkündür. Yazıçı təbiətin ekologiyasının pozulmasından nə qədər ehtiyatlıdırsa, ekoloji mühitin korlanması onu nə qədər həyəcanlandırısa, mənəvi ekoloji mühitin pozulması onu qat-qat artıq həyəcanlandırır. Və yazıçı dönə-dönə vurğulayır ki, mənəviyyatın ekologiyasının talan olunması və ya onun pozulması, dağılması mənəviyyatın kütləvi surətdə aşınması hər şeydən, hətta böyük müharibələrdən də təhlükəlidir.

Çünki müharibə nə qədər ağır faciədirsə, tarixən xalq və millətlərin taleyində çox ağır müharibələr baş verib, cəmiyyət bununla həmin faciələrə şahidlik etmiş, məlumatlı olmuşlar. Ayrı-ayrı xalqlara, millətlərə qarşı tarixi ədalətsizliklər baş versə də, lakin zaman keçdikcə haqq öz yerini tapıb, hətta qanı bahasına olsa da zillətə tuş gəlmiş millətlər öz tarixi haqlarını bərpa ediblər. Amma mənəviyyatı zülmət girdabına düşmüş xalqların sağalmasına çarə, dərdinə əlac çətin ki, olsun. Bu daha irimiqyaslı, dəhşətli fəlakətdir.

Son zamanlar tez-tez deyirlər ki, Tibet loğmanları əbədi cavanlıq iksiri yaradıblar. Əslində bu dərman nə qədər təzə qəbul olunsa da onun tarixi çox qədimdir və deyilənə görə kimyəvi tərkibi yoxdur. Nadir otlardan, güllərdən, çiçəklərdən, müxtəlif təbiət nemətlərindən hazırlanır bu əlac. Təbii ki, insanı müəyyən yaş dövrünə qədər gənc, cavan saxlamaq mümkündür. İndi elmin qarşısında çox şey acizdir. Təbabət elminin nailiyyətləri ilə bəlkə də yaxın gələcəkdə insanı laboratoriya şəraitində, lap elə çiyələk, pomidor, xiyar və s. kimi "istixanalar"da yetişdirəcəkdir. Amma bir həqiqət var ki, əsrlər ötsə də insanın qəlbinə, ruhuna mənəvi dəyərlər köçürməyə təbabətin gücü çatmaz. İnsan özü-özünün mənəvi həkimi olmalıdır. Heç nəyə yox, elə təbiətin nizamına baxsa, insan özü də mükəmməl nizam yarada bilər.

... Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası" adlı publisistik məqaləsi yenicə dərc olunan vaxtlar idi. Bu yığcam məqalə görünür, son dərəcə aktual olduğuna görə Azərbaycanın ən dəyərli ziyalıları bu məqaləyə – ekologiya mövzusuna münasibət bildirdilər. Son nəticədə bu yanaşmaları əks edən rəylər – "Mənəviyyatın ekologiyası"na həsr olunmuş məqalələr bütövlükdə kitaba çevrildi.

Bir sözlə desək, "Mənəviyyatın ekologiyası" adı ilə təqdim olunan publisistik düşüncələr toplusu yazıçının qaldırdığı problemin əks-sədası oldu. Və bu mühüm kitab son bir neçə ildə Azərbaycan mənəviyyatına təsir edən zərərli yad

meyllərdən və onun həlli yollarından bəhs edən qaynağa çevrildi. Kitab bu mənada Azərbaycan mentalitetinə, milli-mənəvi dəyərlərimizə Avropadan və digər ünvanlardan gələn basqıların önünə sədd çəkməyə hesablanmışdır.

Yazıçı mənəviyyatımıza təcavüz etmiş kənar meylləri dəf etmək üçün cəmiyyəti səfərbər etməyə çalışmışdı. Nəticə yaxşı oldu: Bilavasitə, mənəviyyatın ekologiyasını mühafizə etmək çağırışı Azərbaycan ziyalılarını ayağa qaldırdı və həmin ərəfədə həqiqi mənada ziyalılığın ziyası aydın göründü. Tarixi-mənəvi dəyərlərimizi qorumaq yolunda hərəkətə keçən fədakar ziyalılar fəallaşıb üzə çıxdı, onların bu zamana kimi kəsik-qısıq səsləri artıq gur eşidilməyə başladı. Ölkə aydınlarının yazıya çevrilmiş düşüncələrində qaldırılan məsələlər geniş idi; lakin əsas məsələlərədən biri də yeniyetmələrin, gənclərin Avropa dəyərlərinə hədsiz önəm verməsi, hər şeydən vaz keçib təkcə oraya üz tutması idi. Və bu barədə yazılanlar kitabın çox ciddi narahatlıqla yazılmış hissələrinə çevrildi.

İstərdim ki, yazıçının qələmə aldığı düşüncələrdən iqtibas edim:

"*...Mən belə hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasındakı münasibətlər daha ciddi ekoloji problemlər doğurur. Artıq mən həmin termini bir qədər məcazi mənada işlədirəm.*"

Deyəsən, təbiətin özündə hər şey ölçülüb-biçilmişdir. Kainatın son dərəcə dəqiq nizamlanmış zaman daxilində yaradılması əlavə heç bir düzəlişə yer qoymamışdır. Zənnimcə, insanlar da, ayrı-ayrı fərdlər də cəmiyyətlə münasibətdə, konkret desək, bir-biri ilə münasibətdə həmin Tanrı nizmanına söykənməlidirlər. Əgər diqqət vermişsinizsə güllərin, çiçəklərin üzərinə qonmuş kəpənəklərin xallarının nizamlı düzlüşünə, hansı qanadda hansı xal hansı ölçüdədirsə, digərində də belədir.

Şüurlu insan öz münasibətləri gündəlik həyatında tənzimləyərkən nə üçün səhvlərə yol verir? Nəyə görə həyatda yaşar-

lıq haqqı qazanmış mənəvi dəyərlər tapdanır? Nə üçün insanlar hər hansı bir məsələni araşdırmaq üçün bir-birilə nəyinki əsəbi danışır, hətta məsələ ölüb-öldürməyə qədər gedib çıxır...

Televiziyanın gecə proqramlarında göstərilən kriminal xronikalara baxarkən mənasız çəkişmələr üstündə baş verən cinayət və faciələri, ölümlə nəticələnən qorxunc hadisələri görəndə dərin təəssüf hissi keçirməyə bilmirsən. Belə hallarda haqlı olaraq "insanın varlığı, onun mahiyyəti nədən ibarətdir?!" sualına cavab axtarmalı olursan. Axı nə üçün insan özü-özünə və yaxud da başqasına qəbir qazmalıdır?

Bəli, mən elə beləcə də hesab edirəm. Kiminsə qətlinə fərman vermək özünün "əcəl zəngi"ni çalması deməkdir."

...Yazıçı "Əcəl zəngi" deyəndə dünya ədəbiyyatının böyük simalarından olan, həyatının son çağlarında intihar etmiş Hemenqueyin "Əcəl zəngi" əsərini yada salır. Doğrudan da, mənəviyyatın aşınması insanlığın əcəl zənginin səslərini bizə hər addımda eşitdirir. Biz giley-güzarımızı təkcə Azərbaycan cəmiyyətinə baxıb yazmırıq. Təkcə belə olsaydı, nə vardı ki... Biz də dünya güzgüsünə baxıb özümüzü tarazlayardıq. Amma qeyd etdiyimiz "Əcəl zəngi"nin səsi dünyanın hər yerindən eşidilməkdədir. Demək olar ki, bu baxımdan bir salamat ölkə yoxdur. Planetin insan ayağı dəyən hər yerindən ölüm, vəhşət, qanqada, müharibə qoxusu gəlir. İnsanlar nəyin uğrunda savaşdıqlarının bu gün fərqində belə deyillər. Biz anlaya bilmirik, Uyğuristanda, İraqda, Suriyada, Koreyada və elə həm də Azərbaycanda tökülən qanlar nə səbəbdəndir? Əgər yer, torpaq iddiasıdırsa, dünya bölüşdürüləndə hər kəsin payına bir parça torpaq düşüb, daha nə istəyirlər?

Rus yazıçısı, dünya şöhrətli Tolstoy bir əsərini bu hisslərini bölüşməyə sərf edib. *"İnsana çoxmu torpaq lazımdır?",* – deyir böyük Tolstoy. Geniş şərhə ehtiyac duymadan bu fikirlərimi qapamaq üçün, buradakı gəldiyim son qənaətlərimi eşitdirirəm. Əlbəttə ki, ilk növbədə yazıçı mövqeyindən, yazıçının qaldırdığı problemdən çıxış edirəm.

Mənəviyyatın ekologiyasının pozulması böyük fəlakətdir. Bir gerçəklikdir, bir həqiqətdir ki, dünyadakı bütün müharibələrin kökündə mənəvi-ekoloji tarazlığın pozulması dayanır. Dünyanın ən qəddar hakimləri, miqyasa gəlməyən soyqrımlara, repressiyalara imza atmış diktatorlar– Hitler, Stalin, Səddam Hüseyn rejiminin özü belə qeyri-sağlam mənəviyyatın övladları idi.

Daha böyük bir təhlükə ondan ibarətdir ki, insan oğlu hər hansı bir maddi çətinliyə dözmək üçün yeri gələndə özündə azacıq da olsa iradə tapa bilmir. Amma mənəvi eybəcərliyə "dözüm" nümayiş etdirir... Yazıçı bu həssas məqamı böyük sənətkarlıqla müşahidə edərəkdən diqqətə çatdırır.

"... *Qazı, suyu, işığı hansısa obyektiv və ya subyektiv səbəbdən kəsilən adam haray salır, cüzi çətinliyə belə dözümsüzlük göstərir. Mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı açıq-aşkar görən adamlar isə susur, etinasız-etinasız keçib gedirlər. Mən bu səsi eşidirəm- Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini..."*

Doğrudan da, bu gün belədir, ölçülər itib. Nadan birisi alimi ayağları altında görür. Mənəvi cılızlar, mənəvi böyüklüyə həqarətlə baxırlar. Diqqət etdinizsə, mən bu günün ölçülərinin itdiyini dedim. Ancaq bir qədər dərindən düşünəndə görürsən ki, beş gün, on gün, elə bir əsr bundan öncə də belə imiş. Ulu, həyatın gözünün içinə dik baxan, zamanın bulanıq nəhrindən tər-təmiz üzüb çıxan ozanlarımız keçmişdən də, dünyadan, zəmanədən də gileyli olublar. Aşıq gördüyünü çağırar deyiblər:

*Baş çıxarmaq həm çətindir, həm asan*
*İblisindən, mələyindən dünyanın.*
*Adəm satdı bir buğdaya cənnəti,*
*Tora düşdü kələyindən dünyanın.*

Yəni ki, dünənin gözü, bu günün ağlı, düşüncəsi ilə də insan oğlu düzəlmir. Nə edəsən, düyünlü taxta deyil ki, dəzga-

ha qoyub yonqarını çıxarasan. Görünür, insan bu dünyaya əyri gəlib... Bihudə yerə deməyiblər ki, "qozbeli qəbir düzəldər..." Bu fikirlər də xalqın yaddaşından gəlir – bu gün mənəviyyatından gileyli olduğumuz Azərbaycan xalqının yaddaşından.

Bu xalq bu qədər ağıllı, bu qədər müdrikdirsə, bəs bu qədər mənəvi cılızlıq, eybəcərlik hardan törəyib artır?! Bir dəfə bir ziyalı yazısında yaxşı bir fikir söyləmişdi. Deyir ki, Azərbaycanda xüsusi yaltaqlıq təhsili verən, yaltaqlıq öyrədən heç bir universitet yoxdur. Bəs bu qədər yaltaqlar və yaltaqlıqlar haradan çıxır, hardan bəhrələnir?

...Hüseynbala Mirələmov "Mənəviyyatın ekologiyası"nda bir çox məsələləri cəsarətlə qoya bilmişdir. Bəd niyyətlilərə, cəmiyyətin sağlam mənəvi qütbündəki nizamı pozmağa çalışanlarla yanaşı, görünür hər vaxt yaxşılar, yaxşılığı əzib tapdalamayanlar da olub. Mənəvi əzəməti, gücü, insanlara heyranlığı ifadə edən duyğuları, hissləri təlqin etməyə çalışan sənətkarlar, müəllimlər, rejissorlar, yazıçılar, şairlər, elə lap qeyrətli kişilər, qadınlar da olub.

Sovet dövründə çəkilmiş "Əhməd haradadır?" filmində – idarə rəhbəri, müəssisənin direktoru ləyaqətli bir insandır. O hər kəsə eyni gözlə baxır, insanları bir birindən rəncidə salan yerlibazlıq edib ayrı-seçkilik aparmır. Köməkçisi isə hər dəfə onun otağına girəndə içəriyə belini əyə-əyə girir. Həm ruhən, həm də cismən özünü balacalaşdırmağa, cılızlaşdırmağa çalışır. Müdirin gözündə balaca görünmək, nəzərə çarpmamaq istəyir. Bu da yaltaqlığın çirkin bir formasıdır. İdarə rəhbəri filmdəki obrazın, yəni Zülümovun bu hərəkətlərindən artıq təngə gəlir:

-Nə olub, yoldaş Zülümov, beliniz ağrayır? Zülümov suala gülünc bir şəkildə - fiziki hərəkətləri ilə əlüstü, əyani cavab cavab verməli olur: Sadəcə belinin sümüklərini şaqqıldatmaqla. Rejissor, bəlkə də əsərin müəllifi bu epizodu öz məharətinin, daxili gücünün hesabına ekrana çıxara bilib. Rejissor, ya müəllif cəmiyyətin pozulmaz qanunlarından birinə işarə etməklə demək istəyir ki, maddi kapital mənəvi sərvəti boğur.

Ancaq tarix isə bunun əksini üzə çıxarır. Zaman ötdükcə tarixin hökmü ilə mənəvi sərvət, mənəvi kapital maddi kapitaldan çox-çox yüksəkliklərə qalxır. Min illiklərin yaddaşını silkələyən tarixi abidələr bu günə görk deyilmi? Nəsimin edamına fitva verənlər Cordono Burunonu, Koperniki tonqalda yandırmağa məhkum edənlər, vətənpərvər cəsur bir qadını – gənc Janna D`Arkı qızmar odun-alovun içərisində əridənlər ayaqlarının altındakı kapitala güvənirdilər. Qəzəbləri qılınclarının ucunda idi. Qılıncın iti ucu isə mənəviyyat işığından çox-çox uzaqdır. Doğrudur, bu qılınc çox nadir hallarda beynində, təfəkküründə mənəviyyat işığı olan adamların, hakimlərin, şahların əlində olur. Şah babamız bir əlində qılınc, bir əlində qələm tutmuşdu. Onun qılıncı ədalətli idi, çünki həm də ulu sözə söykənmişdi. Söz var baş kəsər, söz də var savaş,- deyirdi Şah Xətai.

Gərək yerini biləsən. Dağların zirvəsinə qalxanda xırda təpələrə, eləcə də dərələrə, çuxurlara həqarətlə baxmaq olmaz. Ən azı dağın da, təpənin də, dərənin də mayası torpaqdan yoğrulub. Dağ təpəyə minnətdar olmalıdır. Çünki təpə olmasa dağın əzəməti görünməz. Bir də bu müxtəlifliklər dünyamızın alışdığımız bir parçası, relyef gözəllikləridir.

Nə deyəsən, burada qələm dostum Fariz Çobanoğlunun bu məsələ ilə bağlı fikirlərini xatırlamasam olmur:

Nə qədər çək-çevir etsəm də, insan təbiəti haqqında fikirlərimi yığıb-yığışdırıb hrç cürə bir yana çıxara bilmədim; çünki bu təbiət mürəkkəbdi, gah zülmətə qərq olur, gah işığa bələnir. Türk aşığı, türk ozanlarının dədəsi Yunis Əmrə: bir "Mən" vardır, məndən içəri, deyəndə nə qədər haqlı imiş. Psixoloqlar çox zaman sözü gətirib insanın, insanlığın sirrinin üstünə çıxarırlar; insanın ikiləşməsindən danışırlar. Xalq bunu "ikiüzlü, simasız, saxtakar" ifadələri ilə dilə gətirir. Məncə, insanın ikiləşməsi psixologiyanın bir elementi kimi artıq çoxdan köhnəlib. Müasir insanınkı ikiləşməkdən keçib. Hər an, hər saniyə ayrı bir donda gəzə bilir. İnsanlar çox zaman dəyişə-

dəyişə, haldan-hala girərək bir buqələmun həyatı yaşayır. Ən etibarlı yoldaşına güvənməyin zaman gəlir ki, xəcalətini çəkib, peşimanlığını yaşayırsan. Ancaq insanın bir etibarlı silahı da nəyəsə güvənməkdir. Güvəncini itirmək ölməyə bərabərdir.

Hər şeydən öncə Azərbaycan Şərq ölkəsidir. Günəş şərqdən doğur, deyirik. Bizim günəşə, işığa güvənməməyə haqqımız yoxdur. Belə ki, üzümüzə düşən günəşin işığı, dan yerinin şəfəqi içimizdəki zülməti əritməyə qadirdir. Buna inanmaq lazımdır. Bu şərtlə ki, biz üstümüzə düşən bu işığı sındırmağa çalışmayaq. Bu da məlumdur ki, günümüzün insanı mənfi tərəfdən, mənfi keyfiyyətləri ilə daha çox silahlanmış, daha çox təmin olunmuşdur. O, ən qüdrətli işıq çalarını belə sındırmağa vasitələr tapır; təki pərdələnsin, gizlənsin. Nədənsə qaranlıq – zülmət bir dünyadan, uzaq-uzaq əsrlərdən qopan mifik nağıllarda, hekayət və dastanlarda daşlanan zülmət bu gün insanın "dostu"na çevrilib. Bu günün mənəviyyatı qara rəngdədir.

Bir neçə il bundan qabaq hansısa bir şair "Lalə qətliamı" deyə bir qəzet səhifəsi yazı yazmışdı.Əlbəttə məsələ aydındır, lalələri kütləvi şəkildə məhv edib ondan narkotik maddə alanlar var imış. Şair isə lalələrin fəryadını qələmə almışdı. Adamlar bu saat əti, qanı, şüuru olan varlığa qıyır, işgəncə verirlər. O ki, qalmışdı yandırılıb yaxılan kövşəmlərdən, kəsilən ağaclardan, çölün otundan -ələfindən, gülündən-çiçəyindən danışasan...

İnsan ekologiya haqqında düşünsə dünyada heç bir müharibədən söhbət gedə bilməz. Çox gülünc görünür; torpağın altını üstünə çevirən odlu raketlər, əsrlərlə tarixi olan qədim mədəni şəhərləri dağıdan bombalar, mərmilər olan yerdə ekologiyanın qorunmasından necə danışasan?! Mənası varmıdır bunun?

Düşüncələrim məni 10-15 il geriyə qaytarır. Yadımdadır ki, yazıçının "Mənəviyyatın ekologiyası", yaxud, iki od arasında" yazısını oxumuşdum və müzakirələrə qoşulmuşdum. Həmin münasibətimin bu sətirlər arasında da yeri görünür.

"... Burada qoyulan mənəviyyatla bağlı, hər bir problemimiz haqqında ayrıca yazılarımla mətbuat səhifələrində çıxış etmək istəyirdim. Lakin hörmətli yazıçımızın münasibəti – "söz adamlarımız susmuşdur", deyə gileyləri "Azərbaycan alimi, elmi tədqiqatlardan bir günlük də olsa, ayrıl!", deyə məzəmməti, nəhayət, məni bu yazını qəzetə çıxarmağa sövq etdi. Əslində bu ekoloji böhran elmimizə də sirayət etmişdir. Elm də, alim də bu böhrandan heç də uzaqda deyil. Nəhayət, bu aydınımız, xüsusən son zamanlar yazılarını xüsusi həvəslə gözlədiyimiz yazıçılarımızla öz fikirlərimi bölüşmək qərarına gəldim.

Nə deyim, ən əvvəli isə şair demiş, ürəkləri, könülləri ilhama gətirən, kiçicik olsun belə, ən xoş məramları, niyyətləri bir qığılcım kimi alışdırıb gur tonqala çevirən, çoxdan qəhətə çıxan o sevgini, gizlənmiş kiçicik sevdaları yaxşı görüm deyə, canı olan, qanı olan hər bir canlıya yüksəklikdən baxmağı qərara aldım. Amma o yüksəkliklər düşmən əlində, nə isə...

*"Dünyanı gözəllik xilas edəcək."* Bu gün bu iddia bir çox şou-müsabiqə, "gözəllik", "dünya gözəli" axtarış tədbirlərində necə də dəstəvuza çevrilib. Əfsus ki, Dostoyevski xilaskarın bədən gözəlliyi, əndamın qəşəngliyi olacağını düşünməyib. Filosof bununla insanlığın, insan münasibətlərinin, qəlbin, ruhun gözəlliyini, düşüncənin, fikirlərin aliliyini, onun gözəl nəticələrini, əməlləri nəzərdə tutub. Bir sözlə, o arzuolunan gözəllik yer üzünə hakim olsa, o gözəllik ağıllara, düşüncələrə təsir etsə, onda şərin, bəlanın yer üzündə kökü kəsilər. Əqidə və əməlin gözəlliyi müharibələri dayandırar. Lap tutalım, erməni erməniliyini buraxar ki, vay, nahaq yerə başqa millətin Vətən kimi əziz nemətinə göz dikmişəm?!

Bəli, təkrar olmasın. Qəlb gözəlliyi baxışlara, səsimizə, çağırışlara qədər keçməli, xeyirxahlığın, sülhün, fədakarlığın aça bilmədiyi qapı qalmamalıdır.

Heç yadımdan çıxmır. Aeroportdakı bazara alış-veriş üçün getməli idim. Əvvəlki iri avtobuslardan idi mindiyim avtobus. Qabaqda – pilləkənlərin üstündəki kiçicik meydançada

dayanmışdım – üzü sərnişinlərə tərəf. İstər-istəməz onları seyr edirdim: budur, bu bacı səhər heç üzünü də yumayıb, deyəsən, evdən vuruşub çıxıb. Bu onun təhər-töhründən də hiss olunurud. Oturacaqda yanpörtü oturmuş, ağzı da hiss ediləcək şəkildə əyilmişdir. Görünür, hələ də daxilində asıb-kəsir, evdəkilərin qarasına deyinir. Bəs bu oğlan? Üzü yəqin ki, bir həftədir qırxılmayıb. Yox, bunu o, dəbə görə etməyib. Saqqalı pırtlaşıq saçlarına qarışıb. Köynəyi də yay-qış əynindən çıxarmayıb yəqin. Xülasə, ona baxan adamın yadına natəmiz şeylər düşür. Bu bel şalına bürünmüş nənə də ki, öz evlərindən çölə çıxan yeganə adama oxşayır. Yəqin ev dolusu o haramxorlar yerlərində o üz-bu üzə aşırılıb axşama kimi gözləyəcəklər ki, bu yaşında zirək bir gəlini andıran nənə tapdığından onlara nə vaxt gətirəcəkdir.

Ən təsirlisi də bu adamların bir-birinə heç baxmamaları, uzaq yolun söhbəti filanı olmaması idi. Bir-birlərinə acığı, nifrəti üzlərindən bəlli idi. Bilirdin ki, bir himə bənddirlər. Ortaya bir söz düşsə, heç kəs-heç kəsə aman verməyəcək. Elə belə də oldu. Heç şəhərədən çıxmamışdıq ki, heç nədən bir mübahisə qopdu ki, yadıma tələbə vaxtı pedoqogikadan müəllimimizin kollektiv haqqında dediyi söz düşdü: "Bütün insan yığınına kollektiv demək olmaz. Avtobusa da çox adam toplaşıb səfərə çıxa bilər. Lakin o, kollektiv deyil. Kollektiv insanların məqsədi bir olur və s, və ilaxır". Deməli, nə çatmır? Məhəbbət. Mirzə Cəlil demişkən : – Əli gedib tutsun Vəlinin əlindən, Həsən də Hüseynin..."

Dava-dalaşa, təhqirə, hər cür hörmətsizliyə qorxuram yavaş-yavaş adət edək. Bəli, televiziyaların gecə proqramları məhz elə bu ölüb-öldürmələrin həzzini çatdırmaqdan özləri də həzz alır elə bil. Son vaxtlar isə qəsdən  xüsusi məqsədlə - yəni dava-qırğın qopartmaq üçün kanallara dəvət edilmiş şərə-şur, lakin sadəlövh adamlar. Hissiyyatımız bizi aldatmadı; bu verilişlərin də kanalların da müştərisi çoxalmaqdadır.

Axı Hüseynbala müəllimin özü demiş, bizim xalq öz etiqadınca müsalmandırlar və müsəlman rəhimliliyi, şəfqəti, mehribanlığı ilə seçilməlidir. Belə halda acıdillilik, tamah, söyüşlatayır, qətl-qarət, falçılıq kimi günahlarla niyə addımbaşı rastlanırıq?! Görəsən, gözəlliklərədən bizmi ayrı düşdük, yoxsa o gözəlliklər bizi tərk etdi? Nəyə görə? Yenə yazıçıdan həssaslıq, biganəliyə, laqeydliyə qarşı təsirli ovqat yaradan bir hadisəni təkrar dinləyək:

“Quşların dilini bilmək bizim düşündüyümüz kimi heç də zövq, əyləncə deyilmiş... çox hallarda narazılığını, dərdini, hətta faciəsini belə gizlədə bilən insandan fərqli olaraq quşlar, bitkilər onları duyan, eşidən yoxdur deyə hər şeyi açığa vurarlar. Süleyman peyğəmbər küləyin, bərk günəş istisinin, tozun, yağışın aşırı təsirindən eyni dərəcədə narazılıq edən, ah-nalələri göyə yüksələn və təkcə ona yetişən ah-zarlarından çox zaman pəjmürdə olardı.

Buna baxmayaraq o qulaqlarını tıxamazdı, yəni o sehirli üzüyü barmağından çıxarmazdı. Odur ki təkcə Bilqeys xatunla gəzərkən üzüyü barmağından çıxarardı ki, duyduqları onun gəzi səfasını pozub dağıtmasın... çünki sakit gözəl havada da bəslənmiş, gülü-çiçəyi pardaqlanmış bu ətirli bağçanın da arı neştərindən sinəsi dağlı gülləri fəğan edəcəkdi.”

Müəllif özü də ağrılara çox həssasdır. Hər şeydən əvvəl o da maraqlıdır ki, millətlə bağlı olan bu faciələri istər bu xalqa dəyən fiziki, istər mənəvi zərbələr olsun, bir-birindən ayırmır müəllif. Çünki hər ikisinin ağrıları birdir. Bir çoxları Bakıda gündən-günə çoxalan, sıra-sıra düzülən binalara skeptik baxıb bu binaların tikinti materiallarının, nə bilim, armaturunun saf yox, qatışıqlardan, hətta normadan nazik olmalarından, kimisi yeraltı sulardan belə yüksək binaların uçmaq qorxusundan danışsalar da, nikbinlər də çoxdur. Hətta o dərəcədə optimist ki, qoy tiksinlər, Bakıda nə qədər adamın evi yoxdur, biri elə özüm. Evdə evlənməmiş üç oğlum, qızlarım da ərə gedib, amma ev vəziyyətləri çətindir. İstəmirəm deyəm ki, heç evdəki

puldan danışmırsan. Adbaad evsizlərini dedin, arxasından xəbərin yoxdur. Amma dinmirəm, çünki o evlərin hələ nə olacağı yox, Bakının özünün paytaxt şəhəri, özü də qədim şəhər simasını itirməsi adamı ağrıdır.

Bəli, Hüseynbala müəllim, Bakı üzü dənizə doğru getgedə alçalan təpələr üzərində tikilmiş sahilə enə-enə amfiteatr şəklində bir şəhərdir. Səhnəsi də sanki Xəzərin ayna suları idi.

Aleksandr Dümanın sevincinin Azərbaycan oxucularına nisgilə çevrilməsinə az qalıb. Sumqayıtla Bakının arasındakı qumlu çölü keçib şəhərə sarı gəlir. Hələ şəhərə çatmamış çoxçox uzaqdan dənizi görür və sevinir. Düşünürəm, bu yer görəsən hara imiş? Fəhmlə qiyabi səyahətə çıxıram. Bəlkə Binəqədi təpələri olub. Bəlkə bir az da bəri, Marksın heykəli deyilən yerə - şəhərə doğru o dikdirə çatıbmış atlar.

Bilmirəm, bir-iki il əvvəl şəhərin hər bir evinin eyvanından Xəzər görünürdü. İndi gözlərimizin qabağının tamam tutulmasına az qalıb. Axı bu evləri niyə Yasamalda, ya mikrorayonlarda tikmirlər? Bakının qədim evlərinin hər birinin yanında bu neft vışkaları kimi dimdik qurğu-binalar, hamısı da qutu kimi – kazarma tipli... məqsəd nədir?

Hörmətli yazıçımızı mənəviyyatımız daha çox məşğul edir və düşündürür. Birbaşa bu münasibətlə mətləbə keçmək üçün elə "ocaq" sözündən başlayır. Ocaq birlik, müqəddəslik istər, təmizlik istər. Budur bizim əsl sifətimiz. Ocaq sözünü bizdən nə qədər xalq götürüb öz dilinə daxil edib. *"Ocağı sönsün", "Ocağın gur yansın", "Ocağa çəkmək", "Ocaq-pir", "Aşına-aşına, çıxdım ocaq başına"*. Görün hələ nə qədər belə sözümüz var. Hələ müəssisə mənasında mədəniyyət ocağı, sağlamlıq ocağı, istirahət ocağı və s.

Müəllifin məqsədi var, yoxsa ocaq kimi müqəddəs bir kəlməni (mütəxəssislər otaq, "ailə-nəsil" sözünü bu sözlə başlayırlar) meydana çəkməzdi. Bəli, bütün ictimai yerlərdən indi soyuyub çəkilən ayaqlar getməyə yaxşı yer tapıb. Şəhərdə nə qədər əyləncə yeri olar? Nə qədər toyxana, şadlıq evləri olar?

Hələ bir dəfə Şamaxıya çathaçatda meşə cığırına yönələn bir yol göstərən ox gördüm – "Sauna" yazılmışdı. Ox məchul cığırlara millənmişdi. Cığırlar budaqları bir-birinə geyişmiş ağacların qalınlığından görünməz olmuşdu. O yolun bu cür mübhəmliyi qəlbimi sıxdı. Şamaxıyadamı gəlib çıxdı bu əyyaşlıq, – deyib, köks ötürdüm. Gəlməsə də, gətirdilər.

Hələ bu əyləncə yerlərinin adlarına baxın. Şərabın su yerinə axdığı Vətən qızlarının qucaqdan-qucağa ötürüldüyü bu yerlərə müqəddəs adlarımız – yaralı Vətən adlarımız qoyulur. Vay o günə ki, Şuşasız, Laçınsız, "xarıbülbül"lərsiz, Xanqızısız qalan o "qəlbisınıq" soydaşlarımız özləri bu adların daldasında gizlənə-gizlənə, barmaqlarına tüpürə-tüpürə ən çətin işi – "yaşıl kağız"ları saymaq ola. Bu yollar hara aparır bizi? Bu bizim qismətimizmi?

*Şuri cünun aşiqin başına rifət verir,*
*Hər kəsə dünyadə həqq əqliycə dövlət verir*
*(Nişat Şirvani)*

Təbii ki, oxucu anlayar. Dövlət o həmvətənimizin saydığı yox, ağıl, bəxt, qismət, gələcək deməkdir burada. Necə olur ki, insanlar buraya son qəpiklərinə qədər xərcləyir. Amma teatr rəhbərliyi ucuz biletlərini dostluq-tanışlıq gücündə də satdırıb teatra, konsertə adam cəlb etdirə bilmir. Heç bundan az kədərli deyil ki, alim sözünə, yazıçı sözünə, bir sözlə, ziyalı məsləhətinə ehtiyac duyulsun. Nə üçün sağa-sola baxıb ziyalı sözünə, bir ağıllı məsləhətə, idrak, vicdan səsinə qulaq asmayasan? Qasım bəy Zakir Mirzə Fətəli Axundova məktubunda yazırdı:

*Aşina, müsahib yarü-həmsayə,*
*Lazımdır yetişə qövrə, hərayə,*
*Kitabətin dəyər mülki dünyayə,*
*Nə hacət, istəmək simü-zər səndən.*

İndi bu simu-zər bazarında bu kitabətlərin tozunu silən, bir arasını açan varmı? Oxucu kitabxanadan soyuyub... Əslində gözəl kitabxana binalarını (kitab mağaza, köşkləri də bura daxildir) paltar-geyim maqazinlərinə, barlara-kafelərə çevirən də oxucudur. Hə... hə... Yoxsa oxucu ilə kitabı bağrına basan, səhərdən axşamacan bu əldən o əlinə neçə-neçə kitab ötürən, bu xoşbəxt anlarda sanki çörək qayğısını unudan, yaxud, acqarına ucuz siqaretin acı tüstüsünü problemli sinəsinə çəkən ağıllılarmı?

Sözlə əməl niyə bu qədər ayrılır bir-birindən?! Bakıda gözəl prospekt var: Nobel prospekti. Bilirik ki, o küçənin gözəl gələcəyi hələ qabaqdadır. Necə? Dənizin boynuna əlvan boyunbağı tək yaraşan Bakı inkişaf etdikcə, dənizkənarı yerlər, yollar təzələndikcə. İnsafla deməliyik ki, vaxtilə Nobellərin abadlaşdırdığı, geniş fəaliyyət göstərdikləri tarixi neft Bakısının həmin ərazilərinə də Nobel adı verilməsi çox ədalətli təşəbbüsdür, ləyaqətli sərəncamdır.

Amma yenə məsələnin zahiri və batini bir-birinə zidd dayanıb: bu ərazinin yaraşığı olan və Bakılıların “amerikanka” dedikləri qədimi kotteclər sökülür, yerində ucalacaq standart nəhənglər üçün təmizlənib yer açılır. Vaxtilə o kotteclər Nobellər tərəfindən neft sənayesi işçiləri üçün tikilmişdi. İndi o küçəyə Nobel adı verilir, Nobelin qurduğu evlər – Bakı neft ocağının tarixi bir səhifəsini qoruyub saxlayacaq olan xatirələrsə məhv edilir.

Düşünürsən: səbəb yalnız cahillikdir, elmə, təhsilə, savada yaranan biganəlikdir.

Hələ mahnıların müğənninin özü tərəfindən uydurulmuş bəsit mətinləri, təzədən dəbə düşən primitiv meyxanalar... Axı bunlara göz yummaq olarmı? Göz yuma-yuma bunlar millətdə aşağı zövq tərbiyə edir axı. Odur ki, dövlət radiosunda, televiziyasında min zəhmətə başa gələn tarix, mədəniyyət proqramları qalır bir yana, bu özəl radioların qurulmuş oyuncaq bül-

bülləri bütün günü canlı efirdə adamın canını alır, vaxtını alır... Dəyərlərini unutdurur.

Düşünürəm ki, hökumət birinci növbədə dövlət televiziyasının, radiosunun maddi bazasını yüksəltməli, ona dəstək olmalıdır. Nə gizlədək, elə bu mənbəyi məlum olmayan, amma möhkəm maddi bazası olan özəl kanallar bu gedişlə üstələyir dövlətin radio, televiziyasını. Azərbaycan Milli Televiziya Şurası nəyə baxır? Onlara nəzarət mexanizmi varmı? Yoxsa hazır vəzifələrdir, tutub oturublar. Onların gündəlik işləri, gündəlik nəzarətləri, koordinasiyaları olmalıdır.

Həqiqətən naməlum mənbələrədən bazasını möhkəmlədən, bu saat özlərini qüdrətli, imkanlı sayan bu kimi televiziyalar xalqa zidd filmləri, yabançı ideyaları, deyim ki, antiazərbaycan təbliğatı, az qala düşmənçilik ideyalarını Azərbaycana yönəldirlər. Maraqlıdır ki, bu səbəbdən yenə onların maddi imkanları artır və bazaları zənginləşir.

Azadlıq, ardınca demokratiya. Bu yorğun ayaqlarını soyunub çəmən üstə gəzib azad dolaşmaq deyil, əsl azadlıq ruhun azadlığı, beyinin, düşüncənin sərbəstliyidir. Azadlıq öz hüquqlarını bütöv şəkildə dərk etməkdə, bu hüquqların qorunmasındadır. Hörmətli yazıçımız dediyi kimi, yoxsa o Sumqayıt yolu boyunca cılız, miskin, amma görünür, arxasında iri şirlərin dayandığı "obyektlərin" eybəcərliyinə dözməyə məcbur olduğumuzda deyil azadlıq və demokratiya. Bəli, hörmətli Hüseynbala müəllim, bu qorxu top-tüfəngin qorxusundan heç də az dəhşətli deyil.

Xülasə, qorxu təkcə bağlarımızın ağaclarını kəsən, bağçalarımızın gülün-çiçəyini solduran, Hacı babamızın Bakıya min zəhmətlə çəkdirdiyi suyu elə həmin anbarlardan şüşəyə töküb satdıran acgözlərimzdən, qədim Bakının daşına, torpağına dədə malı kimi sahib çıxan təzə dəllallarımızdan çox, o qəlbimizə çəngəlini atıb onun rəhimsizcəsinə çıxarıb qanını içən, öz fikrimizə, əməlimizə özümüzü peşman edənlərdəndir qorxu.

*"Qoy Allah bizə özü yar olsun, qəlbimizə şəfqət ziyaları axsın. Zərrə gözəlliklərin də qədrini bilək, özümüz o gözəllikləri yaradanlardan və bəxş edənlərdən olaq."*

Hüseynbala müəllim əsərlərində münasibətləri paralel şəkildə əvvəldən axıradək aparmağa çox önəm verir. **"Cəza"** povesti (2005) bu qəbildən olan əsərlərindəndir. Əsərdə insanın cəmiyyətə və təbiətə münasibəti bədii detallarda aydın nəzərə çarpdırılır.

"Cəza" povestinin qəhrəmanları insanın təbiətə vəhşi münasibətinin faciəsini yaşayırlar. Əvvəldə haqqında bəhs etdiyimiz "Qayada çiçək" hekayəsində, eyniadlı kitabda toplanmış bir neçə ədəbi nümunələrdə – "Dağlarda atılan güllə" romanında da yazıçı təbiətə münasibətinin mahiyyətini açıqlayır. İnsan-təbiət vəhdətinin bədii fəlsəfi mənasını görürük adını çəkdiyimiz bu əsərlərdə. Yazıçının istedadından, şəxsiyyətindən bəhs edən böyük türk ədibi Çingiz Aytmatovun fikrini bu məqamda təkrar xatırlamaq istəyirik. "Hüseynbala ilə görüşəndə ondan müsbət enerji qəbul edirəm; mənən bəhrələnirəm..."

Çingiz Aytmatov kimi bir humanist niyyətli yazıçının əsərlərində də insan-təbiət vəhdətinin kamilliyinə çatmaq prinsipləri əsas götürülmüşdür. Ekologiyanın normadan artıq pozulması qlobal fəlakətlərə gətirib çıxarır. Bu məlum...Çingiz Aytmatov da bu və ya digər əsərlərində həmin fəlakətlərdən bəhs edir. Professor, ədəbiyyatşünas alim Nizaməddin Şəmsizadə də bu ruh yaxınlığını, mənəvi qohumluğu – Hüseynbala və Çingiz Aytmatov dostluğunu təsadüfi yada salmır. O, yazıçının "Cəza" povestindən danışarkən yerindəcə Çingiz Aytmatovu xatırlayır. Və haqlı olaraq qeyd edir ki, Ədəbiyyat və sənət əsəri insanın öz əli ilə özünə ucaltdığı ən əzəmətli abidədir. "Cəza" təbiət üzərində, heyvanlar aləmində, xüsusilə mərd və yırtıcı təbiətilə insana daha doğma olan canavarlar üzərində aparılan zəngin müşahidədən yaranıb.

Canavarlar arasında sevgi və sədaqətin əzəməti və ülviyyəti həssas sənətkar qələmi ilə poetikləşib. Yazıçı sevgi

haqqında ən gözəl və fəlsəfi qənaətlərini canavarın varlığında obrazlaşdıra bilib. Heyvanlar haqqında, o cümlədən Canavar haqqında çox yazılıb. Cek London, Çingiz Aytmatov və s. Lakin Mirələmovun "canavarı" başqadır. O bu əsərdə cəmiyyətin ekoloji taleyini canavarların taleyində tipikləşdirməyə nail olub.

Təbiətlə harmoniyanın, psixoloji vəhdətin bitməsi bəşəri bir fəlakətdir. Yazıçı heç bir yerdə yazmır ki, mən heyvanları qıranlara nifrət edirəm. Onların əməllərini təsvir edir və aldıqları cəzanın ədalətli olmasına inam yaradır. Cinayətkar cəzasını almayanda cəmiyyət də, təbiət də pozulur. Onda təbiətin intiqamı başlanır və bu intiqam daha amansız olur".

Dünya şöhrətli Çingiz Aytmatov təbiətin intiqamını ədəbiyyatın dililə təsvir edə bildiyinə görə böyük yazıçılardan sayılır. Hüseynbala Mirələmov yaradıcılığında da bu tendensiya özünəməxsus şəkildə, yazıçının bədii istedadı səviyyəsində Azərbaycan oxucusuna çatdırılır. Müsahibələrinin birində təbiətə sevgisini özünə xas olan bir səmimiyyətlə ifadə edir yazıçı: " Təbiətə münasibətə gəldikdə, etiraf edim ki, ona olan böyük sevgi mənimlə eyni gündə, eyni saatda, eyni anda dünyaya gəlib. Əmdiyim ana südü ilə, aldığım nəfəslə, içdiyim su ilə ruhuma, canıma hopub. Təbiət mənim üçün ikinci anadır. Ana yalnız öz övladlarının qayğısını çəkdiyi halda təbiət bütün canlılara analıq edir".

Bu fikirlərin səmimiyyətinə inanmamaq mümkün deyil. Çünki yazıçının bütün əsərlərində bu sevginin işığı, təbəssümü oxucunu heyran edir.

İdeyası başqa olan əsərlərdə də yazıçının təbiətə sevgisi düşüncələrinin hərarətində bizə yol göstərir. Bu yaxınlarda ədibin **"Tənha durna uçuşu**"(1984) əsəri əsasında hazırlanmış televiziya tamaşasından epizodlara təkrar baxdım. Qədim, antikvar əşyaların satıldığı mağazaya girən alıcının diqqətini bir əşya cəlb edir. Alıcı ilk dəfə gördüyü bu əşya barəsində soruşur: bu nədir, nə üçündür?

İzahat verməyə hazır yaşlı satıcı xüsusi bir həvəslə cavab verir: qızım, buna durna çırağı deyərlər. Çox-çox qədim zamanlarda bunu dağların uca zirvələrində yandırarmışlar ki, durnalar bu çırağı görüb yolu azmasın.

Əlbəttə bu, babalarımızdan, ulularımızdan gələn qədim bir əfsanənin hikmətidir. Babalarımızın təbiətə, varlığa sevgisinin daşıyıcısı olan bu əfsanəni, bu qocaman hekayəti əsərə gətirmək də böyük sənətin yükünü, məsuliyyətini daşıyan yazıçının vətəndaşlıq mövqeyini göstərir.

"Tənha durna uçuşu"nda yazıçı insanın təkliyini, tənha insanın iztirablarını, onun sonrakı taleyini əsərin ana xətti seçib. Adətən qatarından ayrılmış durna təklənir. Təklənmiş durna ya qasırğaya, borana düşür, ya alıcı quşlar səmada şimşək kimi şığıyaraq onun üstünü alır... Beləcə, tənha durnanın aqibəti faciəli olur. O, yaşamını, həyatını itirir. Bəzən ekranlarda canlı təbiət səhnələri nümayiş etdirilir. Orda bəzən qatarından ayrılmış durna neft bataqlıqlarına, qır gölməçələrinə gəlib düşür. Qıra, mazuta bataraq qanadlarının uçuş qabiliyyətini itirir. Bir sözlə, təklənmiş durnanı heç bir səadət, heç bir xoş tale gözləmir, təsadüflər köməyinə çatsa da, xeyri yoxdur artıq.

Yazıçı xoşa gəlməz təbiət hadisəsi ilə yanaşı insanla bağlı qüssə dolu cəmiyyət hadisəsini eyni müstəviyə gətirir. Və insanın da karvanından üzüləninin kədərli taleyini cızır. Hər halda ağır dərddir tənhalıq.

Doğrudur, hər bir insan daxilən tənhadır, təkdir. Amma buna baxmayaraq insanın həmdəmi olmalıdır. Gedə biləcəyi, üz tutacağı, dərdini bölüşəcəyi, məsləhət alacağı, kömək umacağı ünvanlar nə qədər çox olsa insan bir o qədər tənhalıqdan uzaqlaşmış olur.

Bu əsər əsasında film də çəkilib. Elə yazının özünün ssenarisi əsasında Azərbaycan Teleradio Şirkətində çəkilmiş "Durnalar qayıtdı" televiziya filmi böyük rəğbətlə qarşılandı. Bu film yazıçının "Durnalar qayıtdı", "Bir tikə çörək" və "Dəyirmana gedən yol" hekayələri əsasında formalaşdırılıb. Film

müharibə mövzusuna həsr olunmuşdur. Demək, müharibə ağrısı ilə yol gedən xalqın taleyi ideya olaraq müəllifi hər zaman düşündürüb. Çünki söhbət bir kəndin, hətta bir xalqın taleyindən getmir. Bu artıq bəşəri problemdir. Dünyanın, bütün insanlığın dərdidir.

H. Mirələmovun həyat və yaradıcılığı ilə bağlı "Sözə doğru" çox dəyərli tədqiqat əsərinin müəllifi şair-publisist Əlirza Xələflinin "Tənha durna" filmi ilə bağlı qələmə aldığı "İdeya və obrazın vəhdəti gözəlliyi yaradır" ünvanlı qeydlərindəki bir fikirlə çox razıyam: "Xalqın ruhunu bütün gizli və aşkar tərəfləri ilə birlikdə duyub özündə, mənəviyyatında ehtiva etmədən xalqın qəbul edəcəyini yazmaq, insanları sevindirmək çətin olardı. Bu sevindirmək məfhumu burada şərtidir. İnsan bədii gözəllik qarşısında sarsılmalıdır. Əgər heyrət yoxdursa, demək gözəllik də yoxmuş. Bədii əsərin aşıladığı dərin kədər, hətta insanın yaşamaq ümidini üzən, onu dərin psixoloji burulğanlara sala bilən əsər belə, haqqında danışdığımız gözəlliyin təcəssümüdür."

Əlbəttə, burada tədqiqatçının "ümidi üzən" ifadəsi ilə bağlı mübahisə də etmək olar. Ancaq bu başqa söhbətin mövzusudur, ümumi xəttən kənardır. Sadəcə onu demək istərdim ki, bu qeydlərdə ifadə olunan həqiqəti "Durnalar qayıtdı" filminə də şamil etmək olar...

Hansısa qəzetə verdiyi müsahibədən, yazıçının xarakterini bəlli edən söhbətdən parçalar da yadıma gəlir. Jurnalistin "insanlarda ən çox xoşunuza gələn və gəlməyən keyfiyyətlər hansılardır, ən çox sevdiyiniz çiçək hansıdır, hansı müğənniləri, hansı yazıçıları, rəssamları və aktyorları xoşlayırsınız, muğamata münasibətiniz, idmanın hansı növü ilə məşğul olursunuz?" suallarına verdiyi cavabı təsdiq edir ki, Hüseynbala Mirələmovun həm də min illərin şəxsiyyət və sənət qarşılaşmasına, probleminə cavabı vardır.

Çoxdan oxuduğum və müəllifini unutduğum bir şeir parçası var:

*Sən danış səmimi, kiri səmimi,*
*Səmimiyyət qəlbin məhək daşıdır.*
*Söhbət olacaqsa qeyri-səmimi,*
*Dinib-danışmamaq daha yaxşıdı.*

İşdə, ailədə, dostlar arasında səmimiyyət, ədalət ölçüsü, dözümlülük, ali məqsəd uğrunda, həyat amalı yolunda sonadək mübarizə apara bilmək qətiyyəti, opponentlə məntiqə, ağlının gücünə güvənməklə mübahisə etmək bacarığı, uğurundan öyünməmək, başqalarının əzabına sevinməmək, özündəki kədərini gizləyib, sevincini bölmək, özündən kiçiklərə güzəşt, böyüklərə ehtiram göstərmək, xeyir-şər məclislərindən qalmamaq, lazım gələndə ölümün gözünə dik baxmaq cəsarəti, sözübütövlük və s...

Deyim ki, həyatda həmişə yalançı, yarımçıq, unutqan, yaltaq, sözgəzdirən, sırtıq, qeybətçil, yerlipərəst, acgöz, nəfsinin əsirinə çevrilən insanları görməyə gözüm olmayıb və nə gizlədim, belələrini islah edə bilmirəmsə, onlardan həmişəlik üz döndərirəm. İncimirəm, sadəcə qaçıram...

Öz tövrü və xasiyyəti haqqında hər şey ətrafdakılara məlum olsa da yazıçının etirafı bu məlum bilgilərə nəsə əlavə edə bilir: "Qayada çiçək" kitablarımdan birinin adıdır. Çiçəklərin, güllərin demək olar ki, hamısını sevirəm. Sonra çoşqu ilə, lakin sadədilliklə əlavə edir: Amma sərt qayalarda bitən çiçəklərin solmaması üçün hər şeyi edərdim...

Söhbət gəlir boş vaxtlaradan istifadə məsələsinə çıxanda üzgüçülüklə məşğul olmağı yaman xoşlayıram. Amma heç bir idman növü üzrə dərəcəm yoxdur. Gəncliyimdə futbolu çox xoşlayırdım. Atçılıq idmanına indi də maraqla baxıram. Axı idmanın hansı növü pisdir ki?!

Sənətkar qəflətən sözü axırda musiqinin - "can dərmanı" olan sərvətin üzərinə gətirir: Azərbaycanın korifey sənətkarları həmişə çox olub, indi də var, yenə kifayət qədərdir. Əbülhəsən xan İqbal, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu,

Seyid Şuşalı, Xan Şuşalı Cavanşir, Bülbül, Rəşid Behbudov, Nərminə Məmmədova, Şövkət Ələkbərova, Lütfiyar İmanov, Şahmalı Kürdoğlu, Yaqub Məmmədov, Sara Qədimova, Canəli Əkbərov, Alim Qasımov, Məmmədbağır Bağırzadə daim dinlədiyim müğənnilərdəndir. Sonrakı nəsildən isə ən çox dinlədiyim Aygün Bayramova və Mənsum İbrahimovdur. Məhəbbət Kazımovun "Laçınım" mahnısını isə eynilə "Heyratı" muğamı kimi hər kəsdən fərqli olaraq döyüşə çağırış kimi dinləyirəm.

Çingiz Aytmatov, Lev Tolstoy, İvan Bunin, Rəşad Nuri Güntəkin, Drayzer, Mark Tven, Bəxtiyar Vahabzadə, Anar, İsa Hüseynov, Əkrəm Əylisli, Çexov ən çox mütaliə etdiyim yazıçılardandır.

Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Fərhad Xəlilov, Tahir Salahov dünya rəssamlıq məktəbinin böyük simalarındandır. Hər dəfə onların əsərlərinə baxanda yeni bir çalar, yeni bir nəfəs duyuram.

Aktyorlara gəlincə, yenə də dağa-daşa düşməyə gərək qalmır. Bizim Mirzəağa Əliyev, Adil İsgəndərov, Ağasadıq Gəraybəyli, Mehdi Məmmədov, İsmayıl Osmanlı, Əliağa Ağayev, Şahmar Ələkbərov, Səməndər Rzayev, Həsənağa Turabov, Həsən Məmmədov, Səyavuş Aslan, Hacıbaba Bağırov, Yaşar Nuri, Əliabbas Qədirov kimi aktyorlar nəslinin hansını sevməyəsən...

Azərbaycan muğamlarını dinləməkdən doymuram. Xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam" poeması muğamlarımızın fəlsəfi mahiyyətini daha dərindən duymağıma kömək edir. Xalqımızın bu tükənməz sərvətinə yad nəfəs, yad xallar gətirənləri lənətləyirəm. Hər bir muğam tarixin dərin qatlarından xəbər verən əvəzsiz əsərdir, mənəvi-mədəni xəzinəmizin dəyərli nümunələridir. Onları qorumaq, gələcək nəsillərə olduğu kimi çatdırmaq hamının, hər kəsin borcudur..."

İnsan danışdıqca onun iç dünyası görünür. Qəlbin gözəldirsə, danışdıqların da mənəvi aləminin tərcümanı kimi

hər kəsdə heyranlıq doğuracaqdır. Hüseynbala Mirələmovun doğrudan-doğruya sənətilə üst-üstə düşən yazıçıya xas çox maraqlı keyfiyyətləri var. Dəfələrlə qeyd etdik ki, Mirələmov təbiətə sevgisini əsərlərinə bolabol paylaya, hopdura bilib. Ədəbiyyata gətirdiyi bir çox obrazlarda onun özü də görünür. Bu obrazın konkret hansı olduğunu demək olmaz. Hərgah yazıçılar, böyük sənət adamları ruhi aləmlərini də zaman-zaman əbədiləşdirdiyi obrazların ruhuna köçürürlər.

Hüseynbala Mirələmovun əsərləri obrazlarla zəngindir. Daha doğrusu, zəngin obrazlardır, mənən, daxilən... Hətta bu irs o qədər zəngin ki, onlar bütöv bir "obrazlar qalareyası" təşkil edə bilirlər.

Bu zənginliyin bir doğuluşu, başlanğıcı var; onu yazıçının öz məfkurəsində, işıqlı düşüncələrində axtarmaq lazımdır. Bununla bağlı onun özünün təbiətə münasibətindən, təbiətin nizamını qorumaq həvəsindən danışanda yadıma onun bir söhbəti düşür:

*... "Ovçular" cəmiyyətinin üzvüyəm; müxtəlif kalibirli ov tüfənglərim var. Dostlarımla bir neçə dəfə ova da getmişəm. Di gəl ki, barmağımı bir dəfə də olsun tətiyə sıxmamışam. Günlərin birində dostlarımdan biri mənə zəng vurub dedi ki, sənə yaxşı bir cüyür vurub gətirmişəm. Elə bil məni ildırım vurdu. Qeyri-ixtiyari "barmaqların qurusun" ifadəsini işlətdim, apar, kimə istəyirsən ver,- dedim. Dostum təkrar-təkrar zəng vurdu. Ona yekun cavabım belə oldu:*

*-Səni belə tanımırdım, namərdlik etmisən, o gülləni yalnız cüyürə deyil, Allaha, təbiətə, mənə, ümumiyyətlə gözəlliyə, insanlığa tuşlamısan. Qəddarlıq sənə güc gələndə o təbiət gözəlinin gözlərinə baxdınmı, o yalvarışları duydunmu?.*

*Güllə səsi məni diksindirdi. Təbiətin nadir gözəllərindən biri azaldı. Mən isə dostlarımdan birini itirdim. İtki isə adamı hər zaman göynədir"...*

Hüseynbala Mirələmov həyata bağlı insandı, həyatsevərdir. Kükrəyən emosiyalarını nizamlaya bilən ağıl sahibidir.

Onun hissləri nə qədər titrək, oynaq, məcrasından çıxmağa hazır olsa da, o bütün bunları iradəsinə tabe etdirə bilir. Çünki onun yazıçılıq istedadından daha yuxarıda dayanan mənəvi hakimiyyəti var.

Bu, ağıldır. Ağıl demişkən yazıçının “Ağıl, ya bəxt” hekayəsi yada düşür istər-istəməz. Doğrudan da, insan həmişə ağlına arxalandığı qədər də bəxtinə arxalanmaq istəyir. Hərdən bəxtə inanmaq da istəyirsən, inanmamaq da. Bəzən bəxt bu sınaqlardan uğurla çıxır. Bax onda bəxt insanın yanında özünə etibar qazanır. Məncə ağıl daha hakim qüvvədir, ona hər zaman arxalanmaq olar, əlbəttə, əgər o səndə varsa.

Maraqlıdır ki, yazıçı ağıl, ya bəxt seçimində üstünlüyü bəxtə verib, onu güclü çıxarıb. Lakin bu, bir tərəfdən insanın mübarizliyinə maneə törədir, hərəkətə, fəaliyyətə, inkişafa zidd getməkdir.

“Məzmunca müasir, müəyyən qədər də sentimental üslubda yazılmış “Gecə bənövşələri”(Nizami C.) əsərində ədib sözönü olaraq açdığı söhbətdə yenə bu barədə - insanın daim yaxınında olan, lakin nə qədər yaxın olsa da hər təsadüfdə çözə bilmədiyi fövqəlbəşəri məqamlara bizi ortaq edir: “... rəhmətlik nənəm nə vaxtsa Məkkədən gətirilmiş sapsarı sünbül rəngli kəhrəba təsbehini çevirə-çevirə deyərdi: eh, ay bala, qəzavü-qədərdən qaçmaq olmaz. Qismət nədirsə odur. Özünü ha oda-közə vur, ha çalış-vuruş xeyri yoxdur. Mən bu sözlərə etiraz edər, dünyanın hər üzünü görmüş, bir-birinə bənzəməyən talelərin şahidi olmum qarını avam sayardım. Deyərdim, yox ay nənə, elə deyil, hər şey insanın özündən asılıdır. Bax mən oxuyuram, “beş” alıram, başqaası oxumur, “iki” alır.

Nənəm başını bulayardı” “Yox, ay bala, mən gördüyümü görmüşəm; nə qədər əlləşirsən, əlləş, nə qədər vuruşursan, vuruş, yenə qismət var, alın yazısı var. Yazıya pozu yoxdur”. Daha heç nə deməz, maddım-maddım üzünə baxardım. Fikirləşərdim, yaşlı arvaddır, qoy danışıb ürəyimi boşaltsın...”

Amma digər tərəfdən də məqsəd hər nə olur olsun, insanın inanclarını, inamını, ümidini qorumaqdır. Yenə hər halda hekayənin bədii təsir gücü insanı bəxtə tərəf yönləndirir, insanın müqəddəratının onun ağlından çox bəxtindən və tale uğurundan asılı olduğu qənaətə gəlir.

Hekayənin ilk məqamlarındaca azıçı fərqli dünyagörüşlər barədə mühakimə yürüdərək yazır:

"Rasionalistlər və ateistlər iddia edirlər ki, insanın taleyində hər şey onun ağlından aslıdır. Əlbəttə, ağıl insanın tacıdır. Lakin bu tacın üstündə gözəgörünməz bir halə var. Bu qızıl halə bəxtdir. Ağılsız adamı bəxti xilas edə bilər. Əksinə də ola bilər..."

Yazıçı ibrətamiz bir hekayət danışır. Qədim zamanlarda ağlı qiymətləndirməyi bacaran bir şahın ağıllı bir vəziri varmış. Şah vəzirin ağlına o qədər güvənirmiş ki, bu səbəbdən də onu həddən ziyadə istəyirmiş. Hətta ova çıxanda yolda harada gecələsələr vəzirlə yan-yana yatarmış. Onda özünü daha rahat, daha əmin-aman hesab edərmiş. Bir dəfə necə olursa, belə gecələrin birində vəzir Toğrul yuxu görür. Yuxusunda ağılla bəxti qızğın mübahisə edirlər. Ağıl deyir ki, vəziri bu şərəfə mən çatdırmışam. O mənim sayəmdə belə ad-san qazanıb. Bəxt isə: mən olmasam sən heç nəyə nayil ola bilməzdin, vəziri bu mərtəbəyə mən qaldırmışam, söyləyir. Mübahisə uzanır. Ağıl təslim olmur. Onda bəxt, "elə isə mən getdim", deyib ağılı tərk edir. Vəzir isə yuxusunda ondan bərk-bərk yapışmaq istəyir. Axır ki, bəxti əlindən çıxır... Vəzirin əllərinə onunla yanaşı yatmış şahın boğazı keçir. Şah xırıldaya-xırıldaya güclə qalxa bilir. Görür ki, vəzirin barmaqları onun boğazını məngənə kimi sıxır. Hay qopur. Şahın cangüdənləri vəzirin qollarını arxada bir-birinə çatırlar. Sabahısı gün vəzirin edamı elan olunur. Camaat meydana toplaşır. Şah üzünü həm saray adamlarına, həm də meydana yığışanlara tutur. İndi nə edək, ay camaat, bu vəziri edam edəkmi?

Yerdən vəziri müdafiə edən çoxlu səslər eşidilir. Bir ağsaqqal da təmkinlə öz qərarını söyləyir: “Şah sağ olsun, vəzir Toğrul uzun illərdir ki, sənə və xalqımıza sədaqətlə xidmət edir. İndi bir səhvi ucbatından onu öldürmək olmaz. Yəqin şeytan girib qəlbinə. Gəlin onu öldürməkdənsə, ölkədən sürgün edək.”

Bəli, ağsaqqal sözü eşidilir. Vəziri ölkədən, məmləkətdən çıxarırlar. Vəzir pay-piyada yola düşür. Nəhayət, gəlib bir kəndin kənarındakı evə yaxınlaşır. Həyətdə vəzirin qabağına bir qoca kişi çıxır. Vəzir ondan “Uzun yol gəlmişəm, bir gecəlik yer istəyirəm,”deyə xahiş edir

Məlum olur ki, vəziri qarşılayan qoca bir bağbandır. Ev sahibi vəzirin hekayətindən hali olandan sonra ona bağda işləməyi təklif edir. Amma bağbanın vəzirə verməyə nəğd pulu olmadığından meyvə ağaclarından bir neçəsini vəzirə ayırır ki, bar vaxtı meyvəsini satıb pula çevirsin.

İl dolanır, mövsüm gəlib çatır. Ağaclar pəmbə buludlar kimi ağ çətirə, çiçəyə bürünür. Meyvə vaxtı bağbanı təəccüb bürüyür. Görür ki, ağaclar hamısı barla doludur, budaqlar ağırlıqdan yerə yatıb. Amma di gəl ki, vəzirə ayırdığı ağacların heç birində bir meyvə də olsun gözə dəymir. Bu il bağban öz payından vəzirə ruzi verir. Növbəti il eyni sıradan bir ağac özünə, bir ağac vəzirə ayırır. Yenə də bar-bəhər vaxtı qoca bu işə məəttəl qalır; gözü ilə gördüyünə inana bilmir. Baxır ki, eyni sırada, eyni cərgədəki ağaclardan özünə götürdüklərində məhsul var, vəzirə ayırdıqlarında isə bar yoxdur. Qoca bağban nə edəcəyini bilmir, söz tapmır deməyə, təəccüf və təəccübünü “əstağfürullah” deməklə söndürmək istəyir...

... Artıq neçə il idi ki, vəzir bəxtiqara qürbətdə qəm-kədər içində yaşamaqda idi. Vaxt ötür, amma onun taleyində yaxşılığa doğru heç bir dəyişiklik baş vermirdi. Dəyişən yalnız onun zahiri görkəmi idi. Nə etməli? Ağıllı, amma bəxtsiz vəzirin saç-saqqqalına dən düşmüşdü. Göz-görəti, sürətlə qocalmaqda idi. Bir gecə yenə yuxusunu qarışdırdı. Bəxti ilə ağlı yenə üz-üzə dayanmışdı. Bəxt ağıla deyirdi: “Hə, nə oldu,

o cür kişini gör nə günə qoymusan... De görüm, yenə inad edirsən ki, onu ucaldan sən idin?

Ağıl başını aşağı salıb deyir: "Mən təslim..."

Bəli, elə bu sözdən sonra vəzirin tale atı hərəkətə keçir: elə həmin söhbət gedən gecə Əflatun şah da yuxuda keçmiş vəzirini görür. Şah indiyə qədər düşünmədiklərini düşünür. Özü-özünə sual verirmiş kimi: axı, vəzir o vaxt istəsəydi hökmən özünü müdafiə edə bilər, hərəkətlərini izah edərdi. Burada nə isə var.. Axı, vəzir nə isə deməli idi özünə bəraət vermək üçün... Odur ki, burda bir sirr olmamış deyil. Beləcə şah qərar verir ki, vəziri tapsınlar... Vəzir tapılır da, saraya gətirilir də, vəziri gğzdən salan o uğursuz əhvalat da çözülür.

Vəzir əvvəlki şöhrətinə, taxt-tacına qaytarılır. Çünki ağıl təslim olmuşdu. Bəxt yenidən ağılla bərabər idi. Hekayət burda bitir.

Lakin burada nə qədər ki, hekayənin sonuna çatmamısan, sənə əsərdəki fikir aydın olmur. Elə sanırsan ki, yazıçı bəxti daha böyük güc hesab edir. Amma bir qədər fikirləşəndən sonra hekayənin müəllifini anlamaq məqamı gəlib çatır. Heç bu qeydlərin əvvəlində doğrudan da, mən məsələnin əsl mahiyyətini anlamamışdım. Ağıl həqiqətən də, kamil, qüdrətli olsa idi, bəxtlə mübahisəyə girişməzdi. Və bəxti küsdürməzdi.

Demək ağılın zəifliyi ucbatından bəxt də insanı tərk edir. Yazıçı əslində bunu söyləmək istəyir. Bir də bir yaxşı söz yadıma düşür. Xalq təfəkkürü söyləyir ki, hamı yaddaşından gileylənir, heç kəs ağlından gileylənmir. O ağıl ki, bəzən yeri səhv düşə də bilir. Siyasət döyüşündə uduzur. Şər qüvvələrin ağlı önə çıxır. İndi onsuz da dəyərlər deformasiyaya uğrayıb. Dünya Nobel mükafatını bəzi hallarda sənətin böyüklüyünə, faydasına görə vermir. Məsələn, əminəm ki, bu gün qeyd-şərtsiz "Dünya ədəbiyyatında" layiqli yeri olan Nizami Gəncəvi bu əsrdə yaşasaydı, Nobel mükafatı ala bilməzdi. Çünki dünya səviyyəli bu mükafatın özü də siyasiləşib. Orxan Pamuk Nobel mükafatçısıdır. Amma hansı əsərinə görə? O əsərinə

görə ki, yazıçı öz xalqına, öz soyuna iftira ataraq xəyanət edib. Türk mənəviyyatını aşağılayıb, Türkün tarixi dəyərlərinə daş atıb. Daha doğrusu, onu məzə obyektinə çevirib.

Demək, mənəviyyatın ekologiyası məsələsi dünyəvi məsələdir. Əslində, inkişaf özü ilə bir sıra elmi yeniliklər, üstünlüklər gətirməklə bərabər, həm də insanlığı korlayacaq qədər təhlükəli mənəvi hava axını gətirir. Bax, yazıçı əslində bu axına qarşı manevr edir. Təsadüfi deyil ki, "Mənəviyyatın ekologiyası" cəmiyyətin bütün təbəqələrini əhatə edən, ədəbi-elmi ictimaiyyəti silkələyən rezonans yaratdı.

Tədqiqatçı alim, rəhmətlik Əjdər Fərzəli, xalq şairi Söhrab Tahir, İlyas Tapdıq, Nahid Hacızadə, düşüncə adamı, bilginimiz Elməddin Əlibəyzadə, yazıçı-publisist Əlirza Xələfli, mənəvi mədəniyyət tariximizin tədqiqatçısı Binnət Hümbətoğlu, şair İsgəndər Etibar, yazıçı-publisist Fariz Çobanoğlu, yazıçı-publisist Əlibala Zaloğlu və başqaları mənəviyyatla bağlı duyğu, düşüncələrini, təkliflərini, rəy və mülahizələrini mətbuat vasitəsilə cəmiyyətə çatdırırdılar.

Mənəvi-ekoloji mühitin pozulması, bu mühitdə tarazlığın mənfi yönə dəyişməsi bir günün, beş günün, ayların, illərin, heç bəlkə də əsrlərin məhsulu deyil. İnsan bio-sosial varlıq olduğu üçün təbii ki, onun mənəviyyatının təkamülü də insanın bir bioloji varlıq kimi dünyaya gəlişinin, daha doğrusu, insanın yaranışının tarixi qədərdir.

İnsanı sosial və bioloji varlıq kimi tədqiq edən alimlər bu günlərdə yerin dərin qatlarında təzə insan izləri tapıblar. Məlum olub ki, bu insan izlərinin yaşı 800 min ili ötür. Təsəvvür edirsinizmi, 800 min illik insan izi müasir insana nəyi diktə edir? Biz insanın tarixi yaşını çox gənc bilirdik. Sən demə, o da təbiətin özü qədər qədim imiş. Maraqlıdır, 800 min il yaşı olan insanın mənəvi aləmi ilə bugünkü insanın mənəvi-psixoloji yaşı arasındakı fərq nə qədərdir? Bu "qədəri" bir tərəfə qoyuram, daha doğrusu sualın konkret cavabından uzaqlaşmaq istəyirəm. Ancaq öz həmkarlarıma, həmfikirlərimə, məni başa düş-

mək istəyən Adəm övladlarına, bəşər nəslinə bir məsələni də çatdırmaq istəyirəm. Bu gün XXI əsrin insanı hansı vəhşilikləri törədir? İndi dünyanın bir küncündə oturub ərzin digər başını görmək mümkündü internet vasitəsilə. İraqda, Suriyada, Libiyada bu tip qeyri ölkələrdə ayrı-ayrı dini təriqətlərin, sektaların üzvləri qruplar şəklində böyük terror aktları törədirlər. Hətta qadınları belə bu işə sövq edirlər. Guya ki, yeni cəmiyyət, yeni dünya, yeni aləm yaratmaq istəyirlər. Bir izləyici, bir seyirci kimi biz dəhşətə gəlirik. Elə epizodlar, elə canlı səhnələr var ki, əllərimizlə gözümüzü qapayırıq. Sona qədər izləməyə ürəyimizin taqəti, ağlımızın, şüurumuzun gücü çatmır.

Düşünürəm ki, elə belə olmalıdır. İnsan vəhşiliyə necə baxa bilər?! İraqda İŞİD-i mənəvi arealını genişləndirməyə cəhd edən vəhhabi təriqətinin üzvləri heç kimə rəhm göstərmir. Hələ yenicə ağı qaradan, işığı zülmətdən seçməyə çalışan körpələri baltalayaraq qətlə yetirir, uşaqları diri-diri, kütləvi şəkildə qazılmış çalalara tökərək üzərlərini torpaqla doldururlar. Ən başlıcası, bu işdən zövq ala-ala qətli həyata keçirirlər. Azyaşlı uşaqların kəsilmiş bədənlərini, başlarını əllərində heyvan cəmdəyi kimi sallayaraq nümayiş etdirirlər. Bu günahsız körpələrin daxili orqanlarını açıq şəkildə, diriykən doğrayaraq bədəndən ayırırlar.

Mən bilmirəm, buna nə deyim, nə ad verim... Buna mənəviyyatın ekologiyasının pozulması demək nə dərəcədə düzgündür?! Min illərdir insan aləmi, insan ağlı, şüuru təkmilləşir. Deyirik ki, inkişaf sadədən aliyə doğru gedir. Kaş elə tərsinə olaydı. Alidən sadəyə doğru gedəydik. Bilərdik ki, axırımız yaxşıdır. Çünki pisin yaxşı olması nə qədər mübarək, nə qədər sevindiricidir. Amma yaxşının dönüb pis olması faciədir.

Bəli, mənəviyyatın korroziyası, mənəviyyatın çürüməsi cəmiyyətin, eləcə də dünyanın iflasıdır. Mənəviyyatın ekologiyası bəşəri mövzudur. Və mənəviyyatın artıq dərəcədə çirklənməsinin kökləri insanlıq tarixinin daha dərin qatlarındadır. Axı biz mənəviyyatdan danışarkən onun mənəvi təkamülündən da-

nışmaya bilmərik. Odur ki, prosesin, mənəvi təkamülün keçdiyi yolun dərinliyinə enmək üçün Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası" məqaləsinə özünün maraqlı mülahizələri ilə münasibət bildirən, elə həm də eyniadlı kitabın redaktoru olan şair-publisist Əlirza Xələflinin "Hər adam özü bir problemdir" məqaləsindən bir parçanı iqtibas gətirmək istəyirik.

"Avesta"dan üzü bəri, "Kitabi Dədə Qorqud"dan, Şeyx Nizami mənəviyyatından, Azərbaycanın klassik mənəvi ənənələrindən qidalanıb, rişələnib, kök atıb ruhumuzda yaşarlıq kəsb edən mənəvi sərvətlər xəzinəmiz var ki, bütün bunların hamısını inkar etməyə cəhd göstərən qüvvələrin məqsədi aydındır.

Dünya ədəbiyyatının korifeyi Çingiz Aytmatov "Manqurt" əfsanəsini gündəmə gətirib yaddaşlarda möhkəmldərkən hansı məsuliyyətin altına girmişdi? Bu, artıq sirr deyil: Hər hansı bir xalqın yaşarlığı, hər hansı bir xalqın öz milli mənliyini qoruyub saxlaması ancaq onun mənəvi dəyərlərinə söykənməsi ilə mümkün ola bilər.

Təsadüfi deyil ki, hər hansı bir xalqın keçmişinə dodaq büzmək, bu günə qədər yaradılanların üstündən qələm çəkməklə xalqı hansı ağ günə çıxarmaq, səadətə çatdırmaq olarmış? Bir tərəfdən Dədə Qorqud aləmini, Dədə Qorqud mənəviyyatını ideallaşdırmaq, onu tariximizin, bəli, məhz tariximizin ən parlaq səhifələrindən biri kimi öyrənmək istəyiriksə, digər tərəfdən isə bu müqəddəsliyi dağıtmaq cəhdlərinə də göz yumuruqsa, onda hansı mənəvi tarazlıqdan danışmaq olar?..."

Müəllifə bu kəlmələri dedirdən, sətirləri yazdıran konkret hansı faktlardır, dəqiq müşahidəçi qismində danışa bilməsəm də idrakıma güc verməliyəm. Son illərdə Azərbaycan mənəviyyatını zədələyən, mənəvi mədəniyyət tariximizi hansı vasitə ilə gözdən salmağa çalışan, onu bayağılaşdıran, milli-mənəvi dəyərlərimizi ucuzlaşdırmaq istəyən çoxlu bədii ədəbiyyat nümunələri dərc olundu. O cümlədən Dədə Qorqud abidəsini

yox etmək istəyən yazıçılar, ədəbiyyatşünaslar, alimlər, bir də müxtəlif televiziya verilişləri peyda olub ortaya çıxdı.

Beləlәri Dədə Qorqud qəhrəmanlarını məzə obyektinə, gülüş hədəfinə çevirmək istəyirdilər. Elə bununla da məqsədləri faş oldu; Salur Qazana, Beyrəyə, Əkrək və Səkrək qardaşlarına, o cümlədən "Kitabi Dədə Qorqud"da milli mənsubiyyətimizin tarixi köklərini yaşadan bu obrazlara dərin həsədlərini, qısqanclıqlarını büruzə verdilər.

Məncə, Əlirza Xələfli onlarla barışmadığını, onları düşmən sandığını demək istəyir. Həm də demək istəyir ki, mənəviyyat məsələsi olduqca həssas bir mərkəzdir və onunla oynamaq odla-ocaqla oynamaq kimi bir şeydir. Çünki od bəzən odu-ocağı qalayanın, tonqalı çatanın özünü də ağuşuna ala bilir. Gərək insan elə bir ağac əksin ki, onun kölgəsində həm özü, həm də başqaları otura bilsin. Elə ağac əkməsin ki, onun zəhərindən həm özü, həm başqaları məhv olsun. Unutmaq olmaz ki, həyatın dəyəri insan mənəviyyatının, ağlının, idrakının ölçüsü qədərdir. İnsanın dünyaya baxışı, həyatsevərliyi nə qədər ucadırsa, həyat da o qədər uca görünəcəkdir.

Hüseynbala Mirələmov insanın yarasına sözlə sığal çəkir. Sözün hüdudları daxilində – bu hüdudların əhatəsini yalnız göylərin ənginliyi ilə müqayisə etmək olar- dəyişməz sənətkarlıq prinsipləri baxımından, istərsə də öz zövqü və məharəti baxımından bir söz adamı və filosofdur. Tanınmış yazıçı Nahid Hacızadə də bu mənada sözün ilahi gücünə və sonsuz imkanlarına arxalanan müəllifin qabiliyyətini bu sayaq dəyərləndirir:

"... Müəllif mənəvi aləmində gedən, dərinliklərə rişə atan mənəvi aşınmanı – eroziyanı dayandırmaq , onun qarşısını almaq üçün həyəcan təbili çalır və sözü köməyə çağırır. Təbii ki, bu da ulu ənənədən gəlir – Nizami, Xaqani, Nəsimi, Füzuli, Sabir, Mirzə Cəlil, Səməd Vurğunun heç bir zaman təsirini itirməyəcək ənənələrindən.

Böyük Mirzə Cəlil yazırdı: “Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu gərək hər bir qələm sahibinin amalı ola”...

Yazıçı Hüseynbala Mirələmovun dedikləri əsil sənətkarın vəzifələri haqqında deyilmiş bu möhtəşəm bəyanata söykənib onunla həmahəng səslənir, bu müdrik fikrə dəstək olur:“Söz silahdır, özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli, birbaşa hədəfə vuran sözünə cəmiyyətin ehtiyacı var. Odur ki, tez-tez danışığında “vətəndaşlıq yanğısı”, “yazıçı cəmiyyətin övladıdır” kimi ağır yüklü ifadələrini işlədir Azərbaycan mədəniyyətinin və ədəbiyyatının tanınmış siması olan Nahid Hacızadə və: Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Amma unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı Vətəninin, xalqının övladı deyil. Yaxud o artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəf etmişlər,”-deyə yazır.

# Yazıçının yaradıcılığında Qarabağ

... Başqalarını deyə bilmərəm, mən dünyanın qəribəliklərindən darğınam. Çünki həmişə olmasa da, hərdən görürsən ki, müqəddəs, ulu sandığın "İz"lərin üzünü də insan əlilə yaranmış fəlakətlər, müharibələr, o cümlədən cəmiyyətin ortaya çıxardığı fəsadlar, təzadlar, ziddiyyətlər burulğanı ört-basdır edir. Qarabağda Azərbaycan xalqının min illər boyu əldə etdiyi mədəni – mənəvi xəzinəsi, yaddaşı dağıdılır. Sərvətimiz yad tapdağında itib-batır, torpağın dərinliklərinə gömülür. İsti ocaqlarından didərgin düşmüş insanlar öz ulu ziyarətgahlarına baş çəkə bilmirlər. Ağlamaqdan gözlərinin nuru getmiş irfani qocalarımız, nənələrimiz boynunu büküb həsrət-həsrət yollara baxırlar. Yollardakı, çəhrimlərdəki izlərini axtarırlar. O izlər həm də onların uşaqlıq, gənclik xatirələridir. Ata-babalardan əziz, girami yadigarlardır.

İnsanın bir ağır dərdi də öz izlərini birdəfəlik görüb axıra çatdıra bilməməsidir. Arada müharibə zolaqları var, keçilməz divarlar, hərbi istehkamlar var ki, Vətənin öz ortasından keçən həmin bu "minalanmış zolağı" aşıb keçmək olmur. Bir sözlə, ədalətsizliyin qurbanı olmuş Azərbaycan torpaqları işğal altındadır.

Yazıçının yaradıcılığının yeni saydığımız ikinci mərhələsi bədii örnəkləri hər biri Qarabağ–Vətən torpağı ağrıları üstdə köklənmiş sənət işləridir. Qarabağ haqqında yazılmış əsərləri tamaşaya qoyulub, rəngli ekrana çıxarılıb onun. Yaşadığımız bütün faciələr yazıçının bədii əsərlərindən pərvazlanaraq ekran həyatı qazanaraq da yaşayıb Azərbaycanının milli-mənəvi yaddaşını yağılara-yadlara təslim etməməyi tövsiyə etməkdə və tələb kimi qoyulmaqdadır.

Müharibə həyatından – milli faciələrimizdən bəhs edən yaradıcılıq nümunələrinə keçməzdən öncə deyəcəklərimə dönmək istəyirəm. Açığını söyləsək, Mirələmov milli ədəbiyyatımızın yazıçısı, publisisti, dramaturqu səviyyəsinə milli tarixi taleyimizin ən ağrılı mövzularında – Qarabağ mövzusunda yazılarıyla yüksəldi; Qarabağ mövzusunun prizmasından bütövlükdə Azərbaycanın tarixi taleyinə nəzər salmağı bacardı (Ş. Nizaməddin) Və bu mövzu onda bitib tükənmək bilməyən can ağrısına çevrildi, əziyyət verməsinə davam etdi.

Şübhəsiz ki, "Milli yaddaş" mükafatına layiq görülmüş "Xəcalət"dən öncə "Vicdanın cəzası" yazılmalı idi. "Vicdanın cəzası"nı yazarkən də müəllif yəqin hələ "Xəcalət" kimi bir əsəri ortaya qoyacağına inanmırdı. Ancaq onun bədii təfəkküründə "Xəcalət"in ağrıları yaşamaqda imiş. Elə bu ağrıların gəlişi "Vicdanın cəzası" hekayəsinin yaranmasına səbəb oldu. Həqiqətən "elə mövzular var ki, bir ağrı kimi həmişə səninlədir, özü təcəssümünü tapmayınca səni dinc qoymur, sənə rahatlıq vermir"(Rəsul Rza) Nə qədər doğru təsbitdir.

Hər bir sənət adamına – şairə, yazıçıya əbədilik gətirən, onu gələcək nəsillərə təqdim edən əsərləri olur. Bu əsərlər heç vaxt ölmədiyi kimi, müəllifinə də ölümsüzlük gətirir. Bəlkə də elə buna görə yaradıcı adamları qısa və uzunömürlü deyə qruplara ayırırlar. Sənətkarın uzunömürlü olması bilavasitə onun əsərlərinin ömründən asılıdır.

Qarabağ mövzusuna həsr etməklə yazıçımız Qarabağda dünyaya göz açmış böyük korifeylərimizin ölməz ruhuna "Güllələnmiş heykəllərin fəryadı" adlı ədəbi-bədii essesini, "Bir gecənin sehri", "Cəza", "Yanan qar", "Qırxıncı otaq", "Qumru yumurtaları" kimi onlarla povest, roman və hekayələr, pyeslər ithaf etdiyi indi hər kəsə məlumdur.

Söhbət yazıçı-dramaturq H.Mirələmovdan gedirsə və bilavasitə, onu gələcək nəsillərə təqdim edən Qarabağ mövzulu əsərlərindən gedirsə, hökmən "Vicdanın cəzası", "Güllələnmiş heykəllərin fəryadı" və "Xəcalət" povesti yada düşməlidir. Bu

əsərlər "Xəcalət" kitabında toplanıb və hər üç əsər böyük ədəbi aləmdə marağa səbəb olmuşdur. Təsadüfi deyil ki, bu əsərlər əsasında hazırlanmış filmlər, eləcə də tamaşalar özü də ictimaiyyətimiz tərəfindən xüsusi hüsn-rəğbətlə qarşılanmışdır.

Hər üç əsərin nüvəsində Qarabağ faciəsi, bu faciənin Azərbaycanın taleyində – yurdumuzun sinəsində açdığı şırımlar öz əksini tapmışdır. Burada müharibənin iqtisadi və mənəvi həyatımıza vurduğu yaralar, gətirdiyi ziyanlar, tökülən qanlar, dağılan ailələr, kəsilib soldurulan ümidlər vətəndaşlıq yanğısı ilə qələmə alınmışdır.

**"Vicdanın cəzası"**nda cəmiyyətin müharibə dövrü psixologiyası təcəssüm olunur. Məqsəd bu çətin anlarda, müharibə dəhşətinin hər kəsin qapısını döydüyü bir məqamda hər bir azərbaycanlı övladının qəlbində vətənə sevgi məşəli yandırmaqdır. Bu böyük amal, xeyirxah, təmiz arzu yazıçının bütün yaradıcılığı boyu ana xətt kimi diqqəti cəlb edir əlbəttə. Lakin konkret olaraq əsərin ideyası kimi qarşıya qoyulanda, yazıçı bu məşəli ürəklərdə yandıra bilir və öz qəhrəmanını Vətən uğrunda şəhid etməklə bu işığın əbədiliyinə zəmin yaradır. "Vicdanın hökmü"ndə olduğu kimi...

Əsərin qəhrəmanı Rəhim adlı oğlandır; soydaşımız Rəhim Rusiya bazarlarında alver edərkən təsadüfən öz dostu, "Reket Firudin"lə rastlaşır. Firudin (Fedya) şərəfdən kasad və ləyaqətdən məhrum bir insandır. Lakin hər necə olsa qəriblik amili xarakter baxımından bir-birinə zidd qütblərdə dayanmış bu adamları, obrazları bir-birinə yaxınlaşdırır. Təbii ki, bu yaxınlaşma ruhi-mənəvi kök üstündə olmadığı üçün yaxşı nəticə vermir. Rəhim Fedyanın içində yaşadığı mənəvi mühitlə barışa bilmir, onu öldürür.

Erməni Aşota tuşladığı bıçaq zərbəsi təsadüf nəticəsində Firudinə dəyir. Yəni bu elə-belə də olmur; Firudin Aşotu müdafiə etmək istəyəndə belə qəza törəyir. Hər halda Rəhim necə olsa da, öz həmyerlisini öldürmək fikrinə düşməzdi. Əslində onu – simasız bir insanı, öz millətinə üz qarası olası birini bilə-

rəkdən öldürmüş olsaydı belə, yenə də oxucunun gözündə müsbət obraz kimi qalardı. Çünki hekayədəki Fedya (Firudin) obrazı kifayət qədər nifrətə layiq birisi kimi işlənmişdir. Daha doğrusu, yazıçı Fedyanın yaşamaq haqqı olmadığına görə onun ölümünü bu qədər labüd etmiş və bu qədər ucuzlaşdırmışdı. Yazıçı Fedyanın simasında bir növ cəmiyyətdə mənəvi təmizlənməyə mane olanları cəzalandırmaq istəmişdi.

Fedyanı öldürərəkən Rəhim Rusiya hüquq orqanlarına təslim olmağı bu saat lüzumsuz bir hərəkət bildiyindən həmin vilayətdə yaşayan başqa dostunun köməyi ilə Vətənə – Azərbaycana qayıdaraq Qarabağ uğrunda gedən döyüşlərə qoşulur, elə vətəndəcə yer alan səngərdə fədakarlıqla vuruşur. Tale elə gətirir ki, Rəhim qətlə yetirdiyi Firudinin atası və bacısı ilə sonrakı cəbhə həyatında rastlaşır. Firudinin atası Aslan həkimdir. Doktor Aslan yüzlərlə əsgəri ölümün pəncəsindən qoparmaqdadır. O cümlədən ağır döyüşlərdən çıxmış və yara almış Rəhimin də yaralarını sarıyır. Onu həyata qaytarmaq üçün əlindən gələni əsirgəmir. Lakin son nəticədə Rəhim Firudinin bacısı Aygünün qucağında gözlərini əbədi yumur. Aygün qardaşının qatilinin kim olduğunu bilirsə də, Rəhimə olan sevgisindən dönmür. Əksinə, onu daha dərin məhəbbətlə sevməklə, Vətən əsgərinə yeni mənəvi həyat bəxş edir. Vətəni uğrunda ölümü qəbul edən bu əsgərə öz sevgisini bir şanşərəfli mükafat olaraq verir, öldüyündə isə onu vətən şəhidi kimi müqəddəs tutur. Hekayə Rəhimin ölümü ilə bitir.

Yazıçının qələm təcrübələrinə xas olan dramatikləşmə burada da qabarıq şəkildə özünü biruzə verir. Doğrudan da bir çox tənqidçilərin yekdil rəyinə görə Mirələmovun əsərləri əksəriyyət etibarı ilə səhnələşdirmək üçün çox əlverişlidir.

Tanınmış tənqidçi Vaqif Yusifli özünün "Həyatın ritmi" kitabında "Vicdanın cəzası" adlı hekayə öz dramatik axarı ilə seçilir: burada obrazların hərəkət və əməlləri, hekayənin içindəki "gizli pyes" tez-gec səhnəyə də çıxmalı idi, deyə yazırdı. Və elə də oldu: "Vicdanın cəzası" çox keçmədən əv-

vəlcə "Gənclər" teatrında, az sonra idə Nəcəf Bəy Vəzirov adına "Lənkəran Dövlət Dram Teatrında" "Vicdanın hökmü" adı ilə pyes olaraq tamaşa həyatı qazandı..." yazmaqla əsərdə bu keyfiyyəti düzgün müəyyənləşdirməklə münasibətini ifadə edir.

Daha sonra tənqidçi fikri pyesin əsas qayəsinə yönəldir, əsərin ideoloji xəttini müəyyənləşdirib ona qiymət verməyə çalışır: "Hüseynbala Mirələmov pyesinin əsas qayəsi vətənpərvərlik çağırışı, Vətənə kömək harayıdır. Azərbaycanın Qarabağ adlı bir dərin, ağrılı yarası var. Bu yara sağalmayınca məmləkətimiz rahat nəfəs almayacaq. İşğal olunmuş torpaqlarımızı azad etməyincə Azərbaycanın Azərbaycan olmağa haqqı yoxdur. Gördüyümüz kimi, artıq sözə ehtiyac qalmır; ümumi ideya belədir və bu Azərbaycanın itirilən torpağı, itirilən haqqıdır. Qeyd edək ki, bu ideya həm də pyesdə pafoslu arzu olaraq deyil, konkret şəkildə ifadə olunmuşdur – pyesin qəhrəmanı öz vicdanının hökmü ilə Qarabağ uğrunda döyüşlərdə iştirak edir və həlak olur..." Daha nə deməli?!

Elə buradaca da demək istəyirsən; pyesin adı ilə ideyası arasındakı qırılmaz bağlılıq adamı daha çox düşünməyə vadar edir. Əslində vicdan dediyimiz güclü, azman hisslərin oyanışı bütövlükdə insanın mənəvi aləmini silkələməyə qadirdir. Həmən Qarabağ müharibəsinin başladığı ilk günləri, ayları, illəri xatırladır: Emosiyaları həddsiz dərəcədə ehtizaza gəlmiş, ruhu ayağa qalxmış millətin Rusiyanın ucqar şəhərlərində daimi yaşayış vəsiqəsi almış oğulları axışıb Vətənə gəlir. Bu "könüllü" oğlanlar Könüllü taborlar yaradıb Vətən sevdalıları cərgəsinə qoşulur, cəbhədə döyüşmək üçün hərbi komissarlıqlara üz tuturdular. Eyni ilə həmin ruh respublika daxilində yaşayan gənclərin də qəlbinə hakim idi.

Şübhəsiz ki, Vətənin səsini eşitmək istəməyən, harayına gəlib yetişməyən Fedya kimiləri də içərimizdə az deyildi. Əsgər yaşı çatmış gənclərin bəziləri qorxaqlıq göstərir, el-obaya arxa çevirib ondan uzaqlaşır; "asta qaçana imam qənim olsun" deyib vətəndən min bir hiylə ilə qaçıb uzaqlaşırdılar. Öz

süfrəsinin şiri olmayan, özgə süfrəsinin başında ac pişik olmağı tərcih edən bu şərəfsizlər Rusiyanın bu və ya digər bölgələrində sığınacaq tapırdılar. Belələri Azərbaycanın naxələf övladlarıdır. Lakin ədalətlə düşünmək lazımdır, gənclərin Vətəndən kənara kütləvi axınına səbəb təkcə müharibə amili deyildi. Yaranmış iqtisadi çətinlik, maddi böhran, işsizlik problemi, sərf olunan istər əqli, istər fiziki əməyin əvəzində verilən əməkhaqqının cüzi ehtiyacları belə təmin etməməsi və s. kimi hallar da səbəb kimi göstərilə bilər.

Hekayədə yazıçının mövqeyi ədalətlidir və bu baxımdan həm də dövrün ab-havasını doğru-dürüst əks etdirir. Yazıçı heç nəyi bəzəyib dəyişmədən münaqişənin ilk illərini – 1988-1990-cı illəri yadımıza salır və həssaslıqla, öz yazı manerasına sadiq qalaraq bədii təsvir vasitələrindən sənətkarlıqla bəhrələnməklə o zamanın mənəvi xəritəsini cızır. Bunu ətraflı düşünmək üçün təkcə Rəhimin tərcümeyi-halına nəzər salmaq, onu Vətəndən uzaq salan səbəblərlə tanış olmaq kifayətdir.

Rəhim ali təhsilli müəllimdir. Oxucu soruşa bilər, belə olan halda Rəhim gözəl müəllimliyini buraxıb niyə Rusiyanın bazarlarında günlərini piştaxta arxasında keçirməyə üstünlük verir? Axı məlum olduğu üzrə o, bazar adamı deyil. Alicənab, savadlı, mədəni bir insandır, yaxşı ailə başçısıdır. Hər addımında o, öz məsuliyyətini dərk edən şüurlu bir ölkə vətəndaşıdır. Elmi də var, ziyası da var. Çox dəyərli bir pedaqoq ola bilərdi elində-obasında, qazandığı və sahib olduğu peşəsi ilə xidmət edərdi. Bütün bu keyfiyyətləri özündə birləşdirən Rəhimi yazıçı nə üçün Rusiya şəhərlərinə aparıb çıxarır?

Məncə, bu sualların cavabı var, çünki bu heç şübhəsiz, birbaşa yalniz quru, süni təxəyyülün məhsulu deyil. Hadisələri obyektiv şəkildə, həyati faktlar əsasında yazıb işləyən müəllif əsəri müasir həyatla yaxşı səsləşdirə bilib. Bunu alqışlamaq, təqdir etmək lazımdır. Bu, hamının yadındadır. Bəs görəsən, doğrudan da Rəhimi Vətəndə – Azərbaycanda qalıb yaşamağa qoymayan nə idi, hansı qüvvədir, kimdir?

Məhz bu “nədir, kimdir?” deyə cavabını bildiyimiz sual adamı təəssüfləndirir. Birmənalı olaraq bu cavab əsərin pyes variantına seçilmiş adın mahiyyətində görünür. Əslində, Rəhimi Rusiyaya aparıb çıxaran da vicdanının hökmüdür. Yazıçı da elə ona görə səhnəyə, bədii fikir meydanına vicdanı çıxarır. Əsərdə biz vicdanı yalnız döyüş mövqeyində görmək istəyirdik. Başqa necə olsun axı? Vətənin ağır günüdür. Qəhrəmanımızı heç harada yox, axtarıb cəbhələrdə tapmalı idik. Çox maraqlıdır, müəllif də məhz vicdanı döyüşdürür. Sonda Rəhimi Qarabağa qaytarıb uca amal uğrunda şəhid edən də vicdandır.
Bu məqamlarla bağlı, mövzuya bir az da açıqlıq gətirmək naminə əsərin səhnə variantını diqqətlə izləmiş qələm dostumuz Elçin Kamal da maraqlı təəssuratlarını dilə gətirir:

“Tamaşa başlayan kimi səhnədə gözlərimiz qarşısında anasının məktubunu oxuyan bir gənc görünür. Bu, “Raqozin” bazarının alverçisi Rəhimdir. Təbiətcə qətiyyən alver adamı olmayan, mülayim, ailəcanlı, ev-eşik adamı olan Rəhimin günləri burada sıxıntı içərisində keçir. Düşdüyü həyat onu darıxdırır, amma neyləməli? Ömrünü bazarda – piştaxta arxasında keçirib anadan yetim qalan uşaqlarına və öz anasına qazancından pul göndərməli, həm də özü yaşamalıdır. İxtisasca tarix müəllimi olan Rəhim düz söz danışdığına, ağa qara demədiyinə görə iş yerini itirib. Yaxşı söz var axı. Deyərlər, “düzlər düzdə qalar...” Vicdanının səsinə qulaq asdığı üçün doğma evindən, uşaqlarından, bu qədər sevdiyi Vətənindən aralı düşərək Rusiya bazarında alverçilik edir. Deməli, onu bura gətirib çıxaran heç nə yox, vicdanının hökmüdür”

Elçin Kamal öz yozumunda haqlıdır. Rəhim harada olmasından asılı olmayaraq vicdanını unutmur, daha doğrusu vicdan onun qəlbinin hakimidir. Ehtiraslarına güc gələn, nəfsini saxlaya bilən insan məhz belə olmalıdır: onu şübhəsiz, kamillik zirvəsi gözləyir. Nəfsinin qulu insan isə zirvələrdən məhrumdur, o, bir heyvani ömür sürməyə məhkumdur.

Rəhimdən fərqli olaraq, Fedya nadandır. Onun üçün Vətən, torpaq, həyatın özü də eyş-işrətdən ibarətdir. Fedyalar heç bilmir ki, Vətəninin Qarabağ adlı yarasi var. Yaxud, daha lakonik şəkildə ifadə etsək, Azərbaycanın işğala məruz qalmış əraziləri hansı-hansı bölgələrdən ibarətdir, deyə bilməz. Vətənin qan içində olduğu, faciələr yaşadığı dönəmdə belə Firudinin yatan vicdanı oyanmır. Hələ üstəlik vicdan damarı döyünən Rəhimi də öz gününə salmağa, özü kimi vecsiz biri etməyə çalışır. Onu da özü kimi hissiz, duyğusuz, yaddaşını yadlara təslim etmiş arsız birisinə çevirmək istəyir. Lakin bunlar uzun çəkmir; Rəhim könülsüz getdiyi həmin məclisdə bir daha doztluq etməyə başladığı həmyerlisinin cılızlığına şahid olur, gözü ilə gördükləri onu dəhşətə salır. Əsərdəki həmin parçanı diqqətə çəkmək istəyirəm:

"Erməni dığası Aşotun məclisdəki fəallığı ermənilərin Azərbaycan ərazilərində hegemonluq etməsinə bənzəyirdi. Qapının ağzına xüsusi bir stol qoyulmuşdu. Bu stol ətrafında fahişəliklə pul qazanan bir neçə qız əyləşmişdi. Siqareti acgözlüklə sümürən bu yarıçılpaq qızların arasında Azərbaycan qızlarının olması onsuz da bura gəldiyinə görə kefi pozulan Rəhimi bir daha sarsıtdı. Ən hörmətli ailəyə, ən yaraşıqlı oğlana qismət olası bu qaragöz, qar kimi bəyaz qızı Rusiyaya Fedya gətirmişdi. Gətirəndən bir müddət onunla yaşayıb, hər bir hərəkətini qısqansa da, indi nə işlə məşğul olması, hətta harada yaşaması, kiminlə oturub-durması Fedyanı maraqlandırmırdı..."

Rəhim biləndə ki, bu qaragöz, pəmbə buludlar qədər bəyaz qız Firudinin iki yaşlı qızının anasıdır. Amma indi ərinin səhvləri ucbatından analıq qürurunu yerə çırpmış bu qadını övladının anası gözündə görməyən nankor Fedya Rəhimin gözündə daha da balacalaşıb cılızlaşırdı. Rəhim-Fedya obrazlarının təzadlı xarakterlərini biz həmin səhnədə bütün çılpaqlığı ilə gördük. Rəhim qürbətdə yaşamasına baxmayaraq azərbaycanlı qürurunu, mənliyini bir an da olsun unutmur, lakin bu gün üçün yaşayan, sabahını düşünməyən Fedya üçün isə heç nə yox,

yalnız mühit amili həlledicidir. O, öz milli mənsubiyyətini sözün həqiqi mənasında itirmiş bir adamdır. İki yaşlı körpə qızı və onun müqəddəratı da heç onu maraqlandırmır.

Göründüyü kimi, istər "Vicdanın cəzası" hekayəsində, istərsə də əsərin səhnə təcəssümündə – "Vicdanın hökmü"ndə yazıçı diqqəti bir çox məsələlərə yönəldir. Aydın olur ki, Vətənə sevgi birdən-birə yaranmır. Bəs vətənpərvər olmağın sirri nədədir? Yazıçı bu dəyərli məsələni, əsas obrazın – qəhrəmanının keçdiyi həyat yolunu əvvəlindən axırına kimi çözələyir. Rəhimin Vətənə sevgisi doğulduğu ailəsindən başlayır. Bu sevgi onun qəlbində daim alovlandıqca Vətəni qorumaq, onu düşməndən müdafiə etmək istəyi Rəhimi daha çox özünə çəkir. Rəhimi Qarabağa tərəf dartan, hər an ora meyilləndirən güc var. Bu güc birdən-birə yaranmayıb, yuxarıda yazdığımız kimi, bu sevgi bəlkə də ana laylası ilə hələ Rəhim beşikdə olarkən onun qəlbinə axıdılıb, həkk olunub.

Elə buna görədir ki, Rəhim özünün ruhani aləmindən kənarlaşıb uzaqlaşa bilmir. Yenə buna görədir ki, Qarabağ uğrunda gedən qanlı savaşlarda şücaət göstərir, vaxtı çatanda ölümü də mərdanə qarşılayır. Fəqət, bununla bərabər Rəhimin qəlbində daim güclü bir əzab yaşayır. Rəhim həm də istəmədən olsa da qatildir. O insan öldürüb. Baxmayaraq ki, Fedya bu ölümə layiq idi, bir növ bu fəci sonluğa özü səbəb olmuşdu. Amma bunlara baxmayaraq Rəhim hər dəfəsində Firudinin bacısı, gizlicə sevdiyi Aygünlə, atası Aslan kişi ilə üzbəüz gələndə sarsılırdı. O saat o qanlı ad günündə törətdiyi qətl, əlində öldürdüyü yerlisinin qanı axan yaraları bütün təfsilatı ilə gözləri önündə canlanırdı. Rəhimin bu ağrını ömür boyu daşıması onu bir vicdanlı, təmiz insan kimi daha da sevdirir.

"Vicdanın cəzası"nda təsirli səhnələrdən biri də Aygünün Rəhimə olan sevgisidir. Rəhimin yaşadığı hisslər, duyğular Aygünə də doğmadır. Hər ikisinin həyata baxışında, vicdani borcları ödəmək istəyində çox yaxınlıq var. Əslində elə bu yaxınlıqdır onları bir-birinə bağlayan. Əks halda Aygün biləndə

ki, sevdiyi adam qardaşının qatilidir, ona nifrət etməli idi. Lakin onları bir-birinə həm yaxınlaşdıran, həm sevdirən necə qiymətli ortaq hislər vardı.

Əsərdə mənəvi insan dünyasına təsir edən çox mətləblərə yol açılır. Məncə, əsas yerlərdən biri də müəllifin Aşot obrazını yaratmaqla erməni xarakterini, erməni xislətini ifşa etməsidir. Bizi tarixi düşmənimizin siyasətindən duyuq salmaq, ehtiyatlı olmaq niyyətidir. Aşotun üz-gözündən mənfur ermənilik tökülür; Aşot iblis təsiri bağışlayır. Lakin mənhus xislətini, çirkin düşüncələrini hər an məharətlə ört-basdır edə bilir. Məqsədini yalnız məqamı çatanda qılınc kimi sıyırır və aşkar edir. Üzdə sənə dost deyir, amma arxadan zərbə vurmağa fürsəti həmişə var.

İblisi bundan artıq necə aşkarlamaq, aşkarlayıb da necə yamanlamamaq olar? Allah hər bir bəndəsini erməni şərindən saxlasın! Çünki onların hiyləsindən oturub-durduğu torpaq da çəkinir.

"Vicdanın hökmü" tamaşasında Aşot obrazını yaradan aktyorun ifasında da tamaşaçı bu qənaətə gəlir. "Vicdanın cəzası"nı oxuyan oxucu da belə düşünür. Bir sözlə, vicdanın hökmü yaddaşı da, mənəvi dünyamızı da silkələyir. Yazıçı sənətin dililə beyinlərdə psixoloji döyüş, mübarizə ruhu təlqin edə bilir. Bu mənada qələmə aldığı epizodlarla hər kəsin vicdanının olduğunu yada salmağa çalışır.

Məncə, bu yazıçının ən böyük məqsədidir. Elə həm də uğurudur. Vicdanın varlığı isə o deməkdir ki, başqasının haqqına toxunma, öz haqqını isə tələb et! Qarabağdan düşməni qov! Qədim Göyçəni, mədəniyyət beşiyi Şuşanı, əsir düşmüş övladlarımızın şərəfini qaytar. Ulu babalarımızın dəfn olunduğu böyük Türk ərazilərini erməni qəsbkarlığının caynağından qopar!

"Vicdanın hökmü"nün tələb etdiyi bu siyahını uzatmaq da olardı. Təbii ki, itirdiklərimiz saydıqlarımızla məhdudlaşmır. Hər halda vicdanın hökmü qaytarmağı tələb edir.

Bir sənətkar kimi yazıçı H.Mirələmov insani keyfiyyətləri, mənəvi gözəlliklərimizi necə və nə cür qaytarmağın yolunu

vicdanın oyanışında görür. Vicdan onun qələmində həmişə döyüş mövqeyindədir.

Yazıçının vətənpərvər ruhda qələmə aldığı əsərlər “Vicdanın hökmü”, “Güllələnmiş heykəllərin fəryadı”, “Xəcalət” povestləri bizi məqsədə doğru aparır. Məqsəd deyirəm, oxucu çaş-baş qalar. Yəni ki, ünvanımıza aparır. Torpaqlarımız işğaldan azad edilməlidir. İndi qarşıya qoyulan yeganə məqsəd budur, bu olmalıdır. Azərbaycan özünün qüdrətli ordusuna arxalanmalıdır. Unutmaq olmaz ki, ordunun gücü təkcə onun fiziki hazırlığı, nizam-intizamı ilə ölçülmür. O ordu güclüdür ki, o ordu qorxmazdır ki, həqiqəti, haqq işini, məqsədi anlayır. Bilir ki, özünün əlindən zorla alınmış haqqı uğrunda döyüşür.

Obrazlı deməli olsaq, bu gün tarix gözlərimiz önündə yaranır, amma layiqincə yazılırmı? 30 ilə qədər çəkməkdə olan Qarabağ müharibəsi, ermənilərin işğal etdiyi Vətən torpaqları, xalq qəhrəmanlarının bədii surətləri nə zaman işlənəcək, ədəbiyyata gətiriləcəkdirmi bu surətlər? Bilən varmı? Nəhayət nə zaman bu məsələlər bədii əsərlərin mövzularına çevriləcəkdir? Qarabağ mövzusunda indiyədək yazılmış əsərləri qənaətbəxş hesab etmək olarmı?... Hər bir məqamda olur olsun, bizim tariximiz kifayət qədər yazılmış, öyrənilmiş sayıla bilməz.

Yadımıza yaradıcılığından danışdığımız nasirin Qarabağ mövzusunda yazılmış “Xəcalət” povestindən təsirlənən xalq şairi Bəxtiyar Vahabzadənin düşüncələrini gətirir. O müəllifə ünvanladığı özünə xas olan bir səmimi bir tərzdə və yenə özünə məxsus bir çılğınlıqla:

“Hörmətli Hüseynbala Mirələmov, “Xəcalət” romanınızı yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qolqola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq. (mənim bu barədə “Utanıram” adlı bir şeirim də var).

Əsərlərinizlə məni bir daha utandırdığınıza görə sizdən üzr istəyirəm, əfv edin! Təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır. Demək, siz məni bir daha utandırmaqla, ürəyinizdə göynəyib yazıya köçürülən dərdinizi oxucuya çatdıra bilmək məharətinizlə məqsədinizə nail olmusunuz. Bu isə yazıçılıqda əsas şərtdir."

Bu cəhət jurnalist Tahirə Qafarlının Milli Məclisin üzvü, akademik Nizami Cəfərovdan ədəbiyyatımızın bu günkü qayğıları ilə bağlı müsahibəsində də bir daha vurğulanır. Müsahibə zamanı müxbirin Nizami müəllim, bu gün ədəbiyyatımızda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranan əsərləri yetərli hesab etmək olarmı? sualına professor: – Bu gün çox deyilir ki, ermənilər Dağlıq Qarabağ haqqında çox yazdılar, çox filmlər çəkdilər, Qarabağı özlərinki kimi tanıtmağa çalışdılar, yaxud erməni genosidi barədə ədəbiyyat yaratdılar, dünyanın emosiyasını silkələdilər, bəs onda biz niyə etmirik? *Ədəbiyyat ağrıdan yaranır* (kursiv bizimdir-müəl.) Biz erməninin qarşısında ağrımızı etiraf etməyin marağında deyilik. Bəlkə də, təbiətən güclü xalq olduğumuza görədir ki, dünyanı silkələyən ağrıdan əsərlər yaza bilmirik. ...(!)

Ancaq bir böyük həqiqət var ki, Qarabağ mövzusunu gündəmə gətirdiyi, aktual mövzuya çevirdiyi gündən etibarən Azərbaycan cəmiyyəti öz yazıçısını vətənpərvər bir qələm adamı kimi tanıyıb sevib. Ağrılı yerimiz olan Qarabağ mövzusu yazıçı-dramaturqun bədii cəhətdən uğurlu əsərlərinin yaranmasına səbəb olub. Artıq bir neçə dəfə qeyd etdiyimiz kimi "Dağlarda atılan güllə", "Xəcalət", "Güllələnmiş heykəllərin fəryadı", "Maşallahın paneli" kimi əsərlərindən sonra Azərbaycan ədəbi fikrində bu mövzu – Qarabağ mövzusu geniş vüsət almağa başladı. Qarabağın yaxın və uzaq tarixi, o cümlədən Qarabağ bəhanəsi ilə xalqımıza qarşı törədilmiş soyqrım siyasətinin bədii ədəbiyyata gətirilməsi faktları ictimai fikrə yeni güc verdi. Xalqın mənsub olduğu tarixin daha dərin qatlarına enmək həvəsi oyandı. Həm müasir gənclərin timsalında, həm

də peşəkar yazıçı, tədqiqatçı və tarixçilər arasında. Qısası onu demək istəyirəm ki Qarabağ prablematikasının sənətdə təzahürü şübhəsiz, bu gün üçün Mirələmov yaradıcılığı ilə daha çox bağlıdır. Şuşadan gətirilmiş güllələnmiş heykəllər erməni vəhşiliyinin tariximizdəki izləridir.

Ancaq bunu bədii ədəbiyyatın mülkü etmək, bu, tamam başqa bir missiyadır. "Güllələnmiş heykəllər"i danışdırmaq artıq tarixin işi deyil. Bu, yazıçının təfəkkürü, ideyasıdır. "Danışan heykəllər"... Güllələnmiş heykəlləri danışdıran sənətdir, vətəndaşlıq yanğısı, sənətkarlıqla can vermiş sənət ən inanılmış bələdçidir. Bəli, sözün həqiqi mənasında yazıçı bələdçidir. Cəmiyyətin, xalqın, sağlam sözün və sağlam fikrin, düşüncənin bələdçisi. Hüseynbala Mirələmovun bir-birinin ardınca bu mövzuya müraciət etməsi bu da bir qismətdir.

Taleyin ironiyası: Lerikdə doğulmuş, Lənkəranda boya-başa çatmış Hüseynbala Mirələmovu haqlı olaraq "ən yaxşı Qarabağlı" adlandırırlar. Baxın, belə adamlar nə qədərdir, yəni belə çoxmudur el gözündə bu qədər ucaldılan soydaşımız?! Səhv etmirəmsə, mətbuatda bu rubrika altında bir söhbət də dərc olunmuşdu. Söhbəti qələmə alan müəllif demək istəyirdi ki, Qarabağ, Göyçə, Zəngəzur, o cümlədən digər parçalanmış Azərbaycan ərazilərinin ağrısını içində yaşadan Hüseynbala Mirələmov sözün həqiqi mənasında xalqın, millətin taleyini yaşayan ziyalıdır. Torpaqlarımızın azad olunması uğrunda bu yazıçı həm bir sənət adamı, həm də ictimai xadim, millət vəkili, böyük mənəviyyat cəbhəsində dayanmış insan kimi fədakarlıqla döyüşür. Onun yaratdığı bir çox müsbət obrazlar yazıçı mənəviyyatını sərgiləyir.

Yazıçının Qarabağ mövzulu əsərlərini gözdən keçirərkən bu istiqamətdə az əhəmiyyəti olmayan detallar da gözə çarpır. Qarabağda baş verən hadisələrdən danışarkən xüsusi məhəbbətlə onun yer adlarını sadalayır, təkcə sadalayırmı? Xeyr, xeyr. Nəzmə çəkir desək yanılmarıq. "Hüseynbala Mirələmovun Qarabağ mövzusuna aid demək olar ki, bütün əsərlərində bu diya-

rın coğrafiyasını... yada salmaq ehtirası var. Yazıçı bunları o qədər ürəkdən, səmimiyyətlə, təfərrüatla edir ki, həmin üslubi hadisə az qala linqvo-poetik fiqura çevrilir...” (Nizami C.)

*... Toran qovuşanda yola çıxdılar, gecə yarısı **Qırxqız** dağının sonuncu zirvəsinə qalxdılar. Buradan **Yuxarı Qarabağ**ın bir-birindən aralı kəndlərindən, qəsəbələrindən sönük, öləzimiş işəqlar görünürdü. Süleyman ermənilərin yandırdığı **Kərkicahanın, Meşəlinin, Həsənabadın, Xocalının, Sırxavəndin, Malıbəylinin, Quşçuların, Cəmillinin, Kosaların, Xəlfəlinin, Şırlanın** və digər kəndlərin yerləşdiyi əraziləri müəyyənləşdirməyə çalışsa da bacarmadı.gözünə sataşan **Şuşanın Qızıl Qaya**sındakı teleqüllənin qırmızı işığı oldu. Cənub-şərqə tərəf boylandı. **Laçının Kalafalıq, Arduşlu,Fərraş, Nurəddin, Çorman, Biçənək** kəndləri də zülmət içində boğulur, kül altında qalmış, bəlkə də hələ sönməmiş, közündə cınqır-cınqır qovrulurdu. **Darı yeri**ndən baxanda **Həkəri** sahillərindəki tükürpədici mənzərə , **Qırxqız dağı**nın sonuncu zirvəsi də görünürdü. İndi də **Ağdamın Abdal-Gülablı**, Şahbulaq dağlarının üstündəki buludların üzərinə qan rəngli işıq düşür, sonra əriyib yox olurdu.* (“Yanan qar”)

Yaxud,

*Bu səbəbdən **Qarqar**ın suları heç vaxt biryolluq qurumur, **Şelli, Qaradağlı, Muğanlı** bağlarındakı ağaclara can verirdi. **Ağdam**ın meyvələrinin ətirli, dadlı, dərdlərə dərman olmasının sirrini **Qarqar**ın göz yaşı kimi duru, sərin suyunda görürdülər. **Meydan**dan başqa **Kirs, Sarıbaba, Qırxqız dağları** öz sularını **Həkəri, Qarqar çayları** arasında dədə malı kimi tən yarıya bölür, hər iki çayı eyni istəklə əzizləyirdilər. Bir tərəf Daşaltıdan, digər ucu **Daşbulaq**dan başlayan tut bağları **Qara Qaya**nın dibinə, oradan da qədim **Ləmbərana** uzanıb gedirdi* (“Yanan qar”)

20-ci yüzilliyin bütün törədilmiş qətliamlarına, qırğınlarına sonuc verən Xocalı faciəsinə həsr olunmuş “Xəcalət “povestindəki Vətən adlı obraz da özündə milli məfkurə, milli düşüncə daşıyır. Yüz müsibətlə düşmən əhatəsindən çıxmış Vətənin

başına gələn faciələrin böyük bir hissəsini yazıçı həyat həqiqətləri əsasında qələmə almışdır. Vətənin qaçqınlıq, köçkünlük həyatı da onun ömür-gün yoldaşı Fərqanə xanımın yaşadığı müsibətlər də, əfsus ki, tariximizin bir parçasıdır. Müəllif əsərdə Fərqanə obrazında Azərbaycan qadınının şərəfini, ləyaqətini çox uca tutmuşdur. Xankəndidə Pedaqoji Universitetdə işləmiş bir müəllim insanı heyrətə gətirən bir əhvalat danışmışdı: "Yadımdadır, Qarabağ hadisələrinin başlanğıcında Xankəndi Pedaqoji Universitetinin tələbə qızları özləri ilə hərarət ölçən (termometr) gəzdirərdilər. Onlar bunu əsir düşmə təhlükəsi yarandıqda sındırıb civəsini udmaqla özlərini həlak etmək üçün fikirləşmişdilər.

**"Xəcalət"** povesti (2003) xalqımızın daxili mənlik qürurunu ifadə edən detallarla zəngindir. Balaca məktəbli qızcığazın – Didarın sıxıntıları, həmyaşıdlarından utanması, xəcalət çəkməsi cəmiyyəti düşündürməyə bilmir. Yazıçı Qarabağ müharibəsinin xalqımızın yaşadığı ağrı-acıları "Xəcalət" povestində əbədiləşdirib, abidələşdirmişdir. "Xəcalət"i milli faciəmizin heykəlinə çevirə bilib bu əsər vasitəsilə xalqı mənəvi səfərbərliyə çağırmışdır. Yazıçı dünyanın diqqətini Azərbaycanın yaralı yerinə – Qarabağa yönəldir, erməni vəhşiliklərini ədəbiyyat mühitinə gətirərək sözün əhatəsində yaşayan hər kəsə bəlli edir. Bu povest barədə çox danışmaq istəməzdim, çünki bu barədə kifayət qədər fikir deyilib. Əsər uzun müddət ədəbi tənqidin maraq dairəsində qalmış və "Milli yaddaş" mükafatına layiq görülmüşdür.

Burda bir məqamı da diqqətdən yayındırmaq istəməzdim. "Xəcalət" povestində yazıçının Türkün totemi kimi xarakterizə etdiyi canavar obrazı da var. Bu obrazla bağlı səhnələr də povesti yaşarı edən dəyərli ədəbi parçalardandır. Belə ki, biz dünya ədəbiyyatında adətən insanın canavar –bu vəhşi yırıtıcı üzərindəki qələbəsindən riqqətə gəlmişdik. Ən azı dünya ədəbiyyatının şedevrləri sırasında olan "Həyat eşqi" hekayəsində insanla canavar arasında ölüm-dirim çarpışması gedir. Təbiətin

bu mübariz məxluqu ilə insan son nəfəsinə qədər döyüşür. Yaşamaq üçün biri digərini yeməlidir. Sonda insan canavarın qanını içir. Canavar həyata təslim olur.

Hüseynbala Mirələmov isə "Xəcalət" povestində vəhşiliyin miqyasını göstərmək üçün rəmzləşdirdiyi canavar obrazından ustalıqla bəhrələnir. Canavar erməni vəhşiliklərini görəndə özü "heyrətə" gəlir. Cəsədlərə, ermənilərin soyqrıma məruz qoyduğu azərbaycan türklərinin düzlərdə, dərələrdə, dağların ətəklərində qarın, buzun altında qalmış meyitlərinə toxunmur. Yalnız vahimə gətirən bir səslə dərin bir ulartısı yadımızda qalır canavarın. Onun adı qurd ola-ola bu ikiayaqlı qaniçən vəhşi, adamyeyən insan üzərindəki qələbəsi aydın sezilir.

Hüseynbala Mirələmov müharibəni, savaş meydanlarını təsvir etmək istəyir və iti müşahidələrinin köməyi ilə qələmi bu fonda insan mənəviyyatının dərinliklərinə qədər işləməyə sövq edir. Deyim ki, bu zəhmət bəhrəsiz qalmadı: "Xəcalət" povesti Azərbaycan oxucusunun milli yaddaş kitabına çevrilə bildi və bu əsər çox uğurlu səhnə həyatı da qazandı, sevildi kifayət qədər. Bu hər kəs tərəfindən uğurlu sayılan "Xəcalət" povesti əsasında səhnəyə qoyulmuş tamaşanı izlədikcə tamaşaçılar bir ailənin timsalında XX əsrdə Türkün düşmənləri tərəfindən Azərbaycan türklərinın başına gətirilən müsibətləri seyr etdilər. Bütün bu müsibətlər, əzablar hamısı yaddaş ağrısı və ya Xocalı dərsləridir bizlərdən ötrü...

# Yaddaş ağrısı və ya Xocalı dərsləri

Yazıçı-dramaturq əsərin ideya gücünü sanki əlində sanballayaraq onun əzəmətli yerini də dəqiq müəyyən etmişdi və povestin əsasında dram əsəri meydana gətirmişdi. Mən özüm bu tamaşaya müxtəlif dram kollektivlərinin iştirakı ilə baxdım. Teatrlarımızın repertuarında xüsusi yeri olan "Xəcalət" tamaşası bu gün də öz aktuallığını saxlayır və dövrlə-dövranla səsləşən bu əsər günümüzdə də öz aktuallığını zərrə qədər də itirməmişdir. Hətta o da maraqlıdır ki, teatrlarımızla yanaşı onu həvəskar qruplar və özfəaliyyət kollektivləri də eyni şövqlə tamaşaya qoyurlar. Mənim çalışdığım Bakı Mühəndislik universitetində də tələbələrin iştirakı ilə tamaşaya qoyuldu. İlk dəfə 8 il əvvəl səhnəyə qoyulan və peşəkar sənətkarların ifasında baxdığım bu əsərə indi isə universitet tələbələrinin oyununda tamaşa edirdim. O da maraqlı və düşündürücü idi ki, bu oyunçular Xocalı faciəsinin şahidi olmamışlar, onlar demək olar ki, bu hadisədən sonra doğulub yetişən gənclərdir. Məhz bu "yeni yetişən" gəncliyin ifası mənə daha maraqlı gəldiyindən söhbətimi onların oyunları üzərində qurdum. Çünki onlar biz tamaşaçılardan fərqli olaraq o günlərdən sonra doğulmuşdular və o savaşın iştirakçıları ola bilməzdilər. (Pyesi Xocalı faciəsi münasibətilə sənətşünaslıq üzrə fəlsəfə doktoru Zəminə Axundova səhnələşdirmişdir).

Tamaşa boyu şəkildən şəkilə dəyişən, daha da dramatikləşən hadisələri Seyid Nigari həsrəti, Qırxqız, Şuşa xatirələri, şirin Qarabağ şivəsi müşayət edir. Yaddaşın verdiyi ağrı, yaxud, yaddaşın özünü ağrıdan hiss heç nə yox, məhz xəcalətdi, peşmanlıqdı – bunu bilirik. Bəs o zaman insanı peşmanlıq qədər, daha doğrusu, xəcalətin peşmanlığı qədər daha nə əzib

yandırar?! Əgər belədirsə, bu xəcalətdən hər birimizə pay düşür…

Əsərin qəhrəmanı Vətən adlı pəhləvan cüssəli bir oğlandır. Elə tamaşa da baş qəhrəman Vətənin xəcalət və peşimanlıqdan yanar alova-atəşə çevrilən səsi-nidaları ilə başlayır. Belə bir məsəl var: "dərdli deyingən olar" timsalında bu gənc oğlan, təbiətcə romantik olan dünənin qazisi Vətən özünə yer tapa bilmir. Bütün itkilər və başı çəkən qıtlıq-məhrumiyyətlərlə birlikdə gözləri önündə düşmən gülləsinə tuş gələn anasının ölümü də onu çaş-baş qoyub dəli-divanə görkəminə salmışdır; o bunlarla, bu əziz itkilərlə nə barışa, nə də özünə yer tapa bilmir. Yazıçı əlbəttə burada yaralı ana obrazını əsərə heç nədən, təsadüfi gətirməmişdir, çünki yaralı ana yaralanmış, itirilmiş vətən timsalıdır.

"Elə tamaşa da Ana ilə başlayır – yaralı ana ilə. Yaralı Vətənin simvolu olan yaralı Ana ilə. Ana mücahid oğlunun, döyüşçünün qucağında can verir. Yaralara məlhəm gərək, məlhəm… "Qaçaqaç"da Anaya – Yaxşı xalaya güllə dəyib. İndi onun son anlarının – can çəkişməsinin şahidi oluruq. Hamı təşvişdə, özümüz də elə tamaşanın ilk anından vəsvəsəyə düşdük. Ana vəsiyyətini edir. Amma onlarçun narahatdır: "nə idi balalarımın günahı?" deyə pıçıldayır. Əlbəttə, ana anadır. Hər şeyə balalarının istiqbalı gözü ilə baxan, başı əlində olmayanda belə uşaqlarının müqəddəratını düşünən anadır, yalnız ana. "Oğlum, döz" kəlməsiylə oğlunu ovundurub kiridə bilməyəcəyini görüb "bizi Heydər qurtaracaq" deyə ümid verir əzizlərinə. Bir ümid də mənim qəlbimdə doğur. Uşaqlıqdan eşitdiyim "Heydər! –Mədəd!" harayları düşür yadıma. Gözümün işığı ana. Burada isə ana oğluna "gözümün işığı" deyir. Gözününsə işığı öləziyir ananın. Oğul: "məni tək qoyma, ana" deyə fəryad edir.

Vətən obrazını yaradan gəncin də sağlam görünüşlü, xoşbəxtliyə inam oyadan duruşu ilk baxışdan bu rol üçün düzgün seçilmədiyini düşünürsən. Lakin bu boy-buxun qəhətə çıxan

xoşbəxtliyin kor sevdasında, möhnət çırpıntısında məzlumlaşıb artık. Lakin tamaşa irəlilədikcə görürsən ki, bu iniltinin birdən coşub qəfil şir nərəsinə çevrilməsi də var.

Bu boyda dərdin qarşısında təki-təkinə qalan xalqım… əsər beləcə ürəkyandıran bir səhnə ilə başlayır. Bu xatirələrin işığında düz Qarabağa gedirəm. Fantaziyamın, təxəyyülümün gücünə bu əziz güşələrə ayaq basıram: Qardaşımım azad edilməsində iştirak etdiyi Ağdərə qəsəbəsi… Bir bağlı-bağatlı qapıya adını yazmışdı ki, müharibədən sonra köçüb gəlib burada yaşayacağam

…Pərdə açılır. Dərdli-nisgilli bir qaçqın ailəsi təsvir olunur. Burada yazıq adamların yeganə fərəhi xatirələrdir. Dərdlidir bu qaçqın ailəsi. Nəşəli günlər, dadlı anlar. Doğma dam-divar, samavarlı həyət-baca, gül bağçalar sanki bir də olmayacaq kimi qeybə çəkilib. Evdə uşaq xəstə (evin oğlan uşağı internatdadır) uşaq darılır bugünkü gün özünün "qaçqın" adına, tərs yazılan taleyinə. Dünən hər şey necə yaxşı idi?! Odur ki, anasının "şükür bu günə" sözünə hiddətlənir, etiraz edir., balaca qəlbinə, xəstə halına baxmadan üsyan edir: axı qaçqın da var villada yaşayır…Belə uşaqlar daha çətin keçirir didərginliyi və onun sıxıntısını.

Bunlar real həyatın ağrılarıdır. Bizim də qarşılaşdığımız haqsızlıq, ədalətsizlikdir. O illər bizləri addım-addım izləyən uğursuzluqdur. Vətən, doğma yurd əldən getmiş, onunla birlikdə məhz bu ailənin, belələrinin gözəl günləri, xoş əyyamları itirilmiş, qeybə çəkilmişdir. Ata evə əliboş gəlir, "xozeyin" onu işdən çıxarmışdır. Bu da taleyin yeni zərbəsi. Ümumiyyətlə düşünürsən ki, tale belə ailələrə (tək Vətənin ailəsinə yox) gündə olmasa da, günaşırı belə zərbələrini hazırlamışdı. Tale deyil bəs nədir?! Əgər bir qaçqın soydaşımız tək başına neçə yerdə ev-mənzil tutub sahiblənirsə, bəziləri isə quru yerdə can verirlərsə, əziz balasına dərmana verməyə pul tapa bilmirsə daha nə deyəsən?! Gəlin tale deyək, qismət deyək…

Maraqlı obrazlar var; Murad və Vətən qoşalığında nəzərdən keçirək. Onlar uşaqlıq dostidirlarsa da fərqli xarakterə malikdirlər: Yəni Vətən romantikdirsə, Murad və onun kimi, amma çoxluqla realistdir.

Dostu varlı-karlı Murad ona huş-guşla qulaq asır. Amma tamaşaçı darılır bu qeyri-bərabərliyə. Təzad böyükdür, kəsicidir, kəskindir.

O doğrudanmı hər şeyini itirmiş bu biçarəni dinləyir? İnanmaq çətindir. Toxun acdan nə xəbəri?! Vətənin ona çatdırmaq istədiyi bir hıçqırıq kimi ciyərini odlayan, dilini yandıran onun öz dərdi olsa da həyat həqiqətidir. Tamaşaçı qorxur sözün həqiqi mənasında bir yanda eyş-işrət, toy-bayram, bir yanda aclıq, ehtiyac, məhrumiyyət, göz yaşı. Bu yeganə şahid, allahsaxlamış "müşahidəçi" bezib qaçmayacaq ki?! Nə olsun ki, dədələrimiz deyib "ağladan yanında otur, güldürən yanında yox."

Böyük bir faciənin mərkəzində dayanan bu ailə sürgünü sürgün üstündə görüb. Əvvəlki nəsil Qazaxıstan çöllərinə sürülmüşdü. Maraqlı tapıntılar var: həmin o sürgünə gedib qayıdan tar indi də Bakıya gəlib çıxıb. O vardan, o gəlhagəldən ələ gələn elə bu tardı. Elə Muradın da əslində o tar-kamanlı günlərdən, o xoş əyyamlardan ötrü burnunun ucu göynəyir. O başdan başa ağ kostyum, ağ ayaqqabıda olan, zahirən xoşbəxt olan bu adamın gərək ki, zillətdən gərək ki, xəbəri olmasın.

Əsərdə çox mənalı səhnələr, dolğun ştrixlər vardır; eynən müharibə getdiyi illərdə şahidi olduğumüz məhrumiyyətlər: atılmış, gərəksiz vaqonlardakı zəlillər və onlarla yanaşı özü daha çox göstəri üçün qaçqınlara yardım göstərən və bunları filmə çəkdirən, hər şeyi sənədləşdirən "uzaqgörənlər". Bu səxavətin səbəbi o imiş ki, kişi deputat olmaq istəyir. Onun gəlib ianə, sədəqə payladığı öz "seçiciləridir". Yaxın günlərin millət vəkili sanır özünü fərasətli işbazlar. Vətənin müqəddəratını, millətin taleyini ona tapşırmaq əvəzinə seçicilər də belə millət vəkilindən sədəqə umurlar. Vətənin – dünənki "Yerli müdafiə

taburu" veteran gəncin mühakimələri isə o deputat adayının iddiaçısının beşinə dəyər: Qarabağı artıq süfrə başında həll edirik Qarabağ adları veririk restoranlara.

*Haşiyə.* Bizim həyətdəkilərin belə sədəqəyə ehtiyacı yox idisə seçkiqabağı gələn milllət vəkili adayından qoparmağa bir şey tapıldı. Balkonlarla evini genişləndirmiş qonşular ondan xahiş etdilər və sevgili qardaşlar kimi əl-ələ vermiş, yaşı az qala 200-300 olan çinarları kəsdirmək icazəsini qopardı. Millət vəkili adayının göndərdiyi əli mişarlılar heç gecəni də gözləmədilər, uf da demədən bu yarpaqları pıçıldaşıb doğma həyətə yay-qış nəğmə deyən əl-ələ qardaşsayağı – düşmən çəpəri kimi düzənlə durmuş əbrişimləri kəsdilər. Sanki Şuşanı da qaytardılar, Ağdamı da azad etdilər, ziyalılara yenidən maaş kəsdilər, təqaüdçünün təqaüdünü pozub onu yenidən yazdılar…

…Musiqi çalınır həzin-həzin gözəl həyatın, xatirəsi kimi bu saat, bu an o çox dərdlidir. Dedik ki, əsərin qəhrəmanının adı Vətəndir. Vətən alverə, biznesə qızışan Bakıda cah-calala uyub sərməst olan, Qarabağı unudan qarabağlıları qınayır. Vətən kimilərinə indi çətindir. Çoxları da ondan üz döndərir. Vətən vuruşmaq istəyir, onu vətəndən, doğma ocağından perikdirən erməni düşməniylə ədavəti var. O, bu düşmənlə axır ki, üzbəüz durmaq istəyir, axı qaçmaqla – başını götürüb canının hövlündən qaçmaqla iş bitmir. O da düşmənin qarşısına çıxmaq istəyir. Şuşanı azad etmək, Laçına çıxmaq istəyir. Hələlik Vətən "qul bazarı"na çıxır hər gün. Bu ailədə hər şey, dərdin özü də, bu kiçik dərdli ailənin hər bir hərəkəti də Qarabağ deyir, yaralı Qarabağı andırır… Ahından, nəfəsindən Qarabağ acısı süzülür, Qarabağsa yoxdur. Qarabağın indi simvolu olaraq gördüyümüz tar – yadigar tar da gəlib Bakıya çıxıb, mücahid tapançası da gəlib çıxıb… Qarabağınsa özü yoxdur. Əsərdə iştirakçı obrazı çox deyil, demək olar ki, az dərəcəsindədir. Amma xalq, onun nəfəsi o qədər güclü duyulmaqdadır ki…

Bu faciəni dönə-dönə yaşamışdıq: Məmməd Səid Ordubadinin "Qanlı sənələr" kitabı, Mir Möhsün Nəvvabın oğrun-oğrun əlimizə gəlib çatan əsərləri, arvadı erməni qızı olan oğulların kürəyinə qaynar samovar bağlanmış babalarından söylədikləri şitəngi, gecikmiş rəvayətlər… və indi artıq biz şahidi olduq təzə-təzə faciələrin. Amma bu başqa şəkildə cərəyan edən, iyrənc təzahürlərə ortaya çıxan halətlər meydana gətirir: indi də budur, yeni adamlar, yeni xasiyyətlər ortaya çıxıb. Ağ atlı Murad ağ libas geyir təzə bəy kimi. İndi o iş adamıdı, əli yuxarılara çatır, pulludur, imkanlıdır… özüylə yanında təlxək gəzdirir bir Qarabağlı biçarəni…

İndi təzə hallar, halətlər zühura çıxıb. Qarabağın dərdli adları fərəh dağıdır, sevinc selləri daşdırır. "Xan qızı", "Xan Bağı", "Şuşa"… "Laçın"a heç nə çatmaz. Sanki ermənidən bu yolla "intiqam" alınır. Hə, indi intiqamın özünü min cür anlamaq olar; yəni bunu da hərə öz istəyincə başa düşür.

… Hər gün məşğul olduğum kitabxanada bu dəfə Malovun əsərinə baxırdım. Orxon-Yenisey abidələrinin dili üzərində fikirlərimi cəmləşdirməyə çalışırdım. Nə gördüm?! Oxucu (?) Mogilyan adını (Şahzadə Kültekinin böyük qardaşı) hər yerdə qaralayıb. Hə… onu xofa salan Mogilyan adındakı "yan"dır. Kobud bir məsəl var. Deyir: "Hər atasına bənzəyəni aparıb anasının qucağına soxur". Deməli bu "uşağın" intiqamı bundan o yana getmir. Yaxşı  hara qaralayırsan, kitabı kor qoyursan? Malovun əsərlərini bir də kim çap edəcək?!

…Amma səngərə çıxıb düşmənlə sinə-sinəyə duran hanı? Əsər Qarabağ münaqişəsi başlayıb, savaşlar getdiyi, Qarabağlıların doğma ev-eşiklərindən qovuldub qaçqın düşdüyü illəri-yaşadığımız çağları gözəl ifadə edir. Azərbaycanın düçar olduğu çətinliklər: əhalinin savaş həyəcanı, ərzaq qıtlığı, keçimsizlik, məkrli düşmən cəbhəsi, üstümüzə atılan saxta "genosid" ittihamı, "Böyük Ermənistan" kimi böyük ağ yalanla üzləşməmiz –hamısı öz əksini bu əsərdə tapmışdır.

Bu günkü əsər bu mövzuda Hüseynbala Mirələmovun əvvəl yazdığı "Xəcalət", "Güllələnmiş heykəllər" povestlərinin davamıdır. Müəllif mövzuya dərindən bələddir.

Təbii səhnələr yaradır: ermənilərin Daşnaqsütyün partiyasının tarixi, "qəhrəman" Dro, Andranik "şücaəti" xatırlanır. Burada erməni professor var ki, müəllif onu əsərdə erməni şərini, böhtanını ifşa etmək üçün yaradıb. Bu professor həqiqi tarixçidir. Maraqlı olan budur. Tarixi də həqiqi tədqiq edir, əksinə getmir. Tarix barədə fikri odur ki, "haqq-ədalət tərəzisindən düz heç nə yoxdur"

Bu mənada əsir Vətənin (əvvəl döyüşdə əsir düşmüşdür) bu professorla mübahisəsi: Urartunu ermənilər özünə ilk dövlət nümunəsi çıxsa da bunun ermənilərlə əlaqəsi yoxdur. Keşiş-professorun: bəs Pyotr, İsrael Ori? Vətən ona təmkinlə erməni qaraqışqırığını, saxtakarlığını, xəyanətini, Pyotrla gizli məktublaşmanın məkrini açıb göstərir. Əslində kömək yox, Pyotrun məqsədinin sadəcə qalmaqalçı ermənilərdən öz mənfur planları üçün istifadə olduğunu ona bildirir.

Qurgen Andonyanın erməni şairləri Nizamidən bəhrələnmişlər. Professor ehtizaza gəlir: mən səmimiyyət və dostluq tərəfdarıyam… bunlar təsirli səhnələrdir.

...Vətən bunları – kəskin qara boyalı yaddaş olsa da öz uçuq qaçqın evində xatırlayır dostu Muradla köhnə şəkillərə baxarkən. Bu viranə ev bu dost oğlanın – Muradın gəlişi ilə canlanır, birdən-birə hər tərəf ümid qoxusu saçır. Murad xəstə uşağın üstünə həkim gətirir, rəhm edir ona, onun bu rəhmdilliyi çox nalan qəlbi ovundurur. Tamaşaçılar çoxdan və çox hallarda qəhətə çıxan bu insaniyyəti sürəkli alqışlarla qarşılayırlar. Təbiidir, hər kəs mərhəmətə möhtacdır.

Vətən onu qınayır, məzəmmət edir, tamaşaçı da dilə gəlmək, o qınağı dilə gətirmək istəyir sanki. Murad da dilə gəlir: mən qaçıb Bakıya girəndə çaşdım ilk vaxt; müharibənin bura dəxli yox idi. Deyirlər axı Vətənin bir yeri ağrıyanda hər yeri ağrıyar. Buranın müharibədən, məhrumiyyətdən xəbəri yox idi.

Vəziyyətə uyğunlaşdım bir həqiqət aydın oldu mənə: Qarabağ bizsiz həll olunur.

Odur ki, mən öz yolumu seçdim. Mübarizə yolları çoxdan dəyişib. Biz isə bunu başa düşməmişik. Murad səmimidir öz payına. Bu səmimi etirafdan aydın olur ki, Murad kimi fürsəti fövtə verməyənlər çoxdur; Murad onlardan biridir. Lakin onun səmimiyyətinin lap zirvə etirafı: mən sursat almaq üçün mənə verilən pulu aparıb özümə iş qurdum. Bəli indi çoxdur belə iş adamları, işinin mayası beləcə haramdan yoğrulanlar. Bunlar özü millətin, vətənin başına min iş açırlar.

Onun əksi olan dostu, qardaş qədər əzizi Vətən isə dəyişmir, mərmi çalasında basdırdığı anasına verdiyi sözü unutmur. Buna görə də başı bəla çəkir. Müəllif bu qardaş qədər yaxın iki soydaşımızı qarşılaşdırmaqla həqiqətən şəraitin, anın ziddiyyətini, xarakterlərin, talelərin antoqonizmini yaxşı təsvir edib.

Vətən bu ağ geyimli, ağ mersedesli oğlanı "ağ atlı oğlan" adlandırır. Düz də eləyir. Bu müqayisə, lap elə taxma ad bu zaman burada çox yerində görünür: vətən darda, müsibətdə. Ağ atlı oğlanların xatırlanan, dada çatan günüdü…

Zaman və dövranla həmahəng yaradılmış digər obrazlar var, bunlar yazıçının yaratmış olduğu surətlər qalereyasını tamamlayırlar. Muradın kölgəsində dolanan digər dostu Kürən isə "qardaş, arzu edirəm, əlini cibinə boş aparıb dolu çıxarasan" Belə hədyan, miskincəsinə danışıq tərzi kimindir? Bu dünənin döyüşçüsü, indisə cibində şərab stəkanı gəzdirən, harada müftə şərab görsə orada lövbər salan tüfeyli…

Vətəndə isə tapança var, yadigar tapança. Pulsuz qaldığı ağır anlarında da onu satmır. Bu silah – simvoldur. Onun üçün də, bizim üçün də əsərin ilk anlarından az qala süni, yapma təsir bağışlayan Vətən adı indi doğmalaşır. Belə adların heç də təsadüfən verilmədiyini, yazıçı məqsədinə bağlı olduğu qənaətinə gəlirsən. Seçilmiş adlar ürəyə yatandır. "Vətənin Didar adlı bacısı, Qəmxar adlı qardaşı körpəliyin məsumluğu çöhrələrindən çəkilməmiş tələf olmuşdular. Ötərxan kişi nəvələrinə

həmin adları verməklə əzizlərinin ruhlarını əbədiləşdirmişdi"… Yaxşı – ana adı, Murad – dost adı olaraq gözəldir.

Muradı bir vaxt Yaxşı ana köynəyindən keçirib, onları qardaş etmişdi. Kürən döşündə vətən torpağını tutiya kimi gəzdirir. Bu dostluq, qardaşlaşma şəraitinə baxmayaraq Vətən elə vətənliyindədir. Əslində o doğularkən də qürbətdə - sürgündə doğulmuşdu. Tez-tez, elə indinin özündə də gözünə çoxdan ölmüş atası görünür. Vətən əzab çəkir… Evdə hər gün ağlaşma, nalə, giley... O isə Murad tərəfə keçmir, təlxək olmaq istəmir.

Tamaşa sona yaxınlaşır. Əsərin əvvəllərində müdhiş taleyin girdabında gördüyümüz, acıdığımız Vətən indi artıq hörmət və rəğbətimizi qazanmış, hörmət və ləyaqətin timsalına çevrilmişdir.

Bu hisslərin hakim olduğu sonluq isə vaxtilə özü dəVətən həsrətinə boğulan Seyid Nigarinin şeiri ilə bitir:

*Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ!..*
*Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ...*

O illərə qayıtdıq… Bir az ağrı göynərtiləri, bir az xatirə peşimanlığı qatılmış, sinəmizi yandıran bu təəssüratların əslində 28 il müddətincə heç də köhnəlmədiyinin, solub- saralmadığının şahidi olduq.

# Həyatın fəlsəfəsi

*Səndən doymaq olarmı,*
*Həyat, sən nə şirinsən!*
*Ancaq hamının deyil,*
*Sən həyatın qədrini*
*Yalnız bilənlərinsən!...*
***(Bəxtiyar Vahabzadə)***

Söhbətimizə özək aldığımız "Həyat eşqi" əsəri Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadəyə həsr olunmuşdur. Həyatın fəlsəfəsini bu və ya digər şəkildə bütün yaradıcılığa aid etmək mümkündür. Belə olduğu halda düşünürsən ki, yazıçı "Həyat eşqi" (1995) povestini niyə məhz ayrıca bir sənətkara - Bəxtiyar Vahabzadəyə ithaf edib?

Bu saat izah edəcəyəm: Ən əvvəl ona görə ki, Bəxtiyarın yaradıcılığında həyat eşqindən doğan bədii-poetik nümunələr bütün Azərbaycan poeziyasına örnək ola bildiyi kimi Hüseynbala müəllimin də ilhamını qanadlandırmağa kifayət etmiş. Həm də bütün ədəbi-bədii yaradıcılığda, habelə sənətin bütün növlərində özünü göstərən mühüm amildir; sənətkarın fəlsəfi baxışları fərqli olsa da Bəxtiyar Vahabzadə yaradıcılığı bu baxımdan müstəsna xüsusiyyətlərə malikdir; o, həyatın fəlsəfəsini duymaqda, dəyərləndirməkdə ustad şairlərimizdəndir. Belə ki, hələ ilk yaradıcılıq nümunələrindən başlamaqla fəlsəfi ümumiləşdirmələr sığışan həyat etüdləri ilə zəngin olan şeiriyyət şairə əbədi yaşarlıq qazandıran şərtlərə çevrilmişdir.

Yazıçımızın öz sözü ilə desək: Geniş, çoxşaxəli yaradıcılıqdakı dərin, obrazlı, mənalı və qanadlı misraları uçaraq dünyanın bir çox yaxın və uzaq məmləkətlərinə çatmış Bəxtiyar Vahabzadə şeirindən, poeziyasından, dramaturgiyasından hər kəs gördüyü, duyub dərk etdiyi, bacardığı ölçüdə açıqlamağa,

yazmağa, söz deyib dəyərləndirməyə çalışmışdır. Bu mənada Hüseynbala Mirələmov da şairdən yazmağı özünə borc bilir. Çünki böyük şair yaziçimiz üçün:

-sözündə, yaradıcılığında, əməlində bir, insanlığın qəbul etmədiyi naqis cəhətlərə qarşı ömrü boyu üsyankar və barışmaz olan;

-mənalarla, hikmətlərlə yüklü yaradıcılığı günün, ayın, mövsümün içində çeşidli, al-əlvan boyalı, bəzən sakit, həzin, bəzənsə çılğın, coşqun dalğaları şahə qalxmış, dibi görünməyən sirli bir dənizə bənzəyən;

-gənclik illərindən bu günəcən xalqımızın çətin, sınaq günlərində həmişə öz vətəndaş qətiyyətini, sənətkar mövqeyini bildirən, kəsərli sözünü cəsarətlə deyən, əqidəsindən dönməyən bütöv şəxsiyyət;

-bir sənətçi kimi mənanın, fikrin cövhərinə, mayasına, toxumuna can atan;

-oxucunu yatmağa qoymayıb vətənin, vətən içində haqqın, ədalətin, insafın və insanlığın keşiyində ayıq-sayıq dayanmağa səsləyən;

-yaradıcılığı təbiət kimi zəngin, bəhrəli olmasına baxmayaraq həmişə axtarışda, həmişə narahat, özündən narazı;

-fəlsəfi fikirlərlə yanaşı adi hadisələri, sadə mövzuları ruhundakı tükənməz lirika qatından, poetik duyğusundan keçirərək şeiriyyətə, mahnıya çevirməyi bacaran;

-ənənəvi, milli olduğu qədər bəşəri olan canlı klassikimiz, sevimli, doğma və əziz Bəxtiyar Vahabzadə...

Bunları ədib ona görə yerli-yataqlı xatırladır ki, Bəxtiyar Vahabzadə- nin bədii yaradıcılığının ideya-fəlsəfi qaynaqlarını, onun klassik ədəbiyyatdan bəhrələnmə dərəcəsini düzgün müəyyənləşdirsin.

Bax bu səbəbdən "Həyat eşqi" əsəri ona- mənəviyyat və əxlaq müsərrisinə həsr olunmalı idi.

Çoxumuz onu beləcə sağlam, həyati fəlsəfənin müdərrisi olaraq tanımışdıq axı... Bu düşüncələrdən şair ömrünə də, fəa-

liyyətinə də aydınladıcı nur, işıq süzülür: nəticədə həyata təkcə yaşam sürmək, güzəran keçirmək, ömür yolu kimi baxmır. O, bu həyatı bütövlükdə başdan-başa mübarizə, ideya, məqsəd uğruna savaş hesab edir.

Hüseynbala Mirələmovun **"Həyat eşqi"**nin qəhrəmanı da özü üçün mübarizə ilə dolu bir yol seçmişdir; amma bu elə bir mübarizədir ki, onunla razılaşdığın məqamlar olduğu kimi, gah da razılaşmadığın məqamları vardır. Hərdən yazıçıya heç cürə bəraət qazandıra bilmirsən. Çatdırıb bir növ yetirə bilmirsən ki, niyə insanı, daha doğrusu, əsərin bədii qəhrəmanını həyatdan fantastik çevrilmələr yolu ilə təcrid edib ayırırsan? Hərdən də onu yenidən insana çevirməklə cəmiyyətə qaytarırsan?

Lakin məlum olur ki, bununla – bu "fiaskolar" ilə müəllif əsl həyatın nə demək olduğunu, onun mahiyyətini anlatmaqla qəhrəmana yenidən yaşatdırır. Fikirləşməli olursan: Yazıçı düşüncəsindəki bu dönüşlər, bütün bunlar nəyə xidmət edir, bu zaman nədir onun məqsədi? Dərinə getdikcə nələrisə anlamaq mümkün olur...

Şair–publisist Əlirza Xələfli "Həyat eşqi" əsərinin motivlərinə, məzmununa, onun mahiyyət çalarlarına diqqət yetirdikcə bəzilərindən fərqli olaraq bu əsəri fanatastika, ülluziya adlandırmaqdan uzaqda dayanır. Görünür, tədqiqatçının bu barədə belə düşünməkdə tutarlı dəlilləri var. O "Həyat eşqi" əsərinə dair özünün "Əbədi həyat arzusu" kitabında nəhayətsiz düşüncələrini çözələyir. Çözələdikcə həmin sualı unutmur və bir məqamda bu məsələyə toxunur. Haqlı olaraq deyir ki, Hüseynbala Mirələmovun "Həyat eşqi" əsəri çoxlarına elə gələ bilər ki, fantastika, bir ülluziyadır.

Ancaq əksinə, mənə elə gəlir ki, bu, tam real həyatdır. İnsanın gündəlik qarşılaşdığı ağ-qara, pis-yaxşı, yalan-doğru... bütün bunların heç birisi bu əsərdə yoxdur. Doğrudur, əsər boyu qəhrəmanın düşüncələrində onun həyatda gördükləri etirazları əks-səda kimi görünür, amma əslinə qalarsa, biz təbiəti görürük və o təbiətlə təmasda olan, təbiətin əbədiliyində

özününü axtarmağa gedən insanı görürük. Bəs bu insan kimdən, nədən qaçır?! Əslinə qalsa, bu insan həyatın şirinliyini dərk etdiyindən və bu şirin həyatın bir gün onun əlindən çıxacağından vahiməyə düşdüyü üçün – qorxduğu üçün deməzdim – baş götürüb 40 yaşına qədər yaşadığı aləmdən gedir.

İnsan əbədiyyəti axtarmağa axı hara gedə bilərdi? Hər halda, o, əsərin elə ilk səhifələrindəcə təqdim olunan yaşının 40-nı adlamış çağında, yəni dünyanı dərk etdiyi çağında doğulduğu məkana üz tutur. O, bu məkanı tapmalıdır və ona elə gəlir ki, insan özünün doğulduğu yerdə, dünyaya gəldiyi yurdda öz ilkinliyinə qayıda bilər, öz təmizliyinə dönə bilər. Bu, yazıçı intiusiyası ilə ortaya çıxan ən düzgün qənaətdir...” Burada keçmişin aqil loğmanlarının əlacvari hökümləri yada düşür. İnsana ən yayarlı ərzaq onun özünün doğulduğu torpaqda bitən meyvə, dənli bitki, tərəvəz və sairədir. Heyrətlər içində qəbul edirsən. Bəlkə insanın ömrü boyu doğulduğu yerə həqiqətən səsləyən gizli çağırışları da olur?!

Öz-özünə heyrət edirsən: İnsan, məhz insan öz ürəyində necə müdhiş, necə son dərəcə ağır bir yük gəzdirə bilərmiş. Yox, bu elə təkcə bağlı boxça, ya da bir sirr sandığı deyil... Bu, daha çox qəm dəftəridir. Nisgili, kədəri vərəq-vərəq... Bu zaman insan sanki viranə bağçaların bülbülünə dönür. Sadəcə nəğmə demək istəyir. Saatlarca baş-beyinləri yoran etiraf söhbətlərindən (bəlkə də monoloqundan) oxumaq istəyir. Sanki ürəyinin ah-naləsini bu qırıq, kəsik nidalar daha tez çatdıracaqmış kimi... Nə etməli?! Bu həyatın qəmini yeyən, sevincini içib məst olan insandır...

Dilə – ən başlıca ünsiyyət vasitəsi olan dilə etina etmədən (bəzən onun gərəksizliyini düşündüyündən) lal, dilsiz-ağızsız ağaca çevrilmək, qanadlarını gərib əngin səmalarda qırğı kimi süzmək, məhz oradan, o ucalıqdan yerə, indi günah yuvası zənn etdiyin yerə tamaşa etmək istəyirsən.

Dərdimi daşa desəm, daş əriyərdi, deyir. İnsanlıq, mehrüvəfa qəhətə çıxanda daşa, torpağa deyilər dərd, ağrı... Ya da diz

üstə çöküb zərrə-zərrə çiçəklər, yerdən təzə-təzə baş verən otlara; çəmənlərə sirrini nağıl edib danışmaq istəyirsən, ana təki, həmdəm təki...

Yazıq dəllək. Dözə bilmədi, dilinin ucunda əkib bitirdiyi sözü saxlaya bilmədi sonacan. Şahənşah İsgəndərin ürəyində zədə kimi gəzdirdiyi sirrini quyuya danışdı. Bu sirrin yeganə ortağı olan kor quyudan çıxan bu qar-qamış, bu söz-sovdan bənd-bənd şişdi. Əmanət sözü saxlaya bilmədi; çuğulladı dəlləyi, tütək olub oxudu: *"İgəndərin buynuzu var, buynuzuuuuuu..."*

Dərdi dinləmək də hünər işidi, qardaş!...

Hüseynbala Mirələmov öz yaradıcılıq keyfiyyətləri və məziyyətləri ilə fərqlənən bir sənətkardır. Və milli mənəviyyatımızın sağlamlaşdırılması, qorunması və onun bütün qayğıları ilə səsləşən bu yeni əsər əslində irihəcmli olmasa belə, onun yaradıcılığında, eləcə də bədii sənətdə daha yeni hadisədir. Əsərin qəhrəmanı olan İnsan bizim müasirimizdir və böyük məhəbbətlə yaradılmışdır. Bu qəhrəmanı eyni məhəbbətlə yaradılmış təbiət müşayət edir. Bu doğma təbiətin gözəl hüsnü, Allahın gözəl yaratdığı varlığın- insanın siması qədər gözəldir.

Hüseynbala Mirələmov əsərlərində yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas – mütəfəkkir kimi də irəli gedir, insanlığın, xüsusən yeni həyat tərzinə başlamış Azərbaycan insanının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsarətlə açıb göstərir (akad. Nizami Cəfərov)

Əlbəttə, cəmiyyətdəki belə qlobal aşınmalar önündə əsərin adı ilk baxışda bayağı görünə bilər; özlüyündə "Həyat eşqi" çox dolğun məna yükünə malik olsa da, insanın, həyatın özü qədər yaşı olan, kifayət qədər işlənmiş ifadə sayıla bilər.

Dünya klassik ədəbiyyatı nümunələrindən olan Cek Londonun yazdığı "Həyat eşqi" kitabı var. Vaxtilə dünya proletarının rəhbəri Lenindən ən çox sevdiyi bədii əsəri soruşduqda, cavabında vəcdlə: "Həyat eşqi" demişdir.

Deməli, həyat eşqi ümumbəşəri anlayış, arzu, mübarizə, hər bir canlının mübarizə etalonudur. Baxırsan möhkəm qranit qayadır, onun daş bağrından sağlam gövdəli, iri budaqlı, yam-yaşıl bir ağac daşı deşib çıxır, yaşayır. Budur həyat eşqi! Bəs saatlarca müşahidə etsən də, yorulduğunu görməzsən: qayna-şan, ora-bura vurnuxan qarışqaların zəhməti... Ehtiyatsız bir qədəm atsan kifayətdir, qırılıb gedəsidir. Amma yaşamaq, son anadək vuruşmaq eşqidir bu gördüyün mənzərə!

... İndi budur, qəhrəmanım yol gedir. Əsər beləcə rəmzi başlayır. Yolla. İnsan balta dəyməyən ormanlar keçir.; əyilib saf çeşmələrdən su içir. Yorğunluğu çıxır. Bu bulaq kimi hələ çirkab qarışmayan çaylardan, ırmaqlardan keçir. Möcüzədir, möcüzə dağlarımız, daşlarımız. Elə ona bizim tutduğumuz divan da.

Bəlkə elə buna görə o ilk olaraq qartal olmağı seçir. Özündən asılı olmadan ona qoşulursan. Qorxu, hürkü, vəsvəsə ilə: çovumuş bir gülləyə tuş olmaya?!- deyə düşünürsən. Lakin o qartal da olsa, meşələr azmanı palıda dönsə, qum zərrəsinə çevrilsə belə, o insanların təbiətə tutduğu divanın fərqindədir.

Ümumiyyətlə, insanın cildini dəyişib heyvana, quşa, daşa çevrilməyi mifik yaddaşımızdan başlayır. Qədim nağıllarımızın qəhrəmanları tez-tez bu sehr, ovsunla qarşılaşır, özləri ceyrana, divə, bülbülə, ... daşa çevrilirlər.

... Bu yolun təsvirindən heyran-heyran uşaqlıq çağına dönürəm. Su quyumuza bitşik daş hovuzun suyu daşlanıb həyətə sızırdı; şəffaf, təmiz su həyətə yayılıb yaz gölməçəsi kimi bərq vururdu. İlk dəfə şanapipik quşunu onda gördüm.

İlk dəfə ona görə deyirəm ki, axı beləcə qızılgülü ilk qoxladığım gün, ilk qarı gördüyüm fəsil olubdu. İndi dəli bir istəklə bu dəli quşa baxır – axı heç belə parlaq oyuncağım da yox idi. Pusa-pusa ardınca gəzir, onu tutmaq, daha doğrusu, o qanovuz kimi alışıb-yanan tüklərə tumar çəkmək istəyirdim. Anam sanki məndən də çox mütəəsir olmuş, məni sakitləşdir-mək üçün şanapipiyin hekayətini söylədi. Bu quş demə, təzə

bir gəlin imiş. Yaxası, başı düyməli, başı örpəkli, əlləri xınalı, bərli - bəzəkli. Bir gün o bir otaqcanı xəlvət edir, örpəyi açır. Hörüklərini dağıdıb saçlarını yumağa başlarkən qapı açılır. Qaynatası onu üzü-başı açıq görür. Təzə gəlini xəcalət boğur. İlahi, məni quş elə, uçum gedim, daha mən qaynatamın üzünə necə çıxım?! Bu nazlı gəlin, dərdli gəlin başı daraqlı quşa çevrilir, geyimi də atlas zərxara.

Həmin zamanlarda gəlinləri belə görürdüm. Odur, bu nağıl məni sakitləşdirmək əvəzinə, daha da ağlatdı. Bu günə qədər hələ o quşun talesiz bir gəlin olduğuna inanıram. Bəlkə o ana nağılına hörmətimdəndir?!

Dönə-dönə o fikrə qayıdırsan ki, Hüseynbala Mirələmov ixtisasca mühəndisdir, amma hər şeydən əvvəl söz ustasıdır. Ədəbiyyatımızın görkəmli simalarındandır. Bu saat Azərbaycan ədəbiyyatının ağırlığını çiyinlərinə çəkən ədiblərimizdən biridir. Həmin ixtisası isə ona hadisələri yanaşma və onlardan düzgün nəticə çıxarmaq məsuliyyəti və imkanı verib. Çünki adi oxucunun içərisində yaşadığı mühitin hadisələrini qiymətləndirmədən və mənalandırmadan bəzən yan keçdiyinin şahidi olursan. Lakin bu həyat, bu ömür, bu insanlar hər biri öz dərinliklərinə qədər, sirləri ilə məhz yazıçı, qələm sahibi tərəfindən kəşf edilib üzə çıxarılır. Səma öz ənginliklərinə qədər, torpaq öz təkinə qədər öyrənildiyi kimi.

Hər bir kitabı kəşf, tapıntı adlandırmaq olarmı? Yox, məncə... Yazıçının bu kitabı həqiqətən bədii kəşfdir. İnsanın öz-özüylə təkbətək qalamq, təbiətin əbədi, daha doğrusu, daha uzunömürlü parçasına çevrilmək arzusu necə də təbii, hər kəsin ürəyindən keçən bir nisgilidir. Etiraf edək ki, axı kəpənəyin bir neçə saatlıq ömrü bizdə nə qədər təəccüblər oyatmışdı. Öz ömrümüz çox uzunmuş kimi...

Qəhrəmanımıza isə bu ömür kafi deyildir. Nədən ötrü? İşləməkdən, görməkdən, gəzməkdən... sevməkdən ötrümü? Azlıqmı edir bu möhlət ona?!

...Musa Cəlili həbs düşərgəsində dar ağacı altına gətirirlər. Edam gecəsinin son saatında dəftərinə bunları yazmışdı: Of həyat!.. Mən səni Leyli bilir, səni Məcnun sədaqəti ilə sevirdim...Bundan daha irəlidə isə həbs günlərində yazdığı fəryad şeiri də bizə gəlib çatıb:

*Az qəm çəkməmişəm ömrüm uzunu,*
*Qəmlər içindəyəm yenə bu saat.*
*Mənə öz yarımla görüşmək üçün,*
*Onu öpmək üçün imkan ver, həyat!*

Təbii ki, edam öncəsi son öpüşü, vida öpüşünü istəyirdi şair. Yəni bir görüm, bircə dəfə baxım, sonra nə olur olsun!..

Niyə insan bu şirinliyi, dad-ləzzəti son anda dərk edir; bütöv ömrü yaşaya bilməsindən yana kədərlənir, peşman olur. Bu ürəyin, bu zaman haqq-hesablarına davam gətirmək mümkünmü?

... Ümumiyyətlə, bu çevrilmələrlə nəsə dəyişirmiş? Həqiqətən gərək daş-qaya olasan, dilsiz halında quşa çevriləsən?! Amma cəmiyyətin fövqündə insanlıq varmı, bu həyat ictimai dəyər daşıyırmı?! Belə halda bu uzunömürlülüyün bir faydası varmı?

Robinzon Kuruzo uzun illər kənar bir adada yaşadı. Yaşaya bildisə, güzəran keçirdisə də, lakin o, batan gəmidən götürdüyünü götürmüşdü. Yenidən düzəltdiyi də cəmiyyətdə gördüklərinə təqlidən idi. Yəni o uzaqda olsa da, cəmiyyətdən əxz etdikləri çox idi.

Qəhrəmanımızı isə artıq yer kürəsi, insan məskəni bu planet bezdirmişdi. Narahat dünyada sanki onu saxlayan heç nə qalmamışdı.

"İllər boyu birgə yaşadığı insanlar indi buradan xırda qum dənəcikləri kimi görünürdü. Səhərdən axşamacan vurnuxur, mübahisəyə girişir, küsür, barışırdılar". Bu onun qartal

ömrüdür – indi hər şey bu ucalardan, alilikdən necə mənfur, eyni dərəcədə acınacaqlıdır.

Ömür, tale haqqında bir şərq hekayəti var. Allah-təala hər bir canlıya 30 il ömrü münasib bilmişdi. Dünyanın "Ol!" kəlməsi ilə yaranan çağı idi. İlk olaraq insan bu 30 il ömürdən narazı qalmışdı. Elə narazı-narazı durub qalmışdı bir yanda. Çıxıb getmək fikri yox idi. Növbə eşşəyin idi. "Sənə 30 il ömür yazıram, işləyəcəksən... Gecə-gündüz yük belindən düşməyəcək. Əvəzində dincəlmək istədikdə döyüləcək, yemin də kürküləş olacaq... Eşşək ağladı: neynirəm belə həyatı, 10 il bəsimdi, bu ki məşəqqətdi... Kənarda durub diqqətlə qulaq asan insan yalvarıcı səslə: Pərvərdigara, hər şeyə qadirsən, ver o 20 ili mənə... Növbə meymunun idi. Tanrı üzünü ona tutub: get, bu 30 il də sənin. Çöhrəni görən hər kəs baxıb güləcək, ya da üz-gözünü turşudub qaçacaq. Cümlə-camaatın gülüş hədəfi olacaqsan. Hər zaman səninlə əylənəcəklər, sənə güləcəklər. Meymun cəld sıçrayıb Tanrının ayaqlarına döşəndi: 10 il ömür – işgəncə bəsimdir... Kənarda gözləyən insan bir qədəm irəli atıldı, sevincini boğa-boğa: Fəda olsun sənə canım, Ulu Tanrım, ver o 20 ili də mənə. Xudavəndi-pərvərdigar söhbəti tamamlamaq istədi: get, dedi: 30 il insan kimi yaşa, 20 il eşşək kimi çalış, gözün doymadı həyatdan; qalan ömrünü də qocalıb əldən düşəndə, sir-sifətdən dönəndə meymun kimi rişxənd etsinlər sənə. Get yaşa.

İnsan bütöv bir ömrü rəng-rəng, çalar-çalar yaşamaqdadır... Bu taledir. Sevinə-sevinə, ağlaya-ağlaya yaşanan ömür. Gözəldən-gözəl, şirindən-şirin; acıdan-acı həyat. Harasında desən gözəldən gözəl, şirindən şirin həyat...

# Siyasi publisistika janrında: Zirvə qartallarındır

Bu söylənilən fikrə qarşı kimsənin etirazı olmaz, desək ki, cəmiyyətin tərəqqisində böyük və həlledicu rol oynayan ictimai fikrin əmələ gəlib müəyyənləşməsində publisistikanın geniş imkan və vasitələri var. Publisistika sosial xəbərləşmənin nizamlanmasında, təşkilində və gələcək nəslə ötürülməsində müstəsna yeri olan bir funksional yaradıcılıq üslubudur. Bu baxımdan publisistika sonrakı nəsil üçün əvəzsiz qaynaqdır, tarixdir, dövrün çağdaş həyat hadisələri gedişinin obrazlı, canlı mənzərəsidir. Publisistikanın çagdaş həyat hadisələrini, konkrt situasiyaları əks etdirmədə, cəmiyyəti, milləti, geniş xalq kütlələrini məqsədyönlü şəkildə, yəni sosial ideala uyğun yönləndirmədə gücü oradan irəli gəlir ki, publisistika həm ağıla, həm də hissə, emosiyalara müraciət edir, onları göz önündə tutur.

Azərbaycan nəsrində öz üslubu və dəsti xətti olan, müasir ədəbiyyatda öz cığırını açmış söz ustadı Hüseynbala Mirələmov siyasi publisistikasından danışıldığı zaman qeyd etmək lazımdır ki, onun siyası publisistikası nümunələri dövrün ictimai həyatından bəhs edən kitablardan sayılmalıdır. Təsadüfi deyildir ki, yazıçının son 20-30 ildə yaratdığı və müasir siyasi publisistika janrının ən gözəl nümunələrindən sayılan trilogiyası bütün dünya oxucularının böyük maraqla qarşıladığı əsərlər sırasındadır. Bu, Moskvada "Moladaya Qvardiya" nəşriyyatının çap etdiyi və onun “Görkəmli adamların həyatı” seriyasından olmaqla monumental

trilogiyasının – “Heydər Əliyev”, “İlham Əliyev” və “Zərifə Əliyeva” adlı əsərləridir ki, təkcə “Heydər Əliyev” əsəri bu günə qədər dünyanın 42 dilinə tərcümə olunaraq nəşr edilmişdir.

Azərbaycan ədəbi ictimaiyyətinə, oxucularına, elm və ictimai mühitinə, özünün istedadı, dünyagörüşü, Heydər Əliyev ideyalalarına, irsinə, əməllərinə, böyüklüyünə, ucalığına sədaqəti, əqidəsii ilə yaxşı tanınan yazıçı-dramaturq, ictimai xadim, millət vəkili sənətkarımızın Rusiyalı yazıçı Viktor Andriyanovla birgə yazdıqları “Qeydar Aliyev” kitabı dahi şəxsiyyətin irsinin, fəaliyyətinin öyrənilməsinə ən gözəl töhvədir... Onu da xüsusi qeyd etməyi vacib hesab edirəm ki, bir yazıçı-dramaturq və publisist kimi böyük istedad adamı olan Hüseynbala Mirələmovun bu yolda əməyini yazıçı V.Andriyanovla birləşdirməsiylə Heydər Əliyev haqqında tarixilik, müsirlik baxımından çox önəmli olan monumental bir əsər ortaya qoymuş oldu. Hüseynbala Mirələmov və Viktor Andriyanovun ulu öndərimiz Heydər Əliyevin tarixi şəxsiyyət kimi xalqı qarşısındakı xidmətlərinin ümumiləşdirirlmiş məcmusunu çox böyük istedad və yazıçılıq səriştəsi ilə vermişdir. (Mehriban Əliyeva. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Millət vəkili). Bu təsadüfi deyil.

Ümummilli lider Heydər Əliyevə həsr olunmuş ondan artıq siyası-publisistik kitab, görkəmli adamlar seriyasından “Heydər Əliyev” və “İlham Əliyev” monoqrafiyaları onu peşəkar yazıçı, dramaturq və siyasi publisist kimi Azərbaycan ədəbiyyatının və ictimai fikrimizin tarixinə birdəfəlik daxil etdi.

Publisistik irsinin əsas xəttini Ulu Öndərimizə həsr etdiyi silsilə romanları, xatiratları ilə dəqiqliyinə qədər göstərsək, “Yollar hamar olmur”, “Azadlığın böyük əsgəri”, “Memarı yaşadan əməlləridir”, Amalın işığında”, “Həqiqət”, “Zəfər yolu”, “Bir günəş var”, “İşığın izi ilə”, “Heydər

Əliyev", "Millətin atası", "İlham Əliyev" və "Zərifə Əliyeva" kitabları dünya dillərinə tərcümə olunaraq yayılmışdır.

Çoxsaylı ədəbi mükafatlara layiq görülmüş əsər haqqında danışanda haqlı olaraq qeyd edirlər ki, ".. yüz il sonra da heç bir başqa əsəri oxumadan, təkcə H.Mirələmovun qələmə aldığı "Heydər Əliyev" kitabını oxumaqla, müstəqil Azərbaycanın memarı və qurucusu olan bu dahinin şəxsiyyəti, siyasi fəaliyyəti, vətənpərvərliyi, qətiyyəti, müdrikliyi və xalqının xilaskarlıq missiyası haqqında müfəssəl və zəngin məlumat almaq olar..." Bu da böyük qiymətdir.

"Görkəmli adamların həyatı" seriyasında ancaq bəşəriyyətə özünün töhfəsini verən dahilər haqqında, böyük insanlar, mütəfəkkirlər, alimlər, siyasətçilər haqqında yazılan kitablar dərc olunur. Əlbəttə, mənim, eləcə də hər birimiz üçün, Azərbaycan xalqı, bütün Türk dünyası üçün Ulu Öndər əvəzsiz bir fenomendir. Ancaq, bunlar məni qane etmirdi, bu mənada ki, Azərbaycanda yazılır, Azərbaycanda da oxunur... Bəşəri heyran qoyan bir İnsan haqqında nəsə etmək istəyi məni gecə-gündüz narahat edirdi. Onun səriştəli dünya siyasətçiləri ilə görüşləri, hər görüşdən müzəffər dönüşü, ən əsası isə bədnam qonşular ilə aramızda gedən elan olunmamış müharibədə atəşkəsə nail olması, axan qanları dayandırması, nəhayət, dünya siyasətçilərinin bu dahi şəxsiyyətə ehtiramı, xalqımızın ona qarşı məhəbbəti mənə daha böyük ideya verdi.

Mən ulu öndər Heydər Əliyevə layiqli kitab yazmaq zərurətini hiss etdim, bu, məni narahat etməyə başladı. Fikirləşdim ki, o kitabı yazmaq lazımdır. Əlbəttə, çox götür-qoy elədim, gördüm ki, o kitabın öhdəsindən tək gələ bilmərəm. Mənim (indi rəhmətə gedib) Viktor Andriyanov adlı rus yazıçı dostum vardı. Ona müraciət etdim. Dedim, gəl, bunu bir yerdə yazaq, Moskva həyatını sən, qalanları da mən yazım. Biz razılaşdıq. Beləliklə, 2003-cü ildə başladıq kitabı yazmağa və işimiz uğurlu oldu. Lakin iş bununla bitmirdi..."

Yazıçı-publisistin Əliyevlər nəslinin Azərbaycan xalqı və torpağı qarşısında xidmətlərini nəsillərə tanıtması, ədəbiyyatçılardan birinin qeyd etdiyi kimi, "Heydərnamə"ni tamamlaması üçün, şübhəsiz, "İlham Əliyev" əsəri yazılmalı idi və Hüseynbala Mirələmov yüksək məsuliyyət tələb edən bu əsərin öhdəsindən də uğurla gəldi. Nəhayət, ötən il Əliyevlər ocağının başında sərvaxt dayanan, böyük dahinin irsini ən qiymətli sərvət kimi qoruyub inkişaf etdirən birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva haqqında "Missiya" kimi möhtəşəm bir kitabı oxucularının ixtiyarına verdi.

"Millətin atası" kitabı isə adından da göründüyü kimi ulu öndərə – Heydər Əliyevə həsr olunub. Böyük öndərin keçdiyi yolu yazıçı işığın izi kimi vəsf edir və oxucusunu da milli düşüncəmizi işıqlandıran bu böyük zəkanın – Heydər Əliyev dühasının həyat və ictimai fəaliyyətini vərəqləməyə yönəldir.

"Millətin atası"nı təkcə siyasi publisitikanın kamil nümunəsi kimi yox, həm də bir bədii ədəbiyyat nümunəsi kimi oxumaq olur. Kitabı əlimə alan kimi "Müəllifdən" deyə təqdim edilən "Ön söz"ü oxumağa başladım. (Həmişə belə olmur. Vərəqlənib oxunan, başdan-ayağa, axırdan-əvvələ oxunan kitablar görmüşəm.) – İlk cümləni "Azərbaycan öz azadlığına qovuşandan sonra elə bilirdim ki, daha heç bir ciddi problemimiz olmayacaq. Daha bizi heç bir ciddi təhlükə hədələyə bilməz" sözlərini oxuduqda ani olaraq fikrimdən keçdi ki, elə mən də, elə milyonlarla başqaları da belə düşünürdük. Vallah, bu səmimilik, sadədillik məni elə tutdu ki, publisistik olsun, elmi araşdırma olsun, əlimdə sanki bədii əsər tutmuşdum və həmin bədii təmənnalarla da mütaliəyə girişdim.

Yazıçı bu mövzunu, boynuna çəkdiyi işin məsuliyyətini də, böyüklüyünü də yaxşı bilirmiş. Rəhbərin tariximizdə tut-

duğu yeri, tariximizin də, cəmiyyətimizin də müqəddəratında həlledici rolunu sadəcə təsvir etməmiş, soydaşlarımızın öz yaddaşına üz tutaraq onları da öz düşüncələrinə ortaq etməyə çalışmışdır. Böyük rəhbər Heydər Əliyevi Vətən tarixinin böyük müəlliflərindən bilib hesab etdiyindən tariximizin şanlı simalarını xatirələrə gətirir.

Elə tarixi yaddaşı bir kitab kimi vərəqləyir: Atropat, Cavanşir, Babək, Atabəy Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Həsən Xan Ağqoyunlu (Uzun Həsən), Şah İsmayıl, nəhayət Nərimanov kimi sərkərdələrimizin, dövlət xadimlərimizin, padişahlarımızın sırasında onu görür və o zirvə duruşunu fəhmlə, yanılmadan, inana-inana, eləcə də inandıra-inandıra, qətiyyət və səbirlə oxuculara yetirir, onlarla fikir ortağı olur, düşüncələrini bölüşür, dərdləşir, həmsöhbət olur. Vətən dərdlərinin tərcüməni olmaq, Vətən ağrılarının loğmanı olmaq, axar göz yaşlarını silmək, bu dərdləri önərtmək... Böyük insan bunu bacardı.

Müəllif dərhal əlüstü əlavə edir: "Bacardı" deyən asan bir kəlmənin arxasında ömür dayanır. 80 illik tufanlarda, yanğınlarda keçən çarpışma, ömür deməkdi bu. Üstəlik bu ömür, bu həyat kələf kimi qatmaqarışıq məsələlərin, problemlərin labirintində əzab-əziyyət çəkə-çəkə, zəhmət dolu, zəfər dolu yollar qazanıb. Bu yolların dərsi də böyük oldu. Müəllif haqqlı olaraq bu ömrü elm adlandırır. Lakin bu elm sözü özünün ilkin, birinci mənasına sığınıb qalan "elm" deyil. Burada nəzərdə tutulan elm özünün daha geniş, dolğun mənasındakı elmdir: Bu bəşəri dəyərlərə, öz millətinə, torpağına, ədəbiyyatına, sənətinə məhəbbət, fikir çarpışmalarına girişmək, bu döyüşlərədən uğurla çıxmaq məharətinə həsr olunmuş elmdir.

Bir inam var ki, bir istək var, bir sevgi var, bir... əhdi-peyman var. Bu insanın bahadır ürəyində: xalqını ağ günə çıxartmaq. Düz ilqardır, müqəddəs, təmiz arzudur; vəsiyyətdir – etibardır (əslində, oxucu düşünə bilər: var idi, idi, idi...

Lakin müəllifin böyük inamı oxucuya da sirayət edir: bu həyatın, bu mübarizənin, oyanışın, nəhayət ədalətin, haqqın qırılmadığına , davam etdiyinə və edəcəyinə inandıra bilir). Dünyanın qəddarlığını, etibarsızlığını, məkri, hiyləni, tamahı, paxıllığı görə-görə... Əlinə qılınc alıb qırmayacaq, kəsib-doğrmayacaqsan ki, bu cür pislikləri, zəlaləti.

Həqiqətən, inanırsan müəllifə. Bir fikirdəsən hamı kimi, milyonlar kimi: o böyük insanın bu həqiqətləri ən qaranlıq bucaqlarına, küncünə qədər dərindən bilməsinə inanırsan, bu bilik, bu dərdə aşinalıq lap kiçiklikdən başlamışdır. Sənin kimi, mənim kimi o da zəhmət içində, dərd-qayğı çevrəsində boy atmışdı; bu zəhmətdən yoğrulmuşdu. Bu zəhmətin əziyyətini də, verdiyi sevincləri də görürdü. Öz ata-anasının örnək olası həyatında, güzəranında zirvəyə qalxan o nərdivandan yox, tikanlı, kələ-kötür yolların zülmündə görmüşdü. Bu xalq nə qədər dözəcək, nə qədər yaxası əllərədə qalacaq, nə qədər öz haqqını istəyəcək, məkr və hiylələrə bürünmüş pərdələr altından?! Nə qədər sapı özümüzdən olan baltaların, bağışlayın, məmurlarımızın laqeydliyindən, soyuqluğundan ağlar qalacaqdır bu millət, bütün bu dərdlər onun prinsiplərini bülöv daşına çəkir, itilədir, itilədirdi.

Axı indi biz deyəndə kimik, dərdimiz nədir? Biz deyəndə bu xalqa ya işlədiyi zavod bağlandıqdan sonra bütün günü ayaqüstü bazarda birgünlük kəsbini qazanan bir "yerli" və ya can hövlündən düşmən qabağından qaçarkən dolu evindən bir, bircə yadigarı əziləyib götürən, əslində, əli boş gələn, fəqət, ürəyinə bütün dərdi, alovu və nifrəti yük edib "hədiyyə" gətirən bir qaçqın soydaşımız...

Bu dərdlər idi onu şəxsi nə varsa unutmaq, xalq üçün yaşamaq, xalq üçün işləmək, nicat vermək ona. Nə olursa, olsun, məhrumiyyətləri, əzabları, xalq üçün eynilə itirilmiş torpaqların dərdi qədər dərd hesab edirdi.

Haşiyə: Azadlığı dadar-dadmaz başlayan müharibə ilə bir başlayan məhrumiyyətlər, aclıq, səfalət, o müstəqillik

qalibiyyətimizin sevinclərini az qala pərdələyəcəkdi. Bu qəmdən kənarda kimsə var idimi? Hamı eyni dərdin və qayğının əlində əsir. Bütöv xalq öz evində, şair demiş, "beytül-həzənə" qapanmışdı. (Beytül – həzən nalələrilə qonşuları yatmağa qoymayan Yaqub peyğəmbərin salındığı daş ev, qapısız, pəncərəsiz "kədər evi") – özümü, özümüzü elə bu daş evlərdə hiss edirdik.

Müəllif bütün bunların təbii nəticəsini ürək ağrısı ilə göstərir. Böyük insanın ürəyi çat verdi,- deyə həqiqətən bu təbii sonluğu öz düşüncələrinin məntiqi nəticəsi kimi vaxtında deyə bilir. Bu insanın həyatında hər şey necə də adidir. Hər bir insana xas olan ucalmaq, yüksəlmək eşqi, xalqa xidmət arzuları, gördyü etibarsızlıqlar, xəyanət, təklik... Böyük şöhrətin və tənhalığın hər ikisini bir ömürdə yaşadıqda çətindi hər şey. Bu yol çətin yol idi. Obyektivlik işığında, sədaqətin, inamın gücünə gedilsə də, çətin idi. Ən çoxu da hər şeyə obyektivlik nöqteyi-nəzərindən yanaşıldığına görə çətin yol idi. Axı bəzən qatığa qara deyə-deyə yaşamaq daha asan gəlir allahın günahkar bəndəsinə. Müəllifi də çəkib aparan bu işığın izidir.

*Haşiyə:* 4-5 il əvvəl beynəlxalq bir konfransda dünya şöhrətli alimimiz doktor Cavad Heyət hər zamankı kimi sevgidən saldığı sözü prezidentimizin üzərinə gətirdi. Vəcdlə onun adının, soyadının, atasının adının müqəddəslərimizin, inanc yerləri olan pirlərimizin adlarını daşıdığını və bununla bizə daha əziz, daha yaxın ola bildiyini qeyd etdi. İndi müəllif Hüseynbala müəllimin bu adların obrazlılığına, rəmzlərinə də xüsusi fikir verməsi yadıma ağsaqqalımız Cavad Heyətin vurğunluğunu bu ada, bu insana tapınmasını saldı.

Heydər Əliyev Azərbaycan xalqının tarixində müstəsna rolu olan şəxsiyyət, son yüzillik tariximizin müəlliflərindən biridir. O, Azərbaycan xalqına dövlət qurma elmini, özünün yaratdığı böyük nəzəri-mənəvi xəzinə bəxş etmişdir. Bu

qiymət həmin ömrün işığının hamıya, hamımıza bəs edəcəyini nə qədər dəqiq göstərir.

Hüseynbala Mirələmov "İşığın izi ilə" tarixi-ədəbi essesində ümummilli liderimiz Heydər Əliyevin onu canı qədər sevən öz doğma xalqından, uğrunda gözlərilə od götürdüyü vətənindən cismən ayrıldığı, ruhən birləşib bütünləşdiyi məqamları təsvir edir. Əsərdə bütün mübarizələrində qalib gəlmiş Böyük İnsanın Heç vaxt məğlub olub geri çəkilməyəcək ideyaları, yeni nəsillərə örnək olası unudulmaz parlaq obrazı tərənnüm olunur. "İşığın izi ilə" essesi son dərəcə səmimi, ahəngdar bir dillə, deyim ki, tamamən essevarı poetik üslubda qələmə alınmışdır. Əsər bütöv bir xalqın böyük oğluna oxuduğu vida nəğməsinə bənzəyir. Yazıçı bunu yaxşı tuta bilmiş, şeiriyyəti sonacan saxlamış və zəhmətinin nəticələrinin oxucuların unutmayacağı, maraqla qarşılayacağı əsər olduğuna şübhə etmirik.

İnsan dünyaya bir dəfə gəlir, bu ömrü nə pay vermək, nə də kiməsə bağışlamaq mümkündür. Belə olduqda Heydər Əliyev öz ömrünü xalq üçün yaşayıb. Bu söz kim üçün deyilsə belə, fərqi yoxdur. Bu qiyməti alan ən sadə vəzifə sahibi olsa belə, nə bəxtiyardır! Bunu ki, tarix sübut etdi. Bu tarixinsə hələ lövhələrinin çox olacağını guman edirik. Elə müəllif də belə deməkdə haqlıdır ki, tarix sınaqlar meydanıdır. Düz sözə nə deyəsən?!

Əsərdə bütün mübarizələrində qalib gəlmiş böyük insanın heç vaxt solmayacaq amalları, ədəbi məşəl olacaq parlaq obrazı tərənnüm olunur. Müəllif ilhamın, ədalətin işığı ilə bizi götürüb aparır. Amma işığın izi varmı? Müəllif inandırır ki, var. Vəcdlə, bir vətəndaş inamı, bir yazıçı qələmi ilə inandırır buna. İnandırır bu işığın gücünə, şüasına, günəşin varlığı qədər inandırır. Bu kitabı oxuyursan və müəllifə – H.Mirələmova həmin anadaca minnətdarlığını bildirmək istəyirsən: Heydər Əliyev kimi bötöv və böyük bir şəxsiyyətin mənəvi, daxili, ruhi aləminə oxucunu bu qədər yaxınlaşdıra

bilib. Həm də bu kitabdan o da aydın olur ki, hələ nə qədər belə kitablar yazıla bilər və yazılacaq. Əlimizdəki bu kitabda artıq yeni kitabların da istiqamətləri (bu işıq selində o istiqamətlər aydın görünür), qayəsi, ideyası, məqsədinin bünövrəsi qoyulur.

Elə götürək onun bütün fəaliyyəti dövrü görüşdüyü, yaxın münasibətlərdə bulunduğu və ya rəsmi qəbullarda və s. təmaslar, qısa görüşlər, hərçənd, o rəsmi qəbullarda da o xüsusi hüsni-rəğbətin, təvəccühün, bitib-tükənməyən səmimiliyin gücünə, köklü, bitkin münasibətlər doğurduğuna inanırsan –insanlar da, bu münasibətlər özü də böyük bir dünyadır. Ən kiçik vəzifəli adamdan, tutalım, çobandan tutmuş dövlət başçılarına, lap Roma Papasına qədər onu əhatə edən, onunla ünsiyyət quran bu adamların hər biri ilə keçən dəqiqələr, saatlar, günlər hər biri ayrıca bir hekayətdir.

Dünənki həqiqət, bu gününsə şəkilləri bunu sübut edir. Bu şəkillərdə üzlərdən, çöhrələrdən aşıb-daşan səmimiyyət, nur və sevincin haçansa çəkilib gedəcəyinə inana bilmirsən. Müəllif özü də səmimi bir tərzdə göstərir ki, dünyada nadir şəxsiyyətlər, böyük insanlar haqqında iri əsərlər yazılması təbidir. Heydər Əliyev haqqında da saysız-hesabsız, bir çox yöndən maraqlı və ciddi əsərlər yaranacaqdır. O saysız bədii əsərlərin də baş qəhrəmanı kimi təcəssüm ediləcək, yaddaşlarda yaşayacaq. Harada, hansı müqəddəs yazıda oxumuşdum, yadımdan çıxıb indi. İnsanın üç xasiyyəti onu xoşbəxt edir. *Ruh yüksəkliyi, nitq gözəlliyi və səbr*. Öz tərəfimdənsə deyirəm, bu keyfiyyətlərin ayrıca hər birinə malik olmaq və onu ömrün uzunu daşıyıb saxlamaq nə qədər çətindirsə, üçünə bir yerdə sahib olmaq və onu daim özündə hifz etmək nə qədər çətindir? Həqiqətən, o adam xoşbəxtdir. Çünki bu keyfiyyətlər onu daim sevdirəcəkdir. Sevilən adamsa xoşbəxtdir! Bu xalq onu unutmayacaq.

Hələlik işığın izi ilə gedirik. Necə əmin, necə dinclik, necə rahatlıq və güvənc vəd edir bu işıq. Məllifin müdrikliyi,

həyati, qiymətli belə hadisələrə sağlam münasibəti, yanaşma üsulları oxucunu dərhal ayıq salır, elə dərhal da ələ alır. Yazıçının keçiridyi hisslər, bizə aşılamaq istədiyi duyğular eyni gücə malikdir bu an. Özü həmin günlərdə – mərhum prezidentimizin yoxluğunun ilk günlərində axtardığı təskinliyi, gözlədiyi təsəllini əslində, oxucular bu saat, bu an onun qələminin gücünə ondan ala bilərlər.

Bu işıq hər yerdə onu izləyib. Qəlblərimizə işıq tellərini süzə-süzə, sevgi hərarətləri axıda-axıda. Bu işığın kitaba daxil edilmiş Heydər Əliyevin həyat yolunu əks etdirən şəkillərin də üzündə əks olunduğunun şahidi oluruq. Bu şəkillərin hamısı, amma xüsusən biri adamı sehrləyir. Düşüncələrə salır. Bu şəkil həm də kitabın cildində nəqş olunmuşdur. Bu prezidentin qucağında körpə tutmuş şəklidir.

Mərhum prezident burada ayırıb qucağına aldığı uşaqla birlikdə nə qədər həlim, qayğılı, mərhəmətlidir. Uşaqsa böyük qədər düşüncəli, qəmli barmağını dodaqlarının üstünə qoyduğu halda yaşına yaraşmayan ciddi bir görkəmdədir. Ətrafda şən, rəngarəng bayram paltarı geyinmiş adamlar (əslində, "şən" olsun, qayğılı olsun vətəndaşlarımızın içindəki kədərin gözəl, müqəddəs Vətənin son daşına qədər azad olmayınca, o dərin kök salmış kədərin heç yana getmədiyini yaxşı bilirsən). Amma Heydər Əliyev bu qədər insanla təzad təşkil etmiş bu uşaqla təkbətəkdir, onun könlünü almaq istəyir. Yazıçı məhz əsər boyu beləcə, olduğu kimi onu təqdim etməyə – sınıq könülləri sağaltmağa, bu yaralara məlhəm olmağa, göz yaşlarını silməyə, durultmağa qadir olan el başçısını tərənnüm etməyə müvəffəq olur.

Yazıçı Hüseynbala Mirələmovun tarixə doğma münasibəti, aqil düşüncə tərzi onun yaradıcılığında təsadüfi hal deyil. Həmin yaradıcılığında, iş üsulunda ana xətti təşkil edir bu münasibət. Məhz bu münasibət onu bu mövzuda qələm çalmağa, çalışmağa, işləməyə sövq edir. Şanlı ömürlərin şanlı səhifələrini yazır. Bu kitabın ardınca Şah ismayıl Xətainin

həyat və mübarizəsinə həsr olunmuş yazmağa başladığı kitabı bu fikri təsdiq edir.

Heydər Əliyevin bütün həyatı–həyatının bütün anları, zərrələri xalqımız üçün təcrübə məktəbidir deyən müəllif Heydər Əliyevin Azərbaycanın dövlət quruculuğu yolunda yoxdan var bir hökumət yaratması, ordu quruculuğu, əsrin müqaviləsi sayılan "Neft Kontraktı"nın bağlanması, ölkənin beynəlxalq aləmdə tanınması yolunda atdığı mütərəqqi addımlar və indi özüm bir türkoloq-tədiqqatçı kimi deyə bilərəm Beynəlxalq Türksoy Təşkilatının qurulması və Bakının mərkəz kimi seçilməsi, idarəçilik işinin Azərbaycana həvalə olunması, onun nüfuzu və ağıllı, müdrik xətti sayəsində baş vermişdir.

Görünür, həyatda bir-birindən xəbərsiz, əlaqəsiz heç nə yoxdur. H.Mirələmovun nəşrə başladığı bu bir neçə ildə ictimaiyyət arasında böyük nüfuz qazanan "Kredo" qəzetində Şah İsmayıl Xətaiyə və onun həyatına, əslində mübarizəsinə həsr olunmuş "Babagil əfsanəsi" əsəri hissə-hissə çap olunduqda artıq bu romanı yazmaqla yazıçının tarixi taleyimizə böyük maraqları və sayqıları olduğu məlum olurdu. Dövlətçilik tariximizin bədii salnaməsinə çevriləcək bu əsərdə hadisələrin coğrafiyasının genişliyi heyrət doğurur və müstəqilliyimizin təkrar əldə olunduğu bu bəlli zaman içərisində azad ölkə olma sevincini artırır.

Bu tarixi əsərin kompozisiyası, hadisələrin xronoloji ardıcıllıqla təsviri, dövrün epik mənzərəsi və nəhayət qaynaqlarda öz əksini tapmış mühüm faktlardan istifadə və s. əməli işlər yazıçının tarixi roman janrının dəyərli imkanlarından yaxşıca bəhrələnə bilməsindən xəbər verir. Romanda zəmanənin mühüm, başlıca fəlsəfi-əxlaqi şərtlərinə də lazımınca yer verilmişdir. Burada tarixi kolorit öz rəngində, həcmində, etkilərində olmaqla aydın duyulmaqdadır.

Yazıçının Türk dünyasına və yurdumuzun böyük simalarina həsr etdiyi – Çingiz Aytmatova "Ruhunu

gözlərində gördüyüm sənətkar", İlyas Əfəndiyev sənəti haqqında yazdığı "Şəxsiyyətin özü və sözü", xalq çairi Rəsul Rzanın "Rəsul Rza haqqında yeddi nəğmə", "Maqsud İbrahimova açıq məktub", "60 yaş nədir ki..." əsərləri doğma tariximiz və mədəniyyətimizdə uğurlu rol oynamış şəxsiyyətlərə yazıçının inamını və sevgisini əks edir.

Mövzular üzrə bu qəribə ardıcıllığa baxırsan və düşünürsən, həqiqətən səbəbsiz və əlaqəsiz heç nə yoxdur bu dünyada.

Xülasə, zirvə qartallarındır.

Zirvə duruşunu, ucalığda, yüksəkliklərdə qartal süzməsini, ənginliklərin, göyün yeddinci qatına yüksələn insanın böyüklüyünü duymaq, qiymətləndirməyi bacarmaq özü də fəzalara layiq qəlb, qələm və şəxsiyyətədən ali fikir tərzi istəyir.

Müəllif özü bu ucalıqdan oxucunu da oraya qalxmağa kömək edir, onun fikirlərinə, düşüncələrinə, hörmətinə ortaq edə-edə...

# Sözə gedən yol.
# Dil-üslub təcrübəsi

Hüseynbala Mirələmovun siyasi publisistikası kimi bədii publisistikası da ədəbiyyat və söz sənəti üçün dəyər kəsb edir.

Müasir ədəbi-bədii prosesə bir yazıçı olmaqla yanaşı publisist kimi də daxil olan professor Hüseynbala Mirələmov bədii yaradıcılıq sirlərinin axtarılıb araşdırılmasında da qələmini sınamışdır. Ədəbiyyatımızın fəal nümayəndəsi olan Mirələmov ədəbi-bədii publisistikanın da fəal, aktiv üzvü olmağı başarıb. "Çağdaş ədəbi prosesin yaradıcılıq ahəngi ilə nəfəs alan" (Ş. Nizaməddin) yazıçımız publisist adını tam ləyaqətlə yazıçı, dramaturq adları ilə bərabər daşımaqdadır.

Bu mənada onun bir publisist olaraq beynəlxalq "Rəsul Rza" mükafatına layiq görülməsi təsadüfi görünməməlidir. Yazıçının Rəsul Rza yaradıcılığı ilə bağlı bədii publisistikanın gözəl nümunələri sayılan məqalələri bu günün ən yaxşı ədəbi-tənqidi məqalələri sırasında dayanır.

Ədib bu məqalələrdə şairin şeiriyyət sirlərini, şəxsiyyətinin özəlliyini, onun sənəti və yaradıcılığı ilə daxili dünyasının vəhdətini araşdırır. Yazıçı sevgi bəslədiyi Rəsul Rza sənətinə həsr etdiyi özünün "7 nəğmə"sində topladığı bədii-publisistik məqalələrinin adlarını da poetik ruhda axtarmış, poetik ruhda da tapmışdır. "İdeala sədaqətlə", "Talelər poeziyası", "Mən ürəyəm – döyünməsəm, ölərəm", "Ənənəyə bağlı və ənənə yaradan şair", "Dünya insan evidir", "Rəsul Rza poeziyasında ağlı-qaralı dünya", "Rəsul Rza həqiqətləri" məqalələrini haqlı olaraq "7 nəğmə" adlandırır.

Doğrudan da, H.Mirələmovun ədəbi-bədii publisistikasında poeziya elementləri, poetik ruhun nəfəsi bola-boldur.

"Talelər poziyası"nda yazıçının Rəsul Rzanın lirik-fəlsəfi dünyasına hüsn-rəğbət görünür:

"Yadıma gəlir ki, Rəsul Rzanın şeirlərinə hələ uşaq vaxtlarımdan vurulmuşdum. Özü də bu sevgimdə bir pərəstiş vardı. Elə bilirdim ki, bu qüdrətli şair əziz müəlllimim, yol göstərənimdir. Gənclik illərimdə ona daha çox bağlandım – çətin anlarımda qolumdan tutdu, həyatın ən ağır sınaqlarından keçməyimə kömək etdi. Yaşa dolduqca, bu böyük sənətkarın poeziyasının hikmətini anladım, oxuduğum hər şeirdə minbir məna kəşf etdim.

*İki böyük dünya var,*
*İçi günəşlərlə, planetlərlə dolu.*
*Bir dünya var, kainatın bir hissəsi,*
*irili-xırdalı məmləkətlərlə dolu.*
*Bir dünya var,*
*Mənim dünyam, sənin dünyan:*
*ümidli, sevincli, kədərli,*
*arzularla dolu,*
*sınaqlardan keçir yolu...*

Ağlı-qaralı Rəsul Rza dünyasını əks etdirən bu şeiri oxuyarkən yazıçı özünəməxsus düşüncələrə qapılır: "Rəsul Rzanın təsvir etdiyi o böyük dünya əngin, nəhayətsiz səması, saysız-hesabsız ulduzları, irili-xırdalı məmləkətləri, ümidli-ümidsiz millətləri, sülh göyərçinləri, eyni zamanda bədheybət atom bombaları olan bir dünyadır. Şair oxucularını dünyanın dünənindən, bu günündən və sabahından xəbardar edir. Budur, Əlcəzair meydanında günün günorta çağı arxası üstə döşəməyə yıxılan bir ərəb... O, yadellilər tərəfindən öldürülüb ("Əlcəzair meydanında"), Xerosimada körpə, məsum bir qızcığaz... O, ölümsaçan atom bombasının təsirindən sonra gözlərini itirib ("Gözlərin matəmi"), başı bəlalar çəkmiş Azərbaycan adlı məmləkətdə Müşfiq və Müşfiq taleli onlarca şair amansız

irticanın qurbanına çevrilib ("Qızılgül olmayaydı"), 22 il ərəb işğalçılarına qarşı mərdliklə mübarizə aparan Babək son anda – edamqabağı məğrur-məğrur dayanıb ("Babək"), "Mənim arzum budur ki, qələm süngü ilə dursun yanaşı",- deyən Mayakovskinin müəmmalı intiharı hamını heyrətə salıb ("Mayakovski"), Rəsul Rzanın şeirlərində eyni zamanda Sezanın mənzərələri canlanır, Deqanın "Rəqqasələr"i ruhumuzu, Van Qoqun "Günəbaxan"ı gözlərimizi oxşayır. Rəsul Rzanın təsvir etdiyi mənəvi aləm çox zəngindir, bu artıq bizim duyğularımızın aləmidir..."

Hüseynbala Mirələmov Rəsul Rza yaradıcılığına dərindən bələd olan tənqidçi, ədəbiyyatşünas kimi danışır. Diqqəti Rəsul Rzanın şeir dilinin bütün gözəlliyinə yönəltməklə bu böyük poeziyanın həm üst, həm də alt qatındakı fikirlərlə bağlı maraqlı şərhlər verir. Adi oxucunun gözlə görə bilmədiyi mənzərələri üzə çıxarır. Hüseynbala müəllimə bu orijinal yazılarına – Rəsul Rza yaradıcılığına sevgi dolu münasibətinə görə şairin adı ilə bağlı ədəbi mükafat verildi. Doğrudan da, müəllifin Rəsul Rza haqqındakı məqalələri tutarlı, layiqli bir monoqrafiya səviyyəsindədir. Cəmisi 7 məqalə, özünün də dediyi kimi, 7 nəğmədən ibarət olan bu yazılar böyük şairin bütün yaradıcılığını qiymətləndirib yada salmağa qadirdir.

Rəsul Rza və Azərbaycan həqiqətləri Hüseynbala Mirələmovun məqalələrində ən müxtəlif tərəflərindən önə çəkilir.

"Mən ürəyəm, döyünməsəm ölərəm" – bu Rəsul Rzanın məşhur misralarından biridir. H.Mirələmovun da elə bu sətirlə başlayan məqaləsi var. Mən inanıram ki, o məqalənin özü də onun müraciət etdiyi şairin misraları qədər əbədi və ədəbi yaşam tərzi keçəcəkdir. Ümumiyyətlə, Azərbaycan-türk poeziyasında şairin böyük ədəbi irsi yenidən gənc nəslin yaddaşına qaytarılır.

Ölməz sətirləri, misraları yenidən oxuyuruq yazıçı ilə birlikdə; bu zaman yazıçı Hüseynbala müəllimin publisistik düşüncələrinin işığında:

*Mən torpağam, məni atəş yandırmaz;*
*Tərkibimdə kömürüm,*
*külüm var.*
*Mən baharam, çəmən-çəmən;*
*Çiçəyim var, gülüm var.*
*Mən küləyəm, əsməsəm,*
*Kim bilər ki, mən varam.*
*Mən buludam, səhraları susuz görüb,*
*Ağlaram.*
*Mən ürəyəm, döyünməsəm ölərəm.*

İlk baxışdan adama elə gəlir ki, bu sadəcə sözlərin ard-arda düzülüşüdür. Burda heç bir poetika yoxdur. Bəlkə də çoxları belə düşünə bilər. Ancaq ədəbi tənqidin müdaxiləsindən sonra mənzərə çılpaqlığı ilə açılır. Bir var sadəcə anlayasan ki, payız yaşıllığın saralması-solması, yaşıllığın müvəqqəti ölümü, təbiətin bir fəsildən digər fəsilə keçidi üçün kliniki ayrılıq məqamıdır, bir də var ki, payızın rəngini, ruhunu, yaşıllığın həyatla vidalaşmasını gözlərinlə görəsən. Şair bu "vidalaşma mərasimi"ni düşünən varlıq səviyyəsinə, canlı obrazlar biçiminə qaldıra bilir.

Oxucu sanki şairin yaşantılarında, bədii təsvir vasitələrində, ifadələrinin özəlliyində, hadisələrə özgür münasibətində da qəlbinin həssas tellərinin səsini eşidir. Və insan təbiətin harmoniyasının, təbiətin sükutunun səsini dinləməyə daxilən hazır olur, təbiətə enib çox yaxınlaşır. Sanki özünün də sükut anını yaşaya bilir.

Rəsul Rza bizdən fərqli olaraq sükutu ətalətdən ayırır, fərqləndirir, hətta bəzən tamam əksinə, sükutun içərisindəki yaşam tərzini daha qaynar həyat tərzi kimi təqdim edə bilir. Doğrudan da, meşənin dərinliklərində yatmış sükut bəzən insanı vahimələndirir. Əgər vahimələndirirsə, orda hökmən çağlayan bir həyat da var.

Rəsul Rza qüdrətli şairdir. O, sükutun içərisində də öz təbiətincə bir çılğınlıq görür. Hüseynbala Mirələmov bu detalları üzə çıxarır. Əlbəttə, heç şübhə yox ki, yazıçı bədii dil vasitəsilə onları şərh etmək imkanlarına malikdir. Və bizə bir daha Rəsul Rza poeziyasını, sənətini, onun varlığındakı şair şəxsiyyətini sevdirə bilir.

Deyirlər ki, bütün nasirlər uğursuz şairlərdir. Özünü poeziyada tapmayan nasirlər düşüncələrini nəsr üstə kökləyirlər. Bütün nasirlərin canında, qanında şairlik, sözü poeziya dili ilə demək bacarığı olur. Məsələn, Əlibala Hacızadə tanınmış nasirdir, həm də istedadlı yazıçıdır. Oxucuları bilir ki, onun həm də duyğulu şeirləri vardır.

Romanlarında təsvir etdiyi epizodları tamamlamaq üçün yeri gəldikcə şeirlərindən istifadə edir. Hətta bəzən naşı oxucu elə sanır ki, Əlibala Hacızadə başqa müəllifin şeirlərini romanlarına gətirmiş, onardan şairanə nümunələr kimi istifadə etmişdir. Az-çox mütaliəsi, dərketmə fəhmi, qabiliyyəti, istedadı olan oxucular isə dərhal ruhu tuturlar. Tanıyıb bilirlər ki, yazıçının əsərlərindəki psixologizm, onun mənəvi aləmindən çağlayıb gələn ekspressiyalar, emosiyalar bu şeirlərə də hakimdir. Demək şeir, şeiriyyət haqqında yazılan yazılar özü canlılıq, xəlqilik, orazlılıq nümunəsidir artıq.

Təkrarən deməli olduq: Deyirlər, bütün nasirlər uğursuz şairlərdir. Həqiqətənmi? “H.Mirələmovun bədii dilində təiət təsvirləri özünün dolğunluğu, ecazkarlığı və təbiətin ilahi gözəlliyi qarşısında mistik bir heyranlıq duyğuları ifadə etməsilə seçilir, yadda qalır”(Nizami C.) Buyurun, “uğursuz şair”imiz yazıçımızın şeirdən seçilməyən nəsr dilinə gəlin baxaq:

*“Ayağının altında qalıb əzilmiş lalələri dikəltdi. Hələ açılmamış bozumtul rəngə çalan qönçələrin içində bükülüb birbirinə sarılmış qatbaqat ləçəklərin gülabı əlini islatdı. Gözünün önünə tutub baxanda ovcunun içindəki ağappaq süd şirəsini gördü. Süleyman əlli dörd illik lalələrin boylu olduğunu, işığa gətirəcəyi qan rəngli qönçələri südlə böyüdüb bəslədiyini*

*yalnız indi, səhərin bu bakirə çağında anladı. Baaabasının sözünü təzədən yada salıb üşəndi. Görəsən tapdayıb əzdiyim qönçələr kimin qanını içib, cücərib?"("*Yanan qar" romanı)

Mirələmovun bədii dil materiallarında belə təsirli ovqat yaradan məqamlar çox-çoxdur, gəlin onun bir də təbii poetik təhkisəni dinləyək: *Bu il yaz tez gəlmişdi. Torpağın sinəsi qızmış, yaz otu köpəsimişdi. Yaz günəşinin şüaları altında yaşıllıq nazlanırdı. Günəşlə topraq arasında məhəbbətin, sevginin bəhrəsi idi bu yaşıllıq. Bu da təbiətin bir möcüzəsidir. Burada qan qırmızı lalələr də var, çəhrayı rəngə çalan çilikburnu çiçəkləri də. Hələ gömgöy ortasında qırmızı xalı olan zambağa bənzər çiçək...*

Yaxud, sözlərlə çəkilmiş mükəmməl mənzərəyə fikir verək:

Kotan Qayanın qoynuna, qoltuğuna sığınıb uyuyan duman sanki bir himə bəndmiş; günün günorta çağı dağların boynuna sarıldı. Adətən yazın sonu, payızın isə ilk aylarında dağlardan əssksik olmayan, hər gəlişi ilə ən çox şehdərən otlarını sevindirən təbiətin ağ örpəyi bu dəfə nə bir çiçəyin, nə də bir otun gözünü nəmləndirdi. Allahın möcüzələr göstərdiyinə inanan Bəy Kamran yayın istisində qəflətən peyda olan dumanın bir sehr, bir sirr, bir lütf olduğunu anladı. Deməli böyük yaradan onu böyük bir bəladan hifz eləmək istəyirdi.

Duman sıldırımın sinəsindən keçən cığırın vahiməsini yığmışdı bəyaz örpəyinin arasına. Artıq sonsuz uçurumlar, yuxarıdan salxım-salxım sallanan qayalar görünmürdü. Nabələd at çığırda xoflanıb eləmədən sərrast gedirdi. ("Yanan qar" romanı)

Bütün bu canlılıq, liriklik, şeiriyyət əks edən keyfiyyətlər onu deməyə imkan verir ki, deyəsən: ola bilməz Hüseynbala Mirələmovun şeirləri olmasın. Çünki onun nəsr yaradıcılığında kifayət qədər gözəçarpan poetik ünsürlər, poeziya elementləri bizi inandırır ki, onun oxumadığımız, bilmədiyimiz şeirləri var.

# "Gəlinlik paltarı" təmizlik, paklıq mücəssəməsidir

Oxucu Mirələmovu müxtəlif, çox çeşidli hekayələrin, mənzum parçaların – esselərin, dramların, məqalələrin, oçerklərin, romanların müəllifi olaraq tanıyır. Uğuru və zəhməti bol olan yaradıcılıq yolları ilə irəliləyərkən get-gedə qiymətli romanlar müəllifi kimi də adı məşhurlaşır.

H.Mirələmovu xarakterlər yazıçısı adlandırmaq olar. Əsərlərində daim insanın mənəvi aləmi araşdırılır. O, böyük məharətlə obrazları sınaqdan çıxarır. Və bu iş ona asanlıqla başa gəlmir. Obrazların iç dünyasındakı ziddiyyətləri üzə çıxarmaq üçün ən müxtəlif səhnələr, hadisələr təxəyyüldə canlanan bədii manevrlar axtarır, tapır.

Və nəhayət ki, yaratmaq istədiyi obrazı cismən, ruhən mükəmməlləşdirmək uğrunda yazmaqdan, yaratmaqdan yorulmur. Obrazları, onlara verdiyi adları rəmzləşdirməyi bacaran bir sənətkar kimi indiyədək ədəbiyyatımızda işlənməmiş adlar tapıb gətirir. Bəzən bu adlar özünün qədimliyi, antik dünyaya, antik təfəkkürə, mədəniyyətə məxsusluğu ilə seçilir. Bəzən də müasir həyatdan adları və obrazları sintezləşdirə bilir. Ümumiyyətlə, onun əsərlərindəki obraz zənginliyi həm də yazıçının iç dünyasının zənginliyinin bir çaları kimidir.

"Gəlinlik paltarı" romanı belə obrazlarla diqqət çəkir. Əsərdəki adları rəmzləşdirilmiş obrazlar hadisələrin bütün gedişatında, həm də əsərin finalında öz talelərini, daha doğrusu adlarına uyğun gələn taleni yaşayırlar. Yazıçı demək istəyir ki, insan talelərində də adların məxsusi rolu var. Təbii ki, xarakter adı uzunömürlü edə bilir. Belə ki, şəxsiyyət ada hörmət gətirir və onu bütün tarixi dövrlər, zamanlar üçün yaşarlıq atına min-

dirir. Bu baxımdan yazıçının obrazları özünün psixologiyasına, ictimai-sosial mühitdəki mövqeyinə və hansı əqidəni daşıdığlarına görə seçilirlər. “Gəlinlik paltarı” romanında əsasən gəncliyin psixologiyası maraq oyadır. Fənayə obrazı özünün çılğınlığı, çevik düşüncə tərzi, son dərəcə azad bir mühitdə həm ictimai, həm də daxilən sərbəst bir həyat içərisində özünü rahat hiss etməsi, eyni zamanda bu hissi, davranışı özünün əməli hərəkətlərilə başqalarına da təlqin etməsi müasir Azərbaycan oxucusunda qarşısıalınmaz bir sevgi hissi oyadır. Yadımdadır ki, o əsər qəzetdə hissə-hissə dərc olunduqca ictimai fikri daha çox ədəbi-tənqidi fikri hərəkətə gətirmişdi.

Roman hər dəfə mətbuat səhifələrində dərc olunduqca dərhal da ən müxtəlif təbəqənin nümayəndələri tərəfindən bildirilən münasibətlə qarşılaşırdı. Söhbətin bu yerində romanın qısa məzmununu anlatmaq üçün professor Nizaməddin Şəmsizadənin fikirlərinə yer vermək istəyirəm: “Gəlinlik paltarı” azad insan ruhunun qüdrəti və faciəsi haqqında romandır. Romanda müəllif qayəsini ifadə edən baş qəhrəman jurnalistika fakulətsinin tələbəsi 18-19 yaşlı gənc qız – Fənayədir.

Roman iki namuslu gəncin – Fənayənin tələbə yoldaşları Sərraf və Sadiqənin etnoqrafik dəqiqliklə verilmiş toy məclisinin təsviri ilə başlanır. Sadiqənin ülviyyət, sədaqət və səadət rəmzi olan bəyaz gəlinlik paltarı Fənayəni yoldaşının başına gəlmiş bəlalara, amansız olaylara qaytarır. Roman ənənəvi yaddaşa qayıdış, xatirədə yaşayan tale manerasında yazılıb. Əsərin qəhrəmanı Fənayənin taleyi və faciəsi dörd əsas xətt üzrə açılır: Fənayə və ailəsi – atası Qadir və anası Zinayə; Fənayə və Haris; Fənayə və Fədai(qəzet satan Qarabağ əlili); Fənayə və rəssam Yusifcan...

Gəlinlik paltarının qəhrəmanı Fənayə təkcə öz gözəlliyinin və varlığına sığmayan azad ruhun, sərbəstliyin və coşğun ehtirasların sadəcə qurbanı deyil. Gəlinlik paltarını təkcə şıltaq bir gözəlin macəralarını təsvir edən əyləncəli “bulvar romanı” kimi oxumaq olmaz. Həm roman, həm də onun qəhrəmanı asan

və birmənalı anlaşılmayan mürəkkəb poetik-psixoloji cizgilərə malikdir.

Fənayə bataqlıqda, çürük və antimlli kök üstə bitən bir çiçəkdir. Romanda ədib diqqəti əvvəlcə bu kökə yönəldir. Məlum olur ki, Fənayənin atsı Qadir də, ana babası Yəmən də mənşəcə türk, nənəsi Zinaida isə ermənidir...”

“Gəlinlik paltarı” həyatın üzü və astarı qədər maraqlı, mənalı olan düşüncələr oyatdı gənclərdə. Həyatın rəngləri, gözlənilməzlikləri, qanunauyğun olmayan hadisə və olayları haqqında filosofların, siyasətçilərin, yazıçıların çoxlu araşdırmaları, mülahizələri var. Həyatın sənətdə əksi ilə bağlı, başqa sözlə, həyatı sənətdə necə əks etdirmək haqqında fikirlər bəzən ziddiyyətli olur. Çox vaxt bir-birini inkar edir. Mülahizə yürüdənlərin hər biri öz fikirlərini müəyyən dəlillərlə sübut etməyə çalışırlar. Ancaq yəqin ki, bu məsələ heç vaxt özünün bədii həllini tapmayacaq. Çünki həyatın elə gözlənilməzlikləri və elə mənzərələri var ki, çox vaxt onu sənətə gətirməyə, onu öz rəngində təqdim etməyə sənətkarın gücü çatmır. Bu geniş bir mövzunun söhbətidir.

Ancaq mən mətləb üzərinə gələmək istəyirəm. Məqsədim “Gəlinlik paltarı” əsərinin düşüncələrimdə iz buraxmış bəzi məziyyətləri haqqında söz açmaqdır. Həyatı bu əsərdə necə görürük? Onun əsərdə təqdim olunan “Gəlinlik paltarı” romanında ürək göynədən, insanı sarsıdan mənzərələri doğrudanmı realdır? Ümumiyyətlə, biz həyatın hər üzünü, daha dəqiq desək, üzünü və astarını gerçəyə yaxın bir məzmunda görə bilirik.

Ümumiyyətlə, həyatın rəngləri, qarışıq məqamları hardasa elə insan mənzərələri deməkdir. Bizi düşündürən həyat mənzərələri insanın görünən və görünməyən tərəfləridir.

“Gəlinlik paltarı” əsərində müxtəlif xarakterli, təbiətində müsbət və mənfi meylləri, gücü və iradəni, eyni zamanda antiinsani keyfiyyətləri birləşdirən insan obrazları görünür. Bu obrazlardan biri Harisdir. Oxucu Harisin mənəvi həyatına daxil olduqca, yəni romanı əvvəldən axıra kimi oxuduqca Harisin

həris olduğunu başa düşür. Yazıçı zahirən xarakterin daxili əlamətlərini obrazın mənəvi mahiyyətinə, onun daşıdığı ada yükləyir.

Haris bacarıqlı, qoçaq, həyatın bütün düyünlərini açmağa qadir olan iradəli bir kişi obrazıdır. O, şəxsiyyətini hər zaman uca tutur. Başqalarının zəif tərəflərindən istifadə etməyi bacarır. Lazım gələrsə ona mane olanları həşarat kimi əzib keçə bilir. Yeri gəlsə o, kimisə təhqir etməkdən belə çəkinməz. Ancaq kimsənin onu təhqir etməsinə qətiyyən dözməz. Bu keyfiyyətilə o, Tolstoyun məşhur qəhrəmanı Vronskini yada salır. Harislərin öz fəlsəfəsi var – həyatı öz istəklərinə tabe etmək fəlsəfəsi. Məqsədinə yetmək üçün Haris heç nədən çəkinmir. Hətta bütün gücünü və enerjisini sərf edib qazandığı pulları bu yolda xərcləyə bilir. Bəzən həyatı ilə risk edə bilir. Amma yolundan dönmür. Bu iradə və güc onu məqsədinə yetirir. Sanki Fənayə onun qadın variantıdır.

Bir çox cəhətlərinə görə Fənayə elə Harisə bənzəyir. Əsas fərq ondan ibarətdir ki, Haris yetgin yaşdadır. Həyatın hər üzünü görmüş təcrübəli birisidir. Yeri gəlsə, düşdüyü çətinliklərdən silkinib çıxmağı bacarır. Hər hansı psixoloji gərginlikdən xilas yolunu əldə edir. Əsərdən göründüyü kimi Fənayə bu gücdə deyil. Baxmayaraq ki, o elə bir sərbəst mühitdə böyüyüb ki, özünü kifayət qədər yetgin və həyata hazır hesab edir. Fənayə intellektual duyğulu, həyatı romantik xəyallarla təsəvvür edən bir gəncdir. O düşünür ki, həyatın bütün problemləri sadəcə gücdən asılıdır, gücə tabedir. Və onun zənninə görə bütün problemləri güc həll edə bilir.

Əsərdə çox maraqlı bir səhnə var. Fənayənin küçədə cıdır afişasını gördüyü səhnə. Burada Fənayə Cıdırda nümayiş etdiriləcək atı görür. Bu at ötəri bir sujet deyil. Müəllif tərəfindən Fənayənin – çılğın ehtiraslı Fənayənin xarakterini açmaq üçün həyata gətirilmiş çox həyati bir epizoddur. Cıdır afişasının qarşısındakı Fənayə düşünür: onun tale yoluna çıxmış adamları burada müqayisə edir. Bu gün gücssüz və zəif görünən Fədai

güclü və imkanlı olan Harisin qarşısında tab gətirə bilərmi? Əslində Fənayənin xəyalında dəhşətli bir duel səhnəsi var. İki bir-birinə zidd təfəkkür, həyat tərzi, müxtəlif xarakterlər döyüşə çıxıb. Kim qalib gələcək... Harismi, Fədaimi? Yaxud Fənayə onlardan hansına üstünlük verəcək. Burada həm də Fənayənin taleyi həll olunur. Fənayə hiss edir ki, Fədai onu sevir. Baxışlarında və hərəkətində səmimidir. Onun hissi və həyəcanları çox təbiidir. Bu hiss və həyəcanlar Fənayəyə maddi imkanlar yox, mənəvi xoşbəxtlik vəd edir. Ancaq Haris ona gələcək həyatında qayğısızlıq bəxş edəcəyinə, hər cür həyati şirinlik bağışlayacağına əmindir.

Fənayə Harisə üstünlük verir. Ancaq müəllif konkret göstərmir ki, o, Harisə, yoxsa Fədaiyə üstünlük verir. Sadəcə Fənayə atın adını tapmaqla həmin cıdır yarışında iştirajk etməyi qərara almaqla mövqeyini bildirmiş, gələcək yolunu seçmiş olur. Fənayənin bütün faciələri burdan başlayır: *"Fənayə Gənclik metrosundan çıxıb şam ağaclarının arası ilə Zooparka getmək istəyirdi. Futbol kassalarının yanından keçəndə gözünə rəngli afişa sataşdı. Köhlən atların şəkli verilmiş afişada maraqlananlar cıdır meydanına dəvət olunurdu. Göy – dəmiri rəngə çalan at şəkildə ayaqlarını səmaya qaldırmış bütün gözəlliyi və əzəmətilə cəlbedici təsvir olunmuşdu. Afişanın aşağısından tarix və saat göstərilmişdi.*

*Cıdır elə bu gün idi. Vaxta isə hələ xeyli qalırdı. Fənayə bayaq Fədaiyə sözgəlişi cavabını yada saldı. Tale onunla oynayırdı, yoxsa bu xoş təsadüf idi? Bəlkə doğrudan da atların yarışına – Cıdıra baxmağa getsin?*

Şahə qalxmış göy – dəmiri at buraxılan kimi dünyanı ayaqlayacaqmış kimi cilov gəmirirdi. At azadlıq istəyirdi; gücünü, qüvvəsini göstərmək üçün... Atın əzəməti, qüruru və eyni zamanda onun cilovunun çəkilməsinə etirazı əslində, aşıbdaşan qəzəbi Fənayənin diqqətini işğal etmişdi. Bu şəkil bəlkə də at yarışlarının təşkilatçıları üçün Cıdırın təbliği, daha çox müştəri cəlb etmək məqsədilə çəkilmişdi.

Fənayə bunun fərqinə bilərəkdən varmırdı. Çünki təsəvvüründə canlandırıdğı at obrazı onun ideallarına uyğun gəlirdi. Qız insanı da belə görmək istəyirdi. Onun zənninə görə insan onun azadlığını, sərbəstliyini əlindən almaq istəyinə qarşı amansız olmalıdır. İnsan deyilən məxluq gücü və qüdrəti ilə öz azadlığını qorumağa qadir deyilsə, onun yaşamaq haqqı olmamalıdır.

Bu an Fənayənin xəyalından Fədaiyə – həmin qəzetsatan oğlana qarşı münasibət keçdi. O, Fədaiyə qarşı amansız olmamışdı ki?! Əlbəttə, Fədai ləyaqətli oğlan idi. Bunu artıq Fənayə başa düşmüş, tam dərk etmişdi. Fədai bu qızın azadlığını əlindən almaq haqqında düşünmürdü də. Bunu da Fənayə bilirdi. Fənayənin bildiyi, dərk etdiyi başqa məsələlər də var idi. Fədai öz məhəbbəti ilə onu cilovlaya bilərdi. Bax, Fənayəni qorxudan da bu idi. Fədai olsa, olsa yaxşı ata, ailə sahibi ola bilərdi. Fənayəyə isə ər yox, özü kimi azad, sərbəst, ehtiraslarının arxasınca gedə bilən, ehtiraslarının qulu yox, bu daxili enerjidən güc alıb, həyatı özündən aşağıda qoya bilən dost, bir-birini tamamlayan duyğular sahibi, tərəfdaş lazım idi.

Güclü tərəfdaş; Fənayə həmin atın adını xəyalən tapdı: “Güclü”...

Bəli, bu xəyallar, həyatda real, əsası olmayan xəyallar Fənayənin bəxt güzgüsünü daşa çırpır. Bu vaxt o Harisi daha yaxından tanıyır, onun iç üzünü görə bilir. Harisin bu qədər mənəviyyatsızlığı qızı sarsıdır, hətta qazanc naminə olsa belə onun iyrənc əməllərə getməsi Fənayədə ona qarşı nifrət oyadırdı. Fənayə hiss edir ki, yaxın gələcəkdə ana olacaq. O, Harisdən heç nə istəmirdi, ona heç bir ehtiyacı da yox idi. Sadəcə istəyirid ki, uşağının atasının Haris olduğunu qürurla, açıq-aydın deyə bilsin.

Haris isə bu hisslərdən çox-çox uzaqdır. O, həyatın yuxarıda qeyd etdiyimiz kimi sürprizlərlə dolu olduğunu sanki unudur. Bəli, həyat özünün amansız üzünü göstərir, çox gözlətmir; Haris cəzasına çatır. Bu çox qanunauyğun bir cəzadır.

Hətta o cəzanın baş tutması, Harisin həlak olması son dərəcə dəqiq detallarla işlənib. Bu zaman Fənayə də cəzasız qalmır. Baş vermiş avtomobil qəzasında ağır yaralanır, əməliyayata məruz qalır. Hələ dünyay gəlməmiş körpəsini itirir. Onun qəlbində cücərən analıq duyğuları əbədi məhv olur. Bütün bunlar xırda təfərrüatlarına qədər təsvir olunur. Oxucu bütün hadisələrin iştirakçısına, şahidinə çevrilir.

Bu zaman bizi sevindirən o olur ki, Fənayənin təbiətindəki saflıq meylləri baş qaldırır. O, nə qədər ağır yıxılmış olsa da, gərgin-psixoloji uçuruma düşsə də, yenidən dirçəlir. Səhvlərini götür-qoy edir. Oxucu güman edir ki, həyatın bu acı dərsi onun üçün böyük məktəb oldu. Fənayə bu məktəbdən keçdisə, bir daha səhv etməz. Ancaq zaman keçdikcə oxucu yanıldığını anlayır, görür ki, Fənayə həmin ağır dərsdən lazımınca nəticə çıxara bilməyib. Yenə həyatını öz axarına buraxmışdır. Bu axar isə yeni faciələr törədir.

Fənayə Yusifcanla – keçmiş tanışı ilə yaxınlaşır. Qəlbindən küləklər əsən rəssamın acı taleyi onu yandırır. Özünün isti nəfəsi ilə onun soyuq hücrəsini qızdırmağa çalışır. Və bu zaman ikinci dəfə böyük zərbə alır. Mənəviyyatca saf, Harislə müqayisə olunmayacaq dərəcədə Fənayənin ideallarına yaxın olan ahıl yaşlı rəssam qəflətən həlak olur. Bəli, bu, həyatla döyüş anı idi. Yaşamaq uğrunda mübarizə anı idi. Bu zaman ömrünü başa çatdıran Yusifcanın ölümü adi ölüm hesab oluna bilməz.

Həmin anda baş verən psixoloji gərginliyi yazıçı rəssam dəqiqliyi ilə işləyib. Fənayənin isterikasını, ruhi sarsıntılarını, psixoloji gərginliyini ustalıqla, fəlsəfi məzmunla oxucuya çatdıra bilmişdi: "Fənayə hövlnak sıçrayıb yuxudan qalxdı. Yusifcanın gözləri açıq qalmışdı; donuq və hərəkətsiz idi. Bir əli ilə sol döşünün üstünü, əzələləri sıxmışdı. Deyəsən, köksündə ürəyini tutub saxlamışdı. Sanki əlini boşaltsa bir quş kimi ürəyi pırıltı ilə uçub gedəcəkdi.

Bu görkəmilə o, haradansa qəfil sinəsinə sancılmış oxu çıxarmaq istəyən döyüşçüyə, orta əsr cəngavərinə bənzəyirdi. Onu bu görkəmdə görəndə Fənayənin gözləri dəhşətədn böyümüş, az qala hədəqəsindən çıxmışdı. Fənayə ilk dəfə özünü tək-tənha, gücsüz və köməksiz gördü. Haray salmaq , qışqırmaq, insanları köməyə çağırmaq istədi. Baş vermiş hadisənin mahiyyəti ona aydın deyildi.

Axı o, insanlara nə etmişdi ki, insanlar onun harayına gəlmək istəmiridlər. Kimsə düz onun gözlərinin qabağında – Yusifcandan bir qədər aralı dayanmışdı. Əlində musiqi aləti var idi. Deyəsən, kaman idi. O, bu kamanda həzin-həzin kədərli ayrılıq havası çalırdı. Fənayə onu çağırmaq, yaxına gəlməsini, kömək etməsini xahiş etmək istədi. Həmin gənc heç nəyə baxmırdı. Sakit-sakit həmin kədərli musiqini ifa etməyində idi. Fənayə yenə çağırmaq, haray salmaq istədi. Kamanın səsi daha dəhşətli sızıltı ilə çıxdı. Bütün ətraf aləm cana gəlib bağırsaydı da, bu səsdən keçə bilməzdi. Kamanın səsi lap sipərə dönmüş, Fənayə ilə Yusifcanı dünyadan təcrid eləmişdi. Bu kim idi, niyə bu qədər soyuq və biganə idi? Amma o, bu qədər soyuq və biganə olsaydı, belə yanıqlı çala bilməzdi axı...
Deyəsən, elə həmin kamanda da o, Fənayənin fəryadlarını ifa edirdi. Axı o kim idi? Fənayə əlini uzadıb onu silkələmək, kimliyini bilmək istədi. Həmin adam çiyninin üstündən ona baxdı. İlahi, bu Fədai idi? Və ən dəhşətlisi isə bu idi ki, Fədai də ağlayırdı. Onu ağladan nə idi? İfa etdiyi musiqinin kədəri, yoxsa Fənayənin acı taleyi?...

Fənayə əlini başına atdı. Beynində qopan uğultudan az qala huşunu itirəcəkdi. Bu vaxt eybəcər bir məxluq emalatxananın divarları boyu caynaqları ilə yapışıb Fənayənin gözləri önündə rəqs etməyə başladı. Fənayə əlini uzadıb Fədaiyə onu göstərmək istədi. İndi Fədai tərpənmirdi. Deyəsən kamanın səsi zəyifləmişdi. Həmin eybəcər məxluq qəhqəhə ilə onun ətrafında dolanırdı. Fənayə onu da tanıdı. Bu, Haris idi. Haris Fənayənin acınacaqlı vəziyyətinə baxıb dəhşətlə, iblishanə qəh-qəhə

çəkdi. Onun özü kimi eybəcər gülüşü divarlarda əks-səda verirdi. İndi zəifləmiş kamanın acı sızıltısını da bu gülüş batırdı.

Fənayə ovuclarının içi ilə saçlarını bərk-bərk yana sığalladı. Sanki huşu bir az özünə gəldi. Yanında yıxılıb qalmış Yusifcana baxdı. Yusifcanın heysiz, hərəkətsiz başını özünə sarı döndərib köksünə sıxdı. Qız öz çılpaq sinəsinə isti mayenin axdığını hiss etdi. Yusifcanın ağzından axan qıpqırmızı qan onun köksündə güllə yeri kimi iz qoymuşdu...”

Fənayə cəmiyyətin üstünə yeriyən dəmir dabanlı kapitalın vahiməsindən, aldadıcı görkəmindən çaş-baş düşən, həyatda düzgün yolu tuta bilməyən gənclərin ümumiləşdirilmiş obrazıdır. Onun taleyi məni çox ağrıdır. Bu faciəni, bu ağrını düşünməkdən məhrum olmamış hər kəs öz üzərində hiss etməlidir. Axı, Fənayələr çoxdur, tək deyil. Həyatın aldadıcı üzünə aldanan, onun dəhşətli. kirli astarını görməyən Fənayələr azdırmı? – Çoxdur... Harislərin caynaqları arasında cabalayan Fənayələrin taleyi bugünkü cəmiyyəti təbii olaraq düşündürməlidir. Yoxsa, cəmiyyət – bizi qoruyan, böyüdən cəmiyyət həm də eyni dərəcədə cinayətkar və canidir belə baxanda.

“Gəlinlik paltarı” yenicə çapdan çıxanda düşüncələrimi isti-isti qələmə almışdım. Yuxarıda yazdığım qeydlərim isə bu günün, həm də mənim bu günümün, bu çağımın bəhrəsidir. Nə etməli? İnsan düşünən varlıqdır. Onun aləmində əlbəttə ki, hər dəqiqənin, hər anın bir hökmü var. İnsan ayrı-ayrı məqamlarda o hökmə, həyatın özünün gətirdiyi o qanunauyğunluğa tabe olur.

İstərdim ki, bir qədər geriyə qayıdım. Əsərin geniş ictimaiyyət tərəfindən mübahisə, müzakirə obyektinə çevrildiyi, ədəbi tənqidin diqqətini cəlb etdiyi zamana. O zaman ki, düşüncələrim məndən nə qədər uzaqda dayansa da, sanki bir o qədər də mənə yaxın, doğma və məhrəmdir. Çünki düşünən varlığımın bir parçası kimi baxıram qələmimin illərdən bəri yazdıqlarına. Odur ki, bu günkü fikirlərimi “Gəlinlik paltarı” barəsində bir neçə il bundan öncəki düşüncələrimin işığına

bələmək istəyirəm. “Sədaqətin, ülviyyətin simvolu” demişdim “Gəlinlik paltarına”...

Əsərin mövzusu kimi qəhrəmanları da müasiri olduğumuz həyatdan alınmışdır. Sanki özümüz də bu hadisələrin axarında həmin qəhrəmanlarla çiyin-çiyinə addımlayır, hər şeyə nəzər salır və hər şeyin şahidi oluruq.

Əsər toy səhnəsi ilə başlayır. Noğullu-şirnili, qurban-sadağalı toyla. Oxucu isə hər şeydən öncə əsərin qəhrəmanı (əgər belə demək caizsə) Fərayənin xarakterindən qabaq onun çöhrəsi ilə – avazımış xəcalətli çöhrəsi və peşiman çöhrəsi ilə rastlaşır. Həyat elə buradan, bu an başlayır. Sanki girişsiz, müqəddiməsiz elə “şabbadan” bir filmə tamaşa etməyə girirsən. Həqiqətən, “Sənə bir toy tutaram ki...” xalq ifadəsi yada düşür. Bu həyat- film isə bəzəksiz, düzəksiz, elə sərt, elə qabadır ki, istər istəməz insanı diksindirib onunla üz-üzə qalamğa məcbur edir.

Hadisələr evlərdən, otaqlardan, məktəblərdən, bağçalardan və yollardan çox “Satir” restoranında cərəyan edir. Oxucular bilməmiş olmazlar, indi Bakıda ən çoxu da restoranlara, hotellərə yad dillərdə adlar vermək dəb düşüb. “Landmark”, “Relax”, “Neolit”, “Lido”, “Oazis”, “Neon”, “Flaminqo”, “Ambasaddor”, “Alp İnn”, “Harri İnn”, “Flagman”, “Empire”, “Abu Arena”... Bu restoranlar Bakıdadır. Onların sahiblərinin düşüncəsi ilə necə də olsa uzaq, yad, amma ekzotik addır. Nə qədər anlaşılmazsa, yaxşıdır. “Satir” də yunan dilində bir neçə məna daşıyır: qədim yunan mifologiyasında Allahların qulbeçələrindən biridir; öz qarunqululuğu, şəhvətpərəstliyi, kefçilliyi ilə tanınır. Şərab və Şənlik Allahı Dionisin əyyaş yoldaşı, qulamı; məcazi mənada kefcil, pozğun adam deməkdir. Əsərdə restoran adıdır. Burada artıq restoran da yemək-içmək yeri olmaqdan çox uzaqlaşıb, əxlaqsızlıq yuvasına çevrilməkdədir. Əsərdə “Satir” restoranını cənnət adlandırırlar. Bu adı (Cənnət) qoyanlardan elə biri Qadirdir( Fənayənin atası). Qadir indi özündən 30 yaş kiçik bir qızla gecəni burada keçirməyə

hazırlaşır. Əlbəttə belə yerə cənnət deyibsə... Burada süfrələrə çeşid-çeşid yeməklər daşınır. Masalar az qala ortasından sınacaq kimi dopdolu, məşuqələr və birgünlük dostlara, həmpiyalələrə açılmış haram süfrələr.

Təbii ki, bu yerin söz-söhbəti də haram və çirkindir. Belə yerdə millətin sözü yox, söhbəti yox, adı yox, şanı yox. Millət üçün qara qəpiyindən keçəni də yox. Ruhu pozulmuş, xəstə Kərim Nalə dedi bir gün: Bunların başı işləmir, bunların bir cibi işləyir, bir də...

Gəlin tarixə dönək. Fikrə, düşüncəyə, haqqlı iddialarımıza, tarixin öz səhifələrindən söykənəcək tapa bildik bəlkə. Azərbaycan İncəsənət Muzeyinə baxıram, hər dəfə "bir kitablıq" təəssuratlar və təəsüflər yaşaya-yaşaya.. Rotşildtlərdən onu neft sənayeçisi Qukasov (Qukasyan) almışdı. Sonra onun adına İkinci Dünya müharibəsinin ilk illərində yazıçı İvan Buninin gündəliyində bir neçə dəfə rast gəlirəm. Nobel mükafatçısı İvan Bunin kimi neçə-neçə şöhrətli rus mühacirləri onun süfrəsi başındadır. Müharibənin ac qoyduğu bu böyük şəxsiyyətlər (Bunin gündəliyində dəqiq şəkildə ayıpəncəsi otundan olan şorbanı güclə tapan yazıçı burada bütün nemətlərlə bərabər bahalı şərab və qara kürüdən bəhs edir) əliaçıq, səxavətli ermənin qonağı olur tez-tez. Bunadamı erməni hiyləsi deyək?! Millətinin adını, şərəfini, xalqının böyüklüyünə, ucalığına xidmət edir. Biz bu qədər siyasətcil ola bilərikmi?

Ruhu pozulmuş şair Kərim Nalə necə yanmışdı... Görünür, həmişə hər yerdə hər kəs belə düşünə bilmir. Yazıçı isə təmizliyə, sədaqətə böyük məna verir: "Harislə Fənayə qol-qola girib böyük salona keçdilər. Burada gəlinlik paltarları asılmışdı: bir-birindən gözəl, ağappaq, qırmızı, mavi, çəhrayı... Sanki bakirəlik timsalı kimi bakirə qızların yolunu gözəyirdilər"

Çətin... "Satir" kimi top qoyub təmizliyi, gözəlliyi viranəyə çevirən əxlaqsızlıq yuvaları nə qədər ki, var, çətin... Lakin yazıçı oxucularını ümidsizliyə düşməyə qoymur, onun bildiyi,

öyündüyü, örnək verdiyi yaxın tarix var. Tarixlərə zinət verən, onu şərəfləndirən bir örnək. Azərbaycan qızının vəfasını yolunu azmış Fənayəyə qəhrəman Fədainin ona hər an özünü xatırladan xəyalı anladır. Çünki məhz Fədai kimiləri ona bu hadisəni – şərəfli hərəkətlərin əfsanələrini çatdıra bilərdi. Belə söhbətləri "Satir"də bilən yox idi, ola da bilməzdi. Fədai: "Erməni işğalçıları Murova sarı irəlilədikdə yol tapa bilməyib naçar qalan qız-gəlinlər ələ keçməsinlər deyə özlərini qayadan atdılar. Yəqin ki, erməni əsirliyində təhqir olunmamaq üçün venasını kəsib intihar edən gənc azərbaycanlı qadın haqqında eşitmisən. Qaçhaqaçda neçə-neçə qız-gəlin Arazın sularında qərq oldu, amma bütün bunların sənin üçün bir qara qəpiklik əhəmiyyəti yoxdur."

Bəli! Amma yazıçı Mirələmovun öyündüyü tarixi faktdır. Bu qızların həyatda örnəkləri vardır. Bunlar olmuşdur, realdır; Fərizə ilə İlhamın dastanı kimi...

Haris təkcə pula, şəhvətə həris deyil, o həm də kəmfürsətdir. Həyatdan yalnız zövq və nəşə gözləyən bir acgöz hərif. O, zamanın ağır hadisələrlə nəfəs aldığını, müharibəni, onun məşəqqətlərini, bu müharibənin qəhrəmanlarını, əlillərini, şəhid oğullarını, eləcə də ürəklərin yaralarını da unutmamalı idi. Haris bir Qarabağlı da ola bilərdi. İnsan inana bilmir ki, müharibə, səngər, minalı çöllərlə bir sırada didərginlər dolduğu şəhərdə belə kef və nəşəni necə sakit sürdürmək olar?!

Harisin də, Fənayənin də atasının artıq əsl məşğuliyyəti məlumdur. Xarici bazarlara "qız ixracı". Bu, qazanclı iş imiş. Belə ki, Zinayəgilin əvvəl onsuz da yaxşı olan maddi vəziyyəti birə milyon artmışdı. Bu nədir? Budurmu yeni azərbaycanlılar? Göz qabağında nələr baş verir? Axı bunları yazan qələm belə xəcalət çəkir bu günahların ağırlığından. Hanı o qələm, daha doğrusu, qələmə hörmət?!

Bir vaxt Mirzə Cəlilin sığınacaq kimi üz tutduğu cənubda özünün bir məqaləsi ilə bütöv bir ümumxananı bağlatdırıb 24 saata dağıdaraq ümumxana əhlini sürgün etdirdi.

Fənayə sonda ömrünü badi fənaya verir. Bilir ki, daha bir an da olsa, onun yaşamağa nə fürsəti, nə imkanı, nə macalı, nə də ... haqqı qalıb. Onun qolundan tutub saxlayanı, bu addımdan çəkindirəni də olmur. Əndişələr içində çırpınan, dərddən qovrulan qəlbinə sərin su səpəni də yoxdur. Heç onun içində ruzigar əsən, o yoxsul qafasına ağıl qoyan bir qohumu, yaxını... müəllimi belə yoxdur. Hər şey qəhətə çəkilib. Bəlkə heç olmayıblar da. Bəlkə Fənayə özü fədakar valideyn, munis dost, vəfalı yar anlayışlarından da xəbərsizdir. Təkcə bəla, fitnə, şər cövlan etdiyi bir ailə, bir həyat var ona tanış. Özü isə hər an günahla üz-üzədir. Bu günah və qəbahət beləcə durub baxmır. Onun qanına işləyir, əllərinin hərəkətinə, gözlərinin qığılcımına çevrilir. Heyhat! Əgər ölməsəydi, yaşamağa qüdrəti və cəsarəti çatsaydı?! Onda bu şər damla-damla da yox, xalvar-xalvar artıb çoxalaraq dünyanı tutardı.

Yazıçı humanistliyi onu öldürür. Çünki dünyanı bu şəkildə görmək ona da, oxucusuna da çətindir. Oxucusu kimi onun özünü də aləmi qapqara zülmətə döndərən bu "allahsız" işləklər bezdirib-bıqdırardı. Onda ki, dünyanı xeyir-bərəkət və fərəh içərisində görmək ədibin ən böyük arzusu ola.

Əlbəttə, əsər müasir əsərdir; müasir həyatdan, müasir dövrdən və insanlardan bəhs etdiyinə görə bu həyat, bu insanlar hər an gözlərimiz qarşısında, solumuzda-sağımızda gördüyümüz, tanış olduğumuz, "adət etdiyimiz" insanlardır.

Xəyanətsə hər tərəfi çulğalayıb. Bihəya ana qızına sevmədiyi kişi ilə ər-arvad kimi yaşadığını belə izah edir: "Onunla (yəni əri ilə –M.T.) bir otaqda, hətta bir yataqda olsam da, ruhən sevdiyim adamın yanında hiss edirəm özümü. Xəyallarım mənə kömək edir". Adam bundan saxta, bundan müdhiş şey fikirləşə bilməz! Burda əsərin simvolik adının boş yerə tapılmadığına inanırsan. Bu xəyanət və satqınlıq içərisində təmizlik və saflığın nə qədər lazım olduğunu bir daha biləsən.

İlk məhəbbət, ilk sevda, ilk əhdi-peyman, ömürlük vəfanın andı... Nə qədər kitablara mövzu olmuş, heç vaxt köhnəl-

məyən mövzu. Heç vaxt təravəti və xatırladıqca nisgili unudulmayan bakir hisslər. Könlünə ilk eşq odu düşən qız... Artıq “qızlar bulağı”nın vədəsi gəlib çatmış... Fənayə də ilk eşqin vurğun anlarını yaşayır: “Bahalı şampunla üz-gözünü, sinəsini yudu. Əli bədəninin ayrı-ayrı əzalarına toxunduqca xoşhallandı, bu günəcən duymadığı hissləri keçirirdi. Sinəsini qabağa verdi...” Aman Allah, axı hələ sevgi deyil bu. Bu ehtirasdır, heyvani ehtiras, bəlkə də şəhvət. Amma o da var ki, Fənayə kimi qızlar ayrı cür sevə bilməz. Onun kimilərinin qadınlıq çağı məhz belə başlanmalıdır: acgözlüklə, utanmaz və həm də doymaz bir nəfslə. Çox keçmir hər şey dəyişir. Budur, artıq qayalar üstündə Fənayə son qərarını verir: Harisi öldürmək! Haris isə təsadüfən sağ qalır. Fənayə niyyətinin boşa çıxmasına görə əsəbləşir. Vəssalam.

Bu imiş bir neçə ay sürən “məhəbbət” səhnələrinin sonu?! Bu “sevgi” ki, oxucuya çimçəşmədən başqa heç nə vermədi. Bu səhnələri canını dişinə tutaraq oturan və seyr etməli olan tamaşaçılar da biz idik. Belə əttökən münasibətlər ana ilə balanın arasında da vardır. Ana ilə balanın dialoquna nəzər salaq: Fənayənin uşağa qaldığını görən ana qızının sualına:- ay bəxtəvər, nə olacaq, neçə aylıqdır? Eşitməmisən, deyərlər gizləndə buğaya gələn, aşkara... – Necə? Fənayənin sərt səsi onun səsini kəsmişdi. – Gizlində niyə?

Bu, ana-bala danışığıdırmı? Ailədirmi bunlar?

Öz anası ilə müqayisədə münasibət və xarakterində qat-qat müsbət cəhətlərə malik olan Fənayə öz azadlığı ilə öyünür, daha doğrusu, sanki öz sərbəst hərəkətlərini görk üçün edir, özünü kiməsə göstərmək istəyir. Əslində bu azadlıq yox, özbaşınalıqdır. Hətta sərbəstlik də deyil. Ədəb-ərkan bilməyən, ölçü-biçi tanımayan özbaşınalıq. Fənayə atasının “qız dəllalığı” etdiyini və rəfiqəsi Rahibənin onun toruna düşdüyünü, xaricə (Dubaya) göndərəcəyini biləndə qətiyyən təəccüblənmir. Adam istər-istəməz düşünür: bu qızı heç nə ilə, hətta belə alçaqlıqla da təəccübləndirmək olmaz.

Sanki Fənayə həyatın çirkinliklərinə hazır, bişmiş halda gəlmişdir. Bəlkə belə rəzilliklər boyuna biçilmiş kimi ona təbii görünür. Bu qızın xarakterində şərə, mənfiliyə meyli daha güclü olan iki qütb bir-birilə vuruşmaqdadır. Oxucunun başa düşüb anlamağa çalışdığı müsbət tərəflər rəssam Yusifcanla münasibətində aydınlaşır. Onsuz da əvvəldən pula elə də önəm verməyən Fənayə rəssamın zirzəmidə yerləşən komfortsuz emalatxanasını saraylardan, villalardan üstün tutur. Az qala belə yosma yurdları söküb yerində göydələnlər tikənlərə bəd-dua edir artıq. Bu ikili xüsusiyyət nə qədər müəmmalara səbəb olursa da, onun xarakterinin işıqlı tərəflərini göstərməkdədir.

Bu ziddiyyət onun rəfiqəsi Rahibədə də var. Bir tərəfdən yaralı durnanı xilas edir, ona rəhm edir, bir tərəfdən də "insanlar da belədir – zəiflər həmişə güclülərə yem olur" kimi sərt və acı həqiqətə sakit-sakit, bir tükü də tərpənmədən haqq qazandırır. Ağlamaq lazım idi, amma... Fənayədəki fərqli xüsusiyyətlər, eləcə də onu yaşıdlarından ayıran bütün keyfiyyətlər Fənayəni Fədai ilə qarşı-qarşıya qoyur. Müharibə əlili, qonşu qəzet köşkündə çalışan, keçmiş fədai ilə. Fədai bu yaraşıqlı qızı görən andan ona vurulur.

Məhəbbət hər şeyə qalib gələr və adamı saflaşdırar demişlər. Amma hər kəsə başucalığı gətirən bu sevgiyə, belə igid oğlanın sevgisinə Fənayə barmaqarası baxır. Düzdür Fənayə Fədaini (ilk anlarda onu məsxərəyə qoyaraq Fərari demişdi) ayağının minadan şikəst olduğunu bildikdə ona qəlbində rəhm oyanır. Bəli, belə qızlar qəhrəmanla, Vətən əsgəri ilə sevgisindən qürurlanmazlar. Onları Haris kimiləri özünün buğa istəyi ilə ram edə bilər.

Haris (yəni həris olan) öz adının elə vəhşiyanə mənasına uyğun adamdır. O, uzun müddət prokurorluq orqanlarında işləmiş, dolaşıq məsələlərində dolaşmaqda ikən düşdüyü "zibilin" içindən (onun qohumları belə ifadə edir) yaxşı çıxa bilir. Deməli, prokuror özü zibillikdə eşələnən və çoxlarını belə məkrlərə çəkən, zindanlara sürükləyən qanun keşikçisi özü bir dələ-

duz kimi aradan çıxıb canını qurtara bilir. Bir müddət işsiz qalır. Xarici şirkətlərə məsləhətçi düzəlir, indi isə əsil işini tapmışdır: Qız alveri.

Ana dilimizdə çoxdan arxaikləşsə də, təkrar canlanan və istifadəyə başlanan "qurumsaq" sözü var və bu peşənin sahibinə deyiləsi. Gör insan taleyi kimin əllərində olub? Gör insanların müqəddəratı kimlərə tapşırılıb?

Müəllif Fənayə obrazını təfərrüatlarla – böyük təsvirə yol açan kiçicik detalların köməyi ilə daha da dolğunlaşdıra bilmişdi. Belə ləkəli və tutqun səmada Fədai əsrdə bir dəfə görünən meteor kimi işıq saçır. Fədai cansağlığı kimi əziz bir neməti, ömür bəzəyi olan gəncliyini ana qədər əziz Vətənə qurban vermişdir. Müəllif onu Fənayənin yolu üzərinə çıxarmaqla Fədaini daha da ucaltmağa nail olmuşdur. Kitabdan bir parçanı misal gətirmək istəyirəm: "Fədai ayağını yerə hirslə sıxmışdı..."

Kəskin cırıltı, protezin etiraz səsi idi. Ayağının bu cansız parçası həmin qeyri-adi səslə onu xəbərdar edirdi. Bu qız səni başa düşməz, ayıq ol, taleyini minaya çırpma".

Protez belə ürəklərədən etibarlı imiş, qardaş. Bu qeyrətli oğlanın qeyrətli hərəkətləri göstərir ki, o, buna peşman da deyildi. Yenə onda onu yeni döyüşlərə aparmağa qadir olan güclü iradə və kişilik vardır. Fənayənin düşüncələrinə bələd olan kimi ona olan hissi günəş altında buz əriyən kimi əriyib suya dönür. Fəqət onun odlu, günəş tək hərarətli yanar gözləri, baxışları, yolunu azmış bu qızı tək qoymur. Həmişə onu izləməkdə, təqib etməkdə, kömək durmaqdadır.

Əsərdəki surətlərin adları düşünülüb tapılmış adlardır. İki cəbhəyə – mənfi və müsbət qütblərə bölünmüş insanların adları təbii şəkildə bir-birindən fərqlənir. Müsbət nişanə ilə işarələnmiş cəbhədə Həyat xala, Sərraf, Sadiqə, Fədai, Zahir... Mənfiliklər cəbhəsində isə başqa cürdür. Burada ad necə poetik və incə ola bilər. Lap gənc qız adı ola. Hətta eybəcər, süni ad olan Rahibə necə qız adı ola bilər? Bu qız Dubayda işləmək üçün sənəd düzəltməkdədir ki, dəstədən geri qalmasın. O da məlum-

dur ki, realist əsərlərin bu keyfiyyətini elə surətlərə verən adlar da dərinləşdirir; belə əsərlərdə sərt adlardan istifadə ənənəsi də vardır. Yerin-göyün qan ağladığı bu məqamda lətafətli, süsən-sünbüllü adlar da yada düşərmi? Tükürpədən, müdhiş tale oyunları cərəyan edən bir məqamda qəhrəmanların adları da vəhşət doğurur. Fənayə (fəna işlər, hallar və boş sonluq yada düşür), Zinayə (zina, böyük günahları xatırlanır) və s. Adlar çirkin, əməl çirkin. Sanki bir dənə də olsun gözəl insan yoxmuş. Yəni simaca da onların gözəl ola bilməyəcəklərinə inanırsan. Hamının burada ürəyində bir-birinə kin aşıb-daşır. Gözlər nifrətdən yanır, qəlblər intiqamdan partlamağa hazır; bir yanda qol-boyun məhrəmliyin hələ istiliyi getməmiş müdhiş yataq. Haram, oğurluq yaxınlıqlar, miraslar, qənimətlər... xalqdan, hətta onun ziyansız baxışlarından oğurlanan, hasara salınan sahələr içərisində qalaçalar- restoranlar, mehmanxanalar, harın əyyaşların süfrəsi, cibi pul görməyən qapıqulu kasıblar, yataq salıb-yataq yığan evsiz biçarələr. Ev, ailə saxlayan ailə başçısı atalar.

Həyatın ədaləti pozulanda... Həyatın ədaləti pozulanda nəfəs almaq belə çətindir.

Əsərin dili, bədii təsvir vasitələri həyati və inandırıcıdır. Hər birindən sadəlik ətri yayılır həzin-həzin, asta-asta. İlk baxışdan əsərdəki ağır, sərt, rəngsiz hadisələrlə uyuşmayan incə, xəfif duyğular çağlayan "görəsən isti külək öz dillində Şam ağacına nə pıçıldayırdı?" kimi cümlələr təsvirin, mənzərənin doğma olduğunu çatdırmaqla yaxın gözəlliyin yaratdığı adiliyin şirinliyini göstərməkdədir. Dəqiq, sərrast və sadə sözlər bəzən heç bədiilik donuna girmədən belə dərin duyğular yarada bilir, kamil, təravətli mənzərələr nəqş etməyə qadir olur: "Bu an onun nəzərində bu güllər öz sahibinə – Harisə oxşayırdılar, gümrah, təravətli və məftunedici".

İlk vurğunluq anı qısa və keçici olsa belə, məhz bu cür çılğın təəssuratlar yarada bilər. Yaxud Zinayənin ailəsindən, daha dəqiqi "mənşəyindən" danışarkən yazıçı (məhz bu əcaib

ad onun ata və anasının elə əcaib vicdanından doğmuşdu. Daha doğrusu, Yəmən (ata), Zinaida (ana) adlarından) onun atasının məsul işçi olduğunu, anasının isə öz ədavətini ürəyinin dərin-dərin guşələrində bişirib bərkidən bir erməni olduğunu deməklə həm də belə başabəla kişinin Qarabağ müharibəsinin qızışdığı vaxtda, anasının isə "hələ bu işlərin vaxtı deyil, bizimkilərin başı xarab olub" – deyə-deyə həyata vida etməsini göstərməsi özü bu təbii məqamı, eləcə də ibrətli sonluğu yaxşı qiymətləndirməsi deməkdir.

Romandakı dərin psixoloji vəziyyətlə gərginləşən təlatümlü anlar, məqamlar yazıçı tərəfindən ustalıqla tutularaq şərh olunmaqdadır. Bu yanaşma və həyatın belə dərki təbii olaraq aforizm və hikmətli sözlər törədir. Əsərdə bu məqama aid misallar kifayət qədərdir. "Ləyaqət də paltar kimidir, köhnəldikcə qiymətdən düşür", yaxud adi sözlərin vasitəsilə yaradılıb əldə olunan əyanilik: "Atlar xətlər boyunca elə inamla qaçırdılar ki, elə bil bu surətlə dünyanın axırınacan gedəcəkdilər"; (Zərifə çox nadir hallarda – Yusifcanın yorulduğunu hiss edəndə ona yaxınlaşır, saçlarına sığal çəkir, sanki şirin qəzəblənəcəyindən qorxan təlimçi kimi çox ehtiyatla davranmağa çalışırdı".

Sözlər, gündəlik söz ehtiyatımızdan götürülən adi sözlər belə ən güclü təəssurat və duyğuları olduğu kimi nəqş edə bilir: "Bakının yay gecələri gözəl olur, elə bil ki, həyat yenidən başlayır". Nə deyəsən?! Əsərdən alınan təəssürat sanki elə bil bu cümlə ilə təqdim olunub. Axı romandan sonra oxucu qəlbində yaranan və tezliklə başqaldıran xeyirxah bir dilək: kaş bu həyat yenidən yazılsa, ağ vərəq üstündə təzədən cızılsa... təzədən başlasa...

Əsərin adı da təmiz, bakir olmaqla qədim inancımıza, əxlaqımıza və zövqümüzə söykənir. Gəlinlik paltarı və eləcə də gəlin duvağı təmzilik, paklıq və gözəlliyin zirvə simvoludur. Məllifin dərin psixoloji məzmunlu, əxlaqi keyfiyyətlərdən bəhs edən əsərini məhz belə, paklıq-pakizəlik mücəssəməsi olan "Gəlinlik paltarı" adlandırması ana dilimizdə onun əziz kəlmə-

lərinə hörmətini, eləcə də mənəvi xəzinəmizə diqqət və sevgisinin nəticəsidir.

Fənayə obrazından, bütövlükdə yazıçının "Gəlinlik paltarı" əsərindən bu qədər danışmağım təbii narahatlığımdan irəli gəlir. Çünki əsər oxunduqca cəmiyyətin iç üzünü daha dərindən görmək imkanları qazanırsan. Yazıçının həssas müşahidələri artıq səni bədii həqiqətə çevrilmiş həyat hadisələrinin axarına, burulğanına salır. Bu, geniş nəhrdə üzdükcə, sahilə can atdıqca nə qədər çətin aşılası maneələrdən ötməlisən. Yazıçının da ən böyük missiyası oxucunu sahilə çatdırmaqdır. İslah edilmiş oxucu sahildən dönüb geriyə baxanda həyata tamam başqa gözlə, başqa düşüncə ilə baxacaqdır. Çünki, müəyyən qədər tərbiyə olunmuş, müəyyən qədər maariflənmişdir.

...Yazıçının bütün məqamlarda öz ideallarına doğru can atmasında bir fədakarlıq görünür. Daha doğrusu, bu fədakarlığı əks etdirən rəmzi bayraq onun əlindən, düşüncəsindən düşmür. İnsanın qurtuluş yolunu axtarmaq, aramaq, onu tapmaq, bir sözlə əsl gerçəyə çatmaq... yazıçı bütün əsərlərində insanın mənəvi əsarətdən qurtuluş yolunu göstərməklə təkcə ədəbiyyatın, sözün yox, bütövlükdə cəmiyyətin mənəvi keşiyində dayanmaq şərəfinə nail olur...

# Sədaqətin, ülviyyətin simvolu

İki-üç il öncə magistr dərslərimdə "Ədəbiyyatımızın aktual problemləri" dərsində sənətkarın son 20-30 ildə yazdığı və mən deyərdim ədəbiyyatımızda önəmli olduğu kimi yazıçının öz yaradıcılığının da böyük bir qismini əhatə edən ədəbi-bədii fəaliyyətindən danışırdım. Gənclər sanki "Gecə bənövşələri" adının sehrinə dalıb onun haqqında danışmamı istədilər. Doğrusu, kursumuzun iş planına uyğun olaraq ümumi yaradıcılıq üzrə ədəbiyyatımızın aktual, vacib problemlərinin həllinə toxunacaqdım. Amma gənclərin sualı məni konkret bir əsərin təhlilinə keçməyə vadar edirdi. "Gecə bənövşələri" son dövr ədəbiyyatımızda özünün məhsuldar yaradıcıllığı ilə fərqlənən ədibin maraqla oxunan roman- povestlərindən birinin adıdır. Eyniadlı kitabda yazıçının "Taledən qaçmaq olmur", "Cəza", "Əclaf", "Gecə sürünən ilanlar", "Məhəbbət hekayəti" (2011) kimi əsələri toplanıb.

Yazıçı bu əsərləri müraciət etdiyi digər tarixi mövzular kimi ustalıqla qələmə almışdı. Bilmirəm nədəndir, hər halda yazıçının hər bir əsərini sevərəkdən dünyaya gətirdiyindəndir ki, onun qələmindən çıxan sənət nümunələri hər biri ayrılıqda istər yazı üçün, istərsə də auditoriyada şərh üçün böyük uğur mənbəyi, sənət sevincləri bəxş edən xarüqə sənət nümunələridir.

...Bu silsilədən "Məhəbbət hekayəti" haqqında xüsusilə danışmaq istəyirəm. Bu əsər də yazıçının digər əsərləri kimi öz müasirliyi, oxunaqlığı, vətəndaş mövqeyi ilə seçilir, diqqət cəlb edir. "Məhəbbət hekayəti"ndə adından da göründüyü kimi mövzu iki gəncin bir-birinə olan etibarlı, sədaqətli məhəbbətindən gedir – Günay və Xəyal. Bu gənclər bir-biri ilə əhd-pey-

man bağlayır. Son nəfəsədək bir-birlərini sevəcəklərinə and içirlər. Tale elə gətirir ki, müharibə başlanır. Xəyal təhsilini yarımçıq qoymaq məcburiyyətində qalaraq cəbhəyə yollanır. Günay da tələbədir. Günay birinci kursda, Xəyal üçüncü kursda təhsil alır. Xəyal cəbhədə ağır döyüşlərin birində həyatı üçün olduqca təhlükəli zədə alır. Düşmənlə üzbəüz döyüşdə mina partlayışından ağır beyin zərbəsinə məruz qalır və görmə qabiliyyətini itirir. Lakin bu anda nə qədər çətin olsa da səntirləyə-səntirləyə irəliləyib kürəyini arxa tərəfindəki nəhəng, sərt bir Vətən qayasına söykəyir. İndi Xəyal kürəyindən arxayındır. Ona düşmən gülləsi arxadan dəyə bilməyəcəkdir. Çünki sal qaya bir qüdrətli istehkam kimi Xəyalı ağuşuna almışdır.

Gənc artıq düşüncələrini dərləmiş, toplamış kimidir; birdən-birə başına gələnlərin yuxu deyil, həqiqət olduğunu, nicatına qoşaraq gəldiyi Vətəni müdafiə missiyasının başa çatdığını dərk edir. Acı-acı təəssüf dolu peşimanlıqla: mənim qayam, mənim dağım-daşım, mənim Vətən torpağım, məni son anda qucaqlayan qaya parçası, sən məni qorudun, mən səni qoruya bilmədim...

Dostları onu huşsuz halda taparaq döyüş meydanından çıxarıb hospitala çatdırırlar. Həkimlər ilk təcili yardımlarından və bir neçə günlük müalicədən sonra Xəyalın valideynlərinə müdhiş bir xəbər verirlər: Xəyalın gözləri açılmayacaqdır. Gənc iztirab içində düşünür: yaralarım sağalanacan taleyin bu amansızlığı ilə özüm barışmalı olacağam. Amma məni düşündürən başqa şeydir. Günayın ata-anası buna nə deyəcək? Bəlkə də xəbər tutan kimi nişanımızı pozub üzüyümüzü geri qaytaracaqlar...

Xəyalın anası da oğlu kimi düşünür; bir tərəfdən oğlunun əlilliyi, şikəstliyi, digər tərəfdən də belə olan surətdə oğlunun canından əziz bildiyi qızın onu atması... Və bilir ki, oğluna öz korluğu qədər də sevdiyi qızın onu atması ağır gələcəkdi. Ana ümidizliyə düşür, sarsılır. Düşünür ki, yəqin elə belə də olacaqdır. Həqiqətən də qızı Xəyala vermək istəmirlər bəri başdan...

İndi də atası xəbəri eşidib ondan öz sərfəsi üçün istifadə etmək istəyir. Günayı varlı, imkanlı bir dostunun oğluna vermək fikrindədir artıq. Lakin o bu arzuda olarkən qız qəti etirazını bildirir. Bütün qohum-əqraba yığışıb nəsihətə gəlsə də, dost-tanış ağız açsa da, Günayı yolundan heç nə döndərə bilmir. Yazıçı Günayı bir sədaqət obrazı əyarında təqdim edir bu zaman. Günay böyük bir inamla anasına: Xəyal o yaradan, o zədədən ayağa qalxacaqdır deyir. Lakin bizim belə xəyanətimiz onu əbədilik məhv edə bilər. Beləcə Günay öz yolundan dönmür. Həfətlərlə ac-suzuz qalır. Ata-anasının dedikləri ilə razılaşmır. Artıq Günayın neçə vaxtdır dodaqlarının arasından bir qətrə də su keçmir. O, ölüm ayağındadır. Çarpayıdan heç yana qalxa bilmir. Qızın ay kimi, gün kimi parlaq bənizi günü - gündən solub saralır..

Ümumiyyətlə, onun cavan aləmində həyatın ən gözəl mənzərələri, bu mənzərələri füsünkar edən əlvan, şux rənglərlə boyayan hər bir təbiət hadisəsi, hər bir həyat sevinci Günayın aləmində heçə enir. Bircə Xəyalı düşünməkdən savayı. İnsanı ardınca çəkib aparan, sənətkarın bədii boyalarla təsvir etdiyi bütün bu məqamlar son dərəcə maraq doğurar, O qədər duyğulu, o qədər qəlbtitrədən, o qədər kövrək, həzin hisslərlə təsvir edir ki, ilk səhifəni çevirirsən və hekayətin, daha doğrusu klassik ədəbiyyatımıza nümunə olan hekayələr sırasında olan bu əsəri axıra qədər oxumadan ayrıla bilmirsən. Tez-tez vərəqləri çevirirsən, hər fikir, hər səhifə səni ardınca çağırır, səni intizarda saxlayır. Bilmək istəyirsən ki, Günay hansı yolu seçəcək, Xəyalın taleyi necə olacaq...

Yazıçı qələminin keçdiyi yollarda sanki öz oxucusuna bədii nişangahlar qoyur. Sanki sətiraltı mənalarla əsərin finalını da diqtə edir. Sanki demək istəyir ki, mənim yaratdığım obraz ruhumun bəsləyib ortaya qoyduğu vəfa, etibar, öz gəncliyimizin sədaqət obrazıdır. Və təbii ki, oxucu yazıçıya inanır. Günayın, Xəyalın həyata meydan oxuyan baxışlarına, inamına da güvənir. Və günlərin bir günü Xəyal xəstəxanadan çıxıb sevdi-

yi qızın – Günaygilin həyətinə gəlir. Günay öz ailəsi ilə birlikdə Gəncədə yaşayır. Xəyalın gəldiyi maşından oxunan ayrılıq mahnısının sədaları dalğa-dalğa Gəncənin hər tininə, hər döngəsinə, o cümlədən, Günayın yatdığı otağın açıq qalmış pəncərəsindən onların evinə, onun hər bir guşəsinə yayılır. Şərqi Günayın qəlbində həzin, həm də nisgilli bir xatirə oyadır. Bu, Xəyalla Günayın dəfələrlə sevə-sevə dinlədiyi ayrılıq mahnısı idi. Və elə bu yerdə oxucu fikirləşir ki, Günayla Xəyalı həyatda ancaq bir hadisə qorxuda bilər. Onları nə mühatribə dəhşətləri sarsıda bilər, nə də ki, həyatın hər hansı çətinlikləri. Olsa, olsa bu gəncləri yalnız ayrılıq sarsıda bilər.

Yazıçı isə "Məhəbbət hekayəti"ndə sonadək bu iki gəncin məhəbbətini qoruyur, sınaqlardan üzüağ çıxarır. Xəyalın gəlişini duyan Günay çarpayıdan hövlnak ayağa qalxır. Sanki ona yeni güc gəlmişdi, sanki o neçə aydır çarpayıda yatan, saralıb-solan xəstə deyildi. O, birbaşa həyətə - mahnının sədaları yayılan məkana doğru qaçırdı.

Elə bu dəm ayrılıq mahnısının ardınca Vağzalı sədaları eşidilir. Bütün ətraf qonşular hamısı həyətə doluşur. Gendən keçən adamlar da səs-küyə bu qapıya dönürlər. Məsələdən hali olan hər kəs bir ağızdan "Allah xeyir versin","Yariyanlardan olsun" deyir. Qızının sağalmağına ümidini itirmiş ata da xoş bir təbəssümlə bir ağızdan "Allah xeyir versin", deyən camaata qoşulur. O da son dərəcə ərköyün böyütdüyü bircə balasına xeyir-dua diləyir.

Bu, "Məhəbbət hekayəti"ndən yadımda qalanlardır... Əsərin qısaca məzmununu sizlərə beləcə bunu danışa bildim. Ancaq onu da bilirəm ki, sənətkarın yaradıcılığına dönə-dönə müraciət etmiş Nizami Cəfərovun da fikri sizin üçün maraqlı olacaqdır:

"Görkəmli yazıçımız Hüseynbala Mirələmovun "Məhəbbət hekayəti" əsəri mənim fikrimcə klassik hekayə yaradıcılığımızın hadisə sayılacaq nümunələrindən biridir. Vətənin təhlükə altında olduğu dövrdə öz taleyini Vətənin taleyindən

ayırmayan, insanların, Azərbaycan gəncliyinin hisslərindən, duyğularından bəhs edən bu hekayə məni valeh etdi. Əminliklə deyə bilərəm ki, "Məhəbbət hekayəti" ədəbiyyat tariximizə hekayə sənətimizin ən gözəl nümunələrindən biri kimi daxil olacaqdır. Yazıçının uğuru yalnız onda deyil ki, Azərbaycan gəncliyinin erməni təcavüzünə münasibətini bütün obyektivliyi ilə təqdim edir. Eyni zamanda ürəkdən gələn səmimi bir üslub nümayiş etdirir. Və başlıcası, gəncliyin əhval-ruhiyyəsinin xalqın gələcək əhval-ruhiyyəsi olduğunu dərindən duyan müəllif hekayənin mövzusunu nə qədər yaxın keçmişimizdən alırsa, o qədər də yaxın gələcəyimizə müraciət edir. Günayla Xəyalın bir hekayə miqyasına sığmayan dastanı yəqin ki, yatmış ruhları da oyadacaqdır..."

Qeyd etdiyim məsələ ilə bağlı müşahidələrimin nəticəsi kimi deyə bilərəm ki, məhz həyati və ənənəvi yazı və üslub nümunələri olduğundandır bəlkə də Hüseynbala Mirələmovun yaradıcılığından çox yazılıb. Hər biri də müəllifin şəxsiyyətini, ədəbi taleyini onun elmi-ictimai fəaliyyətini yüksək səviyyədə təqdim edən, cəmiyyətin müxtəlif təbəqələrinə tanıtdıran yazı nümunələridir.

Az öncə haqqında danışdığım "Gecə bənövşələri" kitabından Azərbaycan nəslinin istedadlı və qocaman nümayəndəsi, xatirə-oçerklərin ustadı kimi tanınan Nahid Hacızadə ədəbi ilhamla söhbət açır:

"Hüseynbala Mirələmov əsərlərində torpaqlarımızın erməni düşmənləri tərəfindən işğalı, qaçqın və köçkünlərin acınacaqlı həyatı, erməni təcavüzünə sonsuz ümumxalq nifrəti unudulmaz lövhələrlə, sarsıdıcı boyalarla əks etdirilir. Müəllifin hekayələrində, povestlərində mövzu genişliyi, təsirli sujet qurmaq bacarığı, oxunaqlığı və sənətkarlığı ilə oxucuları ram edir, sevindirir və həm də düşündürür. Elə povestlərin adını götürək: "Taledən qaçmaq olmur", "Cəza", "Tənha lalə", "Əclaf", "Gecə sürünən ilanlar"... Görün bu adlar nə deyir? Hər bir əsərin ilk səhifəsini çevirirsən səni səndən alır. Gözlənilməz

hadisələr, ziqzaqlı dolanbac insan taleləri bir-birinə qovuşur. Səni gah sevindirir, gah da ki, qəmə qərq edir. Müəllif hər zaman xeyirin tərəfində durur, şərin üstünə yeriyir, onun çökməsinə çalışır. Əşərin sonunda da qələbə Şərin deyil, Xeyirin olur.

Həyatda və cəmiyyətdə baş verən hadisələr yazıçının yaradıcılığında tanış olduğumuz hadisələrin mərkəzində durur və yazıçı qələmində ehtirasla təsvir olunur, oxucu qəlbində heç nə ilə pozulmayan, silinməyən iz salır...”

Həqiqətən,bir yazıçı kimi Hüseynbala Mirələmov ədəbi tənqidin daim diqqət mərkəzində olmuşdur. Və bu mənada Nahid Hacızadə də bir yazıçı kimi qənaətlərini dürüst ifadə edir. Baxırsan ki, H.Mirələmovun əsərlərində müasirlərimizin vətəndaşlıq keyfiyyətini dolğun şəkildə açan bu sənət nümunələri həyata, insana bədii münasibətdəki yeniliyin kamil təcrübələridir və insan insana sevdirilir. Həyat bununla insanın gözündə ucalır. Və əksinə, həyat da insandan zövq almağı üstün bilir.

Çünki yazıçı insanı mübarizələrdən, həyatın dolanbaclarından keçirərək, sınaqlarda bişirir, möhkəmləndirir və onu bizə əyilməyən, sızlamayan, başını hər zaman dik tutmağı bacaran könlü məbəd, gözləri işıqların oynadığı, gəzdiyi bir varlıq kimi təqdim edir. Yazıçının axtarışları həyatı, insanı həqiqi biçimdə, dəqiqliklə əks etmək, səciyyələndirmək istiqamətindədir. Müəllifin bu insani zənginliyi dünya, aləm ilə vəhdətini daha inandırıcı, təbii, təsirli təqdim etmək üçün bədiiliyin daha əlverişli, daha vacib imkanlarını araşdırması, müasir oxucunu təmin edə biləcək obrazlı təfəkkürə, təsirli, emosional dilə səy göstərməsi yaxşı haldır və onun qələminin məhsuldarlığını göstərən bir sübutdur.

Biz yazıçını duyduqca, onun mənəvi aləminə baş vurduqca, qələmindən çıxan söz incilərinin, yaratdığı sənət abidələrinin qədri-qiymətini daha dərindən anlayırıq. Bilirik ki, Mirələmov bədii ədəbiyyatın ictimai-tərbiyəvi roluna, idraki

əhəmiyyətinə güclü inam bəsləyir və bu xüsusda ədəbiyyat nümunələri müstəsna rol oynaya bilər.

Doğrudan da, sənət möcüzədir. Min illərdir Misir ehramlarının möcüzəsi insan ruhunda, insan yaddaşında yaşayır. O ehramları yaradan insan idrakının, insan əllərinin hərarətidir. İdrak, ağıl işığa, düşüncə sənətə çevrilərkən həm də insanın qoruyucusuna çevrilir. İnsanın yaratdıqları onu mühafizə etməyə xidmət etməlidir. Amma bu hər zaman belə olmur. Bəzən insanın yatadıqları onun qəniminə də çevrilə bilir. Yazıçı o mərama, o amala xidmət edir ki, insan ona verilmiş gözlərilə təkcə öz ətrafına-yaxınına, uzağına baxmamalıdır. İnsanın gözləri həm də öz içinə baxa bilməlidir. Viktor Hüqo insanın mənəvi aləmini müharibə meydanı kimi təsvir edir. Böyük yazıçı insanın iç dünyasında divlərin, əjdahaların, təpəgözlərin, təsvirəgəlməz vücud və məxluqların belə cəndi-cidala çıxdığını yazır. Qüdrətli yazıçı həm də onu deyir ki, insan öz içindəki müharibə ocaqlarını söndürə bilməlidir. İnsan üçün bir hakim olmalıdır. Təəssüf ki, kapital dünyasında hər şey pulla tərəziyə qoyulduğu bir dönəmdə "vicdan" ifadəsi də abırdan, hörmətdən düşüb. Bəzən bu sözü işlədəndə adam xəcalət çəkir. Çünki adamların yaratdığı, təşkil etdiyi cəmiyyət bu hissi elə bil ki, daha daşımır.

Biz uşaq olanda televiziya ekranlarında Hindistan filmlərinə çox yer verilərdi. Bu filmlər efirlərdən düşməzdi. Kino işçiləri kənd-kənd gəzərək klublarda, məktəblərdə əhaliyə, kənd sakinlərinə Hindistan filmləri nümayiş etdirərdilər. Çox vaxt oturmağa yer də tapılmırdı. Çünki salon dolurdu, adamlar qapının kənarından, pəncərədən, damdan seyr edirdilər. Bu filmlər insana mənəviyyat aşılayırdı, əxlaq öyrədirdi. Böyüklə kiçiyin yerini göstərirdi. İnsanı zəhmətə alışdırırdı. Bir çox insanı keyfiyyətlər ocağı idi o dövrün bizə göstərilən hind filmləri. O filmlər bu gün də insanların gözündə öz dəyərini itirməyib.

Hələ də bu filmlərə baxarkən göz yaşlarını saxlaya bilməyən qəlblərin, ürəklərin günümüzdə də varlığı bizi sevindirir. Bu günün filmlərində tamam başqa mənzərə seyr olunur. İnsanı bütə, robota, vampirə, manyaka, vəhşi ehtirasların quluna dönüşmüş daha qorxunc məxluqlara çevirməyə üstünlük verir kinomatoqraflar. Təbii ki, onlar bazara girməyə çalışırlar. Bazara baxırlar nəyin daha çox satılacağını təyin edirlər. Görünür bu günün insanına vicdan, əxlaq dərsi keçmək mənasız görünür.

Hüseynbala Mirələmov bütün qəhrəmanları ictimai həyatın bu amansız gedişatı ilə vuruşur. İnsanı fikrin, sözün dayaq nöqtəsi ilə yerindən ayağa qaldırmaq istəyir. Amma qəribədir ki, yazıçının arzuladığı saflığın, mənəvi təmizliyin qərar tutduğu ucalıq, belə bir mühit, məkan qalıbmı? Yəqin gülməyiniz tutacaq, deyəcəksiniz ki, yerlə göy arasındakı məsafə ölçüyə gəlməzdir. Gör nə qədər ucalıqları, ənginlikləri, sonsuzluqları var. Heç Kainat da bu dibsiz, sonsuz üfüqlərinə qədər çirkab içində ola bilərmi? Əlbəttə yox, amma hər halda qan axıtmaq üçün yerdən havaya qaldırılmış bədheybət qırıcılar nə qədər uça bilirsə, onların pərlərinin dalğası, havası hara qədər çata bilirsə, o qədər də göy aləmi çirklənib bulaşır. Nə deyəsən...

Yazıçı istəyəndə məhəbbət abidəsi yaradır, istəyəndə müharibə mələyini tərənnüm edir. Sözə bax eee, müharibə mələyi. Müharibənin də mələyi olarmı? Biz eşitmişik ki, mələklər xilaskar olur. Amma sən demə, müharibə iblisi də yox, mələyi də olurmuş. Qədim Yunan əsatirlərində müharibəni alovlandıran hakimə müharibə mələyi deyirmişlər.

Bəli, yazıçı yeri gələndə müharibə mələyini də köməyə çağırır. O yerdə ki, ədalət arxa plana keçir, o yerdə ki, ədalətə balta çalan qüvvələr dəstəklənir, həqiqət susdurulur, haqq səs qısılır. O yerdə ki, güc, zorbalıq haqlı hesab olunur. Bir sözlə, dünya başayaq, tərsinə görünür. Və sözün həqiqi mənasında şüur çaşqınlığı yaranır. Bəşəriyyətin, dünyanın, həyatın nizamı pozulur, insan Tanrının ona verdiyi məsuliyyəti itirir, özünün

mənа və mahiyyətindən uzaqlaşmış olur. Odur ki, görkəmli ədəbiyyatşünas alim Nizaməddin Şəmsizadə ədibin yaradıcılığı ilə bağlı və bizim bu düşüncələrimizlə səsləşən maraqlı qənaətlərə söykənir:

"... Yazıçı Hüseynbala Mirələmovun əsərlərini oxuyarkən bir daha əmin oldum ki, XXI əsrin Azərbaycan vətəndaşı "azmış şüurun" bəlasına düçar olub. Onun əsərlərini çox müxtəsər belə mənalandırmaq olar: azmış şüurun faciəsi! Ağrı yaddaşının kütləşdiyi yerdə, ziyalıların və ümumən şəxsiyyətin deqradasiyası başlanır. H.Mirələmov öz qəhrəmanlarını eqzistensial mühitə daxil edir. Bu, əslində, XXI əsrin son çərəyanın real mühitidir. Bu mühitdə şəxsiyyət (xüsusilə qadınlar) azadlığa çıxmağa, cəmiyyətin məngənəsindən qurtulmağa can atır. Bu qəhrəmanlar özü ilə cəmiyyət arasındakı bağları qırır, yeni mühit tapa bilmir, nəticədə strukturu qeyri-müəyyən naməlum fəzada yaşamağa məcbur olurlar..."

Elə ona görə də Azərbaycan ədəbi fikrinin yaddaşından silinməyən şeirləri, poeziya nümunələri ilə əbədiyaşarlıq haqqı qazanmış Məmməd Araz "Ya rəbbim, bu dünya sən quran deyil" deyib üsyan edəndə Tanrıdan bir növ fəzada yerini dəyişməsini istəyir.

Fikir, düşüncə formalaşandan, əli qələm tutan ilk insandan üzü bəri "dünya" mövzusu da meydana gəlib. Maraqlıdır ki, tarixin elə o çağından insanlar dünyadan gileylənib şikayətçı olublar. Bir halda ki, dünyanı yaxşıya da, yamana da çevirən, döndərən insan özüdürsə, onda bəs bu qədər şikayət nə üçündür? Görəsən, mövlanə Füzuli öz "Şikayətnamə"sini yazanda da dünya bu qədər günah içərisindəydimi? Hər halda mövlana Füzulinin də səbri indiki insanların səbrindən çox geniş olmalı idi. Əgər o, səbrini basa bilməyibsə, demək, dünya dediyimiz bu evin bünövrəsi əyri qoyulub. Nə qədər yolsaq, yontalasaq, əyrisini düzəltməyə çalışsaq da, bacarmırıq. Çünki insan olmağın necə böyük şərəf olduğunu anlamağa qüdərtimiz çatmır. Bu, tamam başqa bir mövzunun söhbətidir. Amma bu anda bizi

düşündürməyə bilməzdi. Ona görə ki, biz daha çox mühakimə yürütməyə üstünlük veririk.

Dəyərli roman və povestlər müəllifi, ictimai xadim, millət vəkili H.Mirələmovun bədii yaradıcılığına baş vurduqca istər-istəməz dünya, həyat və cəmiyyət haqqında danışmaya bilmirsən. Yazıçının ən müxtəlif əsərlərində yaratdığı obrazlar təbii ki, həyatın, dünyanın övladlarıdır. Onun elə obrazları var ki, daha çox müsbət keyfiyyətləri ilə, elə obrazları da var ki, mənəvi aləminin cılız xüsusiyyətləri ilə yadda qalır. Əlbəttə, yazıçının ideallaşdırmağa çalışdığı obrazlar da var, onlar az deyil. İnsanlar xarakter baxımından müxtəlifidir. Yazıçı bu müxtəliflikdən məharətlə istifadə etməklə həyat mənzərələri canlandıra bilir.

Birmənalı şəkildə deyə bilərəm ki, insanı tapan bütün xəstəliklər – dərdlər, ağrı-acılar düşüncə və təfəkkürün soyuqlamasından yaranır. Lakin yazıçının ən böyük missiyası, və onun qələminin də müqəddəsliyi ondadır ki, o, ağla, düşüncəyə axıb dolmaq istəyən zəhərin qarşısını alır. Əvəzində sevgini təbliğ edir, o zəhərin, zaqqumun panzəhrini verir. Bununla insanın mənəvi cəhətədn bir-birindən yoluxmasına mane olur. Bu, mənəvi cavabdehlikdir. Cəmiyyəti, xalqı qorumaq cavabdehliyi.

# Ədəbi-bədii yaradıcılıq və tarixi mədəni irsin təbliği

Heç şübhə olmasın ki, XX yüzilliyin ədəbi inkişaf istiqamətlərini öyrənmək üçün, hər şeydən əvvəl, həmin dövrə məxsus ədəbi prosesin tendensiya və meylləri, ədəbi hadisələr və onun xarakteri öyrənilməlidir. Bu zaman həmin yüzilin ədəbi prosesini yeni elmi konsepsiya və metodologiya ilə öyrənilməsi əsas şərtlərdən biridir.

Keçən zaman ərzində sovet ədəbiyyatşünaslığının dövrün ədəbi prosesinə ideoloji yanaşmaları ədəbi hadisələri obyektiv qiymətləndirməyə imkan vermədiyindən həmin çatışmazlıqlar, qeyri-obyektiv yanaşmaların xoş olmayan nəticələri, bu üzdən əmələ gələn boşluqlar bu gün özünün yenidən araşdırmalarına ehtiyacı hiss etdirməkdədirlər. Artıq müstəqillikdən otuz ilə yaxın vaxt keçməsinə rəğmən ən zəngin və mürəkkəb yüzilliyin ədəbiyyatının dərsliklərdə köhnə stereotiplərlə dəyərləndirilməsinə son qoymaq məqamı gəlib çatıb.

Məsələ ilə bağlı qeyd edək ki, vaxtilə sosrealizm ideologiyası mövqeyindən verilən dəyərləndirmələr öz mahiyyətini qoruyub saxlaya bilmədiyindən yeni baxışlara, yenidən qiymətləndirməyə böyük ehtiyac yaranmışdır. Yəni zaman keçdikcə Azərbaycan ədəbiyyatı tarixinin bu problemləri ilə bağlı çoxlu tədqiqatlar aparılmışdırsa, bir çox ədəbi fakt və hadisələr üzə çıxarılmışdısa da müstəqillik illərimizdən sonra isə ədəbiyyatımızın belə həyati məsələlərinə və dövrün ayrı-ayrı hadisələrinə ümumi baxışın özü dəyişmiş, onun müxtəlif problemlərini dəyərləndirmək üçün yeni imkanlar yaranmışdır.

Ona görə də Azərbaycanın ictimai-siyasi həyatında baş verən əsaslı dəyişikliklər, ədəbi-bədii düşüncənin inkişaf problemlərinin tarixi və istiqamətlərinin yenidən işlənilməsi zəruriliyini ortaya çıxarmışdır. Son qırx ilə yaxın bir dövrdə ədəbiyyat tariximizin aktual mövzu və problemlərinin dərsliklərdə əks olunmaması bu mövzuların – Vətən tarixi ilə səsləşən mövzuların tarixi əhəmiyyətini aydın göstərir. Artıq ədəbiyyatımızın beləliklə ən zəngin bir dövrünə sovet ədəbiyyatşünaslığının münasibətindəki ideoloji məqamlar, beynəlmiləl rakurs özü dövrün ədəbi fakt və hadisələrinə yenidən yeni prinsiplərdən baxışı və yenidən dəyərləndirməni tələb edir.

Azərbaycanın öz müstəqilliyinə qovuşması, bunun ilk illərini əhatə edən qarışıqlıq, bir xaos dövrü olan keçid dövrünün başa çatması nəticəsində artıq ədəbiyyatımız özünün yeni dövründə təsbitinə başlamışdır. Bu gün bunu olduğu dəyərdə qəbul etmək gərəkdir. Bu açılan yeni səhifələr göstərir ki, yenidən öyrəniləsi problemlər çoxdur: İctimai-siyasi fikrin ədəbiyyata təsir məsələləri, milli ictimai şüurun formalaşmasında ədəbiyyatın rolu, yenidən ortaya çıxan romantizm, tənqidi və maarifçi realizmin təşəkkül problemləri, cümhuriyyət dövrü Azərbaycan istiqlal düşüncəsinin əks olunması, repressiya hadisələri, mühacirət və legion ədəbiyyatının öyrənilməsi bu günün ən aktual məsələlərindən biri olaraq diqqəti çəkir. Öyrəniləsi, ədəbiyyatın mövzusu olaraq qəbul ediləcək məsələlər çoxdur.

Etiraf edək ki, ədəbi düşüncəmizin heç bir mərhələsi həyat və ictimai-siyasi proseslərlə bu qədər yaxın olmayıb.

Məlumdur ki, müasiri olduğumuz əsrin əvvəlləri – bizim müstəqillik təcrübəmiz təkcə tarixin dəyişən ictimai-siyasi formasiyası, iqtisadi inkişaf istiqamətləri ilə şərtlənməyib, eyni zamanda yeni ədəbi məfkurələr, cərəyanlar, hadisələrlə zəngin olub. Amma necə? Bu heç də bir xətt üzrə inkişafın xoş, fərəhli nəticələri deyildir. Bu uzun sürən ədəbi prosesin sayəsində olmuşdur: Ədəbiyyatımızın, milli bədii təfəkkürün inkişafını,

xüsusiyyətlərini nəzərə alaraq deməliyik ki, keçid dövrünə xas olan *"sönük əsərlərin həqiqi bədii dəyərləri üstələməsi"(*Akif Hüseynli) halı sənətdə buraxdığı ağır təsirini artıq itirməkdədir.

Yeri gəlmişkən deyək ki, artıq ədəbiyyatımızda yeni minilliyin və yüzilliyin başlanğıcında minillik tarixi olan Azərbaycan bədii fikrinin tarixi inkişaf yolu, cərəyanları, istiqamətləri, ədəbi şəxsiyyətləri və hadisələri ən yeni mövqedən öz əksini tapmalı olması bir tələb kimi dayanmaqdadır. Bu məqsədlə yaradıcılıq fəaliyyətlərində bu günə qədər sovet ədəbiyyatşünaslığının ideoloji stereotiplərlə yanaşdığı bir çox hadisə və keyfiyyətlərə, ədəbi hadisə və şəxsiyyətlərə də yeni baxış bucağından nəzər salınmalı, onlara geniş yer verilməlidir.

Azərbaycan xalqının *"yetmiş illik mənəvi riyakarlıq məngənəsində"* (Elçin) çırpındığı zaman barədə tarixi əsərlərin görkəmli tədqiqçisi Yasif Axundlu: Azərbaycan tarixi ...uzun illər tarixi həqiqətləri tam əks etdirə bilməmiş; bəzən də tarixçilərimiz bilərəkdən bu təkzibolunmaz həqiqətlərin üzərinə kölgə salmışlar, deyə yazır və düşüncələrini "bu cəhət özü də tarixçilərlə bərabər bədii söz ustalarına da təsirsiz qalmamışdır. Onlar da tarixçilərlə bir sırada keçmişi yalnız müəyyən qərar və direktivlərin dəst-xəttinə uyğun bədii tədqiqat obyektinə çevirmişlər. Lakin son illərdə keçmişə yeni meyarlarla yanaşmağa diqqət artmış, tarix elmində, istərsə də söz sənətində obyektiv tarixi həqiqətləri əks etdirmək meyli güclənmişdi" şəklində yekunlaşdırırdı.

Belə ki, həm tarixi yazanların, həm də oxucuların tarixi həqiqətlərə; ədəbiyyat tarixinin "ideoloji yasaqlarına"(Elçin) münasibəti dəyişmişdir. İndi tarixi faktların doğru-dürüst əks olunması öz zəruruyyətini hər an hiss etdirməkdədir. Etiraf etmək gərəkdir ki, nə müəllifin özünü aldatmasına, nə də oxucusunu aldatmağa haqqı yoxdur. Odur ki, get-gedə ədəbiyyatda insan həyatı, tariximiz, bu günki gəncliyin problemləri, düşüncələri, mənəviyyat məsələləri daha geniş əks olunmaqdadır.

Hal-hazırda belə görünür ki, tarixi mövzularda yazılmış əsərlər bizə hər zamankından daha çox indi lazımdır.

Belə əsərlər artıq bizim tarixi təcrübəmizin bu günümüzə və gələcəyimizə tətbiqi mənasında örnək, müəyyən mənada proqram xarakterli qiymətli vasitələr olmalıdır. Bir hikmətli söz var: "tarixi keçmişini sevməyən millətin gələcəyi olmaz." Bu mənada gəncliyimizə, müstəqil ölkənin gənc vətəndaşına tariximizi sevdirməyin yollarından biri kimi belə mövzulu kitabları oxumağa həvəs və şövq aşılamaqdır.

Təkcə tarixi mövzulu ayrıca bir janrda deyil, bütün ədəbiyyat örnəklərində, istər lirik, epik, istərsə də dramatik janrlarda tarixi hadisələr müəyyən mənada öz əksini tapmışdır. Belə ki, keçmişimizi, xalqımızın tarixini, görkəmli dövlət və mədəniyyət xadimlərini üzə çıxarmaq, onları ictimaiyyətə daha yaxşı tanıtmaq və sevdirmək sahəsində yazıçıların xidməti, habelə ədəbiyyatımızın rolu böyükdür. Bu bədii nümunələr tarixi yaxşı öyrənməyə kömək edir. Çünki bu məsələlərin həlli yalnız zəngin tarixi axtarışlar və araşdırmalar əsasında mümkün olur.

Tarixi mövzulara tələbat özü bir çox suallar doğurmada, fikirləri tərpətməkdədir. Məsələn, necə oldu ki, Səfəvilər dövləti axırda İran dövlətinə çevrildi?! Və yaxud, niyə Azərbaycanın görkəmli hökmdarları olan Təhmasib şah, Nadir şah nə tariximizdə, nə də ədəbiyyatımızda layiqincə əks olunmayıb?!

Yenə də Nizami Cəfərovun haqlı qeydlərinə görə həmişə Səfəvilər dövrünün tarixi istər elmi baxımdan, istər ictimai-publisistik səviyyədə tariximizin tərkib hissəsi olaraq araşdırılarkən əsas diqqət Şah İsmayıl Xətaiyə, yəni Səfəvilər xanədanının banisinə yönəlib... amma Şah İsmayıldan Şah Abbasa qədərki dövrdə həmişə nə isə kölgədə qalıb ...bu dövrün də ən görkəmli hökmdarı Təhmasib şahdır. Hörmətli alimimizin ədalətli qərarı nəticəsində təşkil olunan həmin sıraya daha sonrakı dövrləri də aid etmək lazım gəldiyini onun sözlərinə əlavə ilə deyə bilərik.

Eləcə də Türk xalqları tarixində böyük dövlət qurucusu olaraq tanıdığımız Attila əslində hələ də öz yerini tariximizdə, sənətimizdə ala bilməmişdir. Boşluqlar çoxdur: niyə mədəniyyət və siyasi tariximizdə fövqəladə önəmli yeri olan Səlcuqlular dövrü biganəlik və laqeydlik üzündən həllini və yerini tapmamalıdır? Nə zamana qədər hələ kiçik hasarlar içində, həm tariximizi, həm mədəniyyətimizi, milli varlığımızı məhdud ölçülər içərisində saxlayacağıq?!

Heç kəsə sirr deyil ki, tarixin qaranlıq səhifələrindən zorla seçilən milli tariximizin başlıca qəhrəmanları, şəhərlərimizin vəziyyəti, abidələr, eləcə də mühüm tarixi hadisələr məhz bədii ədəbiyyatın vasitəsilə yaddaşlara keçib canlanmaqla davamlı mövqe tuta bilmişlər. Bu əsərlərdə təsvir olunmuş tarixi hadisələr və şərait, dövrün etnoqrafik xüsusiyyətləri, dövrün dili və üslubu ilə yanaşı əsas qəhrəmanlar da sənətkarlıq baxımından bitkin, möhtəşəm obrazlara çevrilmişdır.

Dövrün əsl mahiyyətini, doğru-dürüst mənzərəsini, real tarixi inkişaf qanunauyğunluqlarını əks etmək kimi ciddi niyyətlərlə bağlı olan tarixi roman təcrübəsi mühüm, vacib fəaliyyət sahəsidir. Həqiqətən də tariximizin "tədqiqində" və sevdirilməsində bədii ədəbiyyat nümunələri, o cümlədən tarixi roman mühüm rol oynayır. Beləliklə Vətən sevgisini, torpağa məhəbbəti əks etmək, keçmişin səhifələrinin işığa tutularaq bərpa etməklə canlandırmaq həmişə olduğu kimi bu gün də ədəbiyyatımızın mühüm vəzifələrindəndir.

Bu bir həqiqətdir ki, tarixini, millətini, onun yaratdığı mədəniyyəti sevmədən belə uğurlu əsərlər yaratmaq da mümkün deyil. Bu artıq vətən, yurd, el-obaya məhəbbətin düzgün tərbiyəsini tələb edən məsələdir

Əlbəttə, bu hamımızın sevdiyi, ürəkdən istədiyimiz tarixdir. Bu mövzularda əvvəllər də ədəbiyyatımızda "Ağa Məhəmməd şah Qacar" (Əbdürrəhim bəy Haqverdiyev), "Nadir şah" (Nəriman Nərimanov) kimi uğurlu əsərlər yazılıb. Təbii ki, sevdiyimiz tarixin ədəbiyyatda əksini də biz həmişə həyəcanla

gözləyirik. Həmişə tarixiliyin və bədiiliyin vəhdəti maraq doğurmurmu?

Hər bir kəsə məlumdur ki, bədii ədəbiyyat elmi ədəbiyyatdan, tarix kitablarından çox oxunur. Bu məqsədlə əsərlərini dövrün bədii tədqiqi saya biləcəyimiz Seyid Hüseyn, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Hüseyn Mehdi, Həsən Seyidbəyli, Əzizə Cəfərzadə, Fərman Kərimzadə və b.k. sənətkarlarımızın yaradıcılıq təcrübəsi üzərində yüksələn müstəqillik dövrü tarixi nəsrimiz, ələlxüsus, tarixi roman janrının inkişafında yeni bir mərhələni səciyyələndirən nümunələri üzrə *tarixi hadisələr və tarixi şəxsiyyətlərin bədiiləşdirilməsi; mövzu və qəhrəman məsələsi; tarixi mənbə və bədii düşüncənin vəhdəti; bədii ədəbiyyat və tarix; dövrün tarixi-bədii tədqiqi; milli varlığımız qədim tarixdə,tarixi əsərlər keçmişlə bu gün arasında körpüdür* – deyə Hüseynbala Mirələmov, Mustafa Çəmənli, Sabir Rüstəmxanlı, Yunus Oğuz, Elçin Hüseynbəyli yaradıcılığı üzrə müşahidələrimiz səmərəli görünə bilər.

Tariximizin bədii əksi olan bu romanlar məhz bu səbəbdəndir ki, respublika ictimaiyyəti arasında ciddi oyanış doğurmuş, oxucular tərəfindən rəğbətlə qarşılanmış, çox sevindirici haldır ki, dərhal bir çox xarici dillərə, o cümlədən, türk, ukrayna, fars dillərinə tərcümə edilərək yayılmışlar.

Əgər tarixi roman janrının yeni çağda inkişafından danışmaq lazım gəlirsə bu sahədə yazıçı Hüseynbala Mirələmovun fəal rolunu xüsusi qeyd etmək lazım gəlir.

Ədibin Azərbaycan dövlətçiliyi tarixindən hesab olunan mövzulara üz tutması bu günümüzün reallığıdır. Axı tarix sözünün ən universal mənası yaddaşdır (Elçin). Yeri gəlmişkən, bununla bağlı qeyd edək ki, bu romanların hər biri bizim tarixşünaslıqda haqqında demək olar ki, söz açılmamış və nəticədə böyük boşluq duyulan məsələləri əhatə edir.

Bütün hallarda yazıçının ilkin məqsədi tarixi-mədəni irsin təbliğinin bütün vasitələrlə gücləndirilməsidir. Millətin

tarixi yaddaşını özünə qaytarmaq və onun mənsub olduğu, keçdiyi tarixi, eləcə də tarix yolunu bərpa etməkdir. Çünki Azərbaycan əsrlər boyu yadelli qəsbkarların işğalına məruz qalıb və birmənalı şəkildə hər bir işğalçı qüvvə öz qılıncının zorunu bizə göstərmiş. Bu ağrını millətimiz, xalqımız təkcə fiziki olaraq öz canında, əzalarında hiss etməyib, həm də mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, gerçək dəyərlərimiz təzyiqə, zora, təhrif olunmağa, bəzən tamamilə dəyişdirilməyə məruz qalmışdır.

Zaman keçdikcə millətin içərisindən çıxan yurdsevərlər, cəfakeş ziyalılarımız tariximizin və mədəniyyətimizin pərvanəsi olan övladlarımız sözün həqiqi mənasında bir pərvanə kimi daim özlərini oda-alova vurublar. Təbii ki, bax, bugünkü günümüz üçün. Azərbaycanın müstəqillik dövrü üçün. Azərbaycanın öz müstəqilliyinə qovuşması, bunun ilk illərini əhatə edən keçid dövrünün başa çatması nəticəsində artıq ədəbiyyatımız özünün yeni dövründə təsbitinə başlamışdır.

Ədəbiyyatımızın, milli-bədii təfəkkürün xüsusiyyətlərini inkişafını, nəzərə alaraq deməliyik ki, keçid dövrünə xas olan "sönük əsərlərin həqiqi bədii dəyərləri üstələməsi" (Akif Hüseynli) halı sənətdə buraxdığı ağır təsirini artıq itirməkdədir. Azərbaycan xalqının "yetmiş illik mənəvi riyakarlıq məngənəsində" (Elçin) çırpındığı zaman barəsində tarixi əsərlərin görkəmli tədqiqçisi Yavuz Axundlu: Azərbaycan tarixi ...uzun illər tarixi həqiqətləri tam əks etdirə bilməmiş; bəzən də tarixçilərimiz bilərəkdən bu təkzibolunmaz həqiqətlərin üzərinə kölgə salmışlar, deyə yazır və düşüncələrini "bu cəhət özü də tarixçilərlə bərabər bədii söz ustalarına da təsirsiz qalmamışdır. Onlar da tarixçilərlə bir sırada keçmişi yalnız müəyyən qərar və direktivlərin dəst-xəttinə uyğun bədii tədqiqat obyektinə çevirmişlər. Lakin son illərdə keçmişə yeni meyarlarla yanaşmağa diqqət artmış, tarix elmində, istərsə də söz sənətində obyektiv tarixi həqiqətləri əks etdirmək meyli güclənmişdi". (Yavuz Axundlu) şəklində yekunlaşdırırdı

Belə ki, həm tarixi yazanların, həm də oxucuların tarixi həqiqətlərə; ədəbiyyat tarixinin "ideoloji yasaqlarına"(Elçin) münasibəti dəyişmişdir. İndi tarixi faktların doğru-dürüst əks olunması öz zəruriyyətini hər an hiss etdirməkdədir. Etiraf etmək gərəkdir ki, nə müəllifin özünü aldatmasına, nə də oxucusunu aldatmağa haqqı yoxdur. Odur ki, get-gedə ədəbiyyatda insan həyatı, tariximiz, bu günki gəncliyin problemləri, düşüncələri, mənəviyyat məsələləri daha geniş əks olunmaqdadır. Hal-hazırda belə görünür ki, tarixi mövzularda yazılmış əsərlər bizə hər zamankından daha çox indi lazımdır. Belə əsərlər bizim tarixi təcrübəmizin bu günümüzə və gələcəyimizə tətbiqi mənasında örnək, müəyyən mənada proqram xarakterli qiymətli vasitələrdir. Bir hikmətli söz var: "tarixi keçmişini sevməyən millətin gələcəyi olmaz." Bu mənada gəncliyimizə, müstəqil ölkənin gənc vətəndaşına tariximizi sevdirməyin yollarından biri kimi belə mövzulu kitabları oxumağa həvəs və şövq aşılamaqdır.

Azər. TAC-ın müxbirinin "İndi hansı əsər üzərində işləyirsiniz? sualına verdiyi cavab ölkəmizdə son illərdə təbii olaraq aktivləşən tarixi mövzulu əsərlər yazmağa hələ də görülmüş böyük işlərdən başqa yazıçının yenə də şövqünün, istəyinin yetərincə oldiğunu göstərir:

-Hazırda "İki şah, iki sultan" roman-trilogiya üzərində çalışıram. İlk olaraq "Azərbaycan" jurnalının beşinci nömrəsində(2017) bir fəsli dərc edilib. O fəsil "Qazi Bürhanəddin səltənətinin süqutu" adlanır. Bilirsiniz ki, Qazi Bürhanəddin şair və dövrünün tanınmış şəxslərindən olub və onun haqqında Azərbaycan ədəbiyyatında çox şey yazılmayıb. Bunu ilk dəfə roman halında mən yazmışam. Bu əsəri yazıb başa çatdırmaq üzrəyəm. Deməli, trilogiyanın iki kitabı tam hazırdır. Birinci kitab "Qazi Bürhanəddin səltənətinin süqutu" adlanır, ikinci Uzun Həsən və Sara Xatun haqqındadır. Üçüncü romanım isə "Çaldırana gedən yol" adlanır və o da hazırdır. Bu romanda bütün qaranlıq, dolanbac yollara, məqamlara işıq salmağa ça-

lışmışam. Türkiyə türkləri bir yana, bizimkilər bir yana yozur bu hadisələri. İndi siz təsəvvür edin ki, Roma papalarının (mən orda hamısını vermişəm) fitvası ilə iki Türk dünyası bir-birini necə məhv edir? Biri zəifləyir, biri də sıradan çıxır. Düz iki dəfə. Təsəvvür eləyin, bir Şah İsmayıl Xətainin dövrü, bir də Uzun Həsənin dövrü.

Bu boşluqların doldurulması təbii olaraq bu günkü ədəbiyyatımızın başlıca problemləridir və təbii ki, onun vəzifəsi və məqsədi Azərbaycanın yeni dövr ədəbiyyatının təşəkkül və inkişaf meylləri sırasında bu dövrdə yaradılmış bədii örnəkləri mənimsətmək, bu dövrün görkəmli ədəbi şəxsiyyətlərinin həyatı və yaradıcılığına oxucuları yaxınlaşdırmaqdır. Ayrı-ayrı bədii nümunələrin təhlili vasitəsilə haqqında söhbət gedən dövrün estetik tələbləri, yaradıcılıq metodu, üslubları və s. barədə cəmiyyətdə təsəvvür yaratmaq və nəticədə mədəni-ədəbi zövqü kamilləşdirməkdir.

Xülasə... Müəllif tarixi əsərlərinin keçmişlə bu gün arasında körpü olduğunu duyurdu və bilirdi ki, millətin keçmişi lal, səhifələrini toz basmış bir kitab olaraq qala bilməz, o tarix bu günə ibrət dərsləri verir, müasir hadisələri qavramağa kömək edir və yazırdı: Azərbaycanlı hökmdar (avşarlar – güclü oğuz boyundan biri) Nadir şahdan bəhs edən “Sonuncu fateh” tarixi romanım üzərində işləyərkən çoxlu tarixi mənbələri araşdırdım və bu zaman ağlıma gələn ilk mənzərə müasiri olduğumuz müstəqil Azərbaycanın 1990-cı illərin əvvəllərindəki vəziyyəti oldu: xaos, anarxiya, bölgələrdə yaradılmış silahlı dəstələr arasında çəkişmələr, başsız qalmış məmləkətimiz yada düşdü. XV əsrin sonlarına yaxın Təbrizdə 10 ilə 8 hökmdar dəyişmişdisə, 1990-cı illərin əvvəllərində 3 ilə 4 hakimiyyət dəyişikliyi baş vermişdi və məlumdur ki, bunların hamısı silahlı çevriliş yolu ilə reallaşmışdı.

Ölkəni belə fəlakətli vəziyyətdən ümummilli lider Heydər Əliyevin qurtardığını bizim nəsil yaxşı bilir, çünki bu

müasir dövrün tarixidir. Ancaq bu tarixi gerçəklikləri də başqa konteksdən təqdim etmək istəyən, Heydər Əliyevin misilsiz xidmətlərini adiləşdirmək istəyənlər var. İsmayıl Səfəvi və onun yaxın ətrafı ölkəni tamamilə dağılmaqdan xilas etməyi qərara alan vaxtda da belə bir kədərli mənzərə vardı.

"Sonuncu fateh" (2007-2011) romanın mühüm məziyyətlərindən biri də ondadır ki, əsərin mövzusu, əhatə miqyası geniş olmaqla həm də istiqamətləri etibarı ilə də çoxtərəfli və maraqlıdır. Belə ki, əsərin başlıca ideyası Azərbaycanın bütövlüyü və Türk dünyasının arasında olan siyasi ziddiyyətlərin yazıçı tərəfindən ortaya qoyulması və bu məsələlərin bədii həllidir.

Özünün də qeyd etdiyi kimi əsərin tərbiyəvi əhəmiyyəti böyükdür; belə ki, tarixi romanlarımız üçün örnək cəhətlərdən biri də ölkədə siyasi-ideoloji duruma, mənəviyyat məsələlərinə xüsusi diqqət yetirilmiş, səltənətin idarə olunmasında əlverişli görünən vasitələr önə çəkilmişdir. Bu gün – dövlətçiliyimizin bərpasında bu məsələlər xüsusi aktuallıq kəsb edir.

Bu zaman ədibin tarixə müraciət tərzinin diqqət çəkdiyini, onun fərdi ictimai-tarixi marağının sosial-fəlsəfi keyfiyyət kəsb edərək xalqın möhtəşəm obrazının yaranmasına səbəb olduğunu xüsusilə qeyd etmək lazımdır. Niyə? Çünki görə bilən üçün müəllif romanının səhifələri arasında zəngin tarixi məlumatları, hadisə və şəxsləri elə yerləşdirib ki, bunun yalnız filoloji fantaziyalara deyil, daha çox sənəd, fakt, arxiv materiallarına əsaslandığını yaxşıca görmək olur.

Deməli, bunları yazıçının bədii düşüncəni real tarixi faktlara tabe tutmasıyla yox, əksinə, tarixi həqiqətlərdən müasir bədii-estetik qənaət hasil etmək, irs və varis arasında sosial-fəlsəfi mühakimə kodlarının bərpasını təmin etmək bəsirəti ilə bağlamışdır.

XVIII əsrdə Azərbaycandakı intibah dövrü, şübhəsiz ki, Nadir şah Avşarla (1688-1747) əlaqəlidir. Onun 14 il davam edən hakimiyyəti dövründə dövlətin sərhədləri Hindistana ge-

dib çıxırdı. Mirələmov Nadir şah dövrünü, onun hakimiyyətə gəlmə səbəblərini və sonrakı Azərbaycan tarixini obyektiv şəkildə dərindən təhlil edib. Bu məsələdə yazıçı Hüseynbalaya tarixçi alim M. Hüseynbala köməyə gəlib. Məhz bu səbəbdən müəllif "Nadir şah" əsərində tarixi Azərbaycan coğrafiyasının hüdudlarını, ölkənin milli tərkibini və səltənətdəki həmin dövrün mədəni-tarixi, iqtisadi, hərbi-siyasi vəziyyətinin bədii tarixi mənzərəsini çəkmişdir. Yazıçınınn qədim mərasimlərimizi, adət-ənənərimizi, folklor deyimlərimizi, xalq sənətimizi yüksək ustalıqla, səlis, axıcı dillə qələmə alması isə mövzuya bəslədiyi hüsn-rəğbətdən, güclü iftixar hissindən irəli gəlməklə yanaşı, yazıçı məsuliyyətinin də aydın ifadəçisidir .

Yazıçı Hüseynbala Mirələmovun qələmə aldığı "Sonuncu fateh" tarixi romanı XVIII əsrdə dünyanın ən görkəmli sərkərdələrindən biri, belə demək mümkünsə Orta Şərqin və Asiyanın sonuncu fatehi sayılan, Türk cahangiri Nadir şah Avşarın coşqun həyat və fəaliyyətinə həsr olunmuşdur. Yazıçı bu böyük tarixi şəxsiyyətin fəaliyyəti və çarpışmalarla dolu həyatını canlandırmaqdan ötrü mövcud olan bir çox qiymətli tədqiqat əsərlərinə və ciddi sənədli qaynaqlara müraciət etmişdir

Məhz bu üzdən də unudulmaz alim Bəkir Nəbiyev "Sonuncu fateh" haqqında böyük bir məqaləsində akademik, ictimai-siyasi xadim, böyük mütəfəkkir, millət fədaisi Nəriman Nərimanov və onun "Nadir şah" əsəri ilə "Sonuncu Fateh" romanı müqayisəli şəkildə təhlil olunmuşdur.

"...Epik janrda yazıçı sənətkarlığının özünü göstərdiyi ən universal müstəvi, əlbəttə, bədii obrazlar, xarakterlərdir. H.Mirələmovun romanındakı əsas obrazlar arasında ən çox yer verilib yadda qalanı, təbiidir ki, Nadir şahın özüdür. Elə buradaca yada salıram ki, Nadir şahın taleyi Azərbaycan ədəbiyyatını XIX əsrin lap sonlarından başlayaraq maraqlandırmışdır. Bu obrazı Azərbaycan dramaturgiyyasına ilk dəfə görkəmli yazıçı və ictimai xadim Nəriman Nərimanov(1870-1925) gətirmişdir..."

Bu, həqiqətən öz qılıncıyla möhtəşəm Avşar imperatorluğu qurmuş Nadir şahdır; indiyəcən nədənsə tədqiqatdan və eləcə də bədii əsər mövzusu olmaqdan uzaq qalan, olsa-olsa hərbi-siyasi fəaliyyəti deyil, yalnız həyatının faciəvi sonluğu marağa səbəb olan bir şəxsiyyət nəhayət bu romanlarda bütöv nəqşinə qovuşa bilmişdir... Hüseynbala Mirələmov bu əsərlə tarixi yaddaşımızı silkələməklə bərabər, bu gün üçün tərbiyəvi məqsəd daşıyan bir xəbərdarlıq da yetirir; bu "İslam hümməti"-nin daşıdığı məzhəb ayrılığının təhlükəli mahiyyəti ilə bağlıdır. Şübhəsiz, hər bir oxucu kimi hər birimiz Nadir şahı daha yaxşı tanıyacaq və sevəcəkdir – İslam dininə rəxnə salan, əsrlərcə onu zəifədən, bu gün də bir çox bədxah dövlətlərin dəyirmanına su tökən məzhəb ayrılığına, sünni-şiə ixtilafına qarşı ardıcıl mübarizə aparan, bu sahədə çox böyük məhrumiyyətlər yaşayıb ciddi maneələrlə qarşılaşayan, lakin mübarizəsini ardıcıl olaraq davam etdirən Nadir şah Avşarı. Əsər belə qiymətli amal və məramları, ideyaları yürütdüyünə görə də qiymətlidir-bu xüsusi vurğulanmalıdır.

Əlbəttə Nadir şah dövrünə aid də əlimizdəki sənədlərin qıtlığı ilə bərabər həm də ziddiyyətli fikirlər mövcuddur. Lakin Şah İsmayıl Xətai kimi Nadir şah Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin formalaşdırılması və birləşdirilməsi istiqamətində çox böyük xidmətlər göstərmiş şəxsiyyətlərdir. Onların bu günümüzə, müasir dövrümüzə proeksiyası, səmərəsiz qalmamalıdır; məhz bu gün müstəqil dövlətimizə başçılıq edəcək böyük şəxsiyyətlərin yetişməsinə və xalqımızın nicatı yolunda öz səylərini lazımınca sərf etməsinə gətirib çıxarmalıdır.

Əsərlə ilk tanışlıqdan da hiss olunduğu kimi yazıçı əsərlə bağlı çoxlu elmi-tarixi materiallara, o cümlədən çoxlu sayda arxiv sənədlərinə müraciət etmiş, ümumiyyətlə Azərbaycan xanlarının tarixini əks etdirən qaynaqlardan bəhrələnmiş, 300 il bundan əvvəl olub-keçmiş hadisələri bir daha gözdən keçirmişdir.

Başqa sözlə desək, Mirələmov dövrün təfərrüatları ilə bağlı tarixi faktları əldə etməkdən ötrü bir neçə dəfə Sankt-Peterburq, Tiflis, Tehran və Azərbaycan arxivlərinə müraciət etmiş, o dövrün hadisələrini az qala günbəgün qələmə alan müəlliflərin arxivdə yığılan materialları ilə tanış olmaq üçün uzun müddət arxivlərdə işləmiş, mühüm tarixi faktların üzə çıxarılmasına çalışmış, bununla ictimaiyyətin bunlardan xəbər tutmasına şərait yaratmışdır. Müəllifin fəaliyyət sferasına yaxşı bələd olan biri kimi deyə bilərəm ki, Mirələmov dərin mütaliəli, geniş dünyagörüşlü, yüksək erudisiyalı sənətkardır. Odur ki, istər tarixi romanlarında, istərsə də digər əsərlərində aparıcı cəhət Hüseynbala müəllimin obrazlı təfəkkürün, sənətkar təxəyyülünün möhkəm olmasıdır. Yəni onun təhkiyəsində demək olar ki, soyuq mühakimə, cansız, quru ifadə tərzi yoxdur. Əksinə, tarixi keçmişimizə şairanə yanaşma, ictimai hadisələrlə bərabər sevgi işartıları sayrışan güclü insani duyğuların paralelliyi mövcuddur.

Bu zaman yerinə düşər ki, qeyd edək ədib bu mənbə və qaynaqların heç də əsiri olmamış; əsiri olmadan da qiymətli, təzə-tər bir əsər yazmış, onu tariximizdə yer tutan ictimai-siyasi baxışlarına müxtəlif xarakterli və əqidəli obrazlarla zənginləşdirmişdir. Bu mənada romandakı surətlərin əksəriyyəti tarixi şəxsiyyətlərdən ibarətdir. Müstəqillik dövrümüzün belə dəyərləndirilməsi bu gün hansı əhəmiyyəti daşıyır bu məqamda aydın olur. Biz Nadir şah varisləri yaxşı bilirik ki, belə tarixi şəxsiyyətlər heç vaxt müsbət yöndən bədiiləşdirilə bilməzdi. Odur ki, onların adlarına müsbət planda nə tarix səhifələrində, nə də bədii salnamələrdə rastlana bilinməzdi.

Diqqəti bir cəhət təşkil edir: bu son illərdə ədəbiyyatımızda meydana çıxan tarixi əsərlərdə baş qəhrəmanlar yalnız xan və ya şah olmuşdur. Hər şeydən öncə nəzərə alaq ki, bizim ədəbiyyatda son zamanlara kimi hakimlərin-şahların, xanların və bəylərin belə yalnız mənfi cəhətlərini qabardılırdı, əslində onların Azərbaycan tarixində böyük rolu olmuşdu və bu gün

Azərbaycanın milli dövlətçiliyindən, dövlət quruculuğundan söhbət gedirsə, onda bu dövlətin böyük tarixi ənənələrini, bu ənənələri yaradan insanlardan, şəxsiyyətlərdən danışmaq, onların bədii obrazlarını təcəssüm etmək lazımdır.

Belə bir sual meydana çıxır: biz tariximizin bədii mənzərəsini yaşada bilmişikmi? Axı, tarixi yazmaq da iki anlamdadır: tarixi tarixçi kimi, elmi tədqiqat mövzusu olaraq işləmək-yazmaq, onu bəlli elmi metodlarla araşdırmaq və bu yolla böyük tarixi cavablandırmaq, təhrifləri, yanlığlıqları işığa tutmaq, təshih etmək, bununla millətin həqiqi tarixini meydana çıxarmaq. Söhbəti tarix yazmağın ikinci mənasına gətirsək deməliyik ki, əlbəttə yazıçı tarixçi deyildir; onun əsas işi tarixi bədii baxış bucağı ilə canlandırmaq – ona ruh, can verməkdir.

Yadımdadır, Zori Balayanın yalan-iftira məzmunlu və az sonrakı məşum hadisələrin sıqnalı olaraq bilinən "Ocaq" əsərindən sonra çap olunan Sabir Rüstəmxanlının "Ömür kitabı" bir azad fikir yayan, milli heysiyyəti tərpədən kitab olmaqla böyük əsər kimi qarşılananda bəzi "ağzıgöyçək tarixçilər" qısqanclıqla müəllifə tarixi təhrif etdiyini çatdırmışdılar. Onlar sadəcə tariximizdə görmək istəmədikləri həqiqətlərin yerinə yalan sırıyan cızmaqaraçı bədxahlar idi və Rüstəmxanlı özünə xas əda ilə həmin "tarixçi"yə: mən dissertasiya yazmıram, müəllim, demişdi.

Göründüyü kimi məqsəd kökümüzü kəşf etməkdirsə, hər iki axtarışın nəticələri bu məqsədə xidmət edir.

Bu zaman qeyd etsək, yerinə düşər ki, ədib bu mənbə və qaynaqların heç də əsiri olmamış; əsiri olmadan da qiymətli, təzə-tər bir əsər yazmış, onu tariximizdə yer tutan ictimai-siyasi baxışlarına müxtəlif xarakterli və əqidəli obrazlarla zənginləşdirmişdir.

Bu mənada qeyd etməliyik ki, romandakı surətlərin əksəriyyəti tarixi şəxsiyyətlərdən ibarətdir. Müstəqillik dövrümüzün belə dəyərləndirilməsi bu gün hansı əhəmiyyəti daşıyır bu məqamda aydın olur. Biz Nadir şah varisləri yaxşı bilirik ki,

belə tarixi şəxsiyyətlərin əvvəlki çağlarda (sovet dövrü nəzərdə tutulur) heç vaxt müsbət yöndən bədiiləşdirilməsi mümkün deyildi. Odur ki, onların adlarına müsbət planda nə tarix səhifələrində, nə də bədii salnamələrdə rastlana bilinməzdi. Əksinə: Azərbaycanın istila generalları və ya müstəqillik taleyində məşum rol oynamış düşmən ünsürlər (Qatır Məmməd, Əli Bayramlı, Məşədi Əzizbəyov, Çingiz İldırım, Şaumyan) isə xalq qəhrəmanları səciyyəsində tarixə və ədəbiyyata köçürülmüşdü (Qatır Məmmədə Gəncədə qoyulan abidə, həyatından bəhs edən film və s. Sisiyanovun adına Bakının mərkəzi küçələrindən biri olduğu kimi; daha əvvəl 30-cu illərədək isə onun adına bağ və öldürüldüyü yerdə xatirə obeliski var idi.)

Buna görə də “Sonuncu fateh”ə cəlb olunan bu qaynaqlar müəllifə əsərdə maraqlı, cazib döyüş səhnələri qurmağa, habelə tarixi şəxsiyyətlərin dəqiq, doğru-dürüst, dolğun portretini yaratmağa kömək etmişdir. Əsərdən aydın görünür ki, müəllif Makedoniyalı İsgəndər, Çingiz Xan, Əmir Teymur, Şah İsmayıl Xətai kimi dünya şöhrətli hökmdarlarla bir sırada dayanan bir hökmdar obrazı yaratmağa müvəffəq olmuşdur.

Baxın, Nadir şah hakimiyyətə gələrkən səltənət necə fəci bir vəziyyətdədir... xalqın yadelli işğalçılara qarşı mübarizəsi gündən-günə şiddətlənmədə, ölkədə hərc-mərclik, pərakəndəliklər genişlənmədə, zülm, haqsızlıq, soyğunçuluq və talan hər an artmada. Heç də həsəd aparılmalı olmayan belə bir şəraitdə Nadir şah hakimiyyətə gəlir. Lakin Nadir şah təkcə qılınc qəhrəmanı deyildir, o, dərin bilik və zəka sahibidir, bacarıqlı siyasətçidir. Lakin bu hələ hamısı da deyildir; o Nadir şah obrazı ilə güclü və ziddiyyətli bədii xarakter yaratmaq, uzaq tarixi mövzuda müasir ideyaları təsvir və təlqin etmək qabiliyyətini göstərə bilmişdi. Hadisələrin sonrakı gedişi bunu göstərir.

Nəticə etibarı ilə deyə bilərik ki, tarixi janrındakı nümunələrimiz tariximizin qədim qatlarının daha dəqiqliklə öyrənilməsinə, bir çox tarixi qəhrəmanlarımızın geniş kütlələr arasında tanınmasına, hərtərəfli və dərindən öyrənilməsinə kömək

etmişdir. Daha çox da bədii sənət nümunələrinin vasitəsilə populyarlaşan və bu gün şəxs adlarına çevrilmiş tarixi sima adları – Babək, Nizami, Nadir, Məhsəti, Şirin, Cavanşir, Fərhad, Vaqif... hər şeydən əvvəl, bu tarixi obrazların kütləviləşməsi nəticəsində əmələ gəlmişdir.

# Tarixiliyin həllində yazıçının ictimai mövqeyi əsasdır

Şahların, padşahların hamısına mürtəce, qaniçən, xunxar deyənlərdən çox-çox fərqli mövqelərdə bulunan yazıçının bu barədə yeri gəlmişkən, bir tarixi həqiqəti də qeyd etmək lazımdır ki, Şah İsmayıl məşum Çaldıran döyüşü ərəfəsində belə ilk növbədə istedadlı rəssam və alimlərə qayğı göstərir, onları təhlükəsiz yerdə gizlətməyi, qorumağı əmr edib. İsmayılın taxta yiyələndikdən dərhal sonra gördüyü işlərdən biri də Hulakilər dövlətinin süqutundan sonra dağılmaq həddində olan Marağa rəsədxanasının bərpası olub. Bu işlərin görülməsi üçün şah ora məşhur astronom və riyaziyyatçı Qiyasəddini göndərib. Bununla yanaşı, Təbrizdə onun fərmanı ilə kitabxana açılıb. Kitabxananın rəisi isə Kəmaləddin Behzad təyin olunub və o da sonralar Təhmasibin vaxtında, bu gün də dünya xalça toxuculuğunun mirvarisi sayılan "Şeyx Səfi" xalçasını toxuyub.

Bir çox mütərəqqi tədbirlərin üstündən kar-kor kimi sükutla keçən bu şübhəkarlardan – Şah İsmayılı şiəliyi yaymaqda qınayan, bunu onun yeganə məramı olduğunu və buna görə onun guya sünniləri qırdığını bildirənlərdən soruşmaq istərdim: əgər Sultan Səlim Yavuzun niyyəti Osmanlı imperiyasının sərhədlərini genişləndirmək deyildisə, məqsədi "kafir şiələrə" qarşı savaş idisə, o zaman niyə əhalisi onlarla eyni məzhəbdən olan – sünni Misirə elə Çaldıranın ardınca 1516-cı ildə yürüş edib məmlüklər dövlətini süquta uğratdı? Məgər Sultan Səlim İslamdan ilhaqçılıq siyasətini həyata keçirmək üçün istifadə etmirdimi? Türk tarixçisi Volkan Qocatürk göstərir ki, Sultan Səlim hakimiyyəti ələ almamışdan əvvəl tərəfdarı olacaq yeniçərilərə deyirdi: "Əgər mən padşah olsam, Ərəbistanı çərkəzlərdən, Əcəm elinin şəhərlərini isə qızılbaşlardan təmizləməkdə israrlıyam". Buradan da görünür ki, din, məzhəb fa-

tehlərin, sərkərdələrin əlində həmişə siyasi-hərbi məqsədlərinə çatmaq üçün bir vasitə olub. Ona görə də fikrimizcə, Şah İsmayıla çamur atmaq, bununla onun dövlətçiliyimiz üçün xidmətlərini danmaq yalnız məkrli örtülü məqsədlərə xidmət edir.

Son dövrlərdə xaricdə Səfəvi - Osmanlı münasibətlərinə həsr olunmuş əsərlərdən görünür ki, Şah İsmayılın şəxsiyyətinə qarşı yönələn "böhtan yürüşü" əslində Azərbaycanda məzhəb qarşıdurması və təfriqə salmaq planlarının ideoloji taktiki mərhələsidir. Burada tarix də, Şah I İsmayıl da, Sultan I Səlim də bu təfriqəni salmağa çalışanların manipulyasiya vasitəsidir.

Karl Marksın mübaliğəsiz şəkildə bir fateh kimi dəyərləndirdiyi heyrətamiz insan Şah İsmayılın həyat tarixçəsinin parlaq səhifələri, xalqına və dövlətinə, doğma dilinə sonsuz məhəbbəti, misilsiz sərkərdəlik şücaətləri hər bir azərbaycanlı üçün qürur və şərəf ünvanıdır. İyirmi üç illik hakimiyyəti dövründə bu böyük fateh, ərazisi 2 milyon 800 min kvadrat kilometr olan əzəmətli və müstəqil Azərbaycan dövlətinin yaradıcısı və qurucusu kimi tariximizin şanlı səhifələrindən birini yazıb.

Bu gün Azərbaycan öz tarixinin və tarixi şəxsiyyətlərinin həqiqi sahibinə çevrildiyi, onların müqəddəs ruhu qarşısında günahlarını yuduğu, onların adlarını əbədiləşdirdiyi, irslərini gələcək nəsillərə tanıtmağa başladığı bir vaxtda, hələ xalqı və milləti adına bir quruş dəyərində belə xidməti olmayan Güntay Gəncalp, İskəndər Pala kimi içinə məzhəb ədavəti hopmuş qondarma tarixçilər, cızmaqaraçılar nə haqla və hansı məqsədlə Azərbaycanın şərəf tağlarından biri olan Şah İsmayıl Səfəvinin adına çamur və çirkab atırlar?

Güntay Gəncalpın "Səfəvilər" kitabında çoxsaylı bəsit və eyni zamanda ağlasığmaz mülahizələr yer tutub. XVI əsr siyasi mühitinin və düşüncə tərzinin necə olduğunu heç təsəvvür edə bilməyən, bir neçə gurultulu ad daşıyan, dəyişəm əsil adı isə Mənuçöhr olan Gəncalp Səfəvilərə və xüsusən Şah İsmayıla ifrat mənfiliklər və dözümsüzlük mövqeyindən müxtəlif itti-

hamnamələrlə - şiəliyi bayraq etmək, “etnik mənsubiyyət duyğusu”nun məhz Səfəvilərdən başlayaraq sönməyə doğru getməsi kimi saxta, göydəndüşmə “günahlarla” onları suçlamaları dövlətçilik təcrübəmizi gözü götürməyən qüvvələrin diktəsi ilə dediyi hamıya məlumdur. Yəni belə çıxır ki, Azərbaycan türkləri ilə Osmanlı türkləri arasındakı etnik duyğunu Səfəvilər yox etmişdir(?). Bu adam başa düşmür ki, hegemonluq uğrunda mübarizədə etnik duyğu ikinci plana keçir. Kim öz taxt-tacını və müstəqilliyini etnik mənsubiyyətinə qurban verər?! Məgər amerikalı-ingilis müharibəsində eyni bir millət bir-birini qırıb-tökməmişdir? Bəs o dövr ABŞ və ya İngiltərə hökumətlərini qınayan bir tarixçi varmı? Yox! Dünyada heç bir dövlət öz müstəqilliyini etnik duyğuya qurban verməz, ay Güntay Gəncalp!

Daha bizə yazıq, miskin, zavallı adamcıqlar – novruzəlilər, feyzulla kəbirlinskilər yox, güclü qəhrəmanlar lazımdır. Elə qəhrəman ki, ideala çevrilsin, nəhəng olsun, insanı ardınca aparsın, deyə bu günkü ədəbiyyatın hədəflərini doğru, düzgün müəyyənləşdirməyə çalışan Əsəd Cahangir qeyd edir. Doğru və yerində qeyd edir... Bunu etnik mənsubiyyəti etibarı ilə Şah İsmayılın təmsil etdiyi xalqa mənsub olan Güntay Gəncalp da bilməli idi. Və düşünürsən ki, bəlkə bilirdi də. Sadəcə din dəllalarının, din bazarının şirnikləndirici təşəbbüsləri olmasaydı.

Müəllif tariximizin şərəfli, bir o qədər də ağrılı nöqtələri barədə yazarkən özünün buradakı dialoqunda nümayiş etdirdiyi tələblərə sadiq idi; işğalçı, istilaçı müharibələrə, basqınlara qarşı xalq qəzəbini, onun vətənpərvərliyini, talançılara qarşı ayağa qalxmasını, eyni zamanda zülmün səmərəsini, düşmənin kəmfürsətliyini göstərməli deyildimi? Şah İsmayıl öz xalqının müqəddəratının, həyat və mübarizə təcrübəsinin tərcümanıdır.

Xalqımızın yaddaşında Şah İsmayıl Xətainin öz yeri var, onu heç nə ilə unutdurmaq, saxtalaşdırmaq olmaz. Bu səbəblərdən də Şah İsmayıl Xətainin bədii dili və onun doğma dilinə münasibəti bu gün ədəbi dilimizin möhtəşəm bir dövrünün dil

xüsusiyyətlərini bəlirləyən bir meyara döndü. Bunu bilmək lazımdır. Şah İsmayıl Səfəvi Azərbaycan dilini etnik bir dildən ali dövlət dilinə çevirdi. O, Yuli Sezardan sonra ilk böyük bir səltənətin – imperiyanın banisi və tacidarıdır ki, özü də qüdrətli qələm sahibi, təkrarsız poeziya incilərinin yaradıcısı olmuşdur. Bu məsələdə də oxucuları, xalqımızı dalanlara yönəldən cızmaqaraçılar var.

Təəssüf doğuran hal ondan ibarətdir ki, təhlükəli özgə təmayüllərin "qurbanları" – sapı özümüzdən olan baltalar belə olduğu təqdirdə öz oturduğu ağacı kəsir, onun zərbəsi özünə, öz dövlətçilik keçmişinə və mədəniyyət tarixinə dəyir. Bir çox tarixçilər Şah İsmayılı farsa, İrana çəkməyə cəhd edir, onun Azərbaycan dilini dövlət dili elan etməsi və qızılbaşların yalnız bu dildə danışması faktının üstündən isə sükutla keçirlər. İ.P.Petruşevski yazır: "Şair olan və özündən sonra divan qoyub getmiş Osmanlı Sultanı I Səlim yalnız fars dilində yazdığı halda, İsmayıl Azərbaycan dilində yazırdı. Təkcə bu fakt bəzi Avropa tədqiqatçılarının İsmayılı İran vətənpərvəri kimi təqdim etmələrinin nə qədər cəfəng olduğunu göstərir. Azərbaycan dili İsmayılın ana dili idi, onun və ailəsinin əsas dayağı Azərbaycan köçəriləri idi, onun sarayında Azərbaycan dilində danışırdılar".

Yazıçının hiddəti başa düşüləndir: Mən son vaxtlar Güntay Gəncalp, İskəndər Pala kimi insanlara dəstək verən və bunu həm yazılı, həm də internet resurslarında, gənclərimizi, yeniyetmələrimizi çaşdıran müxtəlif çızmaqaralarla bəyan edən insanların özlərini Azərbaycan vətəndaşı saymalarından dəhşətə gəlirəm.

Müxtəlif tarixi məxəzlərə, Azərbaycan tarixinin araşdırıcılarının əsərlərinə yenidən nəzər salıb belə insanlara cavab yazdığım bir vaxtda cağdaş fəlsəfi fikir tariximizin görkəmli nümayəndəsi, böyük dövlət xadimi, akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi" zəngin tarixi faktlara söykənən dərin məzmunlu əsərini birnə-

fəsə oxudum və etiraf edim ki, yalnız bundan sonra, neçə gündən bəri qəzəbdən rahatlıq tapa bilməyən qəlbimə bir sakitlik gəldi. Hörmətli akademikin yazdığı bu əsər əslində Şah İsmayıl Səfəvi haqqında, Mərkəzləşdirilmiş Azərbaycan Dövlətinin banisi barədə dəyərli və sanballı HİMNDİR!

Şərqşünas alim Riçard Fray da "İran ensiklopediyası"na yazdığı məqalədə göstərir ki, Səfəvilər sülaləsinın əsası Azərbaycan türkləri tərəfindən qoyulub. Bu fikirlə Qərbin tanınmış alimləri bu barədə daha geniş tərzdə əmək qoyan Tadeuş Svyatoxovski və X.Seton-Vatson da razılaşırlar.

Hətta mürtəce İran tarixçısi Rza İnayətullanın yazdığı və erməni alimi Q.Asatryanın fars dilindən tərcümə edib ön söz yazdığı "Azərbaycan və Arran: (Atropatakan və Qafqaz Albaniyası)" əsərində hər iki alim etiraf edir ki, Səfəvilərin dili Azərbaycan türkcəsi olub.

Düşünürəm, nə yaxşı bunu yad bir millətin, başqa bir xalqın vicdanlı tarixçi alimi deyir. Amma bu faktın təsdiqi təkcə bu kiçik sitatla bitmir. Digər bir yəhudi alimi Devid Ayolon da 1956-cı ildə nəşr olunmuş əsərində təsdiq edir ki, Səfəvilər mənşə etibarı ilə fars yox, türk olublar.

Həqiqətən, sənət bütün tarixi dönüşlərdə insanları və xalqları öz ardınca, öz yolu ilə apara biləcək istinad mənbəyi olmuşdur.

Vətən, millət və insanlıq aşiqi müəllifin geniş elmi dünyagörüşü, eləcə güclü milli mənlik eşqi onu bəzən yazıçılıqdan uzaqlaşdırıb qətiyyətli bir inadkar araşdırmaçıya, mütəəssib bir millət sevdalısına çevirir. Bu və buna bənzər digər şəraitdə rastlanan tarixin saxta səhifələri və ya tarixə kobud müdaxilələr aşkarlanınca onun alim hiddətini anlamamaq qeyri-mümkündür:

Baxın, bir çox Azərbaycan türkünün bəh-bəhlə şərhlər yazdığı "Şah və Sultan" romanında İskəndər Pala nə yazır: "Şah İsmayıl türkcə, Sultan Səlim farsca ona görə məktublaşırmışlar ki, qarşı tərəfə onun dilində cavab versinlər". Bu, Pala-

nın sayıqlamasından başqa bir şey deyil. Palaya ən tutarlı cavab elə bu günlər mətbuatda əksini tapan Sankt-Peterburq Şərqşünaslıq İnstitutunun kitabxanasından Şah İsmayıl Səfəvinin fərmanının tapılması və Azərbaycana gətirilməsi xəbəri olub. Pala əgər türkcə yaxşı bilirsə, internet saytlarından həmin fərmanı tapıb oxusun və bəlkə onda vicdanı qarşısında Səfəvinin ruhunu necə incitdiyini etiraf edə bildi. Əlbəttə, əgər buna cəsarət tapsa! Oxucular agah olsun deyə Şah I İsmayılın fərmanının – "Əbülmüzəffər Sözü"nün son hissəsini təqdim edirik:

"Əhməd ağa ittifaqı ilə dərgahi-müəllamizə bildirsinlər kim, hər növ buyruğumuz olsa, əməl etsin könlümüzə xoş dutub mərhəmətimizə əmrdar olsun. Təhrirən 7 rəbiüləvvəl, sənə 917"

"Əbülmüzəffər" Şah İsmayılın künyəsidir (ləqəbidir). Tarixçilər bu adla Şah İsmayılı tanıyırlar. Sənəddə "Fərman" sözünün yerinə "Sözümüz" yazılıb ki, bu da sırf Azərbaycan türkcəsində olan bir sözdür, klassik epistolyar üslubumuzun dəyərli nişanəsidir..

Şah İsmayıl doğma Azərbaycan dilini indiki Azərbaycan, İran, İraq, Əfqanıstan, Qərbi Pakistan, Türkmənistanın cənubunda və Şərqi Anadoluda dövlət dili elan edib. Azərbaycan dili bu dövlətdə iki yüz ilə yaxın bir müddətdə saray, ordu və məhkəmə dili olub. V.Minorskinin fikrinə görə, Şah İsmayıl Xətainin şair kimi poeziyada Azərbaycan dilinə üstünlük verməsi onunla izah olunur ki, o öz ardıcıllarının - türklərin onu aydın başa düşməsini istəyirdi. Bəzən dilimiz haqqında düşünəndə Müstəqil Azərbaycanın yeni Ana Yasasının müzakirəsi zamanı ciddi polemika mövzusu olan dilimizin adı məsələsində ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi fəhminə heyran olmaya bilmirsən.

Hamıdan "bu işdə xalqın iradəsini nəzərə almaq" mövqeyindən çıxış etməyi tələb edən ulu öndər deyirdi: "...Mən bu danışdığımız dili - buna hansı dil deyirsinizsə deyin - çox gözəl dil hesab edirəm. Dilimiz çox zəngindir, çox ahəngdar-

dır, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm”. Və sevdiyi dilin haqqını qorumaq uğrunda səylərini belə tamamladı: “Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır”.

Dövlətçiliyə, onun tarixinə, milli köklərə, mədəni və mənəvi irsə sədaqətin yüksək nümunəsi! Zənnimcə, bu zirvədə ulu öndər Heydər Əliyev öz sələfi Şah İsmayıl Səfəvi ilə birləşir!

Məhz Şah İsmayıl Səfəvi bəşər tarixini qabaqlayaraq öz millətinin, dövlətinin və ana dilinin dünya vətəndaşlığını 500 il əvvəl təsdiq etdirdi. Bunu nəyin bahasına və necə etdisə, tarix üçün elə də böyük dəyəri yoxdur. Dəyəri olan odur ki, bu gün onun vətəndaşlıq qazandırdığı Azərbaycan dövləti, Azərbaycan dili, Azərbaycan xalqı var. Şah İsmayıl Səfəviyə qara yaxanların bəzilərinin Azərbaycan türkü olduğunu gördükdə təəssüflənirsən və sonra anlayırsan ki, Şah İsmayıldan sonra Azərbaycanı doğraya-doğraya, parçalaya-parçalaya farsa, rusa, erməniyə pay-puş edənlər beləri olublar

Tarix dərsliklərində donuq tarixi şəxsiyyətlər, onun kimi də hadisələr o qədər statistik görünə bilər ki, onun bir çox hallarda fərqli qəbuluna da dözümlülük göstərməli olursan. Maraqlı da odur ki, özlüyündə bu zaman tarix heç də bədiiliyə xidmət etmir, nə də buna yer qoymur. Belə ki, tarix bədiiliyin içində görünməz olmur, əksinə çox doğru olar desək ki, bədiilik tarixə xidmət edir, yəni bədiilik tarixin içindədir, onun tərkib hissəsidir. Bu, tarixdir; bədiiləşmiş tarixdir və ya tarixləşmiş bədiilikdir. Lakin yalana, bilərəkdən və ya bilməyərəkdən təhrifə yer qalmır.

Deməli, tarixi əsərlərin uğurlu bir hadisə kimi qarşılanmasını təmin edən əsas çəhət həm də onun sağlam qaynaqlara, doğru-düzgün mənbələrə əsaslanmasındadır. Bu tələblərin gözlənildiyi tarixə, tarixi şəxsiyyətlərə həsr olunmuş əsərlər özü əlverişli mənbələrə çevrilir, hər zaman böyük maraqla oxunan

vəsaitə dönür. Həqiqətən ədəbiyat bütün zamanlarda tarixin yükünü çəkməli olub...

Lakin öz tariximizin araşdırılıb kəşf edilməsində görüləcək işlərimiz çoxdur... Dünyanı sarsıdan İskit, Hun savaşlarının, Batı-Doğu Hun dövlətlərinin, Göytürk dövlətinin, İlteriş Kağan, Kapağan Kaqan, Bilgə Kaqan, Kül Tekin kimi dövlət başçıları – qəhrəmanların, Tonyukuk kimi dövlət xadiminin, Moyun Çur kimi qəhrəmanın, Qaraxanlı dövlətinin, onun Kaşqarlı Mahmud, Yusif Xas Hacib kimi bolgə yazarlarının, Fərabi, İbn Sina kimi elm zirvələrinin, Çingiz xan, Batı xan kimi dünya miqyaslı sərkərdələrin, Yasəvi, Yüknəki, Mövlanə, Nəsimi, Nəvai, Babur, Füzuli, Baqi... kimi qələm ustalarının, Sultan Fateh, Şah İsmayıl, İldırım Bəyazid, Sultan Səlim, Teymurləng, Qanuni... kimi hökmdarların, Qaraxanlı, Səlcuq, Göytürk, Osmanlı, Səfəvi...dövlətlərinin haqqında layiq olan romanları, povest və hekayələri yazmışıqmı?

O qəhrəmanların daxili aləmi, o savaşların həqiqəti, o dövlətlərin fəlsəfəsi, o eşqlər, tutqular, macəralar...bədii sözün qüdrəti ilə canlandırılıbmı? Bizcə yox, yazılmayıb. Fəqət o tarixin yazılması zərurətdir.( Kamil Vəli)

Beləliklə, Mirələmov Hüseynbala öz xalqının keçmişini gözəl bilən, doğma tarixinə aid əsaslı bilgilərə malik ləyaqətli vətəndaş yazıçı olmasını təsdiq etdi.

Mirələmov haqqında çoxsaylı yazılara əmək vermiş prof. N.Şəmsizadənin sözlərilə desək, H.Mirələmov sənətkar mövqeyinin çətinləşdiyi, mürəkkəbləşdiyi bir dövrün aydın, sarsılmaz mövqeyə sahib olan yazıçısıdır. Onu fərqləndirən, bir yazıçı kimi sənətkar mövqeyini möhkəmlədən məhz onun inadkar bir inamla, qətiyyətlə öz yaradıcılıq yolunu sonadək qət etmək niyyəti, saf, təmənnasız istəkləri, amalı, düşüncəsidir. Bunlar yazıçı Mirələmovun həm bu günün, həm də gələcəyin sənətkarı olmasına möhkəm zəmanət verir. Ömrün bərəkətli, verimli dövrünü yaşayan yazıçımıza sənət kəşfləri, yaradıcılıq xoşbəxtliyi arzulayıram.

# İstifadə edilmiş ədəbiyyat

1. Akif Hüseynli. Həyat və sənət həqiqəti, Bakı, 2001

2. Çobanoğlu F. Daşar qəzəbdən göyərir: Müasir Azərbaycan yazıçısı Hüseynbala Mirələmovun "Son arzu" haqqında – Kredo qəzeti, 13 dekabr, 2003

3. Çobanoğlu F. Zəfər yolu həqiqətdən keçir - yazıçı Hüseynbala Mirələmovun "Zəfər yolu" və "Həqiqət" əsərlərinin təqdimat mərasimindən qeydlər - Kredo qəzeti, 17 may, 2003

4. Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri, Bakı, Çinar-çap, 2003

5. Elçin Kamal, Fariz Çobanoğlu. Obrazlar aləmində: Hüseynbala Mirələmovun yaradıcılığı haqqında ədəbi-publisistik düşüncələr, Bakı, Azərbaycan, 2004

6. Əli Mahmud. Dərdimin şəriki (Hüseynbala Mirələmova həsr olunmuş poema), Vektor nəşr evi, Bakı, 2005

7. Əlirza Xələfli. "Əbədi həyat arzusu" (Esse-monoqrafiya), Bakı,

8. Əlirza Xələfli. Sözə doğru, Hüseynbala Mirələmovun həyatı, mühiti və yaradıcılığı ilə bağlı ədəbi qedlər, Bakı, Azərbaycan, 2003.

9. İki ömrün işığı. Bakı, Gənclik nəşriyyatı, 1987

10. Qəzənfər Kazımov. Sənət düşüncələri, Bakı, Kitab Palatası, 1997

11. Hüseynbala Mirələmov. Biblioqrafiya (1961-2007), Bakı, Çinar-Çap, 2008

12. Fariz Çobanoğlu. Həyatın davamı var, yaxud dünyəvi kədərdən keçən yol (H. Mirələmovun hekayələri daxil edilmiş "Qayada çiçək" kitabı haqqında) – "Kredo" 22 noyabr, 2003

13. Fariz Çobanoğlu. Yollar səni yormayıb ki...(H. Mirələmovun müharibə mövzusunda yazdığı hekayələr haqqında) – "Kredo" 29 noyabr, 2003

14. Fariz Çobanoğlu. "Durna yolu"da qana batmış bir tikə çörək H. Mirələmovun müharibə mövzusunda yazdığı hekayələr haqqında) – "Kredo" 6 dekabr, 2003

15. Fariz Çobanoğlu. Daşlar qəzəbdən göyərib (Müasir Azərbaycan yazıçısı H. Mirələmovun "Son arzu" hekayəsi haqqında) – "Kredo" 13 dekabr, 2003

16. Fariz Çobanoğlu, Elçin Kamal. Obrazlar aləmində : Hüseynbala Mirələmovun yaradıcılığı haqqında ədəbi-publisistik düşüncələr, Bakı : Azərbaycan, 2004.

17. Kamil Vəli Nərimanoğlu. Eşqin sözü, Bakı, Nurlar nəşriyatı, 2011

18. Nizami Cəfərov. Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı, Bakı, AzAtaM nəşriyyatı, 2014.

19. Nizami Cəfərov. Tarix və müasir roman – Təhmasib şah romanı, Bakı, Apostrof nəşriyyatı, 2009. s.3-24

20. Təyyar Salamoğlu. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri, Bakı, 2008

21. Yaşar Rzayev. Azərbaycan romanı: siyasət və milli düşüncə, Elm nəşriyyatı, 2010

22. Yavuz Axundlu. Tarix və roman, Bakı, Yazıçı nəşriyyatı, 1988

23. Yavuz Axundlu. Tarixi roman yeni mərhələdə, Bakı, Maarif nəşriyyatı,1998

**Mənbələr:**

24. Minaxanım N.Təkəli. Zirvə qartallarındır (Yazıçı-publisist H.Mirələmovun "Millətin atası"kitabını oxuyarkən) – "Kredo" qəzeti 21 avqust, 2004 (№67-68)

25. Minaxanım N.Təkəli. Tarixə sədaqətlə (H.Mirələmovun “Güllələnmiş heykəllərin fəryadı” tamaşasından sonra - “Kredo” qəzeti 22 may, 2004 (№62-63)

26. Minaxanım N.Təkəli. Zərrə gözəllikləri də qorumalıyıq(H.Mirələmovun “Mənəviyyatın ekologiyası, yaxud iki od arasında” əsərini oxuyarkən) – “Kredo” qəzeti 4 sentyabr, 2004 (№71-72)

27. Minaxanım N.Təkəli. Vicdanın hökmü (Yazıçı-dramaturq H.Mirələmovun eyniadlı pyesinin tamaşası haqqında) – “Qarabağ” qəzeti, 14 dekabr, 2004

28. Minaxanım N.Təkəli. Gəlinlik paltarı – sədaqətin, ülviyyətin simvoludur – “Kredo” qəzeti 14 may, 2005 (№41-42)

29. Minaxanım N.Təkəli. Milli ləyaqətin tərənnümü – “Kredo” qəzeti 11 iyun, 2005(№49-50)

30. Minaxanım N. Təkəli.– Sədaqətin, ülviyyətin simvolu – H.Mirələmovun “Gəlınlık paltarı – Fənayənin sualları” (tərtib edəni: Ə.Xələfli), Bakı, 2006 kitabında” səh. 185-194

31. Minaxanım N.Təkəli. İnsan olmanın şərəfi və möhnəti – “Kredo” qəzeti 24 iyun, 2006(№26-27)

32. Minaxanım N.Təkəli. Yaddaş ağrısı və ya Xocalı faciəsi dərsləri – “Qarabağa aparan yol” qəzeti 14 mart, 2014

33. Minaxanım N.Təkəli. Ədəbi-bədii yaradıcılıqda tarixi-mədəni irsin təbliği: Azərbaycan yazıçısı H. Mirələmovun “Sonuncu Fateh” əsəri – BMU- nin Elmi Əsərləri. İctimai elmlər seriyası, 2017. №1; səh. 48-54

## Kitabın içindəkilər:

Giriş ........ 3
İlk təcrübələr. Həyatın hekayə miqyası ........ 9
İnsan olmanın şərəfi və möhnəti ........ 41
Mənəviyyatın ekologiyası ........ 51
Yazıçının yaradıcılığında Qarabağ ........ 83
Yaddaş ağrısı və ya Xocalı dərsləri ........ 99
Həyatın fəlsəfəsi ........ 108
Siyasi publisistika janrında: Zirvə qartallarındır ........ 117
Sözə gedən yol. Dil-üslub təcrübəsi ........ 129
“Gəlinlik paltarı” təmizlik, paklıq mücəssəməsidir ........ 135
Sədaqətin, ülviyyətin simvolu ........ 154
Ədəbi-bədii yaradıcılıq və tarixi mədəni irsin təbliği ........ 164
Tarixiliyin həllində yazıçının ictimai mövqeyi əsasdır ........ 180
İstifadə edilmiş ədəbiyyat ........ 188

“Elm və təhsil” nəşriyyatının direktoru:
***Professor Nadir MƏMMƏDLİ***

Dizayner: Zahid Məmmədov

Texniki redaktor: Tünzalə Tağıyeva

Çapa imzalanmış: 09.01.2019
Şərti çap vərəqi: *12.* Sifariş: № 7.
Kağız formatı: *60x84 1/16.* Tiraj: *500.*

---

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur
E-mail: *elm.ve.tehsil@mail.ru*
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4